# XİLAS YOLUNUN YOLÇULARI



AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ YANINDA
TƏRCÜMƏ MƏRKƏZİ
BAKI - 2014

**Tərcümə: A.Məsud**

**Redaktor: Z.Sarıtorpaq**

**XİLAS YOLUNUN YOLÇULARI**
Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında
Tərcümə Mərkəzi. Bakı: 2014. – 320 səh.

**Görkəmli yazıçı Afaq Məsudun dilimizə çevirdiyi bu kitabı Azərbaycan oxucusuna ilk dəfə çatdırılan gizli İlahi Həqiqətlər Hücrəsi adlandırmaq olar. Kitaba daxil edilmiş qədim sufi mətnləri, onların fikir və mülahizələri, kəlamları uca Yaradana aparan Müqəddəs Yolun qavranılması baxımından misilsizdir. Çağdaş insanın təsəvvüf, sufi bilgilərinin kamilləşməsinə hesablanmış bu mətnləri İnsan və Yaradan münasibətlərini ehkamlıqdan ruhi bağlılıq müstəvisinə çıxaran ayna da adlandırmaq olar. O-ndan gələnin O-na qayıdışı üzrə Uca Dərgaha aparan İlahi Yolun cizgilərini, konturlarını ruhi təkamüllə ortaya qoyan azman sufilərin bizlərə miras qoyub getdiyi bu mətnlər dini, fəlsəfi, insani baxımdan da əvəzsizdir. İnanırıq ki, mükəmməl təlqinlərlə üzərindən örtüklər götürülən bu sirr xəzinələri ruhi paklığa sələmək, Haqq Yolu Yolçuluğunun ali məqam olduğunu anlatmaq yönündə sizlərə yardımçı olacaq.**

**ISBN 978-9952-8263-2-6**

**© Azərbaycan Tərcümə Mərkəzi,**
**Bakı-2014**

# XİLAS YOLUNUN YOLÇULARI

## ÖN SÖZ

İlk dəfə sufiliyin cazibəsinə hələ bir neçə il bundan əvvəl – insanı ecazkar sirlər aləminə sovuran “Sufizm müsəlman mədəniyyətləri kontekstində” kitabını – alt qatı yeni tutumlu həqiqətlər közərən sehrli mətnləri oxumağa başlayanda düşmüşdüm...

***“Balaca adam siyahıdı[1] və böyük adamın əlamətlərindən biridi”.***

Böyük sufi Əziz əd-din ibn Məhəmməd Nəsəfinin “Zübdət əl Həqayiq” traktatında dediyi bu “böyük adam”ın, cəmiyyətin seçmə adamı olduğunu zənn etsəm də, növbəti cümlələrdə bunun yaşadığımız dünya olduğunu anlamış, bu sərhədsiz fikrin möhtəşəmliyindən heyrətə gəlmişdim. Bu mətnin ardınca gələn sonrakı cümlələri isə, nədənsə, Əziz əd-dinin bizlərə – qələm adamlarına ünvanladığı fövqəladə müraciəti kimi qəbul etmişdim...

***“Dünya” sözünün mənasını biləndən sonra, indi bil ki, sən kiçik adam və kiçik dünyasan. Bütün dünya isə, “böyük adam” və “böyük dünya” adlanır. Dərviş, sən kiçik dünyasan, bütün dünya isə böyük dünyadı. Və sən hər iki dünyanın siyahısı və işarəsisən.***

***Bil ki, böyük dünyada nə varsa, o, kiçik dünyada da var. Özünü dərk et, aşkarda və gizlində olanlara çat ki, böyük dünyanın əvvəlinə və axırına çata biləsən.***

***Bu yoldan savayı, ayrı yol yoxdu.***

***Hər şeyi olduğu kimi görməyə can atan kəs qoy özünü də olduğu kimi görsün”.***

Kitabı oxuduqca, Kainat havalı fəsillərlə, ənginlik sonsuzluqlu fikirlərlə tədricən bu dünyadan üzüldüyümü, izaha gəlməyən sirli cazibələrlə, harasa, geriyə sovrulduğumu hiss edir, ömrüm uzunu gözümün qabağında, burnumun ucunda olan sirli bir aləmə – yeni azadlıqlar qoxuyan divarsız, tavansız, ecazkar boşluqlara – Həqiqi Dünyaya daxil olurdum...

İnsanın kamillik yolu qədim sufilər tərəfindən, onun İlahiyə (Uca Yaradana) can atma, Ona daxil olma yolu kimi baxılır.

---

[1] ***Siyahı*** – burada nüsxə mənasını daşıyır.

Onlar son ucu Yaradanda bitən bu sonsuz səyahətin zirvəsinə çatan yeganə kəsi Məhəmməd peyğəmbərdə görürlər.

Sufilərə görə, bu kamillik özündə üç cəhəti birləşdirir ki, bunların hər üçü Məhəmməd peyğəmbərin simasında öz əksini tapıb.

***“Qanun – mənim dediklərimdi.***

***Yol – əməllərim, gerçəklik – mənim halımdı (Məhəmməd peyğəmbər).”***

Ayrı sözlə desək, qanun – bilik, yol – bu biliyin əmələ keçirilməsi, gerçəklik (reallıq) – insanın iç dünyasıdır.

Qədim sufilər Məhəmməd peyğəmbəri insan kamilliyinin təcəssümü hesab etsələr də, onun ən ali dərəcəyə – Peyğəmbər Möhürü dərəcəsinə ucalmasını, ondan sonra hələ ki qanuni peyğəmbərlərin aşkar olunmamasını təsdiq etsələr də, sufilik yolunun, yəni Böyük Yaradana aparan sonsuz Yolun davam etdirilməsinə ümid yerinin qaldığını da bildirirlər.

Nəsəfiyə görə də, Uca Yaradana aparan kamillik yolunun axırı, sonu yoxdur:

***“Əgər insan min il də yaşaya bilsəydi və bütün o min ili özünüdərklə, zahidlik və zikrlə məşğul olsaydı, o, öz biliyinin və dərk həddinin müqabilində hər gün, hər dəqiqə nə isə dərk edəcək, nə isə anlayacaqdı. O səbəbdən ki, Allahın Biliyinin və Müdrikliyinin sonu, həddi yoxdu.***

***İnsan məhz bu səbəbdən kamilliyin son həddinə yetə bilmir. O, kamilliyin hansı dərəcəsinə çatsa belə, yenə ona verilən qabiliyyətləri müqabilində, Allahın Biliyi və Müdrikliyi ilə müqayisədə tam kamil olmayacaq.***

***Odu ki kamilliyə çatdığını düşünən kəs bu kamilliyin nisbi olduğunu anlamalıdı.***

***Müqəddəs Qanuna görə isə, tam kamillik mövcuddu”.***

***“Son məqsəd – Mənbəyə (Allaha) qayıdışdı. Mənbəyə qayıdan – öz məqsədinə yetəndi.***

***Kəndli taxılı torpağa səpib onu becərir. Taxıl bitməyə başlayır və bar verir, yenidən toxuma dönüb öz əvvəlki vəziyyətini alır. Dairə qapanır.***

***Mövcudluq dairəsinin qapanması – azadlıqdı...”***

***A.MƏSUD***



# ƏZİZ ƏD-DİN İBN MƏHƏMMƏD NƏSƏFİ

## ZÜBDƏT ƏL HƏQAYİQ

***Mərhəmətli və Rəhmli Allahın Adıyla!***

***Allaha, dünyalar Xaqanına eşq, Allah qorxusunu canında gəzdirənlərə mərhəmət diləyi ilə! Onun Məhəmməd peyğəmbərinə, peyğəmbərin müqəddəs, saleh nəslinə şükürlər olsun!***

İndi zəiflər zəifi, dilənçilər qulu Əziz bin Mühəmməd ən Nəsəfi söz deyəcək. O səbəbdən ki, bəzi dərvişlər mən fəqirdən böyük dünya və kiçik dünya barədə müahidə[1] tərtib etməyi, mənbənin (məbdə) nə, qayıdışın (məəd) nə olduğunu, mənbənin hər kəs üçün fərqli, ya bir olduğunu, qayıdışın hər kəs üçün fərqli, ya bir olduğunu izah etməyi, qürubun (nüzül) nə, doğuluşun (oruc) nə olduğunu, qürubun əvvəl, doğuluşun sonra, yoxsa əksinə – doğuluşun əvvəl, qürubun sonra olduğunu izah etməyi xahiş etdilər. Mən də bu müahidəni iki hissəyə ayırdım.

Bu dünyada mənim Allahdan savayı, ayrı bir fərəhim yoxdu. Ona üz tutur, Ona güvənirəm!

---

[1] ***Müahidə*** – elmi əsər

# BİRİNCİ BAB

## (HİSSƏ)

# BÖYÜK DÜNYANIN DƏRKİ BARƏDƏ



Bil ki, Allah səni hər iki dünyada sevindirsin, dünya iki hissədən ibarətdi. Onun birinici hissəsinə – “gizli dünya”, ikinci hissəsinə – “aşkar dünya” deyərlər.

Bu dünyaların hər birinə kəmiyyət və keyfiyyət baxımından müxtəlif adlar verilib: “yaradan dünya” və “buyuran dünya”, “mülk[1]” dünyası və “mələküt[2]” dünyası, “bədənlər dünyası” və “ruhlar dünyası”, “duyğularla anlaşılan dünya” və “şüurla qavranılan dünya”, işıq dünyası və zülmət dünyası...

## *Birinci fəsil*

“Dünya” sözünün mənasını biləndən sonra, bil ki, sən kiçik adam və kiçik dünyasan. Bütün dünya isə “böyük adam” və “böyük dünya” adlanır. Dərviş, sən kiçik dünyasan, bütün dünya isə böyük dünyadır. Və sən hər iki dünyanın siyahısı və işarəsisən.

Bil ki, böyük dünyada nə varsa, kiçik dünyada da var. Özünü dərk et, aşkarda və gizlidə olanlara çat ki, böyük dünyanın əvvəlinə və axırına çata biləsən. Bu yoldan savayı, ayrı yol yoxdu.

Dərviş, hər şeyi olduğu kimi görməyə can atan kəs qoy özünü də olduğu kimi görsün...

## *İkinci fəsil*

Bil ki, kiçik dünyanın əzəl törədəni bir özül olduğu kimi, böyük dünyanın da əzəl törədəni başqa bir özüldü. Böyük

---

[1] ***Mülk*** – maddi ərazi, hisslərlə qavranılan bədənlər dünyası, insanların özlərini realizə etdiyi dünya

[2] ***Mələküt*** – ideal ərazi, qeyri-maddi obyektlər və arxetiplər dünyası

dünyanın əzəl törədəni böyük dünyanın toxumudu (tuxum), kiçik dünyanın əzəl törədəni – kiçik dünyanın toxumudu. Bunu yadında möhkəm saxla ki, hər iki dünyada yaranan və yaranacaq nə varsa, onun toxumunda da var.

Bunları bilәndən sonra, onu da bil ki, böyük dünya da, kiçik dünya da toxumdan yaranıb. Kiçik dünyada mövcud olanlar onun toxumunda mövcud olub, böyük dünyada mövcud olanlar da onun toxumunda mövcud olub.

## *Uca və Müqəddəs Yaradanın böyük dünyanı yaratması barədə*

Bil ki, şəriət tərəfdarları iki mövcudluqdan bəhs edirlər. Bunun biri əzəli (qədim) mövcudluq, digəri ötəri (hədis) mövcudluqdu. Ötəri mövcudluğun əvvəli varsa, əzəli mövcudluğun əvvəli yoxdu.

Bu iki mövcudluq barədə biləndən sonra, bunu da bil ki, əzəli mövcudluğu – Allah, ötəri mövcudluğu – dünya adlandırarlar.

Allah dünya deyil. Dünya da Allah deyil.

Allah dünyaları Yaradandı. Dünya Allahın yaratdığıdı.

Şəriət ardıcıllarına görə, Yaradan dünyanı yaratmaq istəyəndə də, onu məhv eləmək istəyəndə də öz istəyində azaddı.

Bunları biləndən sonra, onu da bil ki, şəriət ardıcıllarına görə, Uca Yaradanın ilk əvvəl yaratdığı bir özül olub ki, ona, “İlkin Ruh” deyərlər.

Mülk və məlaküt dünyalarını yaratmaq istəyəndə Uca Yaradan Öz Nəzərlərini həmin o özülə yönəldib, onu hərəkətə gətirib. Bu hərəkətdən onda (özüldə) olanlar – mahiyyət və qaymaq olanlar üzə qalxıb, bulantı və çöküntü olanlar şəkər çöküntüsütək dibə çöküb.

Həmin o mahiyyət və qaymaq olanlardan Uca Yaradan ruhlar dünyasını, bulanıq çöküntüdən bədənlər dünyasının dərəcələrini yaradıb.

Ruh öz-özlüyündə sadə özüldü. O, bitkilərdə – onların təbiətini, heyvanlarda – onların iradəsini, insanlarda – onların dərəcələri üzrə biliyini hərəkətə gətirir və onu kamilləşdirir.

Əgər bu dərəcə məsələsi aydın olmadısa, bunu izah edim.

Ruh, incə bir özüldü. O, bölünmür, hissələrə ayrılmır. O, Hökm dünyasındandı və özü – Hökmdü.

Bədən isə kobud özüldü. O, bölünə və hissələrə ayrıla bilir.

Uca Yaradan Öz Nəzərini həmin o dumduru özülə (qaymağa) yönəltdi və qaymaq (özül) hərəkətə gəldi. Bu qaymağın qaymağından O, peyğəmbərlərin Möhür Ruhunu yaratdı (xətm). Onun çöküntüsünün qaymağından ulu peyğəmbər [1] ruhunu;

*o çöküntünün qaymağından peyğəmbər-mürsəlat ruhunu* [2]*;*

*o çöküntünün qaymağından qalan peyğəmbərlər ruhunu* [3]*;*

*o çöküntünün qaymağından müqəddəslər ruhunu;*
*o çöküntünün qaymağından müdriklər ruhunu;*
*o çöküntünün qaymağından zahidlər ruhunu;*
*o çöküntünün qaymağından əməlisalehlər ruhunu;*
*o çöküntünün qaymağından möminlər ruhunu;*
*o çöküntünün qaymağından adi insan ruhunu;*
*o çöküntünün qaymağından heyvan ruhunu;*

---

[1] ***Ulu peyğəmbərlər*** – Adəm, Nuh, İbrahim, Musa, Davud, İsa, Məhəmməd
[2] ***Peyğəmbər-mürsəlat*** – müqəddəs yazını insanlara çatdıranlar –Yaqub, Yusif, Əyyub və digərləri
[3] ***Qalan peyğəmbərlər*** – müsəlman ənənəsi tarixində 315 peyğəmbər hesaba alınıb.

*o çöküntünün qaymağından bitki ruhunu;*

*o çöküntünün qaymağından mineralları və digər təbiət ruhlarını yaratdı.*

Hər ruhun dərəcəsi üzrə, Uca Yaradan o dərəcələrin mələklərini də yaratdı və bununla da, mələküt dünyasının quruluşu başa çatdı.

Sonra O (Yaradan), ruhlar dünyasını on üç dərəcəyə – İlkin Ruh daxil olmaqla, on dörd dərəcəyə ayırdı. Ruhlar dünyasının on üç dərəcədə olduğuna sübut – bədənlər dünyasının da ruhlar dünyasına nisbətdə on üç dərəcədə olmasıdı.

Aşkar dünya (zahiri) daxili (batini) dünyanın ünvanı, mülk, mələkütün işarəsidi.

Dərviş, deyilənə görə, mülk – mələkütün əksidi (bənzəri).

Mələkütün əsası isə cəbərütdü[1] ki, mələküt, mülklə bilinəntək, cəbərüt də, mələkütlə bilinsin.

## *Bədən dərəcələri barədə*

Bil ki, Uca Yaradan maddi dünyanı yaradanda, Öz Nəzərini həmin o bulanıq çöküntüyə yönəltdi və çöküntü hərəkətə gəldi. O çöküntünün qaymağından O (Yaradan), Göylər Səltənətini, onun çöküntüsünün qaymağından göyün yeddinci qatını;

*o çöküntünün qaymağından göyün altıncı qatını;*
*o çöküntünün qaymağından göyün beşinci qatını;*
*o çöküntünün qaymağından göyün dördüncü qatını;*
*o çöküntünün qaymağından göyün üçüncü qatını;*
*o çöküntünün qaymağından göyün ikinci qatını;*
*o çöküntünün qaymağından göyün birinci qatını;*

[1] ***Cəbərüt*** – mülk və mələküt dünyasının törəndiyi dünya; hər iki dünyanın ziddiyyətini aradan qaldıran dünya

*o çöküntünün qaymağından od ünsürünü;*
*o çöküntünün qaymağından hava ünsürünü;*
*o çöküntünün qaymağından su ünsürünü;*
*o çöküntünün qaymağından tozu və digər cisimləri yaratdı.*

Bununla mələküt dünyasının sadə bədənlər yaradılışı başa çatdı.

Dərviş, mülk və mələküt dünyasının yaradılmasında bir sual da meydana çıxır: bunlardan ilkin yaradılanı hansıdı? Ruhlar dünyası əvvəl yaradılıb, bədənlər dünyası sonra, yoxsa əvvəl bədənlər dünyası yaradılıb, ruhlar dünyası sonra? Doğulma ilkin olub yoxsa qürub? Qürub ilkin olub, yoxsa, doğulma? Burda həqiqəti əldə edənəcən çox düşünüb-daşınmaq gərəkdi.

Bil ki, ruh dərəcələri ilə bədən dərəcələri bir-birində öz məkanını tapıb. Göylər Səltənəti peyğəmbərlərin Möhür Ruhunun məkanıdı, Göylər Taxtı – ulu peyğəmbərlər ruhunun iqamətgahı və hücrəsidi.

*Yeddinci göy – peyğəmbər-mürsəlatlar ruhunun iqamətgahı və hücrəsidi.*

*Altıncı göy – digər peyğəmbərlər ruhunun iqamətgahı və hücrəsidi.*

*Beşinci göy – müqəddəslər ruhunun iqamətgahı və hücrəsidi.*

*Dördüncü göy – müdriklər ruhunun iqamətgahı və hücrəsidi.*

*Üçüncü göy – zahidlər ruhunun iqamətgahı və hücrəsidi.*

*İkinci göy – əməlisalehlər ruhunun iqamətgahı və hücrəsidi.*

*Birinci göy – möminlərin iqamətgahı və hücrəsidi.*

Göyün doqquz dərəcəsinin izahı bununla başa çatır. Dörd dərəcə qalır: qalan insanların, heyvanların, bitkilərin və digər təbiət ünsürlərinin ruhları.

Bunlar ali dünyadan olmayanlardı. Onlar alçaq dünyadan da deyillər.

Kamillik yolu üzrə pillə-pillə yüksəlib, öz əzəli məkanına yetməyin yolu – özünü və Allahını dərk etməkdi. Öz məkanına yetdikcə, hər bir kəsin öz dərəcəsi üzrə doğulması[1] başa çatar və səfər dövriyyəsi qapanar.

Dövriyyə qapanandan sonra yüksəliş baş tutmaz. Bu yüksəliş sonradan da baş tutmaz. Yolda ləngimək olar, lakin əzəli məkanından yuxarı qalxmaq mümkün olmaz.

Yolda ləngiməyə izn verilməsəydi, müqəddəs Yazının və peyğəmbərin izahları faydasız olardı.

Ruhlar və bədənlər dünyası yaradılandan sonra, Uca Yaradan bu dünyaların üç övladını – mineralları, bitkiləri və heyvanları yaratdı.

Ən axırda isə O, Adəmi yaratdı.

Adəm və Həvvadan kifayət qədər yazıldığından, bu müahidədə onların üstündən ötəcəyik.

Adəmin övladları sonradan yarandı və bu günəcən də yaranmaqda davam edir. Onların hər biri tədricən öz kamilliyini əldə edir və hər biri dövriyyəsi qapananacan öz əzəli məkanına can atır.

Bu isə o deməkdi ki, hər bir kəsin kamilliyi onun öz əzəli məkanına aparan Yolu düzgün getməsindən ötrü hansı dərəcədə çalışmağından və buna hansı dərəcədə nail olmağından asılıdı.

Dərviş, bil ki, Yolda dayanmaq olar. Lakin əzəli məkanından yuxarı qalxmaq baş tutan məsələ deyil.

---

[1] ***Doğulma*** – yüksəlmə, kamilləşmə

Bil ki, bu dünyaya gələnlər ruhlar dünyasından gəlir. Odu ki, hər kəs öz əməllərində də, nitqində də olduğu kimi qalır.

Hər bir kəs onun üçün əvvəlcədən müəyyən edilmiş ölçüyə malikdi və bu ölçünü aşmaq mümkün olmaz. Bu o deməkdi ki, bu dünyaya gələn hər bir ruhun məlum çərçivəsi, bədəndə qalacağı müddətin, alacağı nəfəsin, yeyəcəyi qidanın, deyəcəyi sözün, anlayacağı həqiqətin və ona aid olan nələrin və nələrin də öz ölçüsü və mövcud məkanı var.

Bil ki, Uca Yaradanın xəbəri, izni olmadan bir ağacda bir yarpaq tərpənməz, bir beyindən bir fikir ötməz...

## *Üçüncü fəsil*

Bil ki, bu on dörd dərəcə yaradılandı, qazanılan yox və Böyük Yaradanın yaratdığını dəyişmək mümkün olmaz.

Hənifənin başlıca mənası da budu. Allahın təbiəti budu.

Yer üzünə gələn bütün insanlar həmin bu təbiət üzrə yaradılıb, ruhlar dərəcəsi də budu. Əgər bu dərəcələr qazanılan olsaydı, onda hər bir kəs kamillik qazandıqca, öz məkanını aşıb (ötüb) daha yüksək məkana çatardı; müqəddəslər kamilləşib qalan peyğəmbərlər məkanına ucalar, qalan peyğəmbərlər ucalıb peyğəmbər-rəsulların məkanına çatardılar.

Bu hal digər məkanlarda da baş verərdi...

Amma bu dərəcələr qazanılan deyil, yaradıldığı halda sədəqə veriləndi. Odu ki, Yol əsnasında dayanmaq olar, lakin öz əzəli məkanını aşmaq mümkün olmaz.

Dərviş, sən ruh dərəcələri barədə bildin. Bildin ki, onlar necə yaradılıbsa, o cür də mövcud olmaqlarına davam edirlər və mənsub olduğun məkandan yuxarı qalxmaq başa gələn iş deyil.

Bunu da bil ki, bu dünyaya gələn yeganə yol ruhlar dünyasından gəlir. Gələnlər də öz nitqlərində, əməllərində

dəyişməz qalırlar. Hər bir kəsin öz məlum ölçüsü var ki, o ölçünü aşmaq mümkün olmaz. Bu o deməkdi ki, bu dünyaya gəlib çıxan hər bir ruhun bədəndə qalacağı vaxtın, alacağı nəfəsin, yeyəcəyi qidanın, deyəcəyi sözün, öyrənib əxz edəcəyinin və ümumiyyətlə, ona aid ola biləcək hər bir şeyin onun üçün əvvəlcədən ölçülüb-biçilmiş sərhədləri, dairə qapananda dönüb-qayıdacağı məlum məkanı var.

Bil ki, Haqqın niyyəti və istəyi olmadan bircə ağacda bircə yarpaq tərpənməz və bir beyindən bircə fikir ötməz.

Dərviş, hərçənd şəriət ardıcılları insanın öz hərəkətlərində müstəqil olduğunu birbaşa deməsələr də, mövcud olan hər bir şeyin, Haqqın istəyi və niyyətinə uyğun mövcud olduğu və Haqqın niyyətində, istəyində olmayan nəyinsə yaranmasının və var olmasının mümkün olmadığını deyirlər, amma bunun özü də qaranlıqdı. Bundan bu qənaətə gəlmək olar ki, insanlar öz sözlərində və əməllərində özbaşına deyillər.

Bu sayaq qənaətlər ona əsaslanır ki, aşkarda olan (məlum), anlaşılana (ilm) tabedi. Yaxud əksinə, anlaşılan aşkar olunana tabedi.

Şəriət ardıcıllarının qənaətinə görə, aşkar olunan anlaşılana tabedi. Burdan da belə çıxır ki, hər bir şey üçün məlum ölçülər mövcuddu və bu ölçülərin həddini aşmaq mümkün olmaz.

Uca Yaradanın əvvəlcədən düşünüb ərsəyə gətirdiyi, yaradıldığı halında da qalmalıdı.

Müdriklik ardıcıllarının qənaətinə görə isə anlaşılan aşkar olunana tabedi. Bundan o nəticə hasil olur ki, insanların nitqinə və əməlinə müəyyən olunmuş məlum ölçü yoxdu, insanın bilik və var qazanması onun bu sahələrdə səy və çalışmaları ilə bağlıdı, insan nə qədər çox çalışarsa, bir o qədər çox bilik və var-dövlət əldə edə bilər; xeyir,

yaxud şər əməl sahibi olmaq, az, yaxud çox yemək – onun öz iradəsindən asılıdı, o nə qədər səy göstərərsə, bir o qədər əldə edər və sair və ilaxır.

O biri məsələlərdə də vəziyyət bu cürdü. Sözü çox uzatdıq. Məqsədimizdən yayındıq...

## *Dördüncü fəsil*

Bil ki, inam məkanından gələn insanın ruhu birinci göyə qayıdacaq. Əməlisalehlər məkanından gələn insanın ruhu ikinci göyə qayıdacaq.

Bu, o biri məkanlarla da beləcə baş verəcək. Bu o deməkdi ki, hər bir sakin öz əvvəlki məkanına dönəcək. Və ola bilməz ki, kimsə ruhu bədənindən ayrılandan sonra öz məkanını ötüb, daha yüksək məkanlara çatsın.

Qalan doqquz dərəcə də bu minvalla. Lakin o kəs ki öz inam məkanına bu dünyada ikən qərar tutduğu bədənində çatmayacaq, o, dərəcəsindən asılı olmadan, öz məkanına dönə bilməyəcək.

Dərviş, bil ki, inam məkanına çatmayanın, peyğəmbərləri qəbul etməyənin, müqəddəslərə dəyər verməyənin, insan simasında olub insan xüsusiyyətlərinə və mənəviyyatına malik olmayanların, heyvanlar qismindən olub, heyvanlardan da aşağıda olanların Ali dünyaya yolu bağlıdı. O səbəbdən ki, Ali dünya – bakirələr hücrəsidi, dinclik məkanıdı, mələklərin və ləkəsizlərin (əhl-e təharat) ərazisidi. Ora (Ali dünyaya) biliksiz və inamsız çatmaq mümkün olmaz.

Dərviş, əgər sən əzəli özül olan İlkin ruhu Adəm adlandırsan, haqlı olarsan. O səbəbdən ki, bütün ruhlar ta əzəldən Onda (Adəmdə) olub.

***"Onları ondan çıxardılar və dedilər: "Məgər sizin Allahınız Mən deyiləmmi?"*** [1]

---

[1] ***Quran*** – 7:171

Bu o deməkdi ki, o kəs ki buna “hə” dedi, o ucaldı, o kəs ki “hə” demədi, o alçaldı. Lakin “hə” deyənlər heç bir günaha batmasalar da, öz məkanından ucalara qalxmadılar. “Hə” deməyənlər isə öz inam məkanlarına çata bilmədilər.

İlkin özülü Adəm adlandırandan sonra, ondan ayrılan çöküntünün Həvva olduğunu desək, qələt eləmərik.

Bu Adəmlə Həvva Cənnətdə yaşayırdılar. Lakin elə ki onlar ağaca yaxınlaşdılar, Cənnətdən qovuldular.

Buradan belə bir nəticə hasil olur ki, cənnətlərin də, ağacların da dərəcələri var. Fani Cənnət var, əbədi Cənnət var...

Şəriət ardıcıllarına görə, böyük dünyada olan fərqlər məhz belə yaradılıb. Doğulma və qürub məsələsi də bu cür baş verir.

Lakin təsəvvüf[1] ardıcllarına görə, bundan savayı da doğulmalar və qürublar var...

## *Beşinci fəsil*

Dərviş, doğulma və qürub barədə biləndən sonra, onu da bil ki, peyğəmbərlər və müqəddəslər cismani ölümlərinəcən ayrı bir doğulmayla doğularlar. O səbəbdən ki, onlar cismani ölümlərinəcən, sağ ikən ölərlər...

Və başqalarının öləndən sonra görəcəklərini onlar cismani ölümlərinəcən görərlər. Ölümdən sonrakı halları onlara sağ ikən aşkar olar və onlar gerçəkliyi anlamaq (ilm ül-yəqin) dərəcəsindən gerçəkliyin şahidi (əyn-ül yəqin) dərəcəsinə ucalarlar.

Bədən insanın örtüyü olduğu səbəbindən, ruh bədəndən çıxarkən o (ruh), örtüksüz qalar.

Peyğəmbərlərə gəlincə isə, onlar iki cür doğularlar: bədənin iştirakı olmadan və bədənlə ruhun iştirakıyla.

[1] ***Təsəvvüf*** – sufilik

Bunu biləndən sonra, onu da bil ki, bizim məqsədimiz nə cahillərin bu dünyaya doğulmasından söz açmaq, nə də peyğəmbər doğulmasının nə demək olduğunu izah etməkdi. Bu barədə (peyğəmbərlərin doğulması barədə) kifayət qədər bilgi var.

Bizim məqsədimiz yolçuları zahidliyə həvəsləndirmək və qorumaqdı ki, yolda səhv buraxmasınlar.

Dərviş, gələcək həyatının sənə ölümünə qədər əyan olması – sərhədsiz bir işıqdı! İnsanlar bu barədə heç nə bilmirlər. Əgər bilsəydilər, gecə-gündüz çalışardılar ki, o işığı görsünlər, qayıdacaqları məkanı tanısınlar.

Yolçular üç məqama xüsusi əhəmiyyət verməlidirlər. Bunun birincisi – Yol (suluk), ikincisi – Cazibə (cəzb), üçüncüsü – Doğulmadır (oruc). Yalnız bunların hər üçünə sahib olan kəs Şeyx, Başçı olmağa qadirdi.

Sözü uzatmayaq ki, məqsədimizdən yayınmayaq...

Təsəvvüf ardıcıllarının bu doğulmada məqsədi odu ki, yolçunun ruhu bədənindən o sağ-salamat, gümrah olduğu vəziyyətdə çıxsın və ölümündən sonra açılacaq halı ona ölümünə qədər əyan olsun ki, o Cəhənnəmi də, Cənnəti də görüb tanıya bilsin, Cəhənnəm və Cənnət sakinlərinin halından xəbər tutsun. Və bununla həqiqi bilik dərəcəsindən həqiqi şahidlik dərəcəsinə çatsın. Yəni nəzəri şəkildə bildiklərini əyani surətdə görsün.

Bu hal baş tutduqca bir qismin ruhu birinci göyə, digər qismin ruhu ikinci göyə qalxar, Peyğəmbərlər Möhürü qatınacan hər ruh öz əvvəlki məkanına qovuşar. Və bircə ruh öz əvvəlki məkanını ötüb, yuxarıdakına çata bilməz.

Bədəninə dönərkən hər kəsin (ruhun) yaddaşı dönüb qayıtdığı məkanda gördüyünü və anladığını saxlayar. Bir ruh orda (göylərdə) bir gün, digəri, daha uzun müddət qalar və yenidən bədəninə qayıdar.

Bizim Şeyx deyirdi: “Mənim ruhum orda on üç gün qaldı, sonra bədənimə döndü. Bədənim bütün o müddəti hərəkətsiz oldu, ruhum dönəndə isə oyandı. Bədənimin hərəkətsiz qaldığı zamanın müddəti mənə məlum olmadı. Bədənimin yanında olanların dediyinə görə, bu hal on üç gün çəkib. Deyilənə görə, bədənim düz on üç gün ölü bədəni kimi hərəkətsiz, cansız qalıb”.

O biri hörmətli mömin danışırdı ki, onun ruhu orda (göylərdə) on gün olub, sonradan bədəninə dönüb və o on gündə orda gördükləri yadında qalıb.

Odu ki, hər ruh bu dünyada ikən öz məkanına çatanacan doğula bilir.

Bir də deyirlər təkcə iki ruh – sonuncu peyğəmbərin və sonuncu müqəddəsin ruhu Göylər Taxtınacan ucalmağa qadirdi.

Bu adamların Tayfa müqəddəsliyi – Həzrət Əlinin dərəcəsi hesab edilər və deyirlər, Həzrət Əlinin dərəcəsi qalan bütün dərəcələrdən üstündü. Bu mülahizələrin izahını və təhlilini biz “Kəşf ül-Həqayiq”də vermişik. Göndərilənlərin və müqəddəsliyin sirləri orda açılıb. Maraqlananlar bunu o yazıda axtara bilərlər. Bu sirr “nun” hərfinin deyilişi ilə açılır...

Özlərini “şəriət ardıcılları” adlandıranların qənaəti belədi.



# II ƏSİL (MƏNBƏ)

## *Birinci fəsil*

### *Müdriklik yolu ardıcıllarının böyük dünya və böyük dünyanın yaranması barədə dedikləri*

Bil ki, müdriklik ardıcılları da iki mövcudluğun (mədud) varlığını təsdiq edirlər. Onlara görə də, bunun biri – əbədi, digəri – ötəri mövcudluqdu.

Onlar əbədi olanın mahiyyətini əsası etibarı ilə zəruri, ötəri olanın mahiyyətini əsası etibarı ilə mümkün mövcudluq adlandırırlar.

"Mahiyyət" dediyimiz əsasa gəlincə, bunun özü də yalnız iki halda ola bilər: mövcudluğunun qaynağı özündən olan, yaxud mövcudluğunun qaynağı özündən olmayan. Əgər mahiyyətinin mövcudluq qaynağı onun özündədisə, bu, əsası etibarı ilə "zəruri mövcudluq" adlanar. Yox əgər mövcudluğunun qaynağı onun özündən deyilsə, bu, əsası etibarı ilə "mümkün mövcudluq" adlanır.

Əsası etibarı ilə zəruri mövcudluq – dünyanı Yaradan Allahdı.

Əsası etibarı ilə mümkün mövcudluq – Allahın Yaratdığı dünyadı.

Əsası etibarı ilə zəruri mövcudluq şərəfli dəlillərlə sübuta yetirilir. Onun layiqsiz dəlil-sübuta ehtiyacı yoxdu.

Müdriklik ardıcıllarına görə zəruri mövcudluq – əsası etibarı ilə, səbəbin özüdü. Şüa Günəşdən, nəticə səbəbdən yarandığı kimi, dünya da onun (səbəbin) əsasından yaradılıb.

Deməli, nə qədər ki Günəş kürəsi mövcuddu, onun parlaqlığı da mövcuddu. Nə qədər ki səbəbin mövcudluğu var, nəticə də mövcuddu.

Bunları biləndən sonra, onu da bil ki, müdriklik ardıcıllarına görə, Uca və Müqəddəs Yaradanın yaratdığı ilk mövcudluq özül olub. İlkin Şüur (əql-e əvvəl) deyilən də həmin o özüldü. Bu (Şüur), sadə özüldü. Bu o deməkdi ki, o (özül), bütöv və vahiddi, bölünməyə, hissələrə parçalanmağa qadir deyil.

Müdriklik yolunun ardıcıllarına görə, bu deyilənlərin mənası "var olandan yalnız vahid bütöv törənər" deməkdi. Deməli, Uca və Müqəddəs Yaradanın Özü həqiqi Vahid (cəm) olduğu səbəbindən, Ondan törənən ilkin özül də vahiddi. İlkin Şüur deyilən də budu.

Həmin bu həqiqi vahid olan İlkin Şüurda, Onun nəzərində səbəbin və vasitəçilik qabiliyyətinin nəticəsi kimi, keyfiyyət və kəmiyyət müxtəliflikləri yaranıb. Ayrı sözlə desək, səbəb və nəticə (məlum) arasında orta hədd yaradılıb ki, bunun nəticəsində İlkin Şüur üç keyfiyyətə malik olub. Bu keyfiyyətlərin hər biri də İlkin Şüurda olan can (ruh), şüur və göy dərəcələrinə aid edilir.

Bu minvalla İlkin Şüurda doqquz şüur, doqquz can (ruh) və doqquz göy dərəcələri yarandı. Bundan sonra Ay Göyünün altında od ünsürü və od təbiəti, hava ünsürü və hava təbiəti, su ünsürü və su təbiəti, kül ünsürü və kül təbiəti yarandı. Mahiyyət etibarı ilə bunlar atalar və analardı. Sonra bu ata və analardan üç övlad yarandı: minerallar, bitkilər və heyvanlar. Bütün bunlardan sonra insan yarandı, o (insan), qeyri-səlis şüuru (əql-e məfhum) İlkin Şüurdan qazandı və müəyyən kamillik əldə etdi.

Sonradan yaradılan hər bir şey isə başlanğıcda mövcud idi.

Beləliklə, dairə qapandı, öz başlanğıcına çatan hərəkət sona yetdi.

Deməli, şüur həm əvvəl (məbdə), həm də axırdı (məəd). Yaranma baxımından o – mənbə, qayıdış baxımından – axırdı.

Dərviş, bil ki, “axır” o deməkdi ki, orda olmusan və yenidən ora qayıdırsan.

Dərviş, bil ki, İlkin Şüur – Qələm[1] Allahın elçisidi.

Bu səbəbdən Yaradılmışların səbəbi və əsası Adəmdi.

O, Allahın keyfiyyətləri və əlamətləri ilə bəzədilib və məhz bu səbəbdən deyilir: “Uca Yaradan insanı öz surətində Yaratdı”.

Müdriklik yolunun ardıcıllarına görə, Uca və Müqəddəs Yaradandan İlkin Şüurdan savayı heç nə yaranmayıb. Qalan bütün yarananlar İlkin Şüurdan yaranıb.

İlkin Şüur – Allahın Yaratdığı dünyadı. Qalan nə varsa, İlkin Şüurun yaratdığı dünyadı.

İlkin Şüur – Uca Yaradanın nəticəsidi. Qalan hər şey İlkin Şüurun nəticəsidi.

İlkin Şüurun müəllimi – Uca Yaradandı. Qalan hər şeyin müəllimi İlkin Şüurdu.

Şüurlar və digər canlar Uca, Müqəddəs Yaradandan zövq (feyz) ala bilməzlər. Bu zövqü Uca, Müqəddəs Yaradandan yalnız İlkin Şüur alacaq və o birilərə, öz yaratdıqlarına ötürəcək.

Hər şüur zövqü özündən üstün şüurdan alacaq və özündən aşağıdakılara ötürəcək. Bu minvalla onların hər biri Uca Tanrıdan Olan Bəxşeyişə sahib olacaq. Onu (bəxşeyişi) birindən alıb, o birilərə ötürəcək. Alacaq və verəcək.

Onu da bil ki, zəruri mövcudluq (Yaradan) yalnız verəndi, O heç nə almaz.

---

[1] ***Qələm*** – burda qamış qələm (orta əsrlərdə Şərqdə yazı aləti); Quranın yazıldığı qələm. İlkin intellektin (əql-e əvvəl), yaradıcı intellektin (əql-e fəal), kitab mənbəyinin (üml-əl kitab) təcəssümü

O səbəbdən ki, özündən yuxarıda olanı yoxdu, mahiyyəti etibarı ilə o, duru və  müqəddəsdi, bilikli və müdrikdi.

## *İkinci fəsil*

Bil ki, İlkin Şüur vahid özüldü. Lakin bu özül kəmiyyət və keyfiyyət baxımından müxtəlif adlarla adlandırılır.

*Onu (İlkin Şüuru) hər şeyi anlayan qüvvə kimi görənlər o səbəbdən "şüur" adlandırarlar ki, O istədiyinə nail olandı.*

*Onu diri olan və dirildən qüvvə görənlər o səbəbdən "ruh" adlandırarlar ki o diri olan və dirildəndi.*

*Onu aşkar edən qüvvə görənlər o səbəbdən "şüa" adlandırarlar ki o görən və göstərəndi.*

*Onu  qəlb duyğularının rəssamı görənlər isə "Qələm" aldandırdılar.*

*Onu  bəşəriyyətin bilgi səbəbi görənlər Cəbrayıl adlandırdılar.*

*Onu bəşəriyyətin qidası görənlər Mikayıl aldandırdılar.*

*Onu bəşəriyyətin yaranma səbəbi görənlər İsrafil aldandırdılar.*

*Onu hər şeyin mahiyyətini bilən, bilib həyata keçirən görənlər isə Əzrayıl adlandırdılar.*

Kimsə bu özülü "Allahın Evi", "Əbədi Məkan", "Müqəddəs Yuva", "Əzəli Yuva", "Uzaq Məscid", "Adəm", "Mələklər şahlığı", "Mötəbər Taxt" adlandırarsa da, səhv eləməz.

Sözü uzatmayaq ki, məqsədimizdən yayınmayaq.

Bunu da bil ki, Ali Dünyadan olan şüurlar, ruhlar nəcib və incə, bilikli və safqəlbli olarlar.

Onların hər biri İlkin Şüura öz pillə dərəcəsi üzrə yüksəkdə olduqca, daha yaxın olar; bir o qədər də nəcib və incə olar, bir o qədər də bilikli və saf olar.

Göylər də belədi. Onların ən ucası – Göylər Göyünə yaxın olanı ən nəcibi və incəsidi; qürub çağı Özəyə yaxın olanlar nəcib və incə olantək.

## *Üçüncü fəsil*

Bil ki, şəriət ardıcılları insanda olan şəxsi və ümumi olanı dərk edən, özünü və Yaradanı tanıyan məfhumu (həqiqət) “insan ruhu” adlandırırlar.

Müdriklik yolunun ardıcılları isə bunu “can” adlandırırlar.

Bunu biləndən sonra onu da bil ki, şəriət ardıcılları insan ruhlarının, birinci əsildə deyildiyi kimi, həqiqətən, bədənlərə qədər mövcud olduğunu təsdiq edirlər.

Müdriklik yolunun ardıcıllarına görə isə, insan canları gerçəklikdə, bədənlərəcən mövcud olmurlar və onların gerçək mövcudluğu mümkün deyil.

Əslinə qalanda isə bu canlar, hələ bədənlər yaradılmazdan əvvəl öz-özlüyündə, gizlidə mövcud olublar.

Aşkar yoxluq mövcud ola bilmədiyi kimi, aşkar mövcudluq da yoxluğa qərq ola bilməz. Bu yaranmanın və yoxolmanın məntiqi – gizlidən aşkara çıxma və aşkardan, yenidən gizliyə qayıtmadı. Ayrı sözlə desək, vahidlikdən cəmliyə, cəmlikdən vahidliyə çevrilmədi.

Bu barədə dedik ki, dünyada nə varsa – var olanlar və olacaqlar, bir sözlə, hər şey İlkin Şüurda mövcud olub. Demək, bütün şüurlar və canlar gizli şəkildə İlkin Şüurda mövcud olub və hər biri zaman-zaman, məqamı yetişdikcə aşkara çıxıb.

Dərviş, bu mülahizə də var ki, alçaq dünyanın canlarının və şüurlarının qaynağı – onuncu şüur – Ay Göyünün şüurudu.

Onun adı “Fəal” (fə’al) şüurdu. Alçaq dünyanı bu şüur idarə edər, ona (alçaq dünyaya) görünən quruluşlar (vahib əs-süvar) verər.

Bir qismin qənaətinə görə isə, Yer dünyası canlarının və şüurların qaynağı – Ali dünyadan olan həmin o on şüurdu. İnsanlar arasında olan böyük fərqlərin səbəbi də məhz budu.

Bil ki, Ay Göyünün canından çıxan can, heç bir vaxt Günəş Göyünün canından çıxan canla bərabər olmaz. İnsanlar arasında olan fərqlər burdan yaranır. Başqa sözlə desək, bu fərqlər hər bir şeyin baş aldığı mənbədən yaranır; həmçinin dörd zamanın (əzmin-e ərbaa) xüsusi hərəkətindən (xasiyyət) asılı olaraq baş verir.

Xoşbəxtliklə bədbəxtlik, dərrakə və kütlük, kasıblıq və dövlətlilik, yüksəklik və alçaqlıq, həyatın uzun, yaxud qısa olması və bu kimi, hər bir şey həmin bu dörd zamanın xüsusi hərəkəti daxilindədi.

Dərviş, bunu da bil ki, peyğəmbərlər, müqəddəslər və müdriklər zamanın və məkanın hər bir şeydə, xüsusən insana dair məsələlərdə böyük gücə və təsir qüvvəsinə malik olduğunu deyirlər...

## *Dördüncü fəsil*

Şəriət yolu ardıcıllarına görə, göylər və ulduzlar cansızdı. Onların iradəsi, yaşamaq, anlamaq, eşitmək, görmək qabiliyyətləri yoxdu. Hərəkətləri dağınıqdı və bu səbəbdən dünyaya öz iradələri ilə yox, xasiyyətləri ilə təsir edirlər.

Müdriklik yolunun ardıcıllarına görə isə, göylər və ulduzlar bu dünyaya həm iradələri, həm də xasiyyətləri ilə təsir edirlər.

Bunları biləndən sonra onu da bil ki, şüurların, ruhların, göylərin və ulduzların bu yer dünyasına böyük təsiri var və bu dünyanın (yerin) bütün işləri Ali dünyayla möhkəm bağlıdı.

Toxumu becərən onu becərir. Özü səpir, özü də üyüdür.

Əbədi hərəkətdə olan hərlənir, o toxumu üyüdən, onu üyüdür. Toxumdan un düzəldən dəyirman budu. Özü əkir, özü becərir, özü həyat verir, özü də onu (həyatı) alır.

Var-dövləti də, vəzifəni də... verən də, alan da Odu. Xoşbəxtliyin də, bədbəxtliyin də səbəbi Odu. Öldürmək də, Diriltmək də Onun İşidi. Haqqın Hökmü (Qədər) deyilən də həmin bu daim hərəkətdə olan Dəyirmandı.

Dərviş, sən hər bir şeyin Haqqın Hökmü olduğu barədə eşidib agah oldun. Amma bu öncəgörmənin (bəsirət) nə olduğundan xəbərsiz qaldın...

Bil ki, Allahın Əmri (Hökm) bir şeydi, Onun Yazısı (Qəza) ayrı bir şey. Onun (Allahın) Niyyəti (Düşündüyü) isə tamam ayrı bir şeydi.

Bu adlar eyni mənanı daşımasa da, onların hər biri müxtəlif adlarla adlandırılanların mahiyyətində olandı.

Bil: Onun (Allahın) Biliyi – Onun əbədi olan Hökmüdü (Əmri).

Biliyindən Yaratdığı – Yazısıdı.

Yaratdıqlarının dövriyyəsi – Onun Niyyəti – bu dünyada törətdikləridi.

Beləliklə, hər şey Allahın Hökmü üzrə baş verər.

Deyilənlər sənə aydın olmadısa, ayrı cür izah edim.

Allahın Biliyi – Onun Hökmüdü. Yaradılmışların səbəbi – Onun Yazısıdı. Səbəblərin nəticəsi – Onun Niyyətidi.

Bu o deməkdi ki, bu dünyada mövcud olan səbəblər cəm halda Onun Yazısının mahiyyətidi. O səbəblərin həyata keçirilməsi Onun Niyyətidi. Və bil ki, bu dünyada Onun Niyyətindən kənarda olan nə isə baş tutmaz.

Beləliklə, burdan hasil olunanı odu ki, bu dünyada olanların və baş verənlərin hamısı – Yaradanın Niyyətidi.

Niyyətin mənasını bilәndən sonra, bunu da bil ki, əgər kimsə desə ki, Allahın Niyyətində Olanı dəyişmək olar, bu doğrudu. Və əgər desələr ki, Niyyətdə Olanı dəyişmək olmaz, bu da doğrudu.

O səbəbdən ki, Niyyəti dəyişmək mümkün olmaz. Amma bunu edə bilənlər var...

Bil ki, bunu edə bilənlər öz elədiklərini Niyyətdə Olanın qaydaları üzrə edərlər. Düşünüləni yalnız düşünülənlə dəyişmək mümkün olar.

Misal üçün, bir adam lazım olan qədərindən artıq bal yeyib. Bundan onun ürəyində elə bir qızdırma yaranıb ki, o titrətməyə başlayıb və belə bir təhlükə yaranıb ki, o ölə bilər. Bu halda loğman ona bədəndə yaranmış artıq istiliyi sovuşdurmaq məqsədi ilə dərman verir. Titrətmə kəsilir və xəstə ölmür.

Burda bu titrətmənin Yaradanın Niyyətində Olan olduğu, həmin bu Niyyəti, niyyətlə də dəyişə bilməyin mümkün olduğu qənaətinə gələ bilirik. Bu da var ki, titrətməni kəsməyin əlacını bildiyi səbəbindən, xəstəliyi aradan götürüb xəstəni ölümdən qurtaran loğmanın həmin məqam yaxınlıqda olması, xəstəni sağaltmaqdan ötrü düşünüb-daşınıb tədbir görməsi vacibdi. Əks halda xəstəliyi sağaltmaq, xəstəni ölümün cəngindən qurtarmaq baş tutmayacaq.

Bil ki, Göylər və Günəş də belə bir təsir qüvvəsinə malikdi.

Tutaq ki yay gəlir və havalar həddən ziyadə isinir. Əlbəttə ki, bu, Niyyətdə Olandı. Və əgər istidən qorunmaq üçün sərdabə düzəldilməsə, o sərdabənin içi sərin suyla doldurulmasa, bu vəziyyəti dəyişmək mümkün olmayacaq. Yaxud yayın ardınca qış gələcək, havalar soyuyacaq. Bu soyuq da Niyyətdə Olandı. Və əgər soyuqdan qorunmaqdan ötrü ev qurulmasa, içəridə odun yandırılmasa, bunu da dəyişmək mümkün olmayacaq. Aclıq, vəba, kütləvi xəstəliklər də bu qaydada... Bu sayaq hallarda nəyəsə, necəsə təsir eləmək olur. Ümumən isə, Niyyətdə Olan nəyisə dəyişmək baş tutan iş deyil.

Dərviş, sənin elədiklərinə “tədbir” deyərlər. Allahın Elədiyi isə “tale” (təqdir) adlanar. Və dərinə getsən, görərsən ki, tədbir də, tale də mahiyyət etibarı ilə eyni şeydi. O da, o biri də Haqqın Niyyətində Olandı.

Niyyəti niyyətlə də dəyişmək olar. Və kim ki, Niyyətdə Olana tuş gəlir, o kəs üçün müdriklərin də, kamillərin də tədbirləri bir məna kəsb etməyəcək, qadağa olunanlardan qaçmaq baş tutmayacaq, məsləhətlər fayda verməyəcək.

Bütün bu məsələlər əslində kifayət qədər aydındı. Aydın olduğu səbəbindən də müdrik olan kəslər bunun üzərində dayanmalıdılar.

Dərviş, bil ki, fikirlər və tədbirlər də hər biri öz təsir qüvvəsinə malikdi. Lakin insan arzuları və səyləri bu qüvvəyə malik deyil.

Bir çox müdriklər, əməlisalehlər nəsil artıranda öz övladlarını özlərinə oxşatmağa səy göstərərlər. Eyni qaydada, müğənnilər və nağılçılar da nəsil artıranda övladlarını özlərinə oxşatmağa çalışarlar. Lakin övladlar onların istədiyi olmazlar.

Burdan aydın olur ki, insan arzularının və səylərinin təsir qüvvəsi yoxdu. Əgər insan arzularının və səylərinin təsir qüvvəsi olsaydı, onda bu dünyada zəif və kasıb adam olmazdı, hamı dövlət və qüdrət sahibi olardı. Amma yox!

Əgər görülən işlər ali niyyətlə görülərsə, insan əməli də təsir qüvvəsinə malik olar. Ali niyyət isə, əmələ keçirilməzsə, əhəmiyyət kəsb etməz. O yalançı şeyxlərin sözüdü ki, guya hansısa əməllə kimisə dərdə saldılar, yaxud öldürdülər. Bu yalandı.

Dərviş, peyğəmbərlər də, müqəddəslər də, müdriklər də bir çox şeyləri arzu etməyiblər, amma onlar olub. Bir çox şeyləri arzu ediblər ki olsun, amma olmayıb.

Oh, dərviş, bu Yer üzü başa yetməyən arzular məkanıdı... Yerinə yetən bir arzunun arxasında, yerinə yetməyən on arzu gizlənib. Bunu anlayanlar “arzular” deyilən niyyətdən əl çəkiblər, olanlarla barışıb itaətə gəliblər.

Dərviş, xilas – barışmaqda və tabe olmaqdadı. Bunu anlayan kəs Cəhənnəmdən qurtulub və hər bir barışan, tabe olan özünə Cənnət qazanıb.

Hərçənd saf niyyətlə, xeyirxah əməllərlə, səylər və çalışmalarla sən, bu dünyanın nemətlərinə sahib ola, var-dövlət, yüksək mövqe qazana bilərsən. Lakin heç kim sabahkı günün özü ilə nə gətirəcəyini bilmir və bilməyəcək. Sabaha sağ çıxıb-çıxmayacağını, xəstəlik tapıb-tapmayacağını, düzüb-qoşduğu işlərin nəticə verib-verməyəcəyini bir kəs bilmir, bilməyib və bilməyəcək. Sabahkı günün özü ilə nə gətirib gələcəyi, neçə padşahın taxtdan düşəcəyi, neçə varlının dilənçiyə çevriləcəyi, nə qədər dilənçinin var-dövlət sahibi olacağı və nə qədər alçaldılmış insanın şahlıq taxtına qalxacağı  bir kəsə məlum deyil...

Bu dünya kükrəyən dənizə bənzər: dalğaları şahə qalxıb qüdrətli ucalıqlar yaradar, yerə enib geriyə çəkilməmiş yeniləri gələr və dikəlib əvvəlkiləri heçə çıxarar...

Dərviş, bu söhbətə qulaq asan kəs qoy bu sözləri qəlbinin qulaqları ilə dinləsin və deyilənləri yaddaşında möhkəm saxlasın.

İnsana barışıqdan və itaətdən faydalı nə ola bilər?

## *Beşinci fəsil*

## *Geriyə dönmə səfəri barədə*

Bil ki, ruh bədənindən ayrılandan sonra kamilləşər, geriyə qayıdıb Ali Dünya şüurlarına və ruhlarına qovuşar. İnsan ruhunun kamilləşməsi Ali Dünyanın şüur və ruhlarıyla bağlıdı. O səbəbdən ki, Ali Dünyanın bütün ruhları və şüurları saf və maariflidirlər, daim biliklərini artırmaqda, işıqlığa can atmaqdadırlar. Bu səbəbdən, bu dünyada yaşamaqda olan insanın da məqsədi daim bilik əldə etmək və qəlbini işıqlandırmaq, bilik və qəlb saflığı sahibi olmaqdı. Bunu anlayan və

yolu tapan hər bir kəsin ruhu bədənindən ayrılan zaman Ali Dünya şüurları və ruhları onu öz yanına çəkər. “Müdafiə” (şəfaət) deyilənin mənası budu. O ruhlar və şüur sahibləri ki bu əlaqəni (münasibət) yaradar, onlar, ora üz tutar və müvafiq olan ruh onu özünə çəkər.

Əgər münasibət alçaq dünyanın (nəfs-e mülk) ruhları ilə yaradılarsa, oranın mərhəməti qazanılarsa, bədən bu vəziyyətdə tərk edildikdə, ruh Ay Göyünün Ruhuna qovuşar.

Lakin əgər ruh bədənindən bu vəziyyətdə ayrılmayıbsa və insan bu dünyada yaşadığı müddət ərzində daha çox bilik və saflıq əldə edə bilibsə, onun saflığı o dərəcəyə yüksəlibsə ki ruhu Göylər Göyünün ruhu ilə əlaqə yaradıb, oranın mərhəmətini qazanıb, o ruh bədənindən məhz bu halında ayrılarsa, o, Göylər Göyünün Ruhuna qovuşar.

Əvvəl və axır barədə, qalan dərəcələr barədə biləndən sonra, onu da bil ki, insan hansı ruhla əlaqə yarada bilərsə, ruhu bədəndən ayrılarkən o ruh da onu özünə çəkər. Bu halda bədənlərindən ayrılan ruhlar yalançı çaparlıqdan qurtularlar, Ali dünyaya yetişəndə öz məkan dərəcələrinə görə rahatlıq tapar və öz əbədi atlarını orada çaparlar.

Dərviş, bil ki, hər bir kəs səylər və çalışmalarla, zahidlik və tərki-dünyalıqla, qəlbini maarifləndirib-işıqlandırmaqla ruhunu elə bir hala gətirib çatdıra bilər ki, ruhu Göylər Göyünün ruhuna uyğunlaşar və bədənindən ayrılan zaman o, Göylər Göyü Ruhuna qovuşar.

Bunu bacarsa da, həyata keçirməyən, özünü zahidliklə, səy göstərib bilik qazanmaqla, işığa çıxmaqdan ötrü çalışmalarla yormayan ruhlar Ay göyünün altında – Cəhənnəmdə qalarlar. Onlar Ali Dünyaya qalxa bilməzlər. O səbəbdən ki, Ali Dünya – bilikli, safqəlbli, bakirə ruhların hücrəsi və məkanıdı.

Deməli, sən bildin ki, bu dünyada bilik (ilahi bilik) və saflıq əldə etməyənlər Ali Dünyaya daxil ola bilməyəcəklər.

İndi bunu da bil ki, ali dərəcələrə, ali pillələrə yalnız səylər və çalışmalarla ucalmaq mümkündü. Bilik və saflıq qazanan insan Ali Dünyaya çata bilər və onun məkanı da, o nə qədər bilik və saflıq əldə edərsə, bir o qədər ucada olar.

Deməli, gördüyün kimi, müdriklik yolu ardıcıllarının qənaəti "hər bir kəsin öz məkanı var və məkanına qayıdışla dövrə qapanar, dövrə qapanandan sonra yüksəliş mümkün olmaz" deyən şəriətçilərin qənaətindən fərqlidi.

Şəriət ardıcıllarının qənaəti o səbəbdən doğru deyil ki, onlara görə insan ruhları bədənlər mövcud olmamışdan əvvəl, hər biri öz müvafiq məkanında mövcud olub. Onlar bədənə enib, sonra yenidən doğulanda (öləndə), hər biri öz əzəli məkanına dönür, yuxarı məkanlara isə qalxa bilmirlər.

Müdriklik yolu ardıcıllarına görə isə, insan ruhları bədənlərəcən mövcud olmayıb. Buradan o nəticə hasil olur ki, bədən əldə edənəcən ruhların heç bir məkanı olmur. Lakin bədən əldə edəndən sonra, onlar öz məkanlarını öz qabiliyyətlərinə uyğun tapırlar.

İnsan nə qədər qabiliyyətlidisə, nə qədər çox çalışıb səy göstərirsə, məkanı bir o qədər yüksəkdə olur.

Dərviş, bunları biləndən sonra, onu da bil ki, hər insanın məkanı onun bilik səviyyəsi və əməlləri ilə müəyyənləşir.

İnsan iki növ qabiliyyətə malikdi. Bunun birincisi – insanın dörd zaman ölçüsündə hərəkət etmək qabiliyyətidi. Bu qabiliyyət insana nəsillikcə verilir. Buna ayrı yolla sahib olmaq mümkün deyil.

Gəl uzunçuluğa varıb mətləbdən uzaqlaşmayaq...

Dərviş, o kəs ki ruhunu ən yüksək həddə çatdırıb, Göylər Göyü Ruhuyla əlaqə yarada bilib, biliyini və qəlb saflığını hədsiz dərəcəyə çatdırıb, bil ki, o kəs Məkanlar Səddini aşıb.

Ümumən insanlığa aid olanın səddini aşan kəs kamil insana (insan-e kamil) çevrilib və demək, kiçik dünyanı başa

vurub. Və o kəs ki kiçik dünyanı başa vurub, o, böyük dünyada (bu dünyada) Allahın Xəlifəsidi[1].

Allahın Xəlifəsi – insanlıq üçün nadir Dərmandı; Qüdrətli İksir, Qırmızı Kükürddü; Dünyanı göstərən Cam, Kainatı əks etdirən Güzgüdü. İlkin Ruh onun Müjdəçisidi.

Bəzən onlar (xəlifələr) İlkin Ruhun köməyi ilə, bəzən isə İlkin Ruhun köməyi olmadan Yaradanla söhbət edər.

Elə ki onun (xəlifənin) ruhu bədənindən ayrılar, o, Dünyalar Xaqanının yanında əbədi rahatlığına və səadətə qovuşar, Uca Yaradanın yaxınlarından birinə çevrilər.

"Seçilmişlərin Cənnəti" deyilən, kamillərin ərazisi olan Yer Oradı.

O Cənnətə daxil olan Səadət İşığının Qovşağına – əmin-aman, əbədi rahatlıq həyatına daxil olar. Damla dəryaya qovuşar...

Cənnətin qalan səkkiz dərəcəsindən olmayanlar, əbədi iztiraba düçar olmasalar da, Cəhənnəmdən keçib Cənnət dərəcələrinə çatanlar, Qüdrətli ilə (Yaradanla) yaxınlıqdan məhrumdurlar. Onların nə vaxtsa Böyük Qüvvə Sahibinin yaxınında olacaqlarına ümid yoxdu. O kəslər əbədi ayrılıq odunun alovunda yanacaqlar.

Dərviş, Cənnətin qalan səkkiz dərəcəsi kamillik əldə edə bilməyənlərin yeridi. Kimin kamil biliyi və qəlb saflığı nə qədər üstün olarsa, o kəsin Cənnət dərəcələri üzrə yeri bir o qədər ucada olar.

Müdriklik yolunun ardıcılları da bu fikirdədirlər ki, alçaq dünya – ünsürlər və mahiyyətlər dünyası, minerallar, bitkilər və heyvanlar dünyası, həyat və ölüm dünyası – Cəhənnəm və Onun girdabıdı.

Ali dünya – Göylər və Ulduzlar, Şüurlar və Ruhlar dünyası, Əbədi və Dəyişməz dünyadı.

---

[1] ***Xəlifə*** – təmsilçi

Bu, Cənnət və Onun dərəcələri barədə.

Bil ki, insan öz həyatı boyu biliyinin, qəlb saflığının dərəcəsi üzrə nə qədər yüksələrsə, onun Cənnət dərəcəsi də bir o qədər yüksək olar. O nə qədər nadan və naqis olarsa, Cəhənnəm girdabının dərinliyinə bir o qədər enər.

Bir qismin fikrinə görə, Ali Dünyaya qalxmaq qüdrəti çatmayıb Ay Göyünün altında qalan ruhlar səy göstərib ayrı bədənlər əldə edərlər ki, kamillik qazana bilsinlər, bu dünyada törətdikləri cinayətlərin, günahların cəzasından azad olsunlar.

Digər qismin dediyinə görə isə, ruh o səbəbdən heç bir vaxt ayrı bədən əldə edə bilməz ki, hər bədənin öz ruhu var və bir ruh iki bədənə sahib ola bilməz. Odu ki, Ay Göyünün altında qalan ruhlar orada əbədi olaraq bədənsiz qalmaqlarına davam edərlər.

Bəziləri isə deyirlər ki, Ay Göyünün altında qalan ruhlar, mahiyyətləri etibarı ilə cinlərdi. Bunu deyənlər, əsasən, müdriklik yolunun ardıcıllarıdı ki, onları iç dünyanın (batin) yolçuları adlandırarlar...



# BÖYÜK DÜNYA BARƏDƏ

## VAHİDLİK YOLU ARDICILLARININ DEDİKLƏRİNDƏN

### *Birinci fəsil*

Bil ki, Vahidlik yolu ardıcıllarının dediyinə görə, bir mövcudluq var; bu, Uca və Müqəddəs Yaradanın mövcudluğudu. Və Onun (Yaradanın) mövcudluğundan savayı, ayrı mövcudluq yoxdu və ola da bilməz.

Bir də, onların dediyinə görə, mövcudluq vahid olsa da, onun zahiri (zahiri) və daxili (batin) mövcuddu.

Bunu bildikdən sonra, onu da bil ki, Vahidlik yolu ardıcıllarına görə, daxili mövcudluq – İşıqdı və dünyanın Canı (can), həmin bu İşıqdı. Dünya bu İşıqla doludu. Bu İşıq sərhədsiz və sonsuzdu, ucu-bucağı olmayan dənizdi.

Həyatın, biliyin, iradənin... bir sözlə, hər bir şeyin qaynağı həmin o İşıqdı. Təbii olan hər bir şeyin xasiyyəti və hərəkəti o İşıqdandı. Görmə, eşitmə, nitq, qavrama, irəliləmə qabiliyyəti də o İşıqdandı. Bu İşıqdan savayı ayrı işıq yoxdu. O səbəbdən ki, var olan hər bir şey bu İşıqdı.

Mövcud olanların keyfiyyəti, hərəkəti və adları da bu İşıqdandı. Mövcud olan hər bir şeyin mahiyyəti, cəmi və təki eyni dərəcədə bu İşığın mahiyyətində var. Bu mahiyyətlərin hər biri öz-özlüyündə dünyaya açılan qapıdı. O İşığın məzmunu həmin bu qapılardan saçar.

Dərviş, bil ki, bu dünyanın nə axırı, nə də sonu var. Odu ki, fənalıq (fəna) və yoxluq ona nəsib olmayacaq.

Qapılar köhnələcək, sonra bir də, dönə-dönə yenidən təzələnəcək, sonra külə dönəcək və küldən yenidən törənəcək. Bu qapılar özləri-özlərindən yaranar. Özləri yaranar və yaradarlar.

Onlara lazım olanlar – kamillik dərəcəsi əldə etməyə lazım olanlar onların özlərindədi.

Bu İşıq Öz Yaratdıqlarının təzahürlərinə aşiqdi. O səbəbdən ki, O Öz təzahürlərində Öz Gözəlliyini Seyr Edər, Öz Əlamətlərini və Adlarını Nəzərdən Keçirər. Məhz bu səbəbdən deyilər: *“**Əvvəl özünü tanı ki, Allahını tanıya biləsən”.***

Bunu da biləndən sonra ki, həmin bu vahid olan İşıq dünyanın canıdı və bu dünyada olan hər bir şey öz mahiyyəti etibarı ilə həmin bu İşığın təzahürüdü, ***“bizə qədər olanlar – biz idik, indi olanlar – bizik, bizdən sonra olacaqlar da – bizik”*** deyənlərin haqlı olduğunu anlayarıq.

Yaxud kimsə desə ki “bizə qədər olanlar biz deyildik, indi olanlar da biz deyilik, bizdən sonra olacaqlar da biz deyilik”, onlar da haqlı olacaqlar.

**Dərviş, bil ki, mövcud olan hər bir kəsin mövcudluğa nisbəti – kitabda olan hərfin onu (kitabı) yazan mürəkkəbə nisbətinə bənzər.**

Odu ki, deyərlər: **“Allaha aparan yolun nə eni, nə uzunu var”.**

Mövcud olanlar bir-birinə nisbətdə ya bir-birini qabaqlayar, ya bir- birini davam etdirərlər. Bir qismi – keçmiş zamanda, digəri – gələcəkdə.

Nə qədər çalışdım sözümü qısa deyim, söhbət yenə uzandı...

**Dərviş! Ən vacib olanı odu ki, qulaq asasan. Qulaq asıb anlayasan. Anlayıb xilas olasan. Odu ki, diqqətlə qulaq as, anla və xilas ol.**

Mövcudluq birdi. Bu, Allahın mövcudluğudu. Allahın mövcudluğundan savayı, ayrı mövcudluq yoxdu və ola da bilməz.

Bu vahid mövcudluğun daxili (batini) – İşıqdı. Dünyanın canı olan da – Odu. Özünü qapılardan göstərən İşıq da Odu. Deyən də Özüdü, Eşidən də, Verən də Odu, Alan da.

Bu İşığı görmək gərəkdi. Bu dünyaya həmin o İşıqdan baxmaq gərəkdi.

Bir Şeyx danışırdı ki, "mən o İşığa çatdım və o İşığı gördüm. O, sonsuz və sərhədsizdi. Onun nə üstü, nə altı var; nə sağı, nə solu var; nə əvvəli, nə axırı var. Yuxusuzluq və aclıq hissi məni tərk etdi, rahatlığım əlimdən getdi. Bu halımı müqəddəs bir adama danışanda o mənə dedi: "Get, sahibindən icazəsiz özgə xırmanından bir ovuc saman götür". Mən gedib götürdüm. Və bir daha o İşığı görmədim".

Digər bir müqəddəs danışırdı ki: "Mən o İşığa çatdım və o İşığı gördüm. Amma özümü görmədim. Hər şey İşıq idi..."

Dərviş, elə ki yolçu bu İşığa çatar, ona əlamətlər verilər.

Bunun birinci əlaməti budu ki, İşığa çatan kəs daha özünü görməz. O səbəbdən ki, o özünü o vaxtacan görər – yaradılmışların çoxluğunu görər.

Yolçu yoxa çıxarsa, qovuşma, ayrılma, duyum da yox olar. O səbəbdən duyum da, qovuşma da, ayrılma da insanlar arasında baş tutar. İşığın odunda yanan yolçu isə bunların hamısını yoxa çıxarar və yalnız bircə Allah qalar. Bu əsrimədə yolçu vahid olan Allaha qovuşar...

## *İkinci fəsil*

İndi bil ki, Vahidlik yolunun ardıcıllarının bir çoxu (avam) mövcudluq barədə bu deyilənlərdən savayı heç nə bilməz və görməz. Və onlar deyəndə ki "bir mövcudluqdan savayı ayrı mövcudluq yoxdu və bu, Allahın mövcudluğudu, bu mövcudluq batinə və zahirə malikdi, onun əsası vahid

İşıqdı, İşığın xaricində olanlar Onun keyfiyyət göstəriciləri, yaxud Onun (İşığın) güzgüsüdü, yaxud, onun “çırağıdı”, bütün bunlar, əlbəttə, ədalətlidi.

Onlar düzgün görürlər, lakin mövcudluğun bütöv olan əsasına çatmırlar. Bu səbəbdən də, hər bir şeyin əsl mahiyyətinə vara bilməyiblər. Mahiyyət isə Cəbərütdü.

Onlar görümlə mülk və məlakütə çatıblar, mülkü və məlakütü öz gözləriylə görüblər. Cəbərütü isə görə bilməyiblər. Halbuki Cəbərütün möhtəşəmliyinin nisbətində mülk və məlaküt dənizin nisbətində damla misalındadır.

Və bildilər ki, hər bir şeyi özündə cəmləyən Saf Bütövlük həmin bu Cəbərütdür. Bədənin və ruhun mənbəyi, kitabın və sözün, mülkün və məlakütün, mövcudluğun və yoxluğun qaynağı da Odu. Mülkdə və məlakütdə nə varsa, o Cəbərütdə də var.

Bildilər ki, mülkdə və məlakütdə yer də var, göy də var, taxt da var, tac da var. Yerdə də, göydə də çoxlu yaranışlar var. Lakin onlar İblisin də, İnsanın da göydə yarandığını bilmədilər.

Mən yenə sözü uzatdım və biz yenə məqsədimizdən yayındıq. Məqsədimiz isə o idi ki, izah edək: Vahidlik yolunun ardıcıllarına görə, böyük dünyanın toxumu olan ilkin özülün əsası ilkin materiya (xayula) olub...

## *Üçüncü fəsil*

Bil ki, (ilkin) maddə dediyim (materiya), surətlər (suvar) və quruluşlar (əşkal) əldə edə bilən ayrıca bir Özüldü.

Bu (ilkin) Özül dörd hissədən ibarətdi. Bunun biri – ən əsası dəmirdən və taxtadan olanıdı. O, müxtəlif surətlər və quruluşlar ala bilir. Bu, (ilkin) materiyanın hissələrindən biridi.

Toxum (nütfə) da özüldü. O da çoxlu sayda surətlər və quruluşlar ala bilir ki, bu da (ilkin) materiyanın ayrı bir hissəsinin hissəsidi.

Ünsürlər də özüldü. Onlar da çoxlu sayda surətlər və quruluşlar ala bilirlər və bu da (ilkin) materiyanın ayrı bir hissəsinin hissəsidi.

İlkin materiyanın özü sadə özüldü və o da çoxlu sayda surətlər və quruluşlar əldə edə bilir. (İlkin materiya) bu dünyanın və ölümün əsası, əbədi və dəyişməz olan dünyanın məğzidi.

Bu dünyada mövcud olan hər bir şey, gizli və aşkar dünyalarda mövcud olan ilkin materiyanın surətləri və quruluşlarıdı. "Cəbərüt" deyilən, həmin bu İlkin materiyadı.

Cəbərüt dünyası mülk və mələküt dünyasının qaynağıdı. O, mülk və mələkütə aşiqdi. O səbəbdən ki, O (Cəbərüt), öz gözəlliyini mülk və mələkütdə görər, öz adlarını və xasiyyətlərini onlarda seyr edər.

Eynilə bu sayaq mələküt də mülkə aşiqdi. O səbəbdən ki, mülk mələkütün təzahürüdü, mələküt isə Cəbərütün.

Cəbərüt ilkin materiyadı, müəyyən surətləri və quruluşları qəbul etsə də, dəyişikliklərə məruz qalır və qalacaq. Həmin bu surətlər və quruluşlar Ali Dünyanın Özüdü. Digər obrazları və quruluşları qəbul edib yenidən pozan da Odu. O, bunu daim edir və daim də edəcək.

Alçaq dünyanın surətlərinə və quruluşlarına görə də, ölüm və həyat dünyası mövcuddu. Bu, ilkin materiyanın ayrı bir hissəsinin hissəsidi.

Materiyaların hissələri haqqında bu deyilənləri bildən sonra, onu da bil ki, Vahidlik yolu ardıcıllarına görə, ilkin materiya hər iki dünyanın, yəni gizli və aşkar dünyanın özülüdü. Bu özülün əvvəli, axırı, sərhədi, sonu, qurtaracağı yoxdu. O, bölünən və hissələrə ayrılan deyil, danışmağa və yoxluğa qadir deyil.

Bu, sərhədsiz və sonsuz bir aləmdi... ucu-bucağı, sahili olmayan dənizdi. Mövcudluq ondan yaranır. Hər şey

ondan yaranır və ona da qayıdır. O səbəbdən ki, hər şey – O Özüdü. Hər iki dünyanı bəxş edən də Odu. Və Onun yaratdığı hər iki dünya mahiyyət etibarı ilə birdi. Bu, gizli dünyadı. Mahiyyət etibarı ilə tənhalıqlar və təklər dünyasıdı.

**Dərviş, Cəbərütün nə adı, nə işarəsi var... nə quruluşu, nə obrazı var. Nə sərhədi, nə qayda-qanunu var. O, duyğularla da anlanmaz. Şüur Onun barədə məlumatsızdı. Şüur ondan heyrətə gələr, təsəvvür çaşqınlığa düşər...**

Bu dünyada (Cəbərütdə) balla balqabaq bir dad verər, zəhərlə məlhəm eyni təsir gücünə malik olar, qızılquşla toyuq yanaşı yaşayar, qurdla qoyun qoşa dayanar... Orada gecəylə gündüz bir rəngə çalar, Orada ölümün də, əbədiyyətin də yeri yoxdu. Yüz min il bundan əvvəl də və yüz min il bundan sonra da olmaz. Bu, fərqsizlik dünyasıdı... Fironun Musayla, Nəmrudun İbrahimlə barışdığı dünyadı...

Bunu da bil ki, Vahidlik yolunun ardıcılları iki icmaya bölünür. Onlardan biri təsdiq edir ki, mövcudluq birdi və bu, Allahın mövcudluğudu. Bundan savayı, ayrı mövcudluq yoxdu.

Onlara görə, bütün mövcudluqlar eyni dərəcədə Allahın mövcudluğudu və onlar bu mülahizələrini bütün təfərrüatıyla açıqlayırlar.

O biri icma isə sübuta yetirir ki, mövcudluq iki cürdü: həqiqi mövcudluq və ötəri (xəyali) mövcudluq. Allahın mövcudluğu həqiqi mövcudluq, dünyanın mövcudluğu isə ötəri mövcudluqdu.

Onlara görə, **Allahın mövcudluğu – görünməz (nistnamay) mövcudluqdu. Dünyanın mövcudluğu isə görünən yoxluqdu. Yəni başdan-ayağa ötəri görüntüdü. O, zahirən, həqiqi olan mövcudluğa – Allahın**

**mövcudluğu üzrə mövcud olan kimi görünər. Mahiyyəti etibarı ilə isə ötəri olanın kölgəsi, görüntüsü olmaqdan savayı, ayrı bir mövcudluğa malik deyil.**

İkinci icmanın gəldiyi qənaət budu. Bu adamlar özlərini "Vahidlik yolunun ardıcılları" adlandırırlar. Digərləri isə, onları sofist[1] adlandırırlar...

## *Dördüncü fəsil*

Bütün bunları biləndən sonra, indi bunu da bil ki, mövcudluq barədə dediyim bu dörd icmanın rəyi həmişə olub və bütün biliklərin əsasında yalnız bu dörd istiqamət dayanır.

Qalan bütün rəylər, saysız-hesabsız cərəyanlar, hansı ki dünya durduqca yaranıb, yaranır və yaranacaq, həmin bu dörd istiqamətdən baş alan şaxələrdən savayı, ayrı bir şey deyil.

Şübhəsiz, bu dörd istiqamətin biri doğrudu, qalan o birilər yalan. Lakin onların hər biri "həqiqət bizimlədi, yanılanlar o birilərdi" fikrində qalmağa davam edirlər. Və hər icma, söhbət ki bu yerə yetişdi, bu rübaini oxuyar:

***Şirin sudan xəbərsiz quş***
***Dimdiyin şor suda saxlar.***
***Şirin suya qonaq etsən,***
***Yenə də daddığın dadar.***

Dərviş! Bunu da yadında möhkəm saxla ki, insanların böyük əksəriyyəti özlərinin öz təsəvvürlərində yaratdıqları Allaha sitayiş edərlər. Onların hər biri özü üçün nə isə

---

[1] ***Sofist*** – bu terminin mənşəyini dəqiqləşdirmək mümkün olmadı. Bu sözə Əbu Həmid Qəzalinin əsərlərində də tez-tez rast gəlinir. Vaxtilə dünyanı duyğularla dərk etməyin əleyhinə olanları "sofistlər" adlandırıblar.

uydurar, uydurduğunu "Allah" adlandırar, ona da sitayiş edər. Onların özləri üçün uydurduqları isə yalnız uydurma olaraq qalar. Bu, təsəvvürdən savayı, ayrı bir şey deyil.

Bu adamlar öz aləmlərində həmin bu sitayiş etdikləri ilə qürurlanarlar, bütpərəstləri utandırmaqdan ötrü öz allahlarını öz xəyallarında yaratdıqlarını və bu yaratdıqlarına da sitayiş etdiklərini deyib lovğalanar və ömürləri uzunu özləri özlərinə sitayiş etdiklərini anlamazlar, İlahidən olan allahlar Allahından xəbərsiz qalarlar.

Dərviş, bu adamların bu dünyada görüb, tanıyıb müəyyən etdiyi hər bir şey – ulduzlar, Günəş, od, büt, işıq, zülmət və sair onları necəsə özünə cəlb edər, onların sitayiş yerinə çevrilər. Əslində isə yeganə cəzb – Uca və Müqəddəs Allahın İşığıdı. Uca Allah tamam ayrı bir Həqiqət, ayrı Sima, ayrı Mahiyyətdi...

Bu məlum həqiqətdi ki, hər bir şey öz ağasına, sahibinə malikdi. Lakin ağa bir şeydi, ağalar Ağası tamam ayrı bir şey.

Allahın "surətini görüb" mahiyyətini dərk etməyənlər bütpərəstlərdi. Onlar ömürlərini bu dünyanın insanlarıyla mübahisələrdə, ziddiyyətlərdə başa vurar, günləri dava-dalaşda, sübut-dəlil axtarıb tapmaqda, etirazlarda keçər.

Bu uydurulmuş surəti görməkdən vaz keçən, Allahın mahiyyətini anlamağa can atan kəs bütpərəstlikdən xilas olar, bu dünyanın insanları ilə barışıb etirazlardan, mübahisələrdən yaxa qurtarar.

Kim ki Allahın surətini öz təsəvvüründə yaradıb Onun mahiyyətini anlamayıb, o kəs Allahın varlığına inanarsa belə, bütpərəstdi. Allahın mahiyyətini anlayıb Ona inananlar, şübhəsiz ki, Allahın yeganə vahidliyini anlayanlardır.

Dərviş, hər şey hərlənib-dolanıb bir nöqtədə kəsişir: **özünü tanıyan Allahını tanıyar.**

Bu o deməkdi ki, özünü tanıyan böyük dünyanı tanıyar. Odu ki, özünü tanımağa cəhd et...



# İKİNCİ BAB

## KİÇİK DÜNYA BARƏDƏ



# İNSAN VƏ ONUN DƏRƏCƏLƏRİ BARƏDƏ

Bil ki, Allahın Mərhəməti səni hər iki dünyada xoşbəxt eləsin, insan yeganə olan Özüldən yaranıb və onda olan nə varsa, həmin bu yeganə olan Özüldə də var. O (Özül), insan yaranan anda mövcud olub və hər bir şey, zamanı yetişdikcə yaranıb.

Həmin bu "yeganə özül" dediyim – toxumdu (nütfə). Bu o deməkdi ki, insanın ötəri olan bədən və ruh hissələri Onun (Özülün) toxumunda da mövcud olub.

İnsan kamilliyinə çatmaq üçün zəruri olanların hamısı həmin bu toxumda var. Ayrı cür desək, bu toxum həm yazan, həm yazılanlardı, həm kəlam, həm də kəlamı yazan mürəkkəbdi.

Dərviş, "kiçik dünya" dediyimin, onun (kiçik dünyanın) cəbərütünün, onun mahiyyətinin, onun toxumunun, sevgi aləminin özülü də həmin bu toxumdu. **Bu toxum özü özünə aşiqdi... daim öz gözəlliyini seyr etməkdə, öz adlarını nəzərdən keçirməkdədi...**

(O) öz şüalarıyla işləyər, (bu) fəaliyyətinin xüsusiyyətlərinə görə artıb, çoxalmağa qadir olar və müxtəsərlik dünyasından təfərrüatlıq dünyasına çevrilər, surətlər və quruluşlar müxtəlifliyi ilə zühur edər ki, gözəlliyi aləmə əyan olsun, adları açıqlansın.

Bunları biləndən sonra indi onu da bil ki, ana bətninə düşən toxum, bir müddət orada toxum halında qalar. Bir müddət qan laxtası şəklində, bir müddət rüşeym (muzqa) şəklində. Üç ayın tamamınacan o rüşeymdə sümük və

əzələlər, sinirlər yaranar. Günəşin təsir dairəsindən asılı olaraq, dördüncü aydan başlayaraq, onda (rüşeymdə) həyat yaranar... tədricən hissiyyat, hərəkət qabiliyyətləri oyanar və bu gedişat qalan dörd ayın tamamınacan davam edər. Dörd ay bitib başa çatandan sonra, elə ki rüşeymdən yaranan bədən və ruh özünü tutar, bədən üzvlərinin və əzalarının qurulması da başa çatar.

Bil ki, ana bətninə yığılan qan, uşağın qidasıdı. Bu qida körpəyə ananın göbəyindən ötürülər. Səkkiz ay tamam olanacan bətndəki körpənin bədəni, ruhu, əzaları tədricən mükəmməlləşər. Səkkiz ay ki başa çatdı, doqquzuncu ayın başlanğıcında – Müştəri[1] ulduzunun təsir qüvvəsi yenidən fəallaşanda uşaq ana bətnindən çıxar...

## *İnsanın doğulmasının və onun ruhunun bir şey, heyvan ruhunun ayrı bir şey olması barədə fəsil*

Bil ki, heyvan ruhu ayrı-ayrılıqda nələrisə qavrayar. İnsan ruhu isə həm ayrı-ayrılıqda, həm də cəm halda olanları qavrayar.

Heyvan ruhu faydalı və zərərli olanı təyin edər.

İnsan ruhu isə faydanı və zərəri gətirən faydanı və zərəri təyin edər.

Dərviş, insan ruhu diridi, tamahkar və qabiliyyətlidi, eşidən və görəndi, danışandı. O, gördüyünün, eşitdiyinin, dediyinin xaricində olanları da görər, eşidər və danışar.

Bədən hissələrə bölünə, parçalana bildiyi, ruh isə hissələrə bölünmədiyi, parçalanmadığı kimi, insan ruhu da qavradıqca bütün vücuduyla bilgili olar; görən zaman bütün

---

[1] ***Müştəri*** – Yupiter

vücuduyla göz, eşidən zaman qulaq, danışan zaman bütün vücuduyla danışan olar. Digər sadə cəhətləri ilə də beləcə...

İnsan ruhu haqqında bunu biləndən sonra indi onu da bil ki, şəriət ardıcıllarının dediyinə görə, əgər insan həmin bu qabiliyyətləri müqabilində peyğəmbərlərə inanarsa, onların davamçısı olub dediklərinə əməl edərsə, o kəsi "dindar" adlandırarlar, onun ruhuna bu ad verilər.

Əgər insan peyğəmbərlərə inamının, onları təqlid etməyin üstündən adlayıb Allaha aramsız, fasiləsiz davamlılıqla sitayiş edərsə, gecəsini gündüzünə qatıb gününün əksər hissəsini Ona (Allaha) itaətdə keçirərsə, o kəsi "əməlisaleh" adlandırarlar və onun ruhuna da bu ad verilər.

Əgər insan fasiləsiz, aramsız sitayişin fövqünə qalxıb, bu dünyadan üz çevirərsə, var-dövlətindən, mövqeyindən imtina edib, bədən həzzlərindən və tamahdan azad olarsa, o kəsi "zahid" adlandırarlar və onun ruhuna bu ad verilər.

Əgər insan hər bir şeyin mahiyyətini zahidliyin fövqündə, yəni olduğu kimi görüb dərk edərsə və ondan heç nə gizlin qalmazsa, əgər o, təqlidin fövqündən əməlin fövqünə qalxarsa, o kəsi "müdrik" adlandırarlar və onun ruhuna bu ad verilər.

Əgər Uca Yaradan insanı bütün bu qavrayış pillələrinin fövqündə Öz Yaxınına buraxarsa, Özünə sevdirmək, Özünü tanıtmaq üçün onu Seçərsə, o kəsi "müqəddəs" adlandırarlar və onun ruhuna bu ad verilər.

Əgər Uca Yaradan insanı Özünə yaxınlığın, sevginin fövqündə Öz Möcüzəsinin sirrini açmaq üçün Seçərsə, onu Haqqı (onun) simasında xalqa çatdırmaqdan ötrü Yer üzünə Göndərərsə, o kəsi "peyğəmbər" (nəbi) adlandırarlar və onun ruhuna bu ad verilər.

Əgər Uca Yaradan insanı Vəhyin və Möcüzənin fövqündə, Öz Kitabının çatdırılması üçün Seçərsə, o kəsi "rəsul" adlandırarlar və onun ruhuna bu ad verilər.

Oh, dərviş! İnsan ruhunun doğulması da, biliklənməsi də, bütün dövriyyələr və təkrarlanmalar, səylər və xatırlamalar da hamısı bu minvalla baş verər.

Şəriət ardıcıllarına görə, bu doğulmadan savayı ayrı doğulma yoxdu və bu doqquz dərəcənin hər biri insanın bilik və inam dərəcəsi üzrə müəyyənləşdirilər. Dərəcə yüksəldikcə biliyin də, inamın da əhəmiyyət dərəcəsi yüksələr. Bilik və inam artdıqca ad da, qayıdılacaq məkan da dəyişilər, daha ali və nəcib olar.

Bu doqquz dərəcənin hər biri nemətdi. Hər kəsin məkanı əvvəlcədən müəyyən olunub və heç bir kəsə öz məkanını adlayıb, üst məkana keçmək müyəssər olmaz.

Müdriklik yolunun ardıcıllarına görə isə, bu dərəcələrdən o yana da doğulmalar var. Lakin onlar o həddin adını heç cür çəkmirlər.

Müdriklik yolunun ardıcıllarına görə, bu doqquz dərəcə insanların bilik və saflıq dərəcələridi. Dərəcə nə qədər yüksəkdisə, bilik və qəlb saflığı da bir o qədər ucadı. Bilik və saflıq nə qədər yüksəkdisə, qayıdılacaq məkan bir o qədər yüksək və nəcibdi.

Onlara (müdriklik ardıcıllarına) görə bu doqquz dərəcənin hər biri qazanılandı və bir kəsin məkanı əvvəlcədən müəyyən edilmir. Hər bir kəsə verilən məkan, bilik və saflıq dərəcəsinə görə verilir. Bilik və saflıq dərəcəsi nə qədər yüksək olarsa, məkan bir o qədər uca olar.

Müdriklik yolunun ardıcıllarına görə, heç nəyin nə əvvəli, nə sonu var. Və əgər nəyinsə sonu varsa, demək, onun əvvəli də var.

Məsələn, Ay dövriyyəsi başa çatırsa, bu halda dövriyyə öz kamillik həddinə, yəni yolun sonuna çatır. Və deməli, əgər kamilliyin son həddinə çatmaq mümkündüsə, demək, hər bir şeyin başa çatdığı məqamı var. Lakin bu sonluqdan sonra hər şey bir də yenidən – yeni dövriyyənin

başlanğıcıyla başlanar və yeni-yeni başlanğıclar yaranar. Bu başlanğıclar öz kamilliyinə çatmaqdan ötrü yenidən dövriyyəyə qoşular və beləcə davam edər.

Vahidlik yolunun ardıcıllarına görə isə, doğulmanın həddi yoxdu.

Onlara görə, qabiliyyəti olan kəs min il yaşayarsa və həmin o min ili zahidlikdə, mücahidlikdə keçirərsə belə, o hər gün, hər saat, hər dəqiqə, o dəqiqəyəcən bilmədiyi nəyisə anlayar. O səbəbdən ki, Allahın Vahidliyinin və Müdrikliyinin həddi-hüdudu yoxdu.

Vahidlik yolunun ardıcıllarına görə, insanın gedib-qayıtdığı məkanların ən nəcibi – insan mövcudluğudu. O səbəbdən ki, əzəli özüldən olan hər bir şey insan (adam) olanacan hərəkətdə, əbədi səyahətdədi və hər şey yalnız insanlıq həddinə çatdıqca öz kamil həddinə çatar.

İnsanlar da öz mahiyyətlərinə çatanacan, yəni özlərini dərk edənəcən, çata biləcəkləri kamillik dərəcəsinə yüksəlib nəcibləşənəcən daim hərəkətdə, yoldadırlar.

Oh, dərviş! İnsanların çoxu xeyirxah, nəcib və mehribandı. Onların bir çoxu özünü dərk edib, lakin kamillik həddinə çata bilməyib... Bir çoxu özünü dərk etmədən xeyirxah, əməlisaleh insan qiyafəsinə bürünüb, lakin kamillik həddinə çata bilməyib.

Burdan belə qənaət hasil olur ki, insan kamilliyi – şüurlu xeyirxah xislətdi.

Dərviş, insan və onun dərəcələri barədə, bu yazıda dediyimi heç bir yerdə deməmişəm. Elə o birilər də bu barədə yazdıqları kitablarda bu barədə bu qədər danışmayıblar. Odu ki, bu fəsli (babı) sən bir dəfə yox, bir neçə dəfə, dönə-dönə, diqqətlə, düşünə-düşünə oxu. O səbəbdən ki, gizlinin və aşkarın, özünüdərk mücrüsünün açarı budu...

## *İnsan təbiətinin, bədəninin, ruhunun nə olduğu və İnsanın neçə ruhu olduğu barədə fəsil*

Bil ki, bir qisim qənaətə görə, bəzi insanlar dörd ruha malikdi: bitki ruhuna, heyvan ruhuna, qəlb ruhuna və insan ruhuna.

Digər qisim insanlar isə beş ruha malikdi: bitki ruhuna, heyvan ruhuna, qəlb ruhuna, insan ruhuna və müqəddəs ruha. Onu da deyirlər ki, insan ruhu və müqəddəs ruh uca, ali dünyadan, səma mələklərindən olanıdı. Bitki, heyvan və qəlb ruhu isə alçaq dünyadandı, mahiyyət etibarı ilə qidanın mahiyyətindən və qaymağından yaranandı.

Bu beş ruhun hər biri ayrı-ayrılıqda özüldü və onlar (özüllər) bir-birindən həm ayrı, həm də fərqlidi.

Belə ki, əgər biz bədəni çırağa bənzətsək, bitki ruhu onun camı, heyvan ruhu – çırağı, qəlb ruhu – bu çırağın yağıdır. İnsan ruhu onun (çırağın) işığı, müqəddəs ruh isə bu **işığın işığıdı.**[1]

Digərlərinə görə isə, insanın bir ruhu var və bu ruhun öz dərəcələri var ki, onların (dərəcələrin) da öz adları var. Onları çaşdıran bu adlardı. Onlar ruhların çoxluğunu bu adların çoxluğuyla əlaqələndirirlər. Əslində isə belə deyil. Ruh birdi. Beləcə, bədən də birdi. Lakin bədənin öz dərəcələri var və hər dərəcənin də öz adı var. Ruhun da beləcə, dərəcələri var və hər dərəcənin öz adı var. Bədən ruha uyğunlaşdığı kimi, ruh da bədənə uyğunlaşar.

Mülk mələkütsüz, mələküt mülksüz mövcud ola bilmədiyi kimi, onlar da bir-birindən ayrılmazlar. Bədən də, ruh da öz kamillik həddinə çatanacan böyüyər, doğular və dərəcələr əldə edər. Bədən də, ruh da nə qədər çox tərbiyə

---

[1] ***Quran*** – 24: 35

olunub mükəmməlləşərsə, canında olan keyfiyyətləri öz dərəcəsinə çatana qədər bir o qədər üzə çıxarar.

Ay göyünün altında olanların da hər birinin öz dərəcəsi var. Və dərəcəyə çatdıqda böyümək, yüksəlmək imkanı bitib-başa çatar. Oranın doğulma və qürub olmayan dinclik (netiva) dövrünün də həddi var. Ayrı cür desək, Ay göyünün altında olan hər bir şeyin doğulma imkanı var və həmin bu doğulmanın əvvəlcədən ölçülüb-biçilmiş ölçüləri və hədləri var. Bütün bu doğulmalar və qürublar arasında hər bir şeyin öz dinclik dövrü var və bu dövrün də öz hədləri və ölçüləri var. Bir sözlə, Sirat[1] deyilən budu.

Siratla bir müddət üzüyuxarı, bir müddət də üzüaşağı gedilər... “**Cəhənnəmin üstü ilə uzanan, tükdən incə, qılıncdan iti olan Sirat”** deyilən budu.

Bəziləri bu körpüdən asanlıqla, şad-xürrəm halda keçərlər. Digərləri onu yıxılıb dura-dura, bəziləri isə daha böyük əziyyət və əzablarla, nifrət və iztirablarla keçərlər. Bu körpünü ötüb keçən, Cəhənnəmdən yan keçər. Bir vaxtlar sakini olduğu Cənnətinə yetişər.

Dərviş, bil ki, bu dünyaya gələnlər Cənnətdən gələr və Cənnətə də dönərlər.

Yenə sözü uzatdıq və mətləbdən yayındıq. Məqsədimiz isə bu idi ki, izah edək ki, ruh birdir, bədən də, həmçinin, birdir. Bədənin də, ruhun da dərəcələri var və bu dərəcələrin hər birinin öz adı var.

Bütün bu dediklərim sənə o vaxt aydın olacaq ki, sən bədənin mənbəyinin nə olduğunu, bu mənbəyin nədən yarandığını, ruhun mənbəyinin nə olduğunu və o mənbəyin nədən yarandığını biləcəksən.

Bil ki, su, hava, od öz mahiyyətləri etibarı ilə analardı. Onların hər biri surətlərə və mənalara (məna) malikdi.

---

[1] ***Sirat*** – Quran (37: 23) Cəhənnəmin üstündən keçən körpü. “Tükdən incə, qılıncdan iti olan Sirat körpüsü”

Külün surətini “kül ünsürü” (ünsür) adlandırarlar. Mənasını isə “külün təbiəti” (təbiət) adlandırarlar.

O biri dörd ünsürlər də bu qaydada. Onların hər birinin ünsürünə surətlərinə görə ad verərlər, mahiyyətlərini isə hər birinin mənasına görə müəyyənləşdirərlər.

Buradan bu nəticə hasil olur ki, bütövlükdə dörd ünsür və dörd mahiyyət var və onlar zərurət üzündən bir-birinə qovuşanda hər ünsürün surəti o birinə qarışar. Və bu cəmdən onların hər birindən olan hissəciklər təşkil edən nə isə yaranar. Buna bədən deyilər. Dörd ünsürün mahiyyətinin vəhdətindən yaranana isə ruh deyərlər.

Deməli, o vaxta qədər ki bu dörd yaranış ayrı-ayrılıqda öz-özlüyündə mövcud idi, onları “ünsür” və “mahiyyət” adlandırırdılar, qovuşan məqam onları “ruh” və “bədən” adlandırdılar.

Hərçənd ünsürlər özləri də mahiyyət etibarı ilə öz-özlüyündə bədənlərdi, lakin bu bədənlər quruluş etibarı ilə sadə bədən olduğu səbəbindən, doğulmaya və qüruba qadir deyillər.

Qovuşmadan yaranan bədən dərəcələr üzrə doğulandı və hər dərəcədə yeni ada malik olar.

Bədənin də, ruhun da, insan təbiətinin də canı həmin bu qayda üzrə yaranar.

Dərviş, bil ki, bədən – yaradanlar dünyasındandı.

Ruh – hökm dünyasındandı.

Həmçinin bədən – mülk dünyasından, ruh – məlaküt dünyasındandı.

Mülk məlakütsüz mövcud ola bilməz. Məlaküt də mülksüz mövcud ola bilmir. Onlar birdir, bir-birindən ayrı deyil. Hər ikisi doğulmaya meyllidi, öz kamilliyinə yetişərkən yenidən qüruba meyllənərlər. Yenidən doğular və qüruba qayıdarlar.

### *Doğulanların (məvaid) nə az, nə çox – üç növ olması barədə fəsil*

Bil ki, insan xislətinin iki halı var: tarazlıq halı (mötədil) və natarazlıq halı. Ay Göyünün[1] altında tarazlıq olmaz. O səbəbdən ki, bu, müştərək[2] (müştərik) ərazidi.

Əgər Ay göyünün altında tarazlıq olsaydı, o zaman dünya əbədi dəyişməz olardı və heç bir dəyişikliyə uğramazdı.

Bil ki, insan xisləti, natarazlığa yalnız üç halda düşə bilir: tarazlığa (Yer dünyasının Mərkəzinə) çox yaxında olanda, Ondan çox uzaqda olanda, yaxud, Ona yaxınlıqla uzaqlığın tən orta həddində olanda.

Beləliklə, tarazlıqdan uzaq düşəndən mineral bədəni və ruhu yaranıb. Ona (tarazlığa) yaxınlığın orta həddində olandan bitki bədəni və ruhu yaranıb. Tarazlığa yaxın olandan heyvan bədəni və ruhu yaranıb.

İnsan da heyvanın bir növüdü.

Dərviş, həmin bu heyvan ruhu tərbiyə alıb biliklənəndən sonra anlamaq, dərk etmək, zahidlik və xatırlamalar vasitəsi ilə dərəcələr üzrə doğular və hər dərəcə üzrə yeni adlar qazanar.

Söhbətimiz çox uzandı, yenə məqsədimizdən yayındıq. Məqsədimiz isə o idi ki, izah edək ki, ruh birdi. Bədən – ruhlardı, ruh – bədənlərdi və onlar heç bir vəchlə bir-birindən ayrılmaz.

Dərviş! Bil ki, mövcudluğun hər zərrəsinin özünə zəruri olanı onun özündədi. Ruh haradansa gəlmir və harasa getmir. Ruh işıqdı və dünya bu işıqla doludu. Dünyanın canı həmin bu işıqdı. Dünyanı kamilləşdirən və hərəkətə gətirən də həmin bu

[1] ***Ay Göyü*** – Cəhənnəm ərazisi
[2] ***Müştərək*** – Ayaltı ərazi müstəqil yer deyil. O, mülkə (maddi dünya) və mələkütə (qeyri-maddi dünya) görə daim dəyişikliklərə məruz qalır

işıqdı: bitki dərəcəsində təbiəti ilə (bi-t-tab), heyvan dərəcəsində iradəsi ilə, insan dərəcəsində hərəkəti ilə.

Dərviş, bu işıq özünü təbiət dərəcələrində də, ruh dərəcələrində də, şüur dərəcələrində də, Özülün İşığı dərəcələrində də büruzə verir.

Dünyanın bütün xalqları daim o işığın axtarışındadı... Amma onlar onu (işığı) özlərindən kənarlarda axtararlar. Və onu nə qədər çox axtararlarsa, bir qədər də ondan uzaq düşərlər...

Şair demiş:

***Dedim axtar, bəlkə taparsan,***
***Bilməzdim bu (axtarış), ayrılığın özüdü...***

Nə qədər qısa danışmağa çalışsam da, söz məndən biixtiyar uzanır.

Eh, dərviş! Əgər bilsəydin bu dünyanın dövriyyəsinə hələ neçə dəfə düşəcəksən, nə qədər mənasız səyahətlər edəcəksən?!.. Neçə dəfə Kainat Qapısının yanından ötüb həyatını, mal-dövlətini küləklərə verəcəksən?!..

Və axı əslində bunların heç birinə ehtiyac yoxdu?!..

Əslinə qalanda, nə zahidliyə, nə fədakarlığa ehtiyac yoxdu. Baş ağrıdan sirləri açmaq üçün göstərdiyin səylərə də ehtiyac yoxdu...

Sənin axtardıqların axtarılmağa dəyməz. Olmayanı axtarmaqmı olar?.. Sirri, o sirrə aparan yolu axtarmaqmı olar?..

Şair burda deyib:

***Ey dünyanın düyününü açmaq arzusuyla ölən ölü!***
***Ey qovuşmadan yaranıb, ayrılıqdan ölən ölü!***
***Ey dənizin sahilində susuzluqdan külə dönən!***
***Ey sərvətin üzərində dilənməkdən ölən ölü!..***

Yaxud:

***Başı nemət dolu səbət,***
***Ac-yalavac qapı döyən,***
***Sənə "heç kim" deyərdim mən.***
***"Səfeh" deyərdim mən sənə.***
***Hər qapını döymə belə,***
***Öz qəlbinin qapısın döy...***

Dərviş, bu söhbətin arif adamla araşdırılmağa ehtiyacı var. Odu ki, axtardığını arif olan kəslə söhbətlərdə axtar, zahidliyi qəbul elə, aza qane ol ki, həyatının qalan hissəsini xoşbəxtlikdə keçirəsən.

Buna qədər mən düşünürdüm ki, insan canlı varlıq olduğuna görə müəyyən zəruri ehtiyaclarını təmin etməkdən ötrü işləməlidi ki, ailəsini dolandıra bilsin, öz qüvvəsi və qabiliyyəti müqabilində zəhmətə qatlaşmalıdı ki, insanlara xidmət etsin, onların həyatına rahatlıq gətirsin.

İndi isə düşünürəm ki, insan üçün zahidlikdən, azla qane olmaqdan savayı, ayrı düzgün yol yoxdu.

Nə bu, nə də o biri dünya ona dəyməz ki, sən bir anlığa belə olsun, çaşqınlığa düşüb nəyə görəsə həyəcan keçirəsən.

O kəs ki zahidlik yolunu, aza qane olmaq yolunu seçib – Şah odur. O kəs ki buna qadir deyil, o – quldur.

Qulla şah arasındakı fərq isə çox böyükdü, dərviş...

## *Birinci fəsil*

Dərviş! Sən özün barədə bildin, öz dərəcələrin barədə bildin.

İndi bunu da bil ki, on iki ən çətin sualın cavabı sənə açıqlandı və izah olundu.

Əvvəla, sən bildin ki, ilk əvvəl dörd ünsür olub, göylər və ulduzlar sonradan yaranıb.

**İkinci:** sən bildin ki, əvvəl mahiyyət olub, ruhlar və şüurlar sonradan yaranıb.

**Üçüncü:** sən bildin ki, göylər də, ulduzlar da, şüurlar və ruhlar da həmin bu mahiyyətin və ünsürlərin törəməsi və qaymağıdı.

**Dördüncü:** sən bildin ki, dərəcə yüngül olduqca, bir o qədər yüksələr və dünyanın mərkəzindən bir o qədər uzaqda qalar.

**Beşinci:** sən bildin ki, yüngül olan da, ağır olan da öz təbiəti (bi-t-tab) etibarı ilə dünyanın mərkəzinə can atar. Belə ki, ağır olan aşağı çökər və dünyanın mərkəzinə yaxın ərazidə qərarlaşar. Yüngül olan isə dünyanın mərkəzindən uzaqlaşar və orada qərarlaşar.

**Altıncı:** sən bildin ki, dünyanın dayaqlandığı nə isə yoxdu (la məxa[1]). Lakin onun (dünyanın) ayrı-ayrı hissəcikləri öz təbiətləri etibarı ilə mərkəzə can atdığı səbəbindən, məkanları dünyanın mərkəzi olar.

**Yeddinci:** sən bildin ki, bədənlər dünyası olan mülk dünyası və ruhlar dünyası olan mələküt dünyası südlə yağ kimi bir yerdədi. Qalib və təslim dərəcələri üzrə mələküt – qalib, mülk – təslimdi.

**Səkkizinci:** sən bildin ki, mülk birdi, lakin onun da dərəcələri var və bu dərəcələrin hər birinin öz adı var. Və eynilə beləcə, mələküt də birdi və onun da öz dərəcələri və dərəcələrinin adları var.

**Doqquzuncu:** sən bildin ki, mülk və ona (mülkə) aid olanlar duyğuyla duyulanlardır və duyğunun onları mənimsəmək qabiliyyəti var.

---

[1] ***La məxa*** – dünyanın yerinin nisbi təyini

Məhz bu səbəbdən yolçular (zahidlər) deyəndə ki "tənhalığa çəkiləndə biz işıq (hilvat) gördük", o işıq əslində onların xəyalıdı. Bu xəyalı onlar işıq kimi qəbul edirlər.

O kəs ki nəyisə uzun müddət gözləyər, hər bir şeydə həmin o arzuladığını görər, onu (arzuladığını) eşidər, yaxud həmin o arzuladığını yuxusunda görər və elə bilər ki, bu gördüyü yuxu deyil.

Bu mənada zahidlərin yuxusu yüngül olar.

Beləcə, zəvvarların da ziyarət vaxtı müqəddəs yerlərdə gördükləri işıq – xəyaldı. Yaxud, onların saxta uydurmasıdı. Şüurun, dərrakənin gözü ilə görünən işıq ya alovun, ya da ulduzun işığı olar.

**Onuncu:** sən bildin ki, mülk də, mələküt də bir özüldəndi və ondan savayı, ayrı özül yoxdu. Bu özül, mahiyyəti etibarı ilə alidi və onun mahiyyətindən yüksəyi, alisi yoxdu. Ümumiyyətlə, ondan yüksək həddə olan nə isə yoxdu. Mövcud olan ayrı mahiyyətlər, xırdalıqlar və hissəciklərdi. Onlar alçaq mahiyyətdi və ondan aşağısı yoxdu.

Mülkdə və mələkütdə mövcud olan hər bir şey, orada mövcud olanların və mövcud olacaqların hamısı həmin o Özüldə mövcud olub, sadəcə, özünü büruzə verməyib.

**On birinci:** sən bildin ki, insan həyatının birinci mərhələsində bilik, iradə, güc, eşitmə, görmə və nitq qabiliyyətləri gerçəkdə olmur. Lakin insan ruhu dərəcələr üzrə doğulduqca, bilik də, iradə də, güc və eşitmə, görmə və nitq qabiliyyəti də gerçək mövcudluq əldə edir. Deməli, kamillik – səbəb (vəch) olan yerdə yaranır.

Şübhə yoxdu ki, bar bütün ağaclardan və ağacın dərəcələrindən nəcib və incədir. Mövcudluğun barı – insandı. Ali Məlhəm,  Misilsiz İksir, dünyanı göstərən Cam, Kainatı tanıdan Güzgü – Kamil İnsandı.  Dünyanın canı olan İşıq da – Odu.

Dünya bu işıqla doludu. İlkin mərhələdə bu işıq gerçək biliyə, iradəyə, gücə malik olmur. Həyatı, biliyi və iradəni, gücü dərəcələr üzrə doğulduqca, tədricən əldə edir.

O işıq öz zahiri təzahüründən xali deyil. Öz zahiri təzahürü ilə südlə yağ bir-birində əriyəntək, qarışıqdı.

Dərəcəsinə görə bu təzahür sadədi. İşığın özü də sadədi. Lakin elə ki onlar hər ikisi dərəcələr üzrə doğularlar, hər ikisinin canında gizlənən keyfiyyətlər üzə çıxar və görklər (nukuş) yaranar.

Burdan anla; o kəslər ki deyirlər “Biz o işığa çatdıq, o işığı gördük; bu, sərhədi, sahili olmayan parlaq bir dənizdi”, yalan deyirlər. O səbəbdən ki, o işığı gözlə görmək mümkün olmaz. Bu işığa yalnız daxili işıqla çatmaq olar. Hisslərin ona (işığa) aparan yolu yoxdu. Şüur bu işıqdan çaşqınlığa düşər.

Badamın tumuna baxıb, yağını görmək mümkündümü? Yaxud südün canında olan yağı gözlə görmək olarmı? Bunu  bilmək olar, anlamaq olar, lakin gözlə görmək mümkün olmaz. Hətta duyğularla qavranılan bu yağı belə, mülk dünyasına aid edilsə də, gözlə görmək mümkün olmaz.

İşığa gəlincə, o, duyğuyla da duyulanlardan deyil. Üstəlik o, mələküt dünyasındandı. Belə olan halda onu necə görə bilərsən?

On ikinci: sən bildin ki, insan əvvəl-axır mənbəyə qayıdır. Mənbənin bu zərrəsi (yəni insan) onun (mənbənin) Bütövlüyünün köməyi ilə öz kamilliyinə çatana qədər doğulmalardan keçərək, öz dərəcəsi üzrə kamilliyinə yetişdikdə bütöv olana – Mənbəyinə qovuşur.

“Ondan baş alıb, Ona da qayıdar” ifadəsinin izahı budu. “Hər bir şey baş alıb gəldiyi mənbəyinə qayıdar” ifadəsinin mənası budu.

Dərviş! Kim ki bu kitabın köməyi ilə özünü dərk etmədi, o kəs heç bir kitabın köməyi ilə özünü dərk etməz. Bu kitabın hər üç hissəsi eyni nöqtəyə vurur, biri o birini

təkrar edir. O kəs ki bu kitabdan sonra özünü dərk etmədi, demək o,  heç nəyi dərk etməyə qadir deyil.

Dərviş, bu Əsildə hər şey deyilib, nəzərdən də heç nə yayınmayıb. Əgər istəsən ki burda deyilənlərdən əlavə nə isə deyilə, bu mümkün olan iş deyil. O səbəbdən ki, burda bir söz olduğu kimi, o biri söz üstüörtülü şəkildə (eyhamla) deyilib ki, anlansın və əlavə izaha ehtiyac yoxdu.

Və bil: o kəs ki öz əvvəlini və axırını dərk edib, o birilərin də, beləcə, əvvəlini və axırını dərk edib özünün və o birilərin pillələrindən və dayanacaqlarından, ölümündən sonrakı halından və o birilərin, ölümlərindən sonrakı halından agah olub, onun üçün gizli olan qalmayıb.

## *İkinci fəsil*

## Kiçik insanın böyük insanın siyahısı və işarəsi olduğu, böyük insanda olan hər bir şeyin kiçik insanda da olduğu və kiçik insanda olan hər bir şeyin böyük insanda da olduğu barədə fəsil

Dərviş, bu ikinci Əsil və onun ardınca gələn üçüncü Əsil təsəvvüf ardıcıllarının dediklərinin məğzidi. Təsəvvüf ardıcıllarının qənaəti isə, mahiyyət etibarı ilə o biri qənaətlərin cəmidi. Onun bir hissəsi Şəriət yolu ardıcıllarının, digər hissəsi  Müdriklik yolu ardıcıllarının, o biri hissəsi Vahidlik yolu ardıcıllarının qənaətlərindən götürülüb. Nələrsə nələrləsə əvəz olunub, bəzi mətləblər yenidən araşdırılıb.

Bil ki, Uca Tanrı mövcud olan hər bir şeyi yaradandan sonra ona  "dünya" (aləm) adı verdi.  O səbəbdən ki, dünya – Onun Mövcudluğunun İşarəsidi (Əlamət).

Bu dünyada mövcudluğunu O, Öz Biliyi, Hökmü, Qüdrəti və Yazısıyla (Namə) bildirər. Dünya məhz bu səbəbdən "İşarə", Yazı, Kitab (Kitab) adlandırılır.

Sonra O: “**Məni, bu kitabı (burda kitab “dünya” mənasını daşıyır) oxuyan kəs dərk edər, Biliyimdən, Hökmümdən, Qüdrətimdən o agah olar”,** – Buyurdu.

İndi, dərviş, bizlər həddən ziyadə kiçik olduq, Kitab isə həddən ziyadə böyük oldu və bizim təsəvvür o Kitabın sərhədlərini, səhifələrini əhatə edə bilmədi. Onda Uca Müəllim (Yaradan) bizim bu zəifliyimizi görüb, dünyanın siyahısını tutdu və bu Kitabı bizlər üçün qısaldılmış hala saldı. İlkin yaratdığına O, “Böyük dünya”, sonradan Yaratdığına “Kiçik dünya” adı Verdi. Birinci kitabı O, “Böyük kitab”, ikinci kitabı “Kiçik kitab” adlandırdı. Böyük Kitabda nə vardısa, O, əlavəsiz və ixtisarsız Kiçik kitaba da köçürdü ki, kiçik kitabı oxuyan kəs böyük kitabı oxumuş olsun*...*

Bundan sonra O, Kiçik dünyaya Öz Xəlifəsini – Yer üzündə Nümayəndəsini, Canişinini Göndərdi. Allahın Xəlifəsi ilkin şüurdu və bu şüur İlahi Əlamətlərinin aşkar təcəssümüdü (məzhar).

O (Yaradan), şüuru Öz Əlamətləri və Əxlaqı (əxlaq) ilə Bəzədi və Öz kiçik dünyasına Göndərdi. Bu səbəbdən deyirlər ki, Uca Tanrı insanı Öz surətində Yaratdı.

Böyük dünyada Allahın Xəlifəsi – İlkin Şüurdu. Bizim şüur isə Allahın kiçik dünyada olan xəlifəliyidi.

## *Üçüncü fəsil*

## Allahın və Onun Xəlifəsinin işləri barədə

Bil ki, Uca və Müqəddəs Yaradan bu dünyada nə isə Yaratmaq İstəyəndə, ilk əvvəl həmin o Yaratmaq Niyyətində Olduğunun görkünü Öz Taxtına yerləşdirər. Sonra Oradan (Taxtından) Dərgahına ötürər, oradan göy cisimlərinin sabitliyini qoruyan lövhələrə, oradan yeddi göyə köçürər. Bundan sonra O, onu (görkü) ulduzların işığıyla uyuşdurar və alçaq dünyaya endirər.

Uca Tanrıdan gələn bu gizli yolçunu (qayibi) alçaq dünyanın sultanı – Təbiət qarşılayar, mahiyyəti müqabilində ona dörd ünsürün daşıyıcısı olan at (mərkab) bəxş edər ki, yolçu aşkar dünyada mövcudluğunu bu atın yedəyində əldə etsin və Allahın Niyyətində Olanı əmələ çevrə bilsin.

Burdan bu nəticə hasil olur ki, şahidlik (şəhadət) dünyasında mövcud olanların ruhu Hökm dünyasından, bədəni Yaradılanlar dünyasındandı.

Bakirə ruh Uca Yaradandan gələndi və o, bu dünyaya gəlişinin məqsədini başa vurandan sonra yenidən geriyə – Öz Allahına qayıdar.

"Ondan baş alıb, Ona da qayıdar" ifadəsinin mənası budu. Allahın Varlığının açması da, Onun həddi, sərhədi olmayan Əlamətlərinin açması da budu.

Dərviş, bil ki, dünya (afaq) barədə bu bildiklərin insana (ənfus) da şamil edilə bilər.

Bil ki, kiçik dünyaya gələn Şüur Allahın Xəlifəsidi. Onun ruhu, Xəlifənin taxtı, heyvan ruhu onun (Allahın Xəlifəsinin) dərgahıdı. İnsan bədənində olan yeddi daxili üzv mahiyyət etibarı ilə yeddi göy, yeddi zahiri üzv yeddi iqlimdi.

Bunu biləndən sonra, onu da bil ki, Allahın Xəlifəsi bir işi həyata keçirmək niyyətinə düşərsə, o işin görkü, ilk əvvəl, Onun (Xəlifənin) ruhunda yaranar. Ordan (Onun ruhundan) heyvan ruhuna ötürülər, heyvan ruhundan bitki ruhuna, bitki ruhundan, mahiyyət etibarı ilə yeddi göy olan daxili əzalarına ötürülər və zahiri əzalarla birgə üzə çıxar. Bu məsələ aşkar dünyada bərqərar olandan sonra Onun (Allahın Xəlifəsinin) niyyəti onun (Allahın Xəlifəsinin) yazısına çevrilər.

Dərviş, bil ki, Allahın Xəlifəsi nə yazarsa, nə edərsə, əvvəl ortaqsız və alətsiz, Özü edər. O, elədiyini öz aləti ilə edər, onun (elədiyinin) görkü sonradan ortağa və alətə çevrilər, üzə çıxar və dünyada bərqərar olar.

Birinci görk – şüurda mövcuddu.

İkinci görk – maddiyyatda mövcuddu.

Birinci görkün mövcudluğu – əsas (əsl) mövcudluqdu.

İkinci görkün mövcudluğu – zahiri (zahir) mövcudluqdu.

Dərviş, Allahın Xəlifəsinin işləri barədə bu bildiklərin Allahın İşlərinə də şamil edilə bilər.

Uca Yaradan (Allah) həyata keçirmək istədiyi bir şeyi, ilk əvvəl, heç nəsiz, alətsiz və ortaqsız Edər. Yaratdığının görkü sonra ortaqlara ötürülər, alçaq dünyaya enər və aşkar dünyada bərqərar olar.

Söhbətimiz yenə uzandı və yenə məqsədimizdən yayındıq.

Dərviş, bil ki, əgər görk qəlbdə aşkar olarsa, Allahın Xəlifəsi tərəfindən göndərilən gizli yolçunu dil qarşılayar və ona (yolçuya) özünə uyğun on iki hərfdən, dörd sözdən və dörd ünsürdən ibarət at bağışlanar. Gizli yolçu o ata minəndə aşkar dünyada bərqərar olar. Gizli yolçu aşkar dünyada bərqərar olandan sonra, Allahın Xəlifəsinin niyyətində olanlar Onun (Allahın Xəlifəsinin) dediklərinə çevrilər. Yazılanlar yenidən səyahətə başlayar və Allahın Xəlifəsinə görüm vasitəsi ilə çatar.

"Ondan baş alıb, Ona da qayıdar" ifadəsinin mənası budu. Qalan hərflər və keyfiyyətlərlə də eyni ilə belə baş verər.

Beləliklə, iki Söz yaranıb. Biri deyilən, o biri yazılandı. Və bil ki, Hökm dünyasından gələn gizli yolçu bu hər iki Sözdə var. Bu yolçunun bədəni Yaradılanlar dünyasındandı, yolçunun özü isə hər iki Sözün mənasını təşkil edər.

Söhbətimiz çox uzandı və bizi məqsədimizdən yayındırdı. Məqsədimiz isə bu idi ki, izah edək ki, böyük dünyada nə varsa, o, kiçik dünyada da var.

## *Dördüncü fəsil*

Bil ki, bətnə düşən toxum ilkin özülün işarəsidi (namudar). Dörd hissəsi üzrə o, ünsürlər və təbiət işarəsidi.

Bədən üzvləri yaranarkən xarici əzalar: baş, əllər, qarın, ayaqlar və sair, mahiyyət etibarı ilə yeddi iqlimin işarəsidi.

Daxili əzalar isə, ağ ciyər, beyin, böyrəklər, ürək, dalaq, öd kisəsi ilə qara ciyər, mahiyyət etibarı ilə yeddi göyün işarəsidi.

Ağ ciyər – birinci göydü və Ay göyünün işarəsidi. O səbəbdən ki, Ay böyük dünyanın ağ ciyəridi və biliyin ortağıdı. Bu göydə çoxlu sayda mələklər yaşayır. Bu mələklərə bilik və düzgün məişət idarəçiliyi qazanılmasına nəzarət edən mələk – Cəbrayıl başçılıq edir.

Cəbrayıl dünya sakinlərinin biliklənməsinin səbəbidi. O, üçüncü göyün böyrəyi, Zöhrə göyünün işarəsidi. O səbəbdən ki, Zöhrə böyük dünyanın böyrəyidi. O göydə (Zöhrə) də çoxlu sayda mələklər yaşayır. Bu mələklərə sevincə, şənliyə, ehtirasa nəzarət edən mələk başçılıq edir. Bu mələk dördüncü göyün qəlbi, Günəş göyünün işarəsidi. O səbəbdən ki, Günəş böyük dünyanın ürəyidi.

O göydə (Günəş) də çoxlu sayda mələklər yaşayır. Bu mələklərə həyata nəzarət edən mələk – İsrafil başçılıq edir. İsrafil dünya sakinlərinin həyatının səbəbidi. O, beşinci göyün öd kisəsi, Mərrix göyünün işarəsidi. O səbəbdən ki,  Mərrix böyük dünyanın öd kisəsidi.

O göydə də çoxlu sayda mələklər yaşayır. Bu mələklərə qəzəbə, hiddətə, cinayətə nəzarət edən mələk  başçılıq edir. Bu mələk altıncı göyün  ciyəri, Müştəri göyünün işarəsidi. O səbəbdən ki, Müştəri böyük dünyanın ciyəridi.

O göydə də çoxlu sayda mələklər yaşayır. Bu mələklərə qidalanmaya  nəzarət edən mələk – Mikayıl başçılıq edir. Mikayıl dünya sakinlərinin qidalanma səbəbidi.

O, yeddinci göyün dalağı, Saturn göyünün işarəsidi. O səbəbdən ki, Saturn böyük dünyanın dalağıdı.

O göydə də çoxlu sayda mələklər yaşayır. Bu mələklərə ölənlərin ruhlarının götürülməsinə nəzarət edən mələk – Əzrayıl başçılıq edir. Əzrayıl özü də onlardan (mələklərdən) biridi. O, dünya sakinlərinin ruhlarının alınma səbəbinin özüdü.

Heyvan ruhu dəyişməz göy cisimləri göyünün işarəsi və taxtıdı. O göydə də çoxlu sayda mələklər yaşayır.

İnsan ruhu o səbəbdən Göylər Göyünün taxtı və işarəsidi ki, Göylər Göyü böyük dünyanın taxtı və Allahın Xəlifəsinin intellektidi. O səbəbdən ki, İlkin İntellekt böyük dünyada Allahın Xəlifəsidi.

## *Beşinci fəsil*

## Yolun (suluk) nə demək olduğu və yolçunun (saliq) yol niyyəti barədə

Bil ki, "suluk" ərəb dilində, ümumiyyətlə, "yerimək" deməkdi. Bu o deməkdi ki, yolçu o kəsə deyilir ki, o ya aşkar dünyada, ya da gizli dünyada daim səyahət edir.

Təsəvvüf ardıcıllarının qənaətinə görə suluk xüsusi növ səyahətdi. Bu, Allaha aparan yol üzrə və Allahın Özündə səyahətdi.

Dərviş, bil ki, Allaha səyahətin sonu var, Allahda səyahətin isə sonu yoxdu. Əgər bu dediklərimi anlamaq sənə çətindisə, qoy ayrı cür deyim.

Bil ki, təsəvvüf ardıcıllarına görə, suluk – pis sözlərdən yaxşı sözlərə, pis əməllərdən yaxşı əməllərə, naqis xislətdən kamil xislətə, öz mövcudluğundan Allahın mövcudluğuna olan hərəkətdi. Yəni ziya (qavrayış) şüaları yolçuya yalnız o, xoş sözlər, xoş əməllər, xoş xislət qazanandan sonra toxunar və o, hər şeyi olduğu kimi dərk edər.

“İlahi! Mənə hər şeyi olduğu kimi göstər” sözünün mənası da budu. Məna aydınlaşandan sonra qavrayış, malik olduğu qabiliyyətini açıb göstərəndən və qavrayış dərəcələri üzrə kamilliyə çatılandan sonra, yəni, hər şey olduğu kimi görünüb, tanınıb dərk ediləndən sonra, bu o deməkdi ki, yolçu artıq öz mövcudluğunda ölmək üzrədi və tezliklə Uca Allahında doğulacaq.

Hərçənd bəzi hallarda elə də olur ki, yolçu öz mövcudluğunu itirir, amma ona elə gəlir ki, o mövcuddu. Yolçuların arzu etdiyi də, məqsədi də budu. Axtaranların axtardığı, yol gedənlərin şövqü də budu.

Beləliklə, varlığı etibarı ilə insan olan yolçunun kamilliyi dörd amildən qaynaqlanar: xeyirxah sözlər, xeyirxah işlər, xeyirxah xislət və dərk. Hər kəs ki bu deyilənlər üzrə kamillik qazandı, demək, arzusuna çatdı.

Dərviş! Bil ki, bütün yolçular bu dörd amil üzrə istədiklərinə çatarlar, amma hər kəs bir dərəcədə. Yüz minlərlə yolçudan yalnız biri yola çıxar və bu dörd amil üzrə ucalar və kamillik dərəcəsini yalnız o qazanmış olar. Qalanları isə kamillik dərəcəsinə çatmadan yolda təslim olarlar, geriyə çəkilər, kamillik qazanmaq ümidllərindən əl üzərlər.

## *Altıncı fəsil*

## Məqamlar və örtüklər barədə

Dərviş, bil ki, özündən kənara atılası nə varsa, bu, örtüklərdi (hicab), qazanılası nə varsa, o, məqamlardı.

Məqamlar barədə bunu bildikdən sonra, indi onu da bil ki, onlara yetişmək yolunda dörd maneə, dörd sədd var. Bu, əmlaka bağlılıq, ailəyə bağlılıq, kor-koranə təqlid və barışmazlıqdı.

Bu yolda məqamların da kəmiyyəti dörddü: xeyirxah sözlər, xeyirxah əməllər, xeyirxah xislət və xeyirxah fikirlər.

Oh, dərviş! Həmin bu dörd örtük, məqamlara yetişməzdən əvvəl aradan qaldırılmalıdı. Ayrı sözlə desək, həmin bu dörd örtükdən xilas, təharatın[1] bir növüdü ki, həyata keçirilməsi mütləq vacibdi.

Bu örtüklərin hər biri dəstəmaza, yuyulub təmizlənməyə ehtiyaclı olan bədən əzasına bənzər. Məqamların hər biri isə namaz rükətlərindən[2] birinə bənzər ki, həyata keçirilməsi mütləq vacibdi.

Əvvəl təharat, sonra namaz. Əvvəl təmizlənmə, sonra ziyalanma. Əvvəl ayrılma, sonra qovuşma. Bir tərəfdə ölməyən o biri tərəfdə doğulmaz.

Rahatlıq istəyirsənsə, əməldə öl. Əməldə ölə bilmirsənsə, rahatlıq arzulama. Özündə ölə bilmirsənsə, Allahı axtarma. Nə o, nə də bu başa gələn məsələ deyil.

Bu maneələri aradan qaldıra bilənlər, əbədi təharatdadılar. Məqamları əldə edənlər əbədi namazdadılar.

Dərviş, bu dörd örtüyü aradan qaldırıb, həmin o dörd məqama yetməyin dörd üsulu var. Bu, tərki-dünyalıq, az yemək, az yatmaq və az danışmaqdı. O ki qaldı arif olan kəsə, yolçu yaxşı bilməlidi ki, nə etmək istəsə, arif olan kəslə birlikdə etməlidi.

Dərviş, bil ki, bütün səhvlərin, kin-küdurətin səbəbi – çox yeməkdi. Nəfsini saxlamaq – bu gün çox yeyib, sabahı gün yeməkdən imtina etmək demək deyil. Bu cür nəfs saxlamağın xeyirdən çox zərəri var. Bəziləri bir neçə gün az yeyib nəfslərinə qalib gələrlər, o biri günlər isə yeməkdə əndazəni aşarlar. Yeməkdən bu sayaq qorunma faydasızdı və bil: bu sayaq qeyri-sabit qidalanma sağlamlığı məhv edər.

Nəfsin daima sabit saxlanılması vacibdi. Bunsuz, yolda heç bir nəticə hasil olunmaz.

---

[1]***təharat*** – namazdan əvvəl yuyunma (dəstəmaz)
[1] ***rükət*** – namaz vaxtı deyilən sözlər üzrə edilən dörd vacib hərəkət

Dərviş, yolda iki məqam daha vacib sabitlik tələb edər ki, onlarsız yol başa çatmaz. Bunun birincisi, arif kəslə daimi ünsiyyət, ikincisi, nəfsin sabit saxlanması.

Yolçunun yeməyinin də, yuxusunun da məqsədi olmalıdı.

## *Yeddinci fəsil*

## Yolçunun yoldakı məqsədi barədə

Dərviş, vacib məqamlardan biri də budu ki, səyyahın tərki-dünyalıq və zahidlik yolunda məqsədi Allahı axtarmaq olmasın. O səbəbdən ki, O (Allah), hər yerdə və hər şeydədi. Onu axtarmağa ehtiyac yoxdu.

Mövcud olan hər bir şey Ondandı. Əbədiyyət də Ondadı, hər bir şeyin qayıdışı da Onadı. Bundan da savayı, olan nə varsa, yenə O Özüdü.

Bunu da bilmək vacibdi ki, yolda məqsəd saflığa və xeyirxah xislət qazanmağa can atmaq deyil. Həmçinin də biliyə, dərkə can atmaq deyil. İşığa da can atmaq deyil, sirlərin dərkinə də can atmaq deyil.

Hər kəs insan dərəcələrinin müxtəlif pillələri üzrə, yol boyu qazandığı dərəcəyə çatdıqca, o dərəcəyə aid olan nə varsa, özü ona əyan olacaq; yolçu bunu istəsə də, istəməsə də. Və heç bir kəsə dərəcəsində olmayan nə isə əyan olmaz.

Dərviş, insanların da ağaclar kimi dərəcələri var. Bağbanın vəzifəsi torpağı qaydasında, yumşaq saxlamaqdı; onu alaqdan, tikanlardan təmizləyib, vaxtlı-vaxtında suvarmaq, zədələrdən və ziyanvericilərdən qorumaqdı ki, ağacların hər biri öz dərəcəsi üzrə yetişə bilsin və hər biri öz barını vaxtında versin.

Yolçunun da işi bundan ibarətdi ki, seçdiyi zahidlik, tərki-dünyalıq yolu onu insana çevirə bilsin ki, bütün dərəcələr

yol uzunu özünü büruzə verə bilsin. Xeyirxah xislət, bilik və dərk, sirlərin anlanması və işıq əyanları yolçunun arzusundan, niyyətindən asılı olmadan, məqamı yetişdikcə ona əyan olsun. Yola qədəm qoymuş hər bir kəs bu sözlərin mənasını a-nlayacaq.

Dərviş! Bil ki, yol uzunu yolçuya elə məqamlar əyan olacaq ki, onu gözlər görməyib, qulaqlar eşitməyib, təsəvvür onu qavramaqda acizdi...

Sözü uzatmayaq ki, məqsədimizdən yayınmayaq.

Dərviş, yolçunun qəlbi o qədər geniş olmalıdı ki, bu məqamlara sağ ikən çata bilsin, yolu şad-xürrəmliklə keçib, cidd-cəhdlə çalışıb, öz niyyətinə yetə bilsin. Axı Allahın Biliyinin, Müdrikliyinin sonu, sərhədi yoxdu?!..

Dərviş, ağacların dərəcələri onların toxumunda mövcuddu və fərasətli bağban onları bəsləyib yetişdirəcək.

Eyni ilə beləcə, saflıq da, xeyirxah xislət də, bilik və qavrayış, sirlərin anlanması və işıq əyanları da hər kəsin mahiyyətində var. Bu keyfiyyətləri arif olan kəslə ünsiyyət hərəkətə gətirər, yetişdirib sahibini öz kamillik dərəcəsinə çatdırar.

Dərviş, əzəli və son bilik sənin özündə, gizlidədi. Nə axtarsan, özündə axtar, kənarları dolaşma. O bilik ki sənin qəlbinə qulaqlarından yol tapar, bil ki, o özgə quyusundan çıxarılmış bilikdi. Bu, suyu qurumuş quyuya kənardan tökülən suya bənzər. Belə bilik sənin quyunda qalmaz. Və nəinki qalmaz, çox tezliklə iylənər, bədənində xoşagəlməz, ağır fəsadlar yaradar. Bu, həmin o xəstəliklərdi ki, sonradan təkəbbürə çevrilər, səndə şan-şöhrətə ehtiyac yaradar.

Bil ki, heç bir xəbər sənin öz gözlərinin gətirdiyi xəbərlə müqayisəyə gəlməz. Elə et ki, öz quyunda su olsun və sən o sudan istədiyin qədər işlədəsən, ondan o birilərə də

paylayasan və o azalmasın, əksinə, çoxalsın; iylənməsin, əksinə, qaldıqca durulsun, səndə olan xəstəlikləri sağaltsın.

Dərviş, bunu bil ki, hər bir insanın – o kim olursa olsun – içində öz quyusu var, amma o quyu bilinməz. Quyunu təmizləmək, suyu üzə çıxarmaq lazımdı.

## *Səkkizinci fəsil*

## Öyüd əvəzi

Dərviş, onu da bil ki, əgər özünü məqamlar həddinə çatdıra bilmirsənsə, öz məqamlarının gündən-günə dəyişən keyfiyyətlərini müşahidə edə bilmirsənsə, "gözlərin görmədiklərinə, qulaqların eşitmədiklərinə, insan qəlbinin tanımadıqlarına" fasiləsiz diqqət kəsilə bilmirsənsə, daim Uca Haqqın yaxınlığında, Ona yaxın məkanda – uca Cənnətdə ola bilmirsənsə, onda çalış, səy göstər, Uca Yaradanı seyr edə biləsən, Onun Gözəlliyi ilə təmasa girə biləsən ki, öz mövcudluğunun cəhənnəmindən qurtulasan, İlahi mövcudluğun cənnətinə yetişə biləsən.

Duz mədəninə düşən – duza çönər, çirkaba düşən – çirkaba. Odu ki, natəmizdən – natəmiz yaranar, safdan – saf.

İlk əvvəl özünü duruldub təmizlə ki, yaratdığın da təmiz olsun.

Dərviş, özünü əndazəsiz pəhrizin əsarətinə salma, dualara və ziyarətlərə hədsiz uyma, zəruri olan işlərini yerinə yetir. Çoxlu söz öyrənmək, ilahiyyat elmini mənimsəmək, müdriklərin müdrikliyini qavramaq azarına düşmə, zəruri olanlarla qane ol.

Özünü o buxovla buxovla ki, qəlbin həqiqi saflıq qazansın. Bil ki, Cəhənnəm sakinlərinin iztirabı qəlb saxtalığından və naqisliyindən çox-çox güclüdü. Xeyirxahlığın və saflığınla seçil ki, xilas olmuşlardan olasan. Əgər bütün bu deyilənlər sənə çətin gəlirsə, bil ki, yerin Cəhənnəmdi.

Elə et ki, səndən daim sən özün də bilmədən yaxşılıq və xeyirxahlıq saçsın. Kin və ədavət saçanlardan olma ki, bu dünyanın şər və yalan daşıyıcılarından olmayasan. Amalın – həqiqət, əməlin xeyirxahlıq olsun. Yalnız o halda sən Allahın Keyfiyyətləri ilə bəzənmiş olacaqsan, dərviş. Xeyirxahlıq edə-edə, elədiklərinə əvəz, mükafat, minnətdarlıq gözləmədən hər zaman, hər yerdə hamıya xeyir gətirəcəksən.

Borclu olan sənsən. Saf qəlbli o kəsdi ki, daim insanlara rahatlıq, əminamanlıq gətirir, onlara sözlə, əməllə, əmlakla xeyir verməkdən boyun qaçırmır.

Qəlbi naqis o kəsdi ki, insanları incitməkdən, onlara iztirab verməkdən həzz alır, onları əməli və sözü ilə incidir.

Xeyirxahlıqla bədxahlığın mənasını biləndən sonra, onu da bil ki, kim qəlbini saflaşdıra bilibsə, Cəhənnəmdən xilas olub, Cənnət sakininə çevrilib.

Cəhənnəmdən qurtulub Cənnət sakinliyi qazanan kəs ali məkanlara can ata bilər. Ayrı sözlə desək, Cənnət sakininin qəlb kamilliyi yolunda məkanlardan mənimsədikləri Cənnətin ərazisini genişləndirər.

Dərviş! Bu təhqiqat yol gedənə Yolun əvvəlindən sonunacan kifayət edər.

Dünyalar Şahı olan Uca Allaha eşq olsun. Böyük Məhəmmədə və onun bakirə nəslinə rəhmət olsun ki, kitab əmin-amanlıqla başa yetdi.



# MƏTNDƏ İSTİFADƏ OLUNAN İZAHA EHTİYACLI SÖZLƏRİN ŞƏRHİ

**1. Dərviş** – kasıb, dilənçi. Əziz əd-din bu müraciəti mistik qavrayış yoluna qədəm qoyanlara ünvanlayır.

**2. Mülk dünyası** – maddi məkan, hisslərlə qavranılan bədənlər dünyası.

**3. Məlakūt dünyası** – ideal məkan, arxetiplər və qeyri-maddi obyektlər dünyası.

**4. Cəbərüt** – mülk və məlakūt dünyasının mənbəyi, hər iki dünyanın fərqlərinin aradan qaldırıldığı, hər iki dünyanın ayrılmaz birlikdə mövcud olduğu dünya.

**5. Ululəzm peyğəmbərləri** – yeddi əsas peyğəmbər: Adəm, Nuh, İbrahim, Musa, Davud, İsa, Məhəmməd.

**6. Peyğəmbər-mürsəllər** – Müqəddəs Yazını bəşəriyyətə çatdıranlar: Yaqub, Yusif, Əyyub və başqaları.

**7. Peyğəmbər-ənbiyə** – üçüncü dərəcəli peyğəmbərlər. Müsəlman ənənəsində 315 peyğəmbər qeydə alınıb.

**8. Məqam** – yer, ərazi, dayanacaq; Əziz əd-din tərəfindən insan dünyaları iyerarxiyasının göstəricisi kimi istifadə edilir.

**9. Rəsullar** – ikinci dərəcəli peyğəmbərlər.

**10. Xəlifə** – əvəz edən, canişin, sərdar.

**11.Sirat** – Cəhənnəmin üzərindən keçən körpü. “Tükdən nazik, qılıncdan iti Sirat…” Quran, (37:23).

**12. Təsəvvüf** – sufilik.

# MƏHƏMMƏD ƏBU HAMİD ƏL-QƏZALİ





İslam dünyasının seçilən nüfuz sahibi, böyük din mütəfəkkiri, “Hiccat-ül İslam” (İslamın dəlili) ləqəbini qazanmış imam Məhəmməd əl Qəzalinin irsi şərqşünaslıq elmində “Qəzalianə” adı altında ayrıca sahə kimi hələ də tədqiq edilməkdədir. Dünya mədəniyyəti tarixinə, sufizmlə ilahiyyatçılığı bir-birinə qovuşduran aparıcı ilahiyyatçı kimi daxil olmuş Qəzali İlahi dərki insan ruhunun kamillik yolunu Allaha aparan Yol üzrə özünəməxsus dəyərlərlə müəyyənləşdirib təsdiqə yetirən böyük din mütəfəkkiri hesab edilir. Yüksək nüfuzuna görə İslam dünyasında Məhəmməd peyğəmbərdən sonra, İslamın beşinci əsrinə yenilik gətirən ikinci böyük müsəlman kimi dəyərləndirilir.

Qəzalinin həyatını əks etdirən materiallarda belə bir qısa bioqrafik məlumata rast gəlinir: “...Xorasanın Qəzali kəndində doğulub. Müəllimi, dövrünün görkəmli ilahiyyatçısı Əl-Cüvayni olub. Gənc Qəzalinin unikal qabiliyyətləri ilk dəfə 1091-ci ildə, onu Bağdadın baş mədrəsəsində fiqhdən (islam hüququ fənni) dərs deməyə dəvət edən səlcuq vəziri Nizam əl-Mülk tərəfindən aşkar edilib. Lakin naməlum səbəblər üzündən (bəzi mənbələr bunu mütəfəkkirin psixi durumu ilə əlaqələndirir), dörd ildən sonra o, tutduğu vəzifədən imtina edərək Bağdadı tərk edir və sonrakı on bir ilini tərki-dünya dərvişlik həyatını sürməyə başlayır. 1106-cı ildə Qəzali hansısa səbəbdən yenə dərs deməyə, lakin bu dəfə Nişapur şəhərinə qayıdır. Və çox keçmir ki, yenə hər şeydən imtina edib geriyə dönür, öz hücrəsinə – tənhadığa çəkilir və özünü ölən gününədək sufi praktikasına həsr edir...”

Digər mənbələrdə Qəzalinin həmin dövrlərdə baş verənlərlə bağlı belə bir yazısı nəzərə çarpır:

"...Özümü kənardan müşahidə etdikcə, düşdüyüm vəziyyətimin mənim üçün təhlükəli olduğunu, günü-gündən məni əhatə edən hər bir şeyə, yer həyatından əldə etdiklərimə bağlandığımı anlamağa başladım. Özümə və əməllərimə kənardan diqqət eləməyə başladım və anladım ki, mənim üçün yeganə münasib iş insanlara dərs vermək, onları bilikləndirməkdi. Bir qədərdən sonra isə anladım ki, bu biliklərin nə bu, nə də o biri dünyada mənə fayda gətirmək qabiliyyəti yoxdu. Onda mən insanlara bilik vermək istəyimin niyyətini xatırladım və anladım ki, bunu Allah yolunda yox, özümə şan-şöhrət, ad-san qazanmaqdan ötrü edirəmmiş. Və anladım ki, uçurumun kənarındayam, həyatımı dəyişməsəm, yerim Cəhənnəmdi. Odu ki, hər şeyi atıb, Bağdaddan çıxmaq qərarına gəldim. Bu qərarım mənim nəfsimə xoş gəlmədi, nəfsim mənə müqavimət göstərməyə başladı və mən ipə-sapa yatmayan ehtiraslarım və xudpəsəndliyimlə o biri dünyanın çağırışlarının arasında qaldım..."

Həmin dövrlər – maddi dünyanın cazibəsi ilə "o biri dünyanın çağırışları" arasında qalan Qəzali elə bir xəstəliyə tutulur ki, çörək yeməyə, ağzını açıb söz deməyə belə taqəti çatmır. "...Məni yoluxmağa gələnlərin qəlblərini ovutmaq xatirinə, bircə günlüyə də olsa, mədrəsəyə gedib dərs deməyə çalışdımsa da, əlimdən bir şey gəlmədi. Dilim söz tutmurdi, səbəbi mənə məlum olmayan izaholunmaz həyəcan və sarsıntıların əsarətində qalmışdım. Yemək yeyə bilmirdim. Hər şey, niyəsə, acı tamırdı... Bədənim tamamilə heydən düşmüşdü və heç bir həkim dərdimə çarə tapa bilmirdi. Onda mən, çarəsiz bəlaya düçar olmuş kəs kimi üzümü Hamıdan Uca Yaradana tutdum... və O, Onu çağıran hər bir kəsin səsinə səs verən kimi, mənim də yalvarışlarımı eşitdi, qəlbimə təpər verib, məni şan-şöhrət və qazanc azarından qurtardı. Halım yüngülləşdi.

Mən sağaldım. Dost-tanışlarıma Məkkəyə köçdüyümü elan edib, hər şeyi buraxıb, ailəmə və özümə zəruri olanları götürüb Əş-Şam (indiki Suriyanın ərazisi) şəhərinə köçdüm".

Qəzalinin bu gedişi nəticəsiz qalmır. Bu şəhərdə o, Mötəbərlər Cərgəsi deyilən Nəqşbənd təriqəti silsiləsi üzrə yeddinci şeyx Əbu Əli Əl-Fərmadi ilə tanış olur və onun nəzarəti altında "ət-təsəvvüfün" pillələri üzrə Allaha xidmət etmək dərəcəsi qazanır. O birilərdən gizli qalanlar ona açılır... və Qəzali axır ki, "səadət" deyilən uca məqama qovuşur.

Qəzalinin əsas əsəri "İnam barədə elmlərin bərpası" ("İhya ülüm əd-din" – 1872) adlı nəhəng xülasəsidir ki, Allahın rasional dərkinin, əlçatmaz həqiqət olduğu səbəbindən, qeyri-mümkünlüyü ideyasının inkişafına həsr edilib. Qəzaliyə görə, Allahın dərki yalnız ekstatik həyəcan (vəcd) yolu ilə mümkündür ki, bunun da əsasını insan ruhunun allahabənzərliyi və intuitivliyə əsaslanması təşkil edir. Qəzaliyə görə, ruh da Allah kimi laməkandır. Dünya isə azad ilahi aktın nəticəsidir. Məşhur Nişapur alimi, ilahiyyatçı Məhəmməd ibn Yəhya demişkən: "Şüur intellektinin kamillik səviyyəsinə çatan, yaxud çatmaqda olan kəslərdən savayı, bu dünyada heç kim imam əl Qəzalinin mahiyyətini və onun qabiliyyət imkanlarını müvafiq səviyyədə anlayıb qavramaq iqtidarında deyil".

***"Biz biliyi Allaha görə axtarmağa başlamadıq. O Özü istədi ki, biz bunu Ondan ötrü edək".***



# OĞLUMA MƏKTUB

***Mərhəmətli, Rəhmdil Allahın adıyla.***
***Dünyaları Yaradan Uca Allaha eşqlə.***
***Allahdan qorxanlara asan sonluq təvəqqesi ilə.***
***Onun Peyğəmbəri Məhəmmədə və onun nəslinə xeyir-dua ilə.***

Bil ki, bir şagird öz şeyxinə – İslam dünyasının tanınmış nüfuzu, imam Zeyn-əd-Dinə sədaqətlə xidmət edirdi. Həmin bu şeyx Əbu-Hamid Məhəmməd əl-Qəzali idi (Allah onun ruhunu işıqlandırsın). Bu şagird oxuduğu elmlərin bir çox incəliklərini qavrayanacan və özünü bütün ruhi məziyyətlərlə bəzəyənəcən öz şeyxinə şagirdlik edirdi. Günlərin bir günü bu şagird həyatı və sonu barədə düşünübdaşınandan sonra özü-özünə dedi: “Mən elmlərin müxtəlif növlərinə yiyələndim, ömrümün ən yaxşı illərini bu bilikləri toplayıb mənimsəməyə sərf etdim. İndi bilməliyəm ki, bu öyrəndiklərimin hansı biri mənə sabahkı günümdə kömək olacaq, qəbir mənzilimdə keçirəcəyim dövrümü yüngülləşdirəcək. Bu məsələlərdə mənə fayda gətirməyəcək biliyi bir kənara qoyacağam”. Allahın rəsulu (Allahın xeyir-duası

ondan əskik olmasın) demişkən: "Ay Allah! Mən Sənə tərəf heç bir fayda götürmədiyim biliyim sarıdan qaçıram..."

Bu fikir şagirdə rahatlıq vermir və o, hörmətli şeyxinə – İslam dünyasının nüfuzlu siması olan Məhəmməl əl-Qəzaliyə (Allah ona rəhmət eləsin) məktub yazıb, ona bu barədə məsləhət verməsini, bir neçə sual verib, bu suallara cavab göndərməsini və dua öyrətməsini xahiş edir: "...Baxmayaraq ki hörmətli Şeyxin "İhya" ("Dirilmə") və digər əsərlərində bu suallarıma cavablar var, istərdim ki, Şeyx mənə lazım olanları – ömrüm uzunu çətin məqamlarımda mənə dayaq olacaq məsləhətlərini bir neçə səhifədə yazsın ki, bu dünyadakı həyatım ərzində Allahın köməkliyi ilə onları yerinə yetirim".

Və Şeyx, Allahdan nə gizlin, ona cavab olaraq aşağıdakı məktubu yazdı:

"Əziz və sevimli oğlum. Allah sənin Ona sitayişdə keçən ömrünü uzatsın və qoy O, səni Öz sevimlilərinin yolu ilə aparsın.

Bil ki, hər bir nəsihət, məsləhət Yazının əsasında var və əgər sənə Ondan olan nə isə çatıbsa, mənim deyəcəklərim sənə nə verəcək? Yox, əgər çatmayıbsa, onda mənə de ki, yola saldığın illər ərzində sən nə əldə edə bilmisən?

Ey oğul, Allahın rəsulunun (Allah onu şad eləsin!) öz icmasına verdiyi məsləhətlərdən tək bu sözlər alimlərə kifayət edər:

"Allahın öz bəndəsindən imtina etdiyinin sübutu – bəndənin Onun üçün (Allah üçün) əhəmiyyətsiz olan işlərlə məşğul olmasıdır. Və həqiqətən də, bircə saatını belə sitayişdə keçirməyən insan, (halbuki o, bu dünyaya bundan ötrü gəlib) ömrünü kədər və iztirab içində keçirməyə layiqdi. Və o kəs ki qırx yaşına çatıb və yaxşı əməlləri pis əməllərini üstələməyib, qoy Cəhənnəmə hazır olsun".

Oğul, məsləhət vermək asan, onları yerinə yetirmək çətindi. O səbəbdən ki, məsələhət, öz tamah və arzularının

quluna çevrilənlərə, qəlbləri qadağaları sevənlərə acı gələr. Bu, ələlxüsus köklü biliklərə can atanlara və öz nəfslərinin məqbulluğu naminə bu dünyanın yolları ilə gedənlərə aiddi. Onlar hesab edirlər ki, bu dünyada qazandıqları biliklər öz-özlüyündə onları xilas edəcək, Cəhənnəmdən qurtaracaq. Onların xeyirxahlıq eləməyə ehtiyacları yoxdu. Bu, əsasən, filosofların gəldiyi qənaətdi. Böyük Allaha eşq olsun! Bu xudpəsəndlər anlamırlar ki, bilik qazansalar da, əgər bu qazandıqları onlar üçün müvafiq deyilsə, bu bilik onlara qarşı daha kəskin dəlilə çevriləcək. Allahın rəsulu (Allah onu şad eləsin!) demişkən:

***"Qiyamət günü ən ağır iztirabı Allahın verdiyi bilikdən istifadə etməyən alim çəkəcək..."***

Və Cünayd barədə (Allah onun qəbrini nurlandırsın) danışırlar ki, ölümündən sonra bir nəfər onu yuxuda görüb soruşanda ki "Nə var, nə yox, Əbül Qasim?", o belə cavab verib: "...ifadələri itirmişəm... bütün işarələr yox olub... təkcə gecə yarısı qıldığımız namazların bir neçə rükətindən savayı, heç nə karımıza gəlmədi..."

Odu ki, oğul, xeyirxah əməllərdən və tutduğun mövqedən məhrum olmaqdan çəkin və bil ki, biliklər özləri özbaşına köməyinə gəlməyəcək. Buna misal bu ola bilər ki, bir adam səhralıqla gedir və üstündə on ədəd hind qılıncı və ayrı növ silahlar daşıyır. Bu adam cəsur əsgərdi. Lakin əgər bu səhrada onun qarşısına nəhəng şir çıxıb üstünə atılarsa, səncə, o neyləməlidi? Əgər o, üstündəki silahlardan istifadə etməsə, onları hərəkətə gətirib şirə həmlələr endirməsə, bu silahlar onun nəyinə gərəkdi?

Məlum məsələdi ki, silahlar o halda işə yarayır ki, onları tərpədirsən, hərəkətə gətirirsən. Və beləcə, insan da əgər o, minlərlə elmi mətləbi mənimsəyərsə və hətta onları əzbərləyərsə belə, həyatda, əməldə tətbiq etməsə, bu biliklər ona heç bir fayda gətirməycək.

Bunu sarılıq xəstəliyinə tutulmuş qızdırmalı adamın müalicəsi ilə də müqayisə etmək olar. Bu xəstəliyi sirkədə turşudulmuş balla və digər dərmanlarla müalicə etməsən, iş aşmaz. Sən də, əgər sən yüz il bilik əldə etsən, minlərlə kitab oxusan belə, xeyirxah əməllərin olmasa, Allahın rəhmi nəsibin olmayacaq.

***“Bircə ruh belə, o biri ruhun yükünü çəkməyəcək. Hər ruh öz yükünü çəkəcək”.*** (Quran 55:38).

***“Qazandıqlarının əvəzi verilsin”*** (Quran 9:82).

***“Həqiqətən, inananların və əməlisalehlərin qisməti Cənnət bağları olacaq. Onlar orda əbədi yaşayacaqlar və özləri üçün heç bir dəyişiklik istəməyəcəklər. Qalanları elədiklərinin altını çəkəcəklər (ya ağır iztirablara düçar olacaqlar, ya qanmazlıqları müqabilində cəzalandırılacaqlar, yaxud ayrı pisliklərlə üzləşəcəklər), tövbə edənlərdən və inanıb haqq yoluna tapınanlardan savayı. Yalnız bu kəslər Cənnətə daxil olacaq. Onlarla haqsız rəftar edilməyəcək”*** (Quran 19:59-60).

Buna nə deyəcəksən?

Bildiyin kimi, “İslam beş sütuna əsaslanır: Allahdan savayı ayrı allahlıq yoxdur, Məhəmməd Allahın rəsuludur, duaların qorunub saxlanması, zəkat verilməsi, Ramazan vaxtı oruca əməl olunması və uzaq yolu başa vura bilənlər üçün Həcc ziyarəti.

İman (inam) – dillə deyilən sözdü, onun (deyilənin) təsdiqi – qəlblə və ətraf əzələlərlə əmələ yetirilənlərdi. Bunun sübutları saya-hesaba gəlməzdi və bil ki, bəndə Cənnətə yalnız Allahın Rəhmi ilə, onun Səxavəti ilə düşər və bu, tabe olub itaətə gələndən sonra baş tutar. O səbəbdən ki: ***“Allahın Rəhmi xeyirxah əməl sahiblərinə yaxın məsafələrdədi”.*** (Quran 7:66)

Və əgər kim soruşsa ki “bunu (Allahın Rəhmini) tək bir inam yolu ilə də qazanmaq olar?”, biz cavab verərik ki, “bəli, olar”. Lakin o yolun axırına nə vaxt çatılacaq? Və

axıra çatanacan nə qədər keçilməz maneələri adlamaq lazım gələcək? Bu maneələrdən birincisi – inam maneəsidi. Sonacan qoruyub saxlaya biləcəkmi o kəs inamını? Və əgər o kəs yolun axırına çatacaqsa, uğursuzluğa düçar olub heç nə ilə qalmayacaq ki?.. Müqəddəs imam Həsən əl-Bəsri demişkən:

“Allah Qiyamət günü öz bəndələrinə deyəcək: “Buyurun, Mənim bəndələrim, Mənim Mərhəmətimlə Cənnətə daxil olun və Onu öz aranızda öz əməllərinizə görə bölüşdürün.”

Odu ki, oğul, əgər sən xeyirxah əməllər etməsən, mükafatın verilməyəcək. Deyirlər İsrail qəbiləsindən olan bir adam Uca Allaha yetmiş il ərzində itaət edibmiş. Və Uca Allah onu mələklərə təqdim etmək istəyibmiş. Bu məqsədlə o adamın yanına Öz elçisini – mələyi göndəribmiş, onu xəbərdar etsin ki, bütün itaətlərinə baxmayaraq, o, Cənnətə daxil olmağa layiq deyil. Bu xəbərdarlığı alandan sonra o adam elçiyə: “Biz itaət üçün yaranmışıq və itaət etməliyik”, – deyə cavab verib. Mələk geriyə qayıdandan sonra Allaha: “Mənim Tanrım, sən məndən yaxşı bilirsən o nə dedi”, – deyib. Və Uca Allah deyib:

“Əgər o, Bizə itaətdən imtina etməyibsə, Biz də bütün Mərhəmətimizlə ondan imtina etməyəcəyik. Şahid olun ki, mələklər, Mən onun günahlarından keçdim”.

Və Allahın rəsulu (Allah onu şad eləsin!) belə deyib:

“Sizi sorğu-suala tutmazdan əvvəl özünüz-özünüzdən hesabat istəyin. Əməllərinizi ölçülüb-biçilməmişdən əvvəl özünüz ölçüb-biçin”.

Və Əli (Allah ondan razı olsun!) deyib: “Kim düşünürsə ki, çalışmadan, səy göstərmədən Cənnətə çatacaq, o, boş xülyalarla yaşayır. O kəs ki düşünürsə Cənnətə, çəkdiyi əzablara və səylərə görə düşəcək, o kəsin heç nəyə ehtiyacı yoxdu”.

Əl-Həsən isə[1] (Uca Allahın ona rəhmi gəlsin!) deyib: "Cənnətə əziyyətsiz can atan kəs günahının birini də artırar". Və deyib: "İnsanın düzgün yolla getməsinin birinci əlaməti – onun dünya işlərinə baş qoşmaması yox, onun bu işlərə əhəmiyyət verməməsidi". Və Allahın rəsulu (Allah onu şad eləsin!) deyib:

"Uzaqgörən o kəsdi ki, özünü ölümdən sonrakı halına borc verir. Axmaq o kəsdi ki, öz həzzlərinin quluna çevrilir və Allahdan arzuladığını gözləyir".

İndi bax, oğul, gör bir nə qədər gecələrlə sən yatmadın, oxuyub öyrənə-öyrənə yuxuna haram qatdın!? Bilmirəm, buna səni nə vadar elədi? Əgər bu, yer sərvətlərini, yer həyatının şad-xürrəmiliyini əldə etməkdən ötrü, burda yüksək mövqe tutmaqdan, özünə oxşayan yaşıdlarının arasında lovğalanmaqdan ötrü idisə, səni bəla gözləyir. Böyük bəla... Yox, əgər bununla sən Peyğəmbərin (Allah onu şad eləsin!) qoyduğu qanunları bərpa etmək, özünü tərbiyə etmək, pisliklər yaymağı əmr edən nəfsinə qalib gəlmək istəyirdinsə, səni mükafat gözləyir; böyük mükafat. Və bu beyti deyən haqlıdı:

Əgər bu gözlər Səndən savayı ayrı bir kəslə yuxulayırsa, bu, itkidi. Və əgər bu gözlər Səndən savayı, ayrı nədən ötrü ağlayırsa, bu, səhvdi.

Oğlum, necə istəyirsən, elə yaşa, onsuz da ölüsən. Nəyi, ya kimi istəyirsən sev, ondan ayrılacaqsan. Ürəyin istəyəni et. Həqiqətən, elədiyinin əvəzini görəcəksən.

Oğul, əgər sən İlahidən qüdrətli yaranmamısansa, illahiyyatı, onun fikir ayrılıqlarını, tibbi, şeir kitablarını, şeir yazmağı, ulduzları, qafiyələri, sintaksisi, morfologiyanı öyrənmək sənə nə verəcək?..

[1] *İmam Həsən əl-Bəsri*

Həqiqəti mən İsanın İncilində gördüm: Mərhum qəbrə qoyulanadək və qəbrə qoyulandan sonra Allah öz Qüdrəti ilə ona qırx sual verir. Bunun birincisi:

“Ey Mənim bəndəm, uzun illərdi ki, sən insanların gözündə yaxşı olmağa çalışdın. Amma bircə saat düşündünmü ki, Mənim gözümdə yaxşı olasan?”

Allah hər gün sənin qəlbinə nəzər salır və deyir: “Mənim nemətlərimdən bəhrələnib, sən o birilər üçün çalışırsan. Sən karsan, heç nə eşitmirsən...”

Oğul, əməlsiz bilik – dəlilikdi. Biliksiz əməl də yoxdur. Bil ki, əgər o bilik bu gün səni pis işlərdən çəkindirmir və itaətə sürükləmirsə, sabah o bilik səni Kaftar Odunun Alovundan da qurtarmaz. Və əgər bu gün sən biliyini əmələ çevirməsən və ötüb keçənlərin əvəzini verməsən, sabah: “Bizi geriyə qaytar ki, saleh əməl sahibi olaq”, – deyəcəksən. Onda sənə: “Səfeh, sən ki indicə ordan gəlirsən...” – deyəcəklər.

Oğul, bütün qüvvəni ruhuna yönəlt, nəfsinə zərbə vur və unutma ki, bədən ölümlüdü, sən əvvəl-axır məzara düşəcəksən. Məzar sakinləri isə daim səni gözləyir ki, nə vaxt onların yanına gələcəksən? Onların yanına ehtiyatsız getməkdən çəkin. Ədalətli Əbu Bəkr (Allah ondan razı olsun) deyib:

“Bu bədənlər quşlar üçün qəfəs, heyvanlar üçün xəz örtükdür. Odu ki fikirləş, bunların hansı birinə aid olduğunu özün üçün ayırd elə”.

Və əgər sən uca göylərdə süzən quşlardansansa, onda zirvələrin daha yüksəklərinə – Cənnətə çatanacan qalxacaqsan. Allah rəsulunun (Allah onu şad eləsin!) “Öz Allahına qayıt...” çağırışını eşidib “Sə’d ibn Mu’əzanın[1] ölümündən Mərhəmətlinin dərgahı lərzəyə gəldi – dediyi kimi.

Allah bizləri heyvanlar qismində olmaqdan qorusun. Uca Allah demişkən: ***“Onlar heyvana bənzərlər, lakin***

---

[1] ***Səd ibn Mu’əza*** – Peyğəmbərin davamçılarından biri

***onlardan betər azmışlardı onlar..."*** (Quran 7-179). Və düşünmə ki, evinin küncündən Cəhənnəmin uçurumuna düşmək mümkün deyil.

Danışırlar ki, Həsən əl-Bəsriyə (Allahın ona rəhmi gəlsin) içməkdən ötrü bir qurtum su verirlər. O, stəkanı əlinə alırsa da, qəfildən huşunu itirib əlindən yerə salır. Ayılanda ondan soruşurlar: "Sənə nə oldu belə, Əbu Səid?". O cavab verir: "Mən Cəhənnəm əhlinin Cənnət əhlinə: ***"Üstümüzə su, yaxud Allahın sizə bəxş etdiyindən tökün", – deyərkən, qəlblərindəki istəyin şiddətini duydum..."*** (Quran 16:50)

Oğul, əgər oxuyub öyrəndiyin elmlər öz-özlüyündə kifayət olsaydı və sənin bundan savayı xeyirxah işlər görməyə ehtiyacın olmasaydı, onda: "Diləyən varmı? Günahının yuyulması üçün yalvaran varmı? Peşman olub tövbə edən varmı?" – müraciətləri mənasız və faydasız olardı.

Danışırlar ki, mücahidlərdən kimsə (Allah ondan razı olsun!) Allah rəsulunun (Allah onu şad eləsin!) hüzurunda Abdulla ibn Öməri yada salarkən o deyib: "Əgər duasını oxusaydı, o, insanların ən yaxşısı olardı."

Və o, (behiştlik olsun) öz məsləkdaşlarından birinə bunu da deyib: "Gecələr çox yatmamalısan. Çünki gecə saatlarının çoxunu yuxuda keçirmək ona gətirib çıxarır ki, insan Qiyamət günü heç nə ilə qalır".

Oğul, ***"gecənin bir hissəsini ayıq qalıb, əlavə namazlar vaxtı namaz duasını oxu"*** (Quran 17:70) – bu əmrdir. ***"Sübhdən əvvəl isə onlar günahlarının yuyulması barədə yalvararlar"*** (Quran 51:18) – bu, minnətdarlıqdır. ***"Sübh çağı da günahlarının yuyulmasını xahiş edərlər"*** (Quran 3:17) – bu zikrdir. O, (behiştlik olsun) həmçinin deyib:

"Sübh çağı üç səda Uca Allaha xoş gələr: "xoruzun banı, Quran oxuyanın avazı və sübh çağından əvvəl günahlarının yuyulmasını yalvaranların səsi".

Sufiyan Əs-Səuri (Allah ona rəhmət eləsin) deyib: “O, (Qüdrətli və Böyük Allah) küləyi sübh çağından əvvəl əsib, zikr və istiğfarı toplamaq, Əzəmətli Allaha çatdırmaqdan ötrü yaratdı”. Bunu da deyib: “Gecə  düşərkən, Dərgahın o üzündən iman əhlinə belə müraciət olunar: “İtaət edənlər ayağa qalxsınlar”. Qəlblərində Allah sevgisi olanlar yuxudan oyanıb, Allaha lazım olan qədər dua edərlər. Sonra həmin o səs gecənin ortasında bir də çağırar: “Qoy Allaha inananlar ayağa qalxsınlar”. Onlar yuxudan ayılar və sübhəcən dua edərlər. Gecənin sonu çatanda, dərgahın o üzündən yenə müraciət olunar: “Qoy günahlarının yuyulmasını istəyənlər ayağa qalxsınlar”. Onlar yuxudan oyanar və Allahdan günahlarının yuyulmasını diləyərlər. Günəş doğanda isə: “Qoy əhlikeflər ayağa qalxsınlar”, – deyə, müraciət olunar. Onlar yataqlarından – qəbirlərdən qalxan ölülər kimi qalxarlar”.

Oğul, deyilənə görə, Müdrik Loğman öz vəsiyyətlərində deyib: “Oğul, imkan vermə xoruz səni qabaqlasın. O banlayıb, gecənin başa çatmasını xəbər verəndə, sən niyə yuxuda olmalısan?”

Oğul, bil ki, əsl bilik, ilk növbədə, itaətin və pərəstişin nə demək olduğunu dərk etməkdi. Və bil ki, itaət də, pərəstiş də Şəriətin sözdə və əməldə buyurduqlarına və qadağa qoyduqlarına riayət etməkdi. Bu o deməkdi ki, sənin dediklərin, eləyib-eləmədiklərin Şəriət yoluna zidd olmamalıdı. Məsələn, əgər sən orucu təşriq günləri tutsan, bununla qanunu pozmuş olacaqsan. Yaxud, duanı, ayrı bir adamın geyimində oxusan, zahirən bu, itaət olsa da, cəzalanacaqsan.

Oğul, sənin sözlərin də, əməllərin də Şəriətə ona görə uyğun olmalıdı ki, Şəriətə əməl edilmədən qazanılan biliklərin və görülən işlərin hamısı yanlışlıqdır. Bu mənada, sən sufi məclislərinə, bu məclislərdəki bihuşluq məqamlarına da uyma.

Bu yol, məhz yuxarıda dediyim səbəbdən, cihad tələb edir. Nəfsi tərbiyə qılıncıyla kəsmək gərəkdi, boşboğazlıq və uydurmaçılıqla yox.

Onu da bil ki, göndərdiyin bəzi suallara nə yazıyla, nə də sözlə cavab vermək mümkün deyil. Əgər sənə həmin o vəziyyətə düşmək müyəssər olarsa, sən ONUN nə olduğunu anlayacaqsan, əgər yox, bu barədə heç nə bilə bilməyəcəksən. O səbəbdən ki, ONU yalnız duyub anlamaq mümkündü və bütün bunları şirin olanın şirinliyi, acı olanın acılığı dadılmasa bilinməyəntək, sözlə ifadə etmək mümkün olmaz.

Deyirlər, bir nəfər zəif adam öz dostuna məktub yazır və soruşur: "Mənə izdivac vaxtı duyulan həzz barədə yaz; bu, necə olur?" Dostu ona belə cavab yazır: "Mən elə bilirdim, sən sadəcə, zəif adamsan, sən demə, üstəlik səfehsənmiş də. Çünki dediyin o həzzi, yalnız duyub anlamaq olar. Əgər qismət olarsa, sən bunun nə olduğunu biləcəksən, əgər yox, bil ki, bunu nə sözlə, nə də yazıyla ifadə etmək mümkün olmaz."

Oğul, sənin bəzi sualların buna bənzəyir. Bəzilərinə isə cavab vermək mümkündü. Beləliklə, Yolçuya (Allahın Yolu ilə gedənlərə) dörd məqama əməl etmək mütləq vacibdi:

**birinci:** düzgün inam (hər hansı əllaməçiliksiz);

**ikinci:** səmimi tövbə. O tövbə ki, ondan sonra buraxılan səhvlərə yol bağlıdı;

**üçüncü:** sənə dost olmayanların könüllərinin alınması. Belə ki, heç kimə borclu qalmayasan;

**dördüncü:** Şəriət biliyinin Allahın buyurduqlarına əməl etməyə imkan verən səviyyədə əldə olunması, daha sonra xilasa aparan qalan biliklərin əldə olunması.

Deyilənə görə, Əş-Şibli (Allah ona rəhmət eləsin!) – hansı ki dörd min "müəllimə" xidmət edirdi – deyib: "Mən dörd min hədis oxudum. Onların içindən yalnız birini seçib, o biriləri bir kənara qoydum və seçdiyimin ardınca getdim. O

səbəbdən ki, onu canımla qavradım və anladım ki, mənim xilasım da, qurtuluşum da ondadır. Bu hədis birincilərin və sonuncuların bildikləridi. Mən elə bununla kifayətləndim".

Bu isə, Allahın rəsulunun (Allah onu şad eləsin!) öz ardıcıllarından birinə dediyidir:

"Bu dünya həyatında, orda qaldığın müddət üçün çalış və nə qədər ki ordasan, o dünyadakı həyatın üçün də çalış. Allah naminə, Ona olan ehtiyacının qədərində çalış. Cəhənnəmdən qurtulmaqdan ötrü, Ona tab gətirəcəyinin müqabilində çalış".

Oğul, tək bir bu deyilənin həqiqətini olduğu qədərində dərk etsən, sənə elə də çox bilik lazım olmayacaq.

Diqqətli ol və digər əhvalatları da dinlə. Məsələn, deyilənə görə, Hətim Əl-Əsamm Əş-Şakiq Əl-Bəlahhiyin (Allah onların hər ikisinə rəhmət eləsin!) dostu olubmuş. Bir dəfə o, o birinə belə bir sual verib: "Sən otuz ildi mənim yolumla gedirsən. Bu vaxt ərzində nə isə əldə edə bilibsənmi?" O biri cavabında belə deyib: "Mən bu yolda səkkiz faydalı mətləb anlamışam ki, onların mənə verdiyi bilik kifayətimdi. Ümidvaram ki, xilasım da, qurtuluşum da onlardadı". Onda Şakiq ondan soruşub: "Nədi dediyin o səkkiz mətləb?" Və Hətim Əl-Əsamm onları sadalamağa başlayıb.

Birinci – mən yarananları tədqiq etdim və gördüm ki, onların hər birinin sevdiyi, ya vurulduqları sevgililəri var. Və baxıb gördüm ki, bu sevgililərdən bəziləri insanı ölümünəcən müşayiət edir, bəziləri məzarının kandarınacan. Onlardan heç biri onunla bir qəbirə daxil olmur, dəfn mərasimi bitib başa çatandan sonra hamısı geriyə qayıdır, onu orda tək qoyur.

Mən bu barədə çox düşündüm və öz-özümə dedim: insanın sevdiklərindən ən yaxşısı, onunla bir qəbir evinə daxil olub, orda tənhalığını bölüşəndi. Çox düşünüb-daşındım və bunun xeyirxah əməllərdən, haqq işlərindən savayı

ayrı bir şey olmadığını anladım və onları özümə sevgili seçdim ki, mən qəbir evinə düşəndə çırağım olsunlar, oranın zülmət qaranlığını işıqlandırıb, məni tək qoymasınlar.

İkinci – mən gördüm ki, insanlar öz arzularının quluna çevrilirlər və nəfslərini nəyin hesabına olur-olsun, doyurmağa can atırlar. Onda mən Uca Allahın: ***“O kəs ki öz Allahının hüzurunda durmağın qorxusundan agahdı və özünü ehtiraslardan qoruya bilib, yeri Cənnət olacaq”*** (Quran 79:49-41) kəlamını xatırladım və bir daha anladım ki, Quran səmimi həqiqətdi. Mən Uca Allaha (Ona eşq olsun!) itaətə gəlib, Onun yolçusu olmayanacan öz nəfsimlə mübarizə aparmağa başladım, ona istədiklərini vermədim.

Üçüncü – mən gördüm ki, hər bir insan Yer həyatının müvəqqəti nemətlərindən bacardıqca çox yığır, sonra o yığdıqlarını ovuclarında möhkəm-möhkəm saxlamağa çalışır. Onda mən Uca Allahın: ***“Sizdə olan əriyib gedəcək, Allahın olan əbədi qalacaq”*** (Quran 16:96) kəlamını əzbərlədim. Və bütün qazandığımı Allahın adıyla kasıb-kusuba payladım ki, Uca Allahın hüzurunda dayananda, heç olmasa bu, dadıma çatsın”.

Dördüncü – mən gördüm bəzi adamlar belə hesab edirlər ki, onların qəbiləsi, yaxud nəsli adlarına şərəf gətirir və bununla çox qürurlanırlar. Digərləri düşünür ki, bu şərəf onlara mal-dövlətləri və övlad bolluğu gətirir, bununla fəxr edirlər. Bəziləri hesab edir ki, alicənab və şərəfli olmağın yolu – insanların olan-qalanını əllərindən almaq, onlarla ədalətsiz rəftar etmək, qanlarını tökməkdi. Bir qisim adam isə hesab edir ki, insana var-dövlətini xərcləyib yelə vermək şərəf gətirir və sair. Və mən Uca Tanrının: ***“Aranızda ən şərəflisi – Allahdan qorxanıdı...”*** (Quran 49:13) – kəlamını yaddaşımda saxladım. Allahdan qorxmaq yolunu

seçdim, Quranın əsl həqiqət olduğuna inandım. Qalanlarının fikirləşib, ehtimal edib gəldikləri qənaətlərinsə, puç əfsanədən savayı, ayrı bir şey olmadığını dərk etdim”.

Beşinci – mən gördüm ki, insanlar bir-birinin dalınca danışıb qeybət edirlər və anladım ki, onlar bir-birlərinə var-dövlətə, mövqeyə və biliyə görə paxıllıq edirlər. Odu ki, Uca Tanrının: **“Onların bu dünyada mövcudluq vasitələrini Biz müəyyənləşdirdik”** kəlamını bir də diqqətlə oxudum və anladım ki, Uca Allah hər bir şeyi, hələ bizlər olmayan Sonsuz Əbədilikdə, ruhları yaradanacan müəyyənləşdirib və mən Uca Allahın mənim üçün müəyyənləşdirdiyindən məmnun olub, daha heç kimə paxıllıq eləmədim.

Altıncı – mən gördüm ki, insanlar bir-birləri ilə hansı səbəblərə görəsə, yaxud nəyinsə üstündə mübarizə aparırlar və mən Uca Allahın: ***“Həqiqətən, sizə düşmən olan varsa, o da İblisdi. Ona düşmən kimi yanaşın”*** (Quran 35:6) kəlamını diqqətlə oxudum və anladım ki, İblisdən başqa kimsəylə düşmən olmaq olmaz.

Yeddinci – mən gördüm ki, hər kəs yaşamaqdan ötrü lazım olan-olmayan vəsait və yemək əldə etməyə çalışır və bu yolda əvvəl-axır xoşagəlməz, yaxud haram əməl tələsinə düşür, özünü biabır edir, ləyaqətini alçaldır. Onda mən Böyük Haqqın bu kəlamını diqqətlə oxudum: ***“Yer üzündə elə bir canlı məxluq yoxdu ki, Allah onu qida ilə təmin etməsin”*** (Quran 11:6). Və anladım ki, məni yedirdən Allahdı, bu məsuliyyəti O, Öz üzərinə götürüb. Odu ki, tək bir Ona sitayiş eləməyə başladım və Ondan savayı kiməsə, nəyəsə arxalanmağı, nə isə arzulamağı tərgitdim.

Səkkizinci – mən gördüm ki, hamı insanlar tərəfindən düzəldilmiş nələrəsə arxalanır. Bəziləri dinar – dirhəmə, bəziləri mal-dövlətinə, əmlakına, kimsə işinə, sənətinə, kimsə özü kimi bir varlığa. Onda mən Böyük Haqqın bu kəlamını diqqətlə oxudum: ***“Allaha arxalanana tək bir O bəsdi.***

***Allah Öz işini axıracan aparır. O, hər kəs üçün onun öz ölçüsünü müəyyənləşdirib"*** (Quran 65:3). Və mən təkcə Allaha arxalanmağa başladım, tək bir O, mənə kifayət oldu. Bu Uca Hami necə qüdrətlidir?!

Bundan sonra Şakiq dedi: "Allah köməyin olsun. Həqiqətən, mən Tövratı, İncili və Quranı oxumuşam. Bu dörd kitab həmin bu səkkiz faydaya əsaslanır. Kim ki, bu səkkiz faydaya uyğun hərəkət edir, bu dörd kitabda deyilənləri yerinə yetirir".

İndi, oğul, bu iki əhvalatdan aydın oldu ki, sənin çoxlu biliyə ehtiyacın yoxdu. İndi isə sənə izah edim ki, haqq yolu ilə gedənə nə lazımdı.

Bil ki, yolçunun ilk növbədə Şeyxə – verəcəyi tərbiyə ilə onu mənfi xasiyyətlərdən uzaqlaşdıracaq, onların əvəzinə müsbət keyfiyyətlər əldə etməyə sövq edəcək mürşidə ehtiyacı var. Bu tərbiyə, mənasına və əhəmiyyətinə görə, əkdiyi əkini yan-yörəsində bitən alaqdan, kol-kosdan təmizləyib, onun rahat böyüməsinə, çiçəklənməsinə çalışan kəndlinin əməyinə bənzəyir. Yolçunun Şeyxə ehtiyacı var ki, onu tərbiyə etsin və Uca Tanrının Yolu ilə aparsın. O səbəbdən ki, Allah Haqq yolunu göstərməkdən ötrü, bəndəsinə öz rəsulunu göndərdi. O (Allah onu şad eləsin!) gedəndən sonra isə Uca Allaha aparan Yolu göstərmək üçün öz yerində canişinini qoydu. Allahın rəsulunu əvəz edən Şeyx – alim olmalıdı. Lakin hər alimdən canişin çıxmaz.

İndi mən sənə Şeyx ola bilən kəsin bir neçə ümumi əlamətlərindən danışacağam ki, hər kəs özünü mürşid hesab etməsin.

Biz deyirik: bu, o kəsdi ki, yer həyatına bağlılığını, yüksək mövqeyini bir kənara qoyub, Bilənin – silsilə ardıcıllığı ilə ötürülmüş Şeyxinin ardınca gedir. Bu ardıcıllıq (ruhi bağlılıq) Cənab Rəsulacan (Allah onu şad eləsin!) davam etdirilir. O, daim öz üzərində çalışır, yeməyinin, yuxusunun

və danışığının azaldılması, duaların, fitrələrin, orucun çoxaldılması üzrə işləyir. Və həmin o həqiqi Şeyxin ardınca gedərək, o, özünə səbr, duaçılıq, şükranlıq, qanelik, ümid, möhkəm bilik, zahidlik, ruh sabitliyi, xeyirxahlıq, ölçü həddi və başqa keyfiyyətləri aşılayır. Və əgər bu adam Peyğəmbər (Allah onu şad eləsin!) nuruyla nurlanıbsa, bu halda onun ardınca getmək olar. Lakin belə insan nadirdir. Bu dünyada ona qırmızı kükürddən az rast gəlinər. O kəsə ki bu xoşbəxtlik üz verib və o belə bir Şeyxi tapıb, ona həm zahirən, həm də daxilən dərin ehtiram bəsləməlidi. Zahirən ehtiram bəsləmək o deməkdi ki, əgər o kəs dəqiq bilsə də ki, Şeyxi səhvə yol verir, onunla mübahisəyə girişməməlidi. Öz xəlçəsini (namaz vaxtından savayı) onun qarşısında sərməməlidi, namazı bitirən kimi, xəlçəsini də tez yığışdırmalı və bilməlidi ki, Şeyxinin yanında artıq hərəkətə yol verək olmaz. O, öz qüvvəsi və imkanı daxilində Şeyxinin ona dediklərinə əməl etməlidi. Daxili ehtiram isə o deməkdi ki, Şeyxdən eşidib-bildiklərini o, nə qəlbində, nə hərəkətlərində, nə də sözlərində inkar etməməlidi. Yoxsa ikiüzlülük qazanacaq. Əgər o, bunu edə bilmirsə, yaxşısı budu, Şeyxindən uzaqlaşana qədər daxili aləmini zahiri davranışı ilə uyğunlaşdırsın. O, həmçinin, pis adamlarla ünsiyyətdə olmaqdan çəkinməlidi ki, qəlblərinə iblislər və cinlər hakim kəsilən insanların təsirindən uzaq olsun, şeytanların hökmünü zəiflədib, iblislərin çirkabından təmizlənib kasıblığı varlılıqdan üstün tuta bilsin.

Daha sonra, bunu da bil ki, təsəvvüfün (sufiliyin) iki hissəsi var: Uca Allahla düzgün təmas və Haqq yolunda istiqamə[1], dözümlülük və insanlarla səbrli davranma.

---

*[1] Uca Allahın buyruğunun bütün maraqlardan üstün tutulması*

O kəs ki Allaha qarşı (O Qüdrətli və Böyükdür) özünü düzgün aparır və insanlarla düzgün rəftar edir, onlara xeyirxahlıqla yanaşır, o sufidi. İstiqamə – Uca Allahın buyruğunun öz maraqlarından üstün tutulması deməkdi. İnsanlarla yaxşı rəftar isə, onları öz şəxsi nəfsinin arzuladığını eləməyə məcbur etməmək, əksinə, onların Şəriətə zidd olmayan istəklərinə uyğun hərəkət etməkdi.

Sonra sən məndən pərəstiş barədə soruşdun. O da özündə üç mərhələni cəmləyir:

***birinci –*** Şəriətin buyurduqlarına əməl etmək;

***ikinci –*** Uca Allahın dəyişilməz əmri ilə qane olmaq;

***üçüncü –*** Allah naminə öz şəxsi məmnunluğundan imtina etmək.

Sən məndən mərhəmət barədə soruşdun. Bu o deməkdi ki, sən Uca Allahın verdiyi Sözə inanırsan ki, alnına yazılanlar mütləq şəkildə baş verəcək. Hətta Yer üzünün bütün insanları bir yerə yığışıb hamılıqla buna mane olmaq istəsələr belə. Və o şey ki sənin alnına yazılmayıb, o heç vaxt baş verməyəcək; əgər bütün dünya çalışsa da ki, o baş versin.

Sən məndən səmimiyyət barədə soruşdun. Bu o deməkdi ki, sən elədiyin hər bir şeyi səmimiyyətlə, Uca Allahın adıyla edirsən və sənin qəlbin insanlar tərəfdən sevinmir, onların tənqidinə əhəmiyyət vermir. Və bil ki, özünü göstərmə (öyünmə) – insanları bütləşdirməkdən, onlara yüksək qiymət verməkdən irəli gəlir. Sən insanlara, Allahın iradəsinə tabe olan bəndələr kimi baxmaqla axmaq xasiyyətindən xilas ola biləcəksən. Belədə sən onların nə sevincin, nə kədərin səbəbi ola bilməyən cisim olduğunu dərk edəcəksən və bu səni, onların qarşısında öyünüb, özünü göstərmək azarından xilas edəcək. Yox, əgər sən düşünürsənsə ki, onlar müstəqil və qüdrətlidirlər, onda bu öyünmə azarından qurtula bilməyəcəksən.

Oğul, sənin digər suallarına mən öz əsərlərimdə cavab vermişəm, o cavabları orda axtar. Bəzi suallarına cavab vermək isə günahdır. Sənə məlum olanlara əməl elə və onda o məlum olmayanları anlayacaqsan.

Oğul, məndən, anlamadıqlarının cavabını yalnız qəlbinin dili ilə soruş. Axı Hamıdan Uca: ***"Əgər onlar sənin aşkar olmağını gözləyib səbr etsəydilər, özləri üçün yaxşı olardı"*** (Quran 49:5) – deyib. Və Əl-Hizrin (Allah ona rəhmət eləsin) bu vəsiyyətindən nəticə çıxar*:* ***"Məndən heç nə barədə soruşma, vaxtı yetişəndə o barədə özüm səni agah edəcəyəm"*** (Quran 18:70). Və onun agah olunacağının vaxtı gəlib çatmayınca tələsmə. Vaxt yetişəndə o özü sənə açılacaq və sən onu görəcəksən. ***"Mən sizlərə Öz əlamətlərimi göstərəcəyəm. Məni tələsdirməyin"*** (Quran 21:37). Odu ki, vaxtı çatmayınca, **onu** məndən soruşma və bil ki, sən bu suallarının cavabını yalnız o halda tapacaqsan ki, öz üzərində çalışacaqsan. Axı Uca Tanrı: *"**Məgər onlar Yer üzüylə səyahət etməyiblərmi və görməyiblərmi?"*** (Quran 35:44) – deyib.

Oğul, Allahın adıyla səndən xahiş edirəm: səyahət elə və sən çox möcüzələr  görəcəksən. Ruhunu qurban ver və Zünnum Əl-Misri (Allah ona rəhmət eləsin) öz şagirdlərindən birinə demişkən: "Əgər sən ruhunu qurban vermək halındasansa buyur, əgər yox, onda sufilərin məşğuliyyəti ilə məşğul olma".

Oğul, sənə səkkiz şeyə əməl etməyi məsləhət görürəm. Onları məndən qəbul et ki, əldə elədiyin biliklər Qiyamət Günü sənin düşməninə çevrilməsinlər. Onlardan dördünə əməl elə, qalan dördünü isə bir kənara qoya bilərsən.

Kənara qoya biləcəklərin:

**birinci –** imkan daxilində heç kimlə, heç bir məsələdə mübahisə eləmə. O səbəbdən ki, bir çox bəlaların kökü bundan yaranır və bunun cəzası faydasından böyükdü.

Bütün səhvlərin – gözəgirmənin, paxıllığın, özündən bədgümanlığın, ədavətin, düşmənçiliyin, lovğalığın və sairənin təməli burdan yaranır. Bəli, əgər sənin kiminləsə, yaxud bir dəstə adamla mübahisən yaranıbsa və əgər sən həqiqətin zəfər çalmağını, itməməyini istəyirsənsə, mübahisə etmək olar, lakin bu istəyin də iki əlaməti var. Birincisi odu ki, sənin üçün mübahisənin təklikdə aparılması cəmiyyət içində aparılmasından üstün olsun.

Qulaq as, sənə bir faydalı şey də deyim: bil ki, mübahisəni yaradan səbəb – qəlb xəstəliyidir, ona cavab isə müalicənin başlanğıcıdır. Və bil ki, qanmazların qəlbi xəstəliklərdən zədəlidi. Alim-həkimlər və biliyi yetərincə olmayan alimlər onların bu xəstəliyini müalicə edə bilmirlər. Və hətta biliyi kifayət qədər olan alim də bütün xəstəlikləri sağaltmaqda acizdi. O, müalicəyə gələni və düzələ biləni müalicə edə bilir, lakin əgər xəstəlik dərinə işləyibsə, o halda həkimin ustalığı – xəstəliyin sağalmaz olduğunu və ondan qurtulmaq səylərinin mənasız vaxtöldürmə olduğunu xəstəyə deyə bilməsidi.

Bunu da bil ki, cahillik xəstəliyinin dörd növü olur: onlardan yalnız birini sağaltmaq mümkündü, qalanını yox. Müalicəyə gəlməyənlərdən biri budur ki, insan suallarını verir, lakin içindəki paxıllıq və ədavət hissindən onlara verilən cavabları inkar edir. Cavablar düzgün və dolğun olduqca, aydın və səlis dildə ifadə edildikcə onun nifrəti, ədavət və paxıllıq hissi daha da güclənir. Salamatı odu ki, beləsinə cavab verməyəsən. Bu barədə deyilib axı?! "Nifrətin və düşmənçiliyin bütün növlərindən qurtulmaq olar, tək bir paxıllıqdan doğan düşmənçilikdən savayı".

Çalış, belə insandan uzaq gəz, onu öz xəstəliyinin öhdəsinə burax. Uca Allah deyib: ***"Bizim Xatırlatmalardan və bu dünyanın həyatından savayı heç nə diləməyənlərdən üz çevir"*** (Quran 53:29). Paxıl insan bütün

sözləri və əməlləriylə öz Əməl Ağacında alov qalayır. Və Peyğəmbər (Allah onu şad eləsin!) deyib: “Paxıllıq – xeyirxah əməlləri alov quru ağacı odlayantək əridib yoxa çıxarır”.

**ikinci:** əgər kiminsə qəlb xəstəliyinin səbəbi – axmaqlıqdırsa, bunu da sağaltmaq mümkün olmaz. İsa (Allah ona rəhmət eləsin!) demişkən: “Mən həqiqətən ölüləri dirildə bilirəm, səfehləri isə müalicə edə bilmirəm”. Görürsən, kimsə az bir müddət ərzində bilik almaqla məşğul olur, yəni ilahiyyat elmlərindən və Şəriətdən nə isə öyrənir, sonra suallarını verib öz səfehliyi ucbatından bütün ömrünü İlahiyyatı və Şəriəti tədqiq etməyə həsr edən böyük bir alimin dediklərini inkar edir. Bu səfeh heç nə bilmir və düşünür ki, onun üçün çətin olan, böyük alim üçün də çətindir. Və əgər o bunu anlamırsa, demək, verilən sualı da onun səfehliyindən irəli gəlir. Beləsinə cavab verməyin əziyyətinə dəyməz.

**və üçüncü:** əgər həmin o kəs anlaya bilmədiyi böyük kəlamlar üçün açar axtarırsa, o bunu öz faydası üçün soruşur. Lakin bununla belə, o ağılsızdır axı... və eşidəcəyinin mahiyyətini anlamaq iqtidarında deyil?!.. Belələrinə də cavab verməyə dəyməz. Allahın Rəsulu (Allah onu şad eləsin!) demişkən: “Biz peyğəmbərlərə buyrulub ki, insanlarla onların qavrama dərəcələrinə görə rəftar edək”.

Bu sayaq xəstəliklərin yeganə müalicəyə gələni o növüdü ki, insan özü ağıllı və anlayandı, məsləhət istəyir. Paxıllıq, qəzəb, mövqe, var-dövlət hərisliyi onu yolundan azdırmayıb. Əgər o, haqq yolu ilə getmək istəyirsə, paxıllıq, yaxud sınamaq məqsədi ilə sual verib, aldığı cavabları inkar etmirsə, bil ki, bu, sağalan xəstəlikdi. Beləsinə cavab verə bilərsən, hətta bunu eləməyə borclusan.

İkinci imtina eləməli olduğun məqam: müəllim, yaxud moizəçi olmaqdan çəkin. O səbəbdən ki, dediklərinə

əvvəl özün əməl edib, sonra insanları o yola dəvət etməsən, bu, başına çoxlu bəlalar gətirər.

Gör ki, Uca Yaradan İsaya (Allah ona rəhmət eləsin) nə deyilib: **“Məryəmin oğlu, əvvəl özünü agah et ki, sonra insanları agah edəsən. Bunu edə bilməsən, öz Allahından utan”.**

Yox əgər, sənə belə bir sınaq nəsib olubsa, onda iki şeydən çəkin:

**birinci:** nitqində sünilikdən və artıq sözlərdən.

Bu, irəli sürəcəyin mülahizələrə dair şeirlərdən, yaxud ayrı mənbələrdən gətirəcəyin misallara da aiddi. O səbəbdən ki, Uca Allah saxtalığı və oyunu sevməz. Riyakarlar isə o kəslərdi ki, belə mətləblərdə hədləri aşarlar. Bu da onların daxili pozğunluğundan və qəlblərinin soyuqluğundan xəbər verər. Bu mənada, bəndəyə verilən öyüdün mahiyyəti – onu Axirət Odunu Yaradana xidmətdə zəifliyindən agah etmək, son anda ona heç bir vəchlə kömək edə bilməyəcək işlərə sərf etdiyi keçmiş həyatı barədə, Axirətdə xəstəlik, inam zəifliyi kimi maneələrlə üzləşəcəyi barədə, Ölüm mələyinin qucağında olarkən düşəcəyi halı barədə düşünməyə sövq etmək, Münkirlə Nakirin suallarına cavab verə bilib-bilməyəcəyi barədə, Qiyamət Günü halının necə olacağı, Sirat körpüsündən uğurla keçib gedə biləcəyi, yaxud zülmət sonsuzluğuna yıxılacağı barədə düşünməyə vadar etməkdi. Bu deyilənlərin yaşantısı mütləq şəkildə onun qəlbinə hakim kəsiləcək. “Xatırlama” deyilən bu deməkdi. Deyilən “alovlar”ın şahə qalxması – qarşıdan gələn bu bəlaların yada salınması deməkdi.

**və ikinci:** moizələr vaxtı sən gücünü ona sərf edirdin ki, məclisində iştirak edənlər müəyyən səslər çıxara-çıxara dediklərindən təsirləndiyini, sənə olan dərin sevgilərini izhar etsinlər, əyinlərindəki paltarları cırıb-töksünlər ki, baxan desin: “Nə gözəl məclis idi!..”

Amma bütün bunlar bu dünyaya, Yer həyatına bağlılıqdı ki, adi diqqətsizlikdən irəli gəlir. Sənin səy və çalışmaların isə insanları Yer həyatının cazibəsinə uymamağa, Axirət həyatını hər an anmağa, günahdan itaətə, tamahdan zahidliyə, simiclikdən əliaçıqlığa, şübhələrdən inama, qürurdan əxlaqa yönəltməlidi ki, onlar yuxudan ayıla bilsinlər. İnsanları Uca Tanrının (O Qüdrətli və Böyükdü) Mərhəməti və Səxavəti ilə şirnikləndirmək yox, Axirət həyatını sevməyə, Yer həyatının ötəri həzzlərindən o səbəbdən çəkinməyə çağırmaq, inam və zahidlik biliyinə yiyələndirmək lazımdı ki, onlar onsuz da öz təbiətləri etibarı ilə Şəriət yolundan çıxmağa, Uca Allaha xoş gəlməyən əməllərə uymağa, naqis keyfiyyətlər qazanmağa meyllidirlər. Onların qəlbinə qorxu toxumu səp ki, ayılsınlar. Qorxut ki, qarşıda gözləyən təhlükələrdən agah olsunlar. Bəlkə bu qorxu onları daxildən və zahirdən dəyişə, günah əməllərdən çəkindirib qəlblərində inama və itaətə ehtiyac yarada. Moizə və öyüdün mahiyyəti budur.

Kənara qoymalı olacağın əməllərdən üçüncüsü – hökmdarlarla, sultanlarla münasibət saxlamaq məsələsidi.

Sən bu adamları görməməlisən. O səbəbdən ki, onlarla görüş, yaxud hər hansı münasibət böyük bəladı və əgər bəxtinə belə bir imtahan düşübsə, o halda onları tərifləyib göylərə qaldırmaqdan çəkin. Çünki Uca Allah naqis və ədalətsiz insanı tərifləyəni sevməz. Və bil ki, əgər bir insan hökmdarın ömrünün uzanmasına dua edərsə, o, hökmdarın Allaha, onu bu Yer üzündə Yaradana tabe olmamasını diləmiş olar.

Və kənara qoymalı olacağın əməllərdən dördüncüsü: sən hökmdardan xələt, yaxud bəxşeyişlər qəbul etməməlisən (əgər onlar qanun çərçivəsində halal olsalar belə). O səbəbdən ki, bu sayaq bəxşeyişlərə və təltiflərə meyllilik inama zərər gətirər, yaltaqlığa, hökmdarların rəyi ilə oturub-durmağa, onların insanlara qarşı göstərdiyi ədalətsizliklərlə

razılığa gətirib çıxarar. Bütün bunlar inama xələl gətirər. Bundan heç də əskik olmayan xələli – o bəxşeyişlərin verdiyi imkanların hökmdara qarşı oyatdığı sevgi yaradar. Kimsə kimisə sevərsə, ona uzun ömür arzulayar. Ədalətsiz olana uzun ömür arzulamaq isə, Uca Allahın bəndələrinə ədalətsiz münasibət arzulamaq, ayrı sözlə desək, dünyanın məhvini arzulamaq deməkdi. İnam və Axirət üçün bundan pis nə ola bilər? Yaxşı olardı ki, sən onlardan o dinarları və dirhəmləri qəbul edib o pulu kasıblara, bədbəxtlərə paylayasan. "Onlar pulları günah işlərə, əxlaqsızlığa xərcləyirlər" deyən yalanlardan, iblis fitvalarından çəkin. Lənətə gəlmiş şeytan bu minvalla çoxlarını məhv edib. O barədə biz "İnam barədə elmlərin yaradılması"nda demişik, bu haqda orda oxu.

### *Mütləq eləməli olduğun dörd əməl barədə*

**birinci:** özünü Uca Allah qarşısında, qulunun özünü sənin qarşında apardığı kimi, yəni ondan razı qalacağın, hərəkətlərindən inciyib-əsəbiləşməyəcəyin kimi apar. Sənin həqiqi Sahibin – Uca Allahdı.

**ikinci:** insanların sənə necə davranmasını istəyirsənsə, onlarla elə davran. O səbəbdən ki, insanın inamı (imanı) yalnız o vaxt kamil olur ki, o, başqalarına da özünə arzuladığını arzulayır.

**üçüncü:** əgər sən hansısa elmləri öyrənmək, hansısa biliklər əldə etmək fikrinə düşmüsənsə, bax ki bu, qəlbini cilalayacaq, ruhunu saflaşdıracaq biliklər olsun. Məsələn, əgər xəbər tutsan ki, bir həftəlik ömrün qalıb, bu halda sən heç vaxt fiqhin, yaxud fiqhin əsaslarının – əxlaqın, ilahiyyatçılığın və sairənin tədrisi ilə məşğul olmayacaqsan. Çünki anlayacaqsan ki, bu vəziyyətində bu elmlər sənə kömək olmayacaq. O məqamda sən səni Yer həyatı ilə

bağlayan hər bir şeydən kənarlaşıb, ruhunun (qəlbin) tədqiqi ilə məşğul olacaqsan, onun keyfiyyətlərini və xüsusiyyətlərini öyrənməyə, özünü ruhunun alçaq xislətlərindən təmizləməyə, Uca Yaradanın sevgisinə qovuşmağa həsr etməyə başlayacaqsan. Və bil ki, elə bir gecə, ya gündüz yoxdur ki, bəndəyə onun ölümünü gətirməsin.

Oğul, mənim qalan sözlərimə də qulaq as, xilas yolunu onlarda tapmayınca, dinlə məni: əgər sənə desələr ki bir həftədən sonra evinə sultan təşrif buyuracaq, mən bilirəm ki, sən həmin an bütün işlərini kənara qoyub, sultanın necə təşrif buyuracağı haqqında, məsələn, onun görüşünə çıxacağın məqam geyəcəyin paltar haqqında, bədəninin təmizliyi, evin, yorğan-döşəyin və sair haqqında düşünübdaşınacaqsan. İndi deyəcəyim haqqında düşün: bilirəm, indi deyəcəyimi başa düşəcəksən, anlayacaqsan. Axı arifə bircə söz də kifayətdi?!.. Allahın Rəsulu (Allah onu şad eləsin!) deyib: "Həqiqətən də, Allah sizlərin zahirinə, əməllərinə baxmır. O, qəlblərinizi və niyyətlərinizi görür".

Əgər sən onun (qəlbin) haqqında daha müfəssəl bilik əldə etmək fikrindəsənsə, "İnam haqqında elmlərin yaranması"na və mənim digər əsərlərimə bax. Bunu bilmək hamıya vacibdi.

**və dördüncü:** Yer həyatının nemətlərindən o qədərin olmalıdı ki, olan bir ilinə çatsın. Allahın Rəsulu (Allah onu şad eləsin!) belə edərdi. O, otaqları[1] üçün bu qədər ehtiyat görər və deyərdi: "Ay Allah, Məhəmmədin ailəsini ona kifayət edən ruzi ilə təmin elə". Amma o, bu ehtiyatı bütün otaqları üçün eləməzdi. Bunu o, qəlblərində qorxu duyduğu arvadları üçün edərdi. O arvadlarının ki, inamına şübhələnməzdi, onlar üçün bir, ya iki günə kifayət edəcək ehtiyat görərdi.

---

[1] ***Arvadları üçün ayrılan otaqlar nəzərdə tutulur.***

Oğul, burda məndən soruşduqlarını yazmışam. Onlara əməl elə (məni yaddan çıxarmamaq şərti ilə). Məni isə öz dualarında xatırla.

O ki qaldı məndən istədiyin duaya, o duanı Peyğəmbərdən (Allah onu şad eləsin!) qalan dualarda axtar. Çalış, onları həmişə oxu. Ələlxüsus, namazdan sonra. Onlardan biri budu:

"İlahi! Mənə bəxş etdiyin nemətlərin ən nəcibini diləyirəm. Himayədarlığının davamlılığını, Mərhəmətinin genişliyini, uğuru, əmin-aman həyatı və ən böyük mükafatını – mənə fayda gətirəcək kamil Rəhmini diləyirəm. İlahi, bizimlə ol, bizlərə qarşı olma. Həyatımızı xoş sonluqla bitir, arzularımızın bir çoxunu həyata keçir. Kömək ol, yolumuz və axirətimiz uğurlu olsun. Bizi Öz Mərhəmətinə bürü, günahlarımızı ÖZ ƏFV bolluğunda yoxa çıxar, səhvlərdən xilasla mükafatlandır, ləyaqəti dayağımıza çevir. Tək bir Sənə arxalanırıq.

İlahi! Bizləri Haqq yolunda möhkəmlət, günahlarımızın iztirabını yüngülləşdir, bu dünyada (və O dünyada) kədərləndiklərimizdən və kədərlənəcəklərimizdən qoru, bədxahların şərindən, pis insanların yalanından qoru və xilas elə. Bizlərə ədəblilərin həyatını yaz. Ata-analarımızı, bacı-qardaşlarımızı Alovdan qoru.

Sənin Mərhəmətinlə diləyirik, ey Qüdrətli, ey Rəhmli, ey Səxavətli, ey Qoruyan, ey gecəni və gündüzü Yaradan, bizi yer həyatının acı qüssəsindən qurtar, qəbir əzablarından və Cəhənnəmdən qurtar, ey Bilən, ey Əzəmətli Allah! Ay Allah, ay Allah, ay Allah! Sənə Sənin Rəhminlə yalvarıram! Ey mərhəmətlilər Mərhəmətlisi, ey birincilərin Birincisi, ey sonuncular Sonuncusu, ey Qüdrət Sahibi, Qüvvət sahibi! Ey Bədbəxtlərə Rəhmi Gələn, ey rəhmdillər Rəhmdili, Səndən savayı Allah yoxdur! Sən Safsan! Həqiqətən, mən qanunu pozanlardan olmuşam...

Allah bizim sahibimiz Məhəmmədə, onun ailəsinə və davamçılarına uğur gətirsin! Uca Allaha, Dünyalar Sahibinə eşqlə.

## *Ölümdən qorxmaq lazımdırmı?*

İnsanın iki halı var – ölümə qədərki və ölümdən sonrakı. Ölümünəcən insan heç bir vaxt onun (Peyğəmbərin – Allah onu şad eləsin!) bu sözlərini unutmamalıdı:

“Sevincinizi yoxa çıxaranı (ölümünüzü) tez-tez xatırlayın. Onu xatırladıqca, düşdüyünüz çətin vəziyyətlərdə rahatlıq tapacaqsınız, şad-xürrəm halınızda isə (asudəlikdə, işlərinizin uğurlu getdiyi vaxtlarda, xoşbəxt saatlarda) halınız pisləşəcək, ovqatınız təlx olacaq (vəziyyətiniz çətinləşəcək)”.

Bu baxımdan insanlar iki qismə bölünür.

Birinci qisim – öz ölümləri haqqında, ölümdən sonra olacaqlar haqqında düşünməyən, yalnız öz uşaqlarının və öləndən sonra qoyub gedəcəkləri mirasın qayğısına qalan səfehlərdi. Bu adamlar heç vaxt öz həqiqi halları barədə düşünməzlər. Bu barədə yalnız kəlmeyi-şəhadətlərinin vaxtı yetişəndə xatırlayar və yalnız onda öz dilləri ilə: “Həqiqətən, biz Allaha məxsusuq və Ona da qayıdırıq”, – deyərlər.

Lakin onlar Allaha (O Uca və Qüdrətlidir) əməlləri ilə yox, yalnız sözdə qayıdacaqlarını düşünürlər. Əslində isə onların sözləri də saxtadır.

Müdrik və uzaqgörən kəs isə Həcc ziyarətinə yollanan bütün yolu üz tutduğu ziyarətin məqsədi barədə düşündüyü kimi, hər an öz ölümü barədə düşünər. Gecə dayanacaqları və yol yorğunluğu ona məqsədini unutmağa imkan verməz. **Ümumiyyətlə, kim ki daim öz ölümünü anar, boş ümidlərdən və xəyallardan uzaq olar, bu da öz növbəsində, bütün çətinlikləri yüngülləşdirər, insanla zülm və sıxıntılar arasında keçilməz səddlər yaradar.**

Kim ki ölümünü yaddan çıxarmır, o kəs aza qane olur, tövbə yolunu seçir, paxıllıqdan azad olur və bu ötəri həyata bağlanmır.

Bütün qayğılardan azad olan kəs belə, hər gün tezliklə öləcəyini təsəvvürünə gətirməlidi. O səbəbdən ki, bu, həqiqətən mümkün məsələdi. Əgər insan düşünsə ki hələ bir neçə ildən sonra öləcək, bu, onun inamına və Allaha itaətinə mane olacaq, onun bu yer həyatına bağlılığını zəiflətməyəcək. Odu ki, arif olan kəs özünə bir gündən çox vaxt qoymamalı və hər səhər yuxudan oyanarkən, günortayacan özünü yola hazır bilməlidi. Və o kəs ki hər gün Hökmdarının (Allahın) istənilən an onu yanına çağırtdıracağını gözləyir, özünü bu çağırışa hazırlamalıdı. Əgər belə bir hazırlıq yoxdursa, o halda onun ardınca göndərilən elçi o, yola hazır olmayan məqamda yetişəcək və həmin adam öz xoşbəxtliyindən məhrum olan kəsin vəziyyətinə düşəcək.

İnsan hər dəqiqə ölümünü yaxında hiss eləməlidi. Əgər sən desən ki ölüm uzaqdadı, mən cavab verərəm ki, əgər xəstəlik yetişərsə, o uzaqda olmayacaq. Bu isə istənilən an, lap elə bir günün içində baş verə bilər.

Ölümə görə kədərlənmək isə kədərlənənin axmaqlığından xəbər verir. O səbəbdən ki, bu kədəri dörd səbəb törədir:

**birinci –** mədə ehtirası və cinsi həvəs;

**ikinci –** ölümündən sonra qoyub gedəcəyin əmlak;

**üçüncü –** ölümündən sonra səninlə nə baş verəcəyindən, bu dünyadan qırılıb hara düşəcəyindən bixəbərlik;

**dördüncü –** Yer həyatında törədilən günahlar.

Əgər kədər mədə ehtirasından və cinsi həvəsdən doğan kədərdisə, o adam xəstəlikdən ölməyə meyllidir. Çünki bu elə bir xəstəlikdi ki, xəstəliklə də qarşılanar. Bilirik ki, qida qəbul etməyin mənası – aclıq sızıltısını dəf etməkdi. Və məhz bu səbəbdən aclıq hissi sovuşanda və mədə dolanda, insan bayaqdan tamah saldıqlarına qarşı ikrah duyur.

Bu, günün altında oturub qızınmaq istəyən adamın kölgəyə qayıdıb sərinləmək istəməsinə bənzəyir ki, bu da cahillikdən və avamlıqdan savayı ayrı bir şey deyil.

Yox, əgər bu kədərin səbəbi ölümdən sonra onunla baş veriləcəklərdən bixəbərlikdisə, belə olan halda o adam ölümündən sonra onunla nə baş verəcəklərini ona izah edəcək həqiqətləri arayıb tapmalıdır.

Harisə Peyğəmbərə (Allah onu şad eləsin!) demişkən:

“Elə bil Allahımın Dərgahını (əl-Ərşi) gözümlə görürəm. Elə bil Cənnətin sakinlərini də görürəm. Görürəm, necə onlar bir-birinin yanına qonaq gedirlər. Cəhənnəmin sakinlərini də görürəm... Görürəm necə bir-birinə nifrət edirlər...”

Bu sayaq məlumatlar ruh haqqında həqiqətlərin axtarışından yaranır. Onun (ruhun) nə olan bir şey olduğu, bədəndən ötrü yaranmış ikən bədənlə münasibətləri və xüsusiyyətləri barədə, ruhun öz özəlliyindən və kamilliyindən həzz alması, kamillik yolunda ona əngəl olanlar barədə axtarışlardan yaranır. Şəriət diqqəti tez-tez bu məqama yönəldir, göylər və yer səltənəti barədə düşünməyi buyurantək, ruh barədə də düşünməyi tövsiyə edir.

Yox, əgər bu kədərin səbəbi insanın yer həyatında törətdiyi günahlardırsa, burda kədərlənməyin yeri yoxdu, tək bir müalicə zərurəti var ki, bunun yolu səmimi-qəlbdən tövbə və buraxılan səhvlərin düzəlişidi.

Yox, əgər insan qəm-qüssəyə qərq olub, öz halını yüngülləşdirməyə səy göstərməyəcəksə, onda o, damarından qanaxma başlayan, bu qanaxmanın qarşısını alan tədbirlər görmək əvəzinə, itirdiyi qanın dərdini çəkən adamın halına düşəcək.

İnsanın başqa bir halı – onun canüstü məqamıdır.

Bu məqamda da insanlar üç qismə ayrılırlar.

Bu həyatın onu köləyə çevirdiyini, bu köləlikdən yalnız ölümün köməyi ilə azad olacağını, Yer dünyasında ömrü

uzun olsa da, əslində, bu həyatın ildırım vaxtı göydə ani işartıyla yanıb-sönən qığılcım qədər qısa olduğunu anlayan arif adama bu dünyanı tərk etmək ağır olmur. Belə insan yalnız bu dünyada yaşadığı müddət ərzində Allah qarşısında (O, Qüdrətli və Böyükdü) göstərdiyi xidmətinin kifayət dərəcədə olmadığına təəssüflənir. Ona (Allaha) yaxınlaşmaqda ikən nə deyəcəyindən, ona nə deyiləcəyindən ehtiyat edir. Can üstə olan belə bir adamdan ölümdən qorxmamağının, belə bir məqamda həyəcanlanmağının səbəbini soruşanda, o: "Səbəbi odu ki, bu çağa qədər getmədiyim bir səfərə yollanıram, heç vaxt görmədiyim Allahıma qovuşuram, Ona nə deyəcəyimi bilmirəm və bilmirəm ki, orda mənə nə deyəcəklər", – deyib.

Belə insanlar ölümdən qaçmırlar.

Kimsə Allaha müraciətində belə deyib:

– Ay Allah, əgər Səndən Ölüm İqamətgahında yaşamağı diləsəm, bu o deməkdi ki, mən Sənə yaxınlaşmaq istəmirəm, Səndən uzaqlaşmaq istəyirəm. Sənin seçdiyin Peyğəmbər (Allah onu şad eləsin!) demişkən: "O kəs ki Allahla görüşmək istəyir, Allah onunla görüşmək istəyir, o kəs ki Allahla görüşmək istəmir, Allah da onunla görüşmək istəmir".

İkinci qisim insanlar uzağı görməyən, Yer həyatına bağlanan, bu həyatın düyünlərində boğulub batan ləkəli qəlblilərdi. Beləleri öz həyatlarından razı olurlar və özlərini bu dünyada rahat hiss edir, qəbir sakinlərinə görə qəmə batan kafirlərtək ölümdən sonrakı hallarının dərdini çəkirlər. Beləleri Əbədiyyət Məkanına can atsalar da, bu səyləri, gecə külərləri peyin qurdlarını qurudub məhv edəntək, məhv olub gedər. Və əgər onlar yer həyatının çirkabından çıxarlarsa belə, Ali Dünya, Ali İcma Məşəli onları qəbul etməz və onlar Uca Allah demişkən: ***"Bu dünyada kor olan kəslər Axirət dünyasında da kor qalacaqlar və daha böyük azğınlıqlara düçar olacaqlar…"*** (Quran 17:71).

Həqiqətən də, Yer həyatı yuxarıda dediyimiz birincilər üçün zindan, ikincilər üçün isə Cənnətdir. Birincilər ağasının çağırdığı qul sahibinə məmnunluqla hay verəntək Ona (Allaha) yaxınlaşacaq, xidmətində bacardığı müntəzirlikdə duracaqlar.

İkincilər isə sahibinin hüzuruna zorla, qolubağlı halda gətirilən, öz əməllərindən peşman qultək, üzüqara, başıaşağı dayanacaqlar.

Bu iki qul arasında olan fərq necə böyükdü?!

Üçüncülər də var. Bunlar orta həddə qalanlardır. Bu, yer həyatının bəlalarını tanıyıb, burda olmağına nifrət edən, lakin sonradan öz vəziyyətləri ilə razılaşıb, bu dünyayla barışanlardı. Bu, ayrı bir məkan tanımadan, çirkli, qaranlıq yerdə yaşamağa alışmış, içinə daxil olmaqdan iyrənsə də, o yeri tərk etmək istəməyən kəslərin vəziyyətində olanlardı. Belələri yaşadıqları yerdən çıxarlarsa da, Allahın imanlılara söz verdiklərini öz gözləri ilə görərlərsə də, yenə bir qədər əvvəl əldən buraxmaq istəmədiklərinin peşmançılığını çəkməzlər və:

***"Bizləri kədərdən qurtaran Allaha eşq olsun! Həqiqətən, Allahımız Rəhmli və Nəcibdir. O, bizləri Öz Mərhəməti ilə əbədi yorğunluğun, iztirabın bizə yaxın gələ bilməyəcəyi məkana köçürdü*** (Quran 35:34-35) – deyərlər.

Bu, çox vaxt belə olur. İnsan nədənsə ayrılmaq istəmir, lakin ayrıldıqdan sonra, həmin o itirdiyi barədə zərrə qədər də təəssüflənmir. Dünyaya yenicə gəlmiş körpə düşdüyü yeni mühitdən narahatlıq keçirir və ağlayır, bir qədər böyüyüb ağıllandıqda isə geriyə qayıtmaq istəmir.

Ölüm – bizləri duyub anlamaq iqtidarında olmadığımız kamilliyə qovuşduracaq ikinci doğuluşumuzdur. Bu şərtlə ki, ölüməqədərki həyatımızda Fəzaya xələl gətirəcək, kamillik yolunda maneə olacaq günahlı işlərimiz, əməllərimiz olmasın. İnsanın bu dünyaya doğuluşu da belədi. Bətndə olan körpə, anlayışı olmadığı kamilliyə doğru

gedəntək, burda da şərt – bu dünyada kamillik yoluna əngəl ola biləcək hər hansı maneənin aşılmasıdı.

Məhz bu səbəbdən ölüm kamilliyin səbəbidir.

Bir nəfər deyir: “Biz Əzrayıla (Allah onu şad eləsin!) dua oxumalıyıq. Ona Cəbrayıla və Mikayıla minnətdar olduğumuzun qədərində minnətdar olmalıyıq. Çünki Yer həyatından xilas olmağın, Axirət qurtuluşunun nə olduğunu biz Cəbrayılda, Mikayılda tapıb anlamışıq. Məhəmmədin (Allah onu şad eləsin!) sayəsində o dünyanın rahatlığının nə olduğunu dərk etmişik. Ölüm mələyi olan Əzrayıl isə, bizim o dünyaya çıxışımızın səbəbidi və onun bizlər üçün elədiyi o biri mələklərin elədiyindən daha üstündü”.

Və deyirlər ki, qədimlərdə müdriklər öz aralarından birini seçib onu müqəddəs elan edəndə, şəninə o səbəbdən təriflər yağdırmırdılar ki, o, onlara bu ötəri dünyada yaşamağa kömək edirdi. Bir də ona görə ki, o adam ölümün baiskarı – onların Yer həyatından qurtulmağının səbəbi olurdu.



سبحان الله

# İLAHİ BİLİK
# (İLMİ LADUNİ)



Mərhəmətli, Rəhmdil Allahın Adıyla.

Uca Yaradana eşq olsun ki, seçdiyi Öz bəndələrinin qəlblərini müqəddəslik işığının şövqü ilə O bəzəyib, onları Öz Mərhəməti və Qayğısıyla ərsəyə gətirib, qəlb səltənətini dərk edib anlayanların üzünə bilik qapılarını O açıb, anlamaq və düşünmək qabiliyyətini O verib.

Bizim başçımıza – peyğəmbərlər seyyidi (Ona Allahın salamı olsun!), İlahi qanunların sahibi, müsəlman icmasına səadət yolunu göstərən Mühəmmədə və onun müqəddəs nəslinə – Xilas və Öyüd Gəmisinin zabitlərinə eşq olsun!

Mənim ədalətli dostlarımdan birinin dediyinə görə, bəzi alimlər ilahi biliyin – yəni insanın özündə olan biliyin oxunub qazanılan biliklərdən qat-qat üstün, qüdrətli və dərin olduğuna əmin olan seçmə sufilərin və sufi məktəbi yolunun davamçılarının agah olduqları həmin o **gizli sirri** inkar edirlər. Onlar deyirlər ki, "biz sufilərin inamının və əminliyinin əsasını təşkil edən o naməlum "biliyi" təsəvvürümüzə gətirə bilmərik. Və düşünmürük ki, dünyada elə bir adam tapılsın ki, hər hansı elm sahəsi üzrə təhsil almadan, yalnız düşüncələr və xəyallarla həqiqi bilik və elm sahibi olsun".

## *Bilik, bilən və bilinən barədə fəsil*

İlk növbədə bunu bilmək vacibdi ki, şüurlu insanın ruhu ayrı-ayrılıqda mövcud olan hər bir şeyin həqiqəti barədə təsəvvürə malikdi.

**Bilən o kəsdi ki, agah olduqlarına çatır və onları təmsil edir.**

**Bilinən odu ki, təsəvvür nəticəsində aşkar olur və öz təcəssümünü ruhda tapır.**

Bunu da bilmək vacibdi ki, əldə edilən biliyin nəcibliyi və qiyməti, bilənin biliyinin rütbəsinə və dərəcəsinə görə, həmçinin bilinənin nəcibliyinə və qiymətinə görə rütbəsindən və dərəcəsindən asılıdı.

İnsana məlum olanlar arasında ən nəcibinin, alisinin və qiymətlisinin Yeganə olan Allah, Bilən və Qüdrətli Yaradan olduğuna şübhə qalmadığından, Allah haqqında biliyin də biliklərin ən alisi, nəcibi və qüdrətlisi olduğunu etiraf etməliyik. İlahi qanunlar sahibi (Allah onu şad eləsin!) demişkən:

"Bu biliyin (ilahi biliyin) əldə edilməsi, ağlı başında olan hər bir kəs üçün mütləq və zəruri şərtdir". Yaxud: "Bilik axtarmaq hər bir müsəlmanın borcudur."

Bu biliyin əldə edilməsindən ötrü o, həmçinin səyahətlərə çıxmağı buyuraraq deyir:

"Bilik axtarın. Bundan ötrü Çinə getmək lazım gələrsə belə."

Bunu da bilmək vacibdi ki, deyilən bu bilikdən agah olanlar bilənlərin ən layiqliləri və qüdrətliləridir. Məhz bu səbəbdən Uca Yaradan belələrini ali rütbəyə aid edərək deyir:

***"Allah Özü şahiddi ki, Ondan savayı ayrı allahlıq yoxdu; mələklər də, bilik sahibləri də".*** (Quran, 3:16).

Belə bir biliyə kamil səviyyədə sahib olanlar ilk növbədə peyğəmbərlər, daha sonra onların ardınca gələnlər – ilahi bilik sahibləridir.

Yeganə olan Allaha, Uca Aliyə dair biliklər bütün biliklərin ali məğzidir. Bu biliklər mahiyyət etibarı ilə biliklərin ən kamili və nəcibi olsa da, bu, heç də ona əsas vermir ki, digər biliklər inkar edilsin.

Bu məqama diqqət yetirilməsi vacibdi ki, hər bir bilik öz təbiəti etibarı ilə, bilinənin mahiyyəti nəzərə alınmasa belə, nəcib və gözəldir; hətta o bilik yalan və uydurmaçılıqla dolu cadugərlik biliyi olsa belə. O səbəbdən ki, istənilən növ bilik, ilk növbədə, cahilliyin qənimidir. Cahillik isə

zülmətin göstəricilərindəndir. Zülmət isə, öz növbəsində, durğunluğu şərtləndirən amillərdəndir.

Bilik – mövcudluğun, varolmanın təcəssümüdürsə, durğunluq – heçliyin göstəricisidir. Və bu halda, təbii ki, mövcudluq, varolma yoxluqdan, heçlikdən üstündür. İdarəetmə, istiqamətlənmə, həqiqət, hərəkət, işıq və sair varolmanı şərtləndirən amillər sırasındadır.

Beləliklə, varolma yoxluğa üstün gəldiyi səbəbindən, beləcə, bilik də cahilliyi üstələyir. O səbəbdən ki, sonuncu korluğun və qaranlığın, birinci isə görümün və işığın rəmzidir. Məgər korla görəni, işıqla qaranlığı bir bərabərdə tutmaq olarmı? Hamıdan Uca Allah bu barədə belə buyurub:

*“De ki, bilənlər bilməyənlərlə müqayisəyə gələrmi?”* (Quran 39:12).

Biliyin cahillikdən üstün olduğunu araşdırıb dəqiqləşdirdikdən sonra, biz anlamalıyıq ki, cahillik – bədən göstəricilərindən, bilik – ruhi keyfiyyətlərdən qaynaqlanır. Deməli, burdan belə bir qənaətə gəlinir ki, ruh bədəndən nəcib və qüdrətlidir. Biliyin özünün də, eləcə də bilənin bilik əldə etməsinin də müxtəlif yolları olduğu kimi, müxtəlif növləri var ki, bu barədə biz ayrı-ayrı bölmələrdə danışacağıq.

Bilik haqqında, ona nail olmağın üstünlükləri barədə, bilik qazanıldıqdan sonra biliyin məkanı və aynası olan ruhun mistik anlamı barədə biliyin əldə edilməsi o səbəbdən vacibdi ki, məhdudluğa və hədlərə malik olduğu səbəbindən bədən – bilik sığınacağına yararlı deyil.

Ruh – mövcud bilikləri hədsiz və sərbəst şəkildə, yorulmadan özündə cəmlədiyi halda, bədən – müəyyən vərdişlərdən və qaydalardan savayı, heç nəyi əks etdirməyə qadir deyil.

Beləliklə, qısaca olaraq, ruh və onun halları barədə danışaq.

## *Can və insan ruhu barədə fəsil*

Hamıdan Uca Yaradan insanı iki özüldən yaradıb:

Bunun birincisi – təbiətin daim hərəkətdə olan qüvvələrinə – varolmaya və çürüməyə məruz qalan, kənar təsirlərə həssas olan tünd, bulanıq, mürəkkəb, alçaq materiyadır.

İkinci – duyub, çatıb dərk etdiyini özündə cəmləyən, təmiz, sadə, işıltılı, hərəkətverici təkanlar üzrə işləyən və bədənin bütün imkanlarından istifadə edib kamilləşəndir.

Bədəni təbiətin hərəkətverici qüvvələrinin köməkliyi ilə qidalandıran və tənzimləyən amillərin yaradıcısı da Odur. Bənzərsiz, təkrarolunmaz, kamil ruhu və ruhun daim kamilləşən mahiyyətini də Öz gizli hökmü ilə O yaradıb. Can və ruh barədə danışarkən, mən qidaya ehtiyaclı olan, yaxud, ehtiras və qəzəb oyadan qüvvələri nəzərdə tutmuram. Yaxud qəlbdə qorunub saxlanan duyğuların, həyat amillərinin və hərəkətin köməyi ilə qəlbdən o biri orqanlara yayılan qüvvəni də nəzərdə tutmuram. Bu qüvvələr heyvan ruhuna aid olduğu səbəbindən hisslər, hərəkət, ehtiras və qəzəb onların ordusu və əsgərləridir. Məsələn, insanda qaraciyərin fəaliyyətinin nəticəsi kimi meydana çıxan iştah qüvvəsi fiziki ruhun təmsilçisidir. Həzm və onun tullantılarından təmizlənmə, yaxud nəsilartırma və sair bu kimi prosesləri yaradan qüvvələr də həmçinin, bədənin xidmətində duran fiziki qüvvələrdir.

Bədən özü isə insanda olan heyvan ruhuna qulluq edir. Bu ruh, adları yuxarıda çəkilən o qüvvələri bədəndən alır və onlardan öz istəyinə uyğun istifadə edir.

Cana gəldikdə isə bu, sadə və kamil özüldür. Başlıca xüsusiyyəti və üstünlüyü – xatırlamaq, düşünmək, təhlil, təyin etmək və anlamaqdır. O, bütün bilikləri yorulmadan, usanmadan özündə cəmləyir, mücərrəd və qeyri-maddi olanların qavramından və dərkindən doymur. Ruhlar üzərində hökmranlıq edən, onun xidmətində dayanıb,

buyruqlarına əməl edən qüvvələri öz tabeçiliyində saxlayan isə can və onun mahiyyətində olanlardır.

Hər bir şüurlu insan canının, yəni onun mahiyyətinin qisimlər üzrə öz xüsusi adları var. Filosoflar bunu "şüurlu can" adlandırırlar. Quran bu məqamlarda "rahatlıq tapan can", yaxud "buyruqdan olan ruh" ifadələrini işlədir. Sufilər isə onu "qəlb" kimi təhlil edirlər. Bu adlar ifadə baxımından fərqli olsalar da, mahiyyət etibarı ilə birdirlər. Odu ki "qəlb", yaxud "ruh" dediyimiz, yaxud Qurana görə həmin o "rahatlıq tapan" sadə, hərəkətli, anlaqlı özüldən olan "şüurlu can"ın adlarıdır. Və bundan sonra harda mütləq ruhdan, yaxud qəlbdən söz düşəcəksə, məhz həmin bu saf özül nəzərdə tutulacaq.

Sufilər heyvan ruhunu "can" adlandırırlar. Bu sözdən Şəriətdə də istifadə olunur. **"Sənin qatı düşmənin – iki böyrünün arasında olan canındır..."**

Belə deyirlər ki, böyük Məhəmməd (Allah onu şad eləsin!) "can" sözünü işlədir və bundan da əlavə, bu canın sənin iki böyrünün arasında yerləşdiyini bildirir. Bu ifadənin işlədilməsinin səbəbi – qəlbdən yaranan ehtiras və qəzəb qüvvəsinə işarə verməkdir. Qəlb isə məhz iki böyrün arasında yerləşəndi.

İndi, canın adlarının mistik dərkindən sonra bunu da bilmək vacibdi ki, tədqiqatçılar və arif adamlar bu incə özülün həqiqətini müxtəlif cür, bildikləri və anladıqları həqiqətlərə görə təhlil edirlər.

Mütəkəllimlər, üqəlalıqda[1] seçilənlər və digər nüfuz sahibləri "can" dedikdə bədəni nəzərdə tuturlar və bunu onunla izah edirlər ki, can tutumlu bədəndən fərqli olaraq, tutumsuz bədəndi. Onların qənaətinə görə, ruhla bədən arasında tutumluluqdan və tutumsuzluqdan savayı elə bir böyük fərq yoxdur.

---

[1] ***Üqəla –*** ağıllı adam, aqillər.

Bəziləri ümumiyyətlə, ruhu ötəri əlamət hesab edirdilər. Bu, əsasən həkimlərin qənaəti idi. Digərləri ruhu qan bilirdilər. Və bu adamlar yalnız öz təxəyyülləri ilə qane olub, bunun əvəzedənini axtarmağı lazım bilmədilər.

Bunu bilmək vacibdi ki, ruh üç növ olur: bədən, ötəri əlamət və saf özül şəklində.

Heyvan ruhu – qəlb şüşəsinin arxasında yerləşən, ayrı sözlə desək, insanın köksündən asılmış piramida quruluşlu, yanar fitiləbənzər incə bədəndi. Həyat – bu fitilin saçdığı işıq, qan – onun yağı, duyğu və hərəkət – işığı, ehtiras, tamah, qəzəb – tüstüsü, qara ciyərdə yerləşən iştah qüvvəsi – xidmətçisi, təmsilçisi və keşikçisidir.

Bu ruh bütün heyvanlarda, eləcə də insanda var. Öz-özlüyündə o, bədəndir, əlamətləri zahirdə görünən keyfiyyətləridir. Bu ruh biliyin və kamilləşmənin nə olduğundan xəbərsizdir. O, yaradılanı dərk etməyə qadir deyil, Yaradanın həqiqəti ona tanış deyil. O, bədənin ölümü ilə ölən, bədən məhvə uğradıqca onunla bir məhvə uğrayan kölə-quldur. Qan artanda bu fitil alışıb sönər, bədənin ayrı bir halından soyuyub, donub, sönər. Və bu sönmə bədənin məhvinə və ölümünə gətirib çıxarar.

Hamıdan Uca Allahın ünvanlandığı bu ruh deyil və deyilən, yazılan dini öyüdlər bu ruha ünvanlanmır.

***“De ki, ruh – Allahımın buyruğundandır”*** (Quran, 17:87).

Bir də deyilib:

***“Sən ey rahatlığını tapmış ruh! Öz Allahına, tapdığın o məmnunluğunla qayıt”*** (Quran, 89:27:28).

Allahın buyruğu ilə yaranan – nə bədən, nə də zahiri quruluşa malik olan özül deyil. Bu, mahiyyəti etibarı ilə İlkin Şüur, Yaddaş, Lövhəsi Qələməbənzər saf özüldən olan, materiya ilə heç bir əlaqəsi olmayan, duyğu fövqündə olan qeyri-maddi işıq, rasional, ilahi qüvvələrdən biridir.

Ruh, yaxud dediyimiz qəlb – dağılmaq, çürümək, aşınmaq təhlükəsi olmayan elə bir təmiz, saf özüldür ki, heç bir vaxt yoxa çıxmır, məhv olmur, heç nəyə çevrilmir, Şəriətin dediyi kimi, bədəndən Dirilmə Günü yetişənəcən ayrılır və nə vaxtsa ona qayıdacağı məqamı gözləyir.

Bunu fəlsəfə elmi də əsaslı dəlillər və misallarla sübuta yetirir ki, insanın şüurlu canı bədən, yaxud hər hansı bir ötəri təzahür yox, dağılmağa, çürüməyə uğramayan saf, əzəli və əbədi özüldür.

Burda bizim bu dəlil-sübutları araşdırmağa, yaxud hardansa, hansısa mənbədən misallar gətirməyə ehtiyacımız yoxdu. Kim istəyirsə, bu barədə yazılan ədəbiyyatları tapıb oxuya bilər və ordan lazım olanları əldə edər. O yolu ki biz seçmişik, bu, dəlillər və sübutlar yolu deyil. Bu, görüm və aşkarlanma yolu, ayrı sözlə desək, inam yoludur.

Hamıdan Uca Allah bəzən insan ruhunu Öz Buyruğundan olana aid edir, bəzənsə onu Öz Nəcibliyi kimi qiymətləndirir.

***"...Və ona Öz Ruhumdan üfürərəm..."*** (Quran, 38:72).

Yaxud:

***"De ki, ruh – Allahımın buyruğundandı".*** (Quran, 17:87).

Bir də buyurub:

***"Və Biz ona (Məryəmə) Bizim ruhdan üfürdük"*** (Quran, 66:12).

Təbii ki, Hamıdan Uca Allah Özünü ölməyə, çürüməyə, dəyişilməyə və dağılmağa qadir olan miskin, mənfur, ötəri təzahürlərlə, yaxud bədənlə müqayisə etməkdən çox-çox yüksəkdədir, alidir. Bu barədə Qanun sahibi Məhəmməd peyğəmbər (Allah onu şad eləsin!) deyib:

**"Ruhlar – müntəzəm ordulardır".**

Və deyib:

**"Əzablı ölümlə ölənlərin ruhu yaşıl quşların çinədanlarındadı".**

Ölümündən və öz məzmununu itirəndən sonra quruluş (bədən) öz-özlüyündə yoxa çıxır və yoxluğa o səbəbdən qərq olur ki, mahiyyət etibarı ilə o, əzəli deyil. Tibbə dair kitablarda təsvir edilən kimi, materiyadan və quruluşdan ibarət olan bədən ayrı-ayrı hissələrə bölünür və məhv olur.

Bu sayaq ayələr və rəvayətlərlə, həmçinin rasional dəlillərlə biz anlayırıq ki, ruh qeyri-maddi, kamil, mahiyyət etibarı ilə diri olan müstəsna bir özüldür. Fiziki və heyvani ruhlar isə, bədənin digər qüvvələri kimi, onun (ruhun) əshabələri, buyruqlarının icraçılarıdır.

Bu sadə özül, biliklərin müəyyənlərinə, varlıqların həqiqətinə, onları təmsil edənlərə üz tutmadan çatır.

O (ruh), mələk, yaxud iblis xislətli məxluqları, onların şəxsi, yaxud fərdi keyfiyyətlərini sezmək ehtiyacı duymadan anlayantək, beləcə, insanın özünü sezmədən, duyğularını sezsə də, mahiyyətini qavramaq qüdrəti çatmadığı İnsanlığın Həqiqətini dərk etməyə qadirdir.

Bəzi sufilər təsdiq edirlər ki, bədənin zahiri aləmi görən gözü olduğu kimi, Qəlbin də, həqiqəti olduğu şəkildə görən gözü var. Allahın rəsulu (Allah onu şad eləsin!) deyirdi:

**“Yalnız Allahın seçdiyi bəndəsinin qəlbində iki göz var ki, gizli olanları o gözlərlə yalnız o görər”.**

Bəndəsinə mərhəmətli olub, adi gözdən gizli qalanları ona göstərməkdən ötrü qəlbinin gözünü açmaq Hamıdan Uca Allahın Öz İxtiyarındadı.

Bu ruhlar bədənin ölümü ilə o səbəbdən ölmürlər ki, onları Öz Dərgahına dəvət edən Uca Allah belə deyib:

***“Öz Allahına qayıt...”*** (Quran, 89:28).

Bu ruhlar bədənlərindən ayrılarkən, ondan imtina edirlər. Bu imtinanın əsas tərkib hissəsi – heyvani və fiziki qüvvələrin sıradan çıxarılması, ölüm kimi anlaşılan hərəkətin dayandırılmasıdır.

Yol adamlarının, yəni sufilərin ruha və qəlbə olan ümidi, fərdlərə və bədənlərinə olan ümiddən müqayisəolunmaz

dərəcədə böyükdür. Ruh nə qədər Hamıdan Uca Allahdandırsa, o, bədəndə bir o qədər səyahətçi və dərviş kimi yaşayar. Onun bütün diqqəti öz məğzinə və qaynağına yönəlib.

Artıq ruhun sadə bir özül olduğunu bildikdən sonra və bu da məlum olandan sonra ki hər bir bədən istər-istəməz müəyyən bir fəzaya ehtiyaclıdı və o quruluşsuz, əsassız, özülsüz mövcud ola bilməz, bu zaman həmin bu sadə özül heç bir yana axıb əriyə, yaxud hər hansı bir nöqtəyə yerləşə bilməz. Bədən ruhun daldalana biləcəyi, yaxud canın yerləşə biləcəyi yer deyil. O, ruhun aləti, canın silahı, qəlbin yedəyində getdiyi heyvanıdır.

Lakin ruh da, bədən üzvləri ilə əlaqəli olmasa belə, onlarsız mövcud ola bilməz. Bununla bərabər, onun daldalandığı mühit – istifadə etdiyi bədəndir.

İlkin işıq beyində təntənə törədir. Onun müstəsna işartısının təntənə yeri məhz beyindir. Beyinin ön hissəsi – bu işığın keşikçisi, orta hissəsi – onun məsləhətçisi və rəhbəri, arxa hissəsi – anbarıdır. Bədən üzvləri – piyadaları və atlıları, heyvani ruh – xidmətçisi, fiziki ruh – təmsilçisi və himayədarı, bədənin özü isə yedəyində getdiyi heyvanıdır. Dünya – onun səhnəsi, həyat – sərvəti, hərəkət – alver fəaliyyəti, bilik – qazancı, Axirət – məqsədi və ünvanı, İlahi qanun – yolu, şəhvətli can – qəlbində gizlənən düşməni, qınayan can – onu vicdan üzüntüləri ilə qoruyanı, zahiri duyğular – kəşfiyyatçıları və köməkçiləri, din – qoruyucusu, şüur – müəllimi, duyğuları – şagirdləridi. Yaradan isə onu kənardan müşahidə edər.

Lakin bütün bu olanlarıyla, alətləri və təmsilçiləriylə ruh bədənə meyllənmir, ona qovuşmur, əksinə, ondan hərtərəfli istifadə edərək, fikrini öz Yaradanına yönəldir. İlk baxışda bu səyahətdə və səyahət ərzində ruhun mistik qavram əldə edib, ilahi biliklərə yiyələnməkdən savayı, ayrı bir məşğuliyyəti yoxdu. O səbəbdən ki, O, əbədi dünyada onu

bəzəyənin, bu dünyada əldə etdiyi biliklərin dərəcəsi olduğundan xəbərdardır. Bu dünyanın bər-bəzəyindən olan əmlak və övladlar isə bunu etməyə qadir olmayacaq.

Gözlər gördüyü, qulaqlar səsləri eşitdiyi, dil hər an danışmağa hazır olduğu, heyvani ruh bədən həzzlərindən sərxoş, fiziki ruh isə heyvani həzzlərə aşiq olantək, insan qəlbində əbədi rahatlıq tapan müqəddəs Ruh da heç hara meyllənmədən ilahi bilikdən və mistik qavramdan savayı ayrı bir şey axtarmır, bütün həyatını, özünü biliklə bəzəməyə sərf edir. Onu bilikdən savayı cəlb edən məqamlar – ali məqsəd və ünvan naminə yox, içində daldalandığı bədənin mənafeləri və maraqları naminə baş verir.

İndi sən ruhun halları, onun əzəli qüdrəti, sevgisi, mistik idarəolunmaya və ilahi biliyə məhkumluğu barədə biləndən sonra, bu biliyin növlərinə də diqqət yetirməyin vacibdi. Hərçənd bu biliyin növləri çoxdu, hər halda, qısaca da olsa, onları sadalayaq...

## *Biliyin növləri barədə fəsil*

Bunu bilmək mütləq vacibdi ki, bilik iki növ olur: ilahi qanundan olan və şüurla qazanılan.

İlahi biliklərin çoxunun əsasını ilahi qanundan olan biliklər təşkil edir.

***“O kəsə ki Allah işıq nəsib eləməyib, o, ona (işığa) sahib olmayacaq”*** (Quran, 24:40).

İlahi qanundan olan biliyin birinci növünün özü də iki hissəyə – əsaslara və törəmələrə bölünür.

Əsas biliklər, ayrı sözlə desək, təkallahlılığa dair biliklər Allahın buyruğu və mistik anlamı, Onun əzəli, hərəkətli və müxtəlif adlarla hallandırılan mahiyyət keyfiyyətləridir.

Bundan savayı, bu bilik peyğəmbərlərin və onların ardıcıllarının – imamların və onların məsləkdaşlarının hallarının tədqiqi və öyrənilməsini, ölümə və həyata, Dirilmə

və Qiyamət gününə yönəltməni, Yaradandan mərhəmətin əldə edilməsini əhatə edir. Bu bilik, həmçinin, dini təriqətlərin əsası hesab edilir.

Həqiqi biliyi öyrədən zəruri qaynaqlar aşağıdakılardır:

İlk növbədə nəcib Quranın ayələri, ikinci – Peyğəmbərin (Allah onu salamat eləsin!) hədisləri və üçüncü – səmərəli sübutlar və nisbi dəlillər.

Əsaslar biliyinin bir hissəsi Quranın şərhidir. O səbəbdən ki, Quran – yazılanların ən qüdrətlisi, nəcibi və qiymətlisidir. Bu müqəddəs Kitabda Onu anlamaq üçün rəhm olunanlardan savayı, digər şüurların yarıb keçmək qabiliyyəti çatmadığı simvolların və sirlərin işarələri də var.

Nəcib Rəsulumuz (Ona salam olsun!) deyirdi:

“Quran əlamətləri arasında elə birisi yoxdu ki, gizlində və aşkarda olanı ifadə eləməsin. Ordakı gizlilərin hər biri özündə əlavə yeddi gizli olanı gizləyir”. (digər bir hədisdə isə “doqquz gizli olanı” deyilir).

Bundan savayı o, bunu da deyib:

“Quranda yazılan kəlamların hər biri öz məna həddinə malikdi, onların hər birinin öz doğulma dərəcəsi var”.

Hamıdan Uca (Allah) bütün biliklərin və həqiqətlərin nəcib Quranda yer aldığını, kiçik hisslərdən, adi şüurla qavranılanlardan tutmuş, böyük duyğulara və mətləblərəcən, aşkarda mövcud olanlar və onların sirləri barədə məlumatların olduğunu bu cür izah edir:

***“Allahın bu aydın Kitabında nə təzə, nə də köhnə saplaqdan olana toxunulmayanı yoxdur”*** (Quran 6:59).

O, həmçinin buyurub:

***“Qoy ağlı başında yaşayanlar Onun əlamətləri üzərində düşünə bilsinlər…”*** (Quran 38:29).

Quranın ortaya qoyduğu mətləbin anlanması mətləblərin ən alisi olduğu səbəbindən çətindir. Hansı bir şərhçi bu sahədə öz işini şərəflə yerinə yetirə bilər? Yaxud özünü

alim sayan hansı bir kəs Quran sirlərinin açılmasında nəyəsə nail ola bilər?

Bəli, Quran şərhçilərinin hər biri bu müqəddəs Kitabı öz qüvvəsi və anlayışı səviyyəsində izah edir. Hər kəs bu barədə, əslində heç nə demədən, nə isə deyir.

Quran elmini – ilahi qanun və rasional bilik haqqında mənbələrdən qaynaqlanan əsaslar yaradır. Məhz bu səbəbdən şərhçinin, Quranı müxtəlif tərəflərdən – leksik baxımdan, söz birləşmələri, alleqoriyalar və qrammatika baxımından təhlil və tədqiq etməklə bərabər, sufilərin fəlsəfi qənaətlərini və rəylərini də nəzərə alması vacibdir ki, onun təfsiri həqiqətə və reallığa yaxınlaşa bilsin.

Əsaslar biliyi, həmçinin, rəvayətlərdən və hekayətlərdən də agah olmağı ehtiva edir. Nəcib Peyğəmbərimiz (Ona salam olsun!) ərəblər və qeyri-ərəblər arasında ən parlaq nitqə malik bir natiq idi. Onun İlahidən olan Müəllimi (Uca Yaradan) ilahi açıqlamanı (vəhyi) ona buyurdu və onun şüuru yerdə və göylərdə mövcud olan hər şeyi əhatə edə bilmək qüdrəti qazandı, hər sözü, hər ifadəsi sirlər dənizinə, tapmacalar xəzinəsinə çevrildi.

Bu səbəbdən, Peyğəmbərin (Allah onu şad eləsin!) insanlar üçün dediklərini, danışdığı hekayətləri və rəvayətləri bilmək vacibdi.

Lakin Peyğəmbərin (Allah onu şad eləsin!) sözlərini, ilahi ifadələrini deyildiyi mənasında anlamaq hər kəsin qabiliyyətində olan məsələ deyil. Bu səbəbdən, Qanunvericinin göstərişinə uyğun surətdə hərəkət edilməsi, qəlbin Haqq yoluna yönəldilməsi, qayda-qanuna könüllü surətdə, təmənnasız riayət edilməsi vacibdir.

Kim ki Quranın şərhi və ezoterik izahı yoluna qədəm qoymaq istəyir, istəyir ki təhlili, tədqiqi həqiqətə əsaslansın, hər şeydən əvvəl dilçiliyə müfəssəl yiyələnməli, sintaksisdə kamil ustalıq nümayiş etdirməli, morfologiyanın

əsasları və qaydaları sahəsində seçilməlidir. O səbəbdən ki, dilçilik qalan digər sahələr üçün pilləkəndir. Onu yetərincə qavramayana ilahi biliyi əldə etməyin yolu bağlıdır.

Məlum məsələdi ki, əlçatmaz səviyyəyə qalxmağa can atan kəs ilk əvvəl özü üçün ora aparan pilləkəni hazırlamalı, yalnız sonra bu pillələrlə yuxarı qalxmalıdı. Dilçilik elmi digər elmlər üçün o səbəbdən yuxarılara qalxmaq vasitəsidi ki, o, necə deyərlər, istənilən qayda-qanunun ilkin əsası və bel sütunudur. Odur ki, istənilən biliyə can atan kəs, ilk növbədə, dilçiliyə baş vurmalıdı.

Dilçilik sahəsində axtarışların ilkin predmeti, ilk növbədə, ayrı-ayrı sözləri təşkil edən hərflərin anlanmasıdır. Daha sonra fellərlə – məsələn, üç-dörd hərfdən ibarət fellərlə tanış olmaq gərəkdi. Dilçi, həmçinin, nəzər-diqqətini ərəb poeziyasına, ələlxüsus ərəb poeziyasının gözəl və aydın şer nümunələrinə, bu poeziyanın fikir enerjisinin və ruhi qidasının qaynağı olan İslamaqədərki dövrünə yönəltməlidi. Bununla yanaşı, dilçilik – sözlərə və ərəb poeziyasına nəzər-diqqətlə kifayətlənmir, o, öyrənən kəsi qrammatikanı müfəssəl şəkildə mənimsəmək zərurətindən azad etmir. Dilçilikdə qrammatika qızıl-gümüş üçün tərəzi, yaxud fəlsəfə üçün məntiq qədər zəruridi.

Təkallahlığa dair biliklərin sübutlarından sayılan dilçilik, insanı Quranın və hədislərin şərhi üçün tələb olunan biliklərin astanasına gətirib çıxarır. Təkallahlığa dair biliyə malik olmadan, insan ruhlarının xilasa yol tapması çətin məsələdir. Bu biliksiz Qiyamət gününün təhlükəsindən sovuşmaq mümkünsüzdü.

İnam və din əsasları bilikləri bu sayaq müəyyənləşdirilib.

İlahi qanundan olan biliyin digər fərqli cəhəti – onun törəmə biliyi, yaxud qanunlar biliyini özündə cəmləməsidi.

Məsələ bundadı ki, bu biliklər mücərrəd və praktiki olur. Əsaslar biliyi – mücərrədə, törəmə biliklər – praktikiyə aiddi.

Praktiki bilik özündə üç qanunu cəmləyir:

Birinci qanun Hamıdan Uca Allahın ixtiyarında olanlardı. Bu, Allaha sitayişin əsas sütunlarından olan dəstəmaz ritualı məsələləri, dua, əmlakdan vergi, zəvvarlıq, cihad, Allaha tapınma, bayramlar, cümə, xüsusi zəruri dualar və sairədir.

İkinci qanun Allahın bəndələrinin, ictimai qanunlar əsasında yaranan və öz növbəsində iki növə bölünən münasibətlər hüququdur. Bu hüququn bir növü – qarşılıqlı münasibətlərin təyinini müəyyənləşdirənlərdir. Məsələn, ticarətdə, şəriklikdə, ianədə, borc almada cəzalanma və namus məsələləri ilə bağlı digər məqamlarda yaranan insan münasibətləri, birtərəfli sazişləri və razılaşmaları təyin edən hüquqlardır. Məsələn, kəbin, boşanma, köləlikdən buraxılma, məhkumluq, vərəsəlik məsələləri və sair. Bu hər iki növ hüquqla bağlı sahə “fiqh” adlanır. Fiqhi bilmək hər bir kəs üçün zəruri olduğu qədər nəcib bir işdir. O səbəbdən ki, bu hüquq ümumi maraqlara cavab verməklə yanaşı, bütün insanlara gərəkli və faydalıdır.

Üçüncü növ hüquq – fərdin şəxsi keyfiyyətlərinin təyinatçısı olan ruhu ilə münasibətə dair hüququdur.

Birinci bölümdən olan ikinci növə – rasional biliyə gəlincə, bu, fövqəladə qəlizliyə malik bilikdi. O səbəbdən ki, burda araşdırılan həqiqətlə yanaşı, ona olan məqamlar da mövcuddu. Bu bilik də öz növbəsində üç kateqoriyaya bölünür:

Birinci kateqoriyaya riyaziyyat və məntiqlə bağlı biliklər aid edilir. Riyazi biliklər sırasına rəqəmlərlə əlaqəli olan hesab, ölçü miqyasları və formaları barədə fikir yürüdən həndəsə, göyü, ulduzları, yer ərazilərini və onunla əlaqədar olanları öyrənib təhlil edən astronomiya daxildir. Ad günlərinin təyini, həmçinin ulduzların düzümü üzrə öncəgörmələr də bu bilikdən törəyir. Riyazi biliklər sırasına, həmçinin, simlərin və akkordların təyinini verən müsiqi elmi də daxildir. O ki qaldı

məntiq elminə, bu, insan təsəvvürlərini öyrənən, bu təsəvvürlərin dərki yollarını və təhlilini aparan bilikdir.

Məntiq – yuxarıda dediyim bilik növlərinin əsasında, ilk növbədə, təfərrüat və təfsilatlardan yaranır. Düşüncələrin və onların oxşar növlərinin əsas məqamlarını təhlil edir, daha sonra son nəticə kimi dəlil və sübutları araşdırmağa başlayır.

İkinci, yaxud ortaq  kateqoriya – təbiət barədə biliklərdir.

Burda söhbət şəffaf bədənlərdən, məzmun, forma, hərəkət, dinclik, göy ərazilərinin keyfiyyət və xüsusiyyətləri, sirayətedici və sirayətə məruz qalan atributlarından gedir. Bütün mövcudluqların – ruh və bədən növlərinin, hisslərin və duyğuların təsviri, onların dərki üsulları, həmçinin, tibb və canlı orqanizmlər barədə bilik – xəstəliklərin təyini, onların müalicə üsullarının növləri də bu bilikdən törəyir. Meteorologiya, mineralogiya, kimya və bu kimi sahələr də bu bilikdən törənənlərdi.

Üçüncü – bütün kateqoriyaların alisidi; mövcudluğu, onun zəruri və mümkün hissələrə bölünməsini izah edir, Dünyanı Yaradanın mövcudluğunu təsdiq edir, Onun keyfiyyətlərini,  buyruqlarını, hökmlərini və iradəsini, Ondan yaranan mövcudluğun digər keyfiyyətlərini tədqiq edir. Həmçinin ali qərarı, sadə özülləri və abstrakt intellektləri, ali ruhları, iblis və mələk hallarını öyrənir. Və ən nəhayət, peyğəmbərlik biliyini tədqiq edir, möcüzələr və ecazkarlıq məsələlərini, müqəddəs ruhların vəziyyətini, yuxunun və ayıqlığın xüsusiyyətini, daxili görümü təhlil edir. Ovsunçuluq, sehrbazlıq və sair bu kimi qabiliyyətlər də bu sahədən törəyir.

Bunu bilmək vacibdi ki, rasional elmlər mahiyyət etibarı ilə sadədir, lakin bu elmlərin də daxil olduğu elə bir bilik meydana çıxıb ki, o mövcud olan bütün sadə elmlərin xüsusiyyət və əlamətlərini özündə cəmləyir.

Bu, təsəvvüfün anlamı və sufilərin xətt-hərəkəti barədə bilgidir. Sufi biliyi, yaxud özünəməxsus sufi yolu ekstatik

hal və mistik duyum, ekstaz və ehtiras, saflıq və hərəkətlər obrazı, yoxolma və kasıblığın etirafı, fəna, Allaha və onun İradəsinə sevgi, canatanın yol səyləri və dayanacaqları, eləcə də digər özünəməxsus atributlara malik olan rasional biliyin və ilahi qanundan olan biliyin cəmidir. Allahın köməkliyi ilə bu üçlü bilik barədə biz ayrıca kitabda danışacağıq. İndi isə məqsədimiz bu mövcud biliklərin saylarını, qısaca və yığcam halda sadaladığımız növlərini açıqlamaqdır.

Beləliklə, biliklər sadalandıqdan və növləri müəyyənləşdirildikdən sonra, bunu da bilməliyik ki, bu biliyin və mistik duyumun tədqiqi bizlərə həm də o səbəbdən vacibdi ki, onlara yiyələnmə üsullarının özünün də daha ətraflı şəkildə öyrənilməsinin müəyyən növləri olduğunu bildirək.

### *Biliyin qazanılma yolları barədə fəsil*

Bunu bilmək vacibdi ki, insanlıq mistik biliyi iki yolla qazanır, iki yolla da ona yiyələnir. Birinci yol – insanın öz qüvvəsi ilə, ikinci yol–İlahinin Himayəsi və Mərhəməti ilə.

Birinci yol duyğu yoludur. Bu o yoldu ki, arif kəslər həmin yol üzrə gedərlər. Lakin bu yolun özü də iki cürdü. Bunun biri o biliyin aşkarda, yəni öyrənmə, mənimsəmə vasitəsi ilə qavranılmasıdır. Digəri– düşünmə və xəyala dalma vasitəsi ilə. Burda təhsili düşünmə və xəyala dalma (zikr) əvəz edir.

Biliyin aşkarda qazanılması, yəni bir insanın o birisindən qaynaqlanması əsasında əxz edilməsi biliyin müəyyən qisminin mənimsənilməsidi. Biliyin düşüncə və dərk yoluyla anlanmasına gəlincə, bu, insanın Ümumbəşəri Ruhdan qaynaqlanmasıdır. Təbii ki, Ümumbəşəri Ruh himayə və tədris baxımından istənilən alimin, yaxud müəllimin verə biləcəyi təhsildən, yaxud bu kəslərin himayədarlığından müqayisəyəgəlməz dərəcədə qüvvətli və təsirlidir. Bir qədər

də dəqiq olsaq, deməliyik ki, ümumiyyətlə, bu bilik toxum torpağa basdırılantək, yaxud mirvari dənizin dibində uyuduğu kimi, qiymətli daş filiz mədənində yatdığı sayaq, gizli şəkildə insan ruhunda mövcuddu. Özünütəlim (təəllüm) həmin mövcud biliyin üzə çıxarılması deməkdirsə, bu biliyin mənimsənilməsi – gizlidə (potensial vəziyyətdə) olanın aşkar edilməsi və fəzaya daxil olunmasıdır. Məhz bu səbəbdən şagird ruhu ilə müəllim ruhu arasında müəyyən oxşarlıqlar və doğmalıqlar ortaya çıxır. Belə ki, burda müəllim öz izahları və şərhləri ilə əkinçiyə, şagird bu biliklərin qəbulu ilə əkin sahəsinə, bilik – bu sahədə əkilən toxuma, biliyin həyata keçirilməsi isə bu toxumdan boy atan zoğa bənzəyir. Şagirdin ruhu o, kamillik dərəcəsi ilə ucaldıqca boy atan ağaca, yaxud dənizin dibindən çıxarılan mirvariyə oxşayır.

Bu səbəbdən, elə ki bədən (maddi) qüvvəsi ruhun üzərində qələbə çalar, şagirdin məsləhətə, öyüdə və maarifə ehtiyacı artar, bilik əldə etməyin yolunda səylərin və çalışmaların artırılması zərurəti yaranar ki, buna da çoxlu vaxt tələb olunar. Lakin elə ki şüur və daxili görüm işığı, bədən (maddi) qüvvələrinin üzərində qələbə çalar, şagird bir qədər düşünüb-daşınar və özünü məsləhətdən, öyüddən və maariflənmədən xilas edər, onun qüdrətli, işıqlı ruhu bir saatlıq düşüncənin ərzində elə bir pilləyə çatar ki, zülmət dolu, kəmsavad ruh o pilləyə illər uzunu düşünübdaşınsa belə, çata bilməz.

Odu ki, bəziləri biliyi bilik və təhsillə, digərləri isə, düşüncələr və təhlillər yolu ilə əldə edirlər. Lakin istənilən halda, istənilən öyüd düşünmək və təhlil etmək zərurəti yaradır. O səbəbdən ki, insan – anlaşıla bilən hər bir şeyi, ümumi və fərdi olan məsələləri anlayantək, tək bir öyüd və təhsillə anlaya bilməz. Amma nə isə mənimsəyərsə, o mənimsədiyini öz düşüncəsi və təhlili ilə dərk edər və bu

minvalla digər yeni bir mərhələnin dərkinə çatar. Rasional biliklərin, elm sahələrinin, filosofların və alim kəşflərinin bir çoxu həmin bu bilik sahiblərinin düşüncə qüvvəsi hesabına, dərin qavram qabiliyyətinin, ruhi saflığın, cüzi məsləhətlərin və təhsilin hesabına yaranıb.

Əgər bu belə olmasaydı, insan üçün hər bir şeyin dərki mütləq vacib olardı. İnsan daim nələrisə öyrənib əxz edə-edə, əslində, cahillik zülmətində qalmağına davam edərdi. O səbəbdən ki, heç bir ruh ümumi və fərdi olanların hamısını növbəli surətdə öyrənib qavramaq iqtidarında deyil. Lakin artıq deyildiyi kimi, bəziləri müxtəlif həqiqətlərə təhsil və maariflə çatırlarsa, digərləri çatıb anlamaq istədiklərini müşahidənin və təcrübənin köməyi ilə əldə edirlər, o birilər buna düşüncə qüvvəsi və qəlb saflığı ilə nail olurlar. Məsələn, həndəsə ilə məşğul olan bir kəs ömrü uzunu nəyə ehtiyac duyduğunu, yaxud bu ehtiyacın nə olduğunu anlaya bilmir. Bununla bərabər, bu elmə yiyələndikcə, o, həndəsənin ümumi anlayışlarını, əsas prinsiplərini öyrənir, daha sonra, ümumi prinsiplərdən çıxış edərək, öyrənib əxz etdiklərini öz-özlüyündə təhlil edir və bu minvalla onun üçün zəruri olan şəxsi məqamları həmin o ümuminin içindən seçib çıxara bilir.

Eynilə bu minvalla müəllim yanında təhsil alan həkim də xəstəliklərin bütün incəliklərini, yaxud dərman kütləsinin spesifik xüsusiyyətlərini anlamaq iqtidarında deyil. Həkimlərin çoxu müalicə işinə, tibbin ümumi əsaslarına və müxtəlif istiqamətlərinə yiyələndikdən sonra başlayırlar. Münəccimlər də beləcə, nücum elminin ümumi qaydalarına və əsaslarına yiyələndikdən sonra yalnız öyrənib bildikləri çərçivədə müəyyən nəticələr əldə edirlər. Bu, həmçinin fiqhə, mənəvi ədəb qaydalarına və digər sahələrə də aiddir. Elm sahələrinə bu sayaq yiyələnmə üsulu incəsənətin bir sıra növlərinə də şamil edilir. Misal üçün, musiqi

sahəsində biri öz düşüncə qüvvəsi ilə fikirləşib müəyyən səs bölgüləri (akkordlar) yaradır, digəri bu sahədə əldə etmək istədiyini seçdiyi alətə uyğun üsullarla tapır. Beləliklə, bütün fiziki, ruhi işlər və məşğuliyyətlər ilkin mərhələdə təhsillə qavranılır, daha sonra, düşüncələr və təhlillər yolu ilə kamilləşdirilir. Amma elə ki fikir və şüur səddləri aradan qalxır, insan düşünməyin, arzu etdiklərinin və axtarışlarının dərininə varmağın, ona diqqət kəsilməyin nə olduğunu anlamağa başlayır, onun sinəsi genişlənir, gözləri aydınlaşır və gizlidə olan ruhi bilgiləri əziyyətsiz və çətinliksiz həyata keçmək mərhələsinə çatır.

O ki qaldı ikinci yola, yəni ilahi himayədarlıqla qazanılan biliyə, bu yolun özü də iki növə ayrılır.

Bunun birincisi, ilahi açıqlamalar – vəhydir. Bu, ruh kamillik dərəcəsinə çatdıqda, öz ətəklərindən maddi və fiziki murdarlıqları çırpıb atdıqda, şirin xəyallar və arzular məngənəsindən çıxıb nəzərini bədən ehtiraslarından və dünya həzzlərindən çəkdikdə baş verir. O (ruh), maddi istəklər və onların yaratdığı iztirablar düyününü açaraq, Kainatın Qaynağına və Yaradanına üz tutur, Onun Himayəsini və Mərhəmətini axtarmağa başlayır. Belə olan halda Hamıdan Uca Allah da bu ruhdan Öz Lütfünü əsirgəmir, Öz Diqqətini və nəfis Mərhəmətini ona yönəldir. Onu Öz İlahi Görümüylə seçib, Yaddaş Lövhəsinə  tapşırır. Belədə kamil və müqəddəs ruh – şagirdə, Ümumşüur – bu şagirdin bütün bilikləri və həqiqətləri heç nə düşünmədən, təhsil alıb öyrənmədən ona bəxş edən müəlliminə bənzəyir. Bütün qaynaqlar və təsəvvürlər bu ruha, mürəkkəb ağ kağıza həkk olantək, tamlıqla həkk edilir  və Uca Tanrının Öz Peyğəmbərinə nazil etdiyi bu nəcib ayənin sübutuna çevrilir:

***“Və səni əvvəllər bilmədiklərinə öyrətdim…”*** (Quran, 4:113)

Peyğəmbərlərə məxsus olan bu bilik, insanların əldə etdiyi bütün biliklərin ən ucası, ən nəcibidir. O səbəbdən ki, bu bilik heç bir ortaqsız, köməkçi vəsaitsiz, birbaşa Yaradanın Özündən qəbul olunur və mənimsənilir. Bu mövzu Adəmlə baş verən bir əhvalatı da yada salır (Allah onu da, mələkləri də qorusun!):

Bir vaxtlar yaşadıqları uzun illər ərzində müxtəlif yollar və üsullarla bir çox elmlərə və biliklərə yiyələnmiş mələklər, günlərin bir günü bütün mövcud həqiqətlərə çatdılar və Allahın ən bilikli varlıqlarına çevrildilər. Mələklər Kainatın və bütün yaradılanların sirlərindən agah idilərsə, Adəm bu biliklərdən xəbərsiz idi. Çünki bununla məşğul deyildi və müəllimi də yox idi. Bu səbəbdən, mələklər Adəmə yuxarıdan-aşağı baxır, qürur və lovğalıqla: "Biz Allahı şərəfləndirib təriflməkdə səndən üstünük, çünki bütün biliklərdən və həqiqətlərdən agahıq", – deyirdilər.

Mələklərin bu lovğalığından sarsılan Adəm (Allah onu salamat eləsin!) hər şeydən üz döndərir, köməksiz və gücsüz vəziyyətdə öz Yaradanına üz tutaraq, Ondan himayədarlıq diləyir. Və Uca Yaradan Adəmin bu diləyini qəbul edib, bütün həqiqətləri və bilikləri ona agah edir, sonra onu mələklərin qarşısına çıxarıb onlara deyir:

***"Əgər siz haqlısınızsa, Mənə adları sadalayın"*** (Quran 2:29).

Onda mələklər özlərini Adəmin qarşısında alçalmış hiss edirlər, onların qürur və təkəbbür gəmisi zəiflik və iqtidarsızlıq dənizinin dibinə çökür. Yaradana üz tutub:

***"Biz yalnız Sənin bizə öyrətdiklərini bilirik" – deyirlər*** (Quran, 2:30).

***Onda Allah Adəmə (Allah onu qorusun!) deyir: "Adəm, o adları onlar üçün sadala…"*** (Quran, 2:31) Və Adəm mələkləri bütün həqiqətlərdən və sirlərdən agah edir.

Alim kəslər də bu həqiqəti etiraf edirlər ki, vəhylə qazanılan bilik, təhsil və öyüd, təhsillə qazanılan bilikdən qat-qat güclü, kamil və qiymətlidir.

Vəhylər peyğəmbərlərdən və rəsullardan qalma xüsusiyyətdir. Uca Allah bizim böyük rəsulumuz – Məhəmməd Peyğəmbərdən sonra (Allah onu şad eləsin!) bu (vəhy) qapıları bağladı. Allaha (İslama) itaətin ən böyük müjdəçisi, peyğəmbərlər möhürü Məhəmməd peyğəmbər (Ona salam olsun!) Yer üzünün ən bilən, ən parlaq natiqlik qabiliyyəti olan insanıdır. Bu barədə o özü deyirdi:

**"Məni Mənim Allahım tərbiyə etdi və bu tərbiyəni kamillk həddinə çatdırdı".** Və bir də deyib:

**"Mən sizlərdən ən çox biləni və Allahdan ən çox qorxanıyam".**

Bizim Peyğəmbərin biliyi (Ona salam olsun!) həm də o səbəbdən kamil, qüdrətli və digər biliklərdən üstündür ki, bu bilik ilahi yolla qazanılıb, peyğəmbər özü isə heç bir təhsilə maraq göstərməyib və təhsil almayıb. Hamıdan Uca Allah bu barədə belə deyib:

***"Onu (mələklər) qüvvəsinin qüdrəti ilə maarifləndirdim..."*** (Quran, 53:5).

İkinci növ bilik ilahi təlqindir (ilham).

İlham – anlamağın, dərk etməyin elə bir növüdür ki, məqamı çatanda insan ruhu öz saflığı, imkanları və qabiliyyəti müqabilində Ümumruhdan mənimsəyir. İlham da özünəməxsus vəhydir. Vəhy – gizli hökmün açılışı, dəqiq izahıdırsa, ilham – bu hökmün göstəricisi və ifadəsidir.

Vəhy yolu ilə alınan bilik peyğəmbərlik vergisi (ilm-i kəbavi), ilhamla alınan bilik – ilahi vergi (ilm-i laduni) adlanır.

İlahi bilik insanla onun Yaradanı arasında heç bir ruhi ortaq olmadan, gizli çıraqdan süzülən şüa ziyalı qəlbi, saf, parlaq ruhu işıqlandırantək, qazanılır və mənimsənilir.

Bunu belə də izah etmək olar:

İlkin Ümumruhun İlkin Şüurla ruhi vəhdəti, ruhi amalı Adəmlə Həvvanın (Allah onları qorusun!) ruhi əlaqəsinə bənzəyir ki, bütün bilgilər və həqiqətlər həmin bu əlaqədə mövcuddur.

Ümumbəşəri Şüur, deyildiyi kimi, Ümumruhdan kamil və ucadır. Bununla yanaşı, Ümumruh – bütün yarananlardan kamil, qüdrətli və nəcibdir. Beləliklə, vəhy – Ümumşüurun Mərhəməti ilə qazanılır. İlhama gəlincə, bu, Ümumruhun nəcibliyindən nazil olur.

Bu səbəbdən vəhy – peyğəmbərlərin bəzəyi, ilham – müqəddəslərin xilas yoludur.

Ruh şüurun tabeçiliyində olduğundan, "müqəddəslik" dərəcəsi peyğəmbərlik dərəcəsindən aşağıdadır. Və beləcə, eyni şəkildə, ilham vəhydən alçaq, yuxudan (röya) qüdrətlidir.

Deyildiyi kimi, peyğəmbərlərin və müqəddəslərin biliyi və mistik idarəolunması insan biliklərindən ən kamili və ən şərəflisidir. Lakin ilahi açılışla (vəhy) qazanılan bilik və ilahi təlqini üstələyən bilik yalnız peyğəmbərlərə verilir. Bu həmin o bilikdir ki, Adəm, Musa, İbrahim, Məhəmməd (Allah onu salamat eləsin!) və digər peygəmbərlər tərəfindən qazanılıb.

Bunu da bilmək vacibdir ki, peyğəmbərlik rəsulluqla (risalət) oxşar deyil, bunlar bir-birindən fərqli dərəcələrdir. Peyğəmbərlik – Müqəddəs Ruhun İlkin Şüurdan mənimsədiyi həqiqətlərin və biliklərin mənimsənilməsidir ki, sonradan geniş şəkildə istifadəyə verilir. Rəsulluq dərəcəsi – bu həqiqətlərin və biliklərin yayılması və artıq bu bilikləri və həqiqətləri mənimsəməyə hazır olan ruhlara çatdırılmasıdır.

Bu da mümkün olan məsələdir ki, hansısa ruh vəhy dərəcəsinə çatdıqda həqiqətləri və İlkin Şüurdan olan bilikləri özünə çəkib mənimsəsin, lakin mövcud səbəblərdən hansı birinə görəsə, yaxud nəyinsə nəticəsində, mənimsədiklərini yaymaq, çatdırmaq iqtidarında olmasın.

Bunu da qeyd edək ki, ilahi bilik (ilm-i laduni) təkcə müqəddəslərə mənsub deyil. Bu biliklərdən, həmçinin, peyğəmbərlər də istifadə edirdilər. Məsələn, Xızır (Allahın ona salamı olsun!) belə bir biliyə malik idi ki, Hamıdan Uca Allah bu barədə Nəcib Quranda deyib:

***“Və ona Bizdən olan biliyi anlamaq imkanı verdilər”*** (Quran, 18:64).

Bu barədə möminlər öndəri Əli bin Əbu Talib (Allah ondan razı olsun) belə deyib: **“Mən öz dilimi möhürlədim və bu an qəlbimdə həmin o biliyin minlərlə qapıları açıldı. Qapıların hər birində min qapı”.**

Bundan savayı, o deyib: **“Əgər mənim üçün döşəkçə hazırlasaydılar və mən o döşəkçənin üstündə otursaydım, Tövratın adamlarını onların Tövratıyla, İncilin adamlarını onların İncili ilə, Quranın adamlarını onların Quranıyla mühakimə edərdim”.**

Bu həmin o pillə və dərəcədir ki, təhsil, yaxud öyüdlərlə qazanıla bilməz. İnsan bu dərəcəyə yalnız ilahi biliyin qüdrəti ilə çata, özünü zinətləndirib, ucalda bilir.

Və yenə Əli (Allah ondan razı olsun!), söz Musanın (Ona salam olsun!) boynuna düşən öhdəliklərdən düşəndə, onun kitabının qırx dəfə genişlənməli olduğu barədə belə deyib:

**“Əgər Allah mənə “Açan”ın (“Əl-**Fatihə” **surəsi) mənasını açmağı buyursaydı, mən onu o qədər açardım ki, bu izah qırxıncı sərhədə çatardı”.**

Genişləndirmənin, böyüdülmənin, bilik sərhədlərinin bu miqyasına ilahi, mistik biliklərdən, göy biliklərindən istifadə olunmadan çatıla bilməz.

Bəli, Yaradan Öz bəndəsini Öz sərhədlərindən Özü istəyən vaxt içəri buraxar, Öz Mərhəmətini ona əta edərək, onun ruhuyla Yaddaş Lövhəsi arasındakı örtüyü açar.

Və bütün sirlər və məxfiliklər bəndə üçün görünən və anlanan olar, gizli mənalar və həqiqətlər ona o dərəcədə əyan olar ki, o onları istədiyi adama istədiyi şəkildə açıb izah edə bilər.

Odu ki, həqiqi müdriklik ilahi bilikdən qaynaqlanandır. Kim ki bu dərəcəyə yetməyib, müdriklik ona nəsib olmayacaq. O səbəbdən ki, müdriklik, Onun özü dediyi kimi, İlahinin səxavətindən və hikmətlərindəndir.

***“O, müdrikliyi kimə istəsə, ona verir. Bu bol nemət o kəsə verilir. Bu barədə yalnız ariflər bilir”*** (Quran 2;272).

O kəslər ki ilahi biliyin pillələrinə qalxıb, təhsil və öyüd iztirablarından qurtulublar. Onlar hamıdan az oxuyar, lakin hamını, hamıdan çox maarifləndirərlər. Onların səyi cüzi, yaratdıqları əbədidi.

Bunu da bilmək vacibdi ki, dinin başa yetdiyi barədə hamıdan Uca Allah belə buyurub:

***“İnsanın daha rəsullara və peyğəmbərlərə ehtiyacı qalmadığı bu gün Mən sizlər üçün sizin dininizi tamamladım”*** (Quran, 5:5).

Aydınlıqla deyilmiş bu ifadənin izahına, yaxud şərhinə səy göstərən kəs müdriklikdən uzaqdadır. Bu səbəbdən, ilahi məlumatların – vəhyin axını dayandırıldı, nazil (risalət) qapıları bağlandı.

Lakin ilahi ilham qapıları hələ açıq qalmaqda, Ümumruhdan axan parlaq şüalanma hələ də davam etməyindədi. O səbəbdən ki, insan ruhları düşünmədən oyanmaq və xatırlamaq üçün ona (Ümumruha) ehtiyaclıdırlar. Artıq insanlara rəsulluq və peyğəmbərlik gərək olmasa da, onların bu ehtiyacı tükənməzdir. Həm də axı təbiət qüvvələrinin və maddi ehtirasların təzyiqi altında yaşadığından, həzzlər və arzular bataqlığında boğulan insan daim xatırlamağa, anlamağa və oyanmağa ehtiyaclıdı.

Beləliklə, Hamıdan Uca vəhy qapılarını Öz İradəsi ilə bağladısa da, Öz Rəhmi və Mərhəməti ilə, işlərin dövriyyəsi üçün elədiyi kimi, ilham qapılarını o səbəbdən açıq saxladı ki, insanlar Allahın Öz bəndələrinə Mərhəmətli və Rəhmli olduğunu, bitib-tükənməz nemətlərini istədiyi kəsə bəxş etdiyini anlasınlar.



# SƏADƏT İKSİRİ
# (İLMİ LADUNİ)



## *Qəlbin gizli mahiyyətinin dərkindən asılı olan məqamlar barədə fəsil*

## *həmçinin sənin mövcudluğunun təsdiqi barədə söz*

Qəlbin həqiqi mahiyyətinin dərki, sən onun mövcudluğunu dərk etməzsənsə, faydasız olacaq. Sən onun həqiqi varlığını sonra dərk edəcəksən, daha sonra qoşununu tanıyacaqsan, sonra onun bu qoşuna münasibətlərindən agah olacaq, sonra keyfiyyətlərinin nədən ibarət olduğunu anlayacaqsan. Hamıdan Uca Allahın dərki, onun (qəlb) üçün bəhrə verəndə, onun (qəlbin) həmin o dərklə öz səadətinə yetməyini biləcəksən. Və bütün bunlar barədə sənə işarələr veriləcək.

Bil ki, o (qəlb), insanın öz mövcudluğuna şübhəsi olmadığı kimi, həqiqətən, mövcuddu. Lakin ölümün bədəni olub ruhu olmadığı kimi, onun da görünən, maddi örtüyü yoxdur. Məhz bu səbəbdən, biz ruhun həqiqi mahiyyəti barədə danışanda qəlbi nəzərdə tuturuq. Çünki onsuz bədən ölüdür. Və əgər kimsə gözlərini yumub öz bədənini (qabığını) unudarsa, mütləq şəkildə öz mövcudluğunu dərk edər, yer və göy barədə, orda olanlar barədə bilməsə də, özü barədə bilər. Və əgər kimsə diqqətini yaxşı-yaxşı ona (qəlbə) cəmləyərsə, o, Ali Dünyanın həqiqi mahiyyətindən olan nə isə dərk edər və anlayar ki, elə bir vaxt gəlib yetişəcək, ondan bu bədəni alacaqlar. O özü isə qalacaq və heç nəyə çevrilməyəcək.

## *Qəlbin gizli mahiyyətindən bəhs edən fəsil*

O ki qaldı qəlbin gizli mahiyyətinə – o nə olan şeydi və onun əsas xasiyyətləri nədi, Şəriət bu mövzunun dərininə getməyi o səbəbdən yasaq buyurur və Peyğəmbərimiz də (Allahın ona salamı olsun!) ona görə izah etmir ki, Hamıdan Uca Allah belə deyib:

"Və əgər səndən ruh barədə soruşsalar, de ki, o Rəbbimin işlərindəndi".

Ruh barədə bundan savayı nə isə demək o səbəbdən yasaqdı ki, Ruh – İlahinin işlərindəndi və İşlər Dünyasına aiddi ki, yaradıcılıq və digər məsələlər məhz Ordadı.

Yaradıcılıq Dünyası nə isə ayrı bir şeydir, İşlər Dünyası isə nə isə ayrı.

Bil ki, ölçüsü və kəmiyyəti olan hər bir şey Yaradıcılıq Dünyasına aid edilir. Yaradıcılıq isə hərfi mənada **hesablama** deməkdi.

İnsan Qəlbininsə nə ölçüsü, nə kəmiyyəti var. O bölünmür. Lakin əgər o bölünən olsaydı belə, o halda onun bir hissəsində həmin o **nə isədən** xəbərsizlik, digər tərəfində, o **nə isənin** dərki olardı və bu halda o eyni zamanda həm bilən, həm də bilməyən olardı ki, bu da Allahın cəzasıdı.

Baxmayaraq ki, bu Qəlb (can) nə bölünən, nə də ölçüyə gələndir, o yaradılandır və yaradılan olduğu səbəbindən də, hesaba gələnlər sırasında "yaradılan" adlandırılır və Yaradıcılıq Dünyasına aid edilir. Bir ayrı mənada isə O (Qəlb), yaradılanlar (hesablananlar) dünyasına yox, İşlər Dünyasına o səbəbdən aid edilir ki, İşlər Dünyası – ölçüsü və kəmiyyəti olmayanları özündə cəmləyəndi.

O kəs ki inanır, ruhun əvvəlcədən mövcud olmasına, "can – keyfiyyətdir" deyənlər kimi, səhvə yol verir. O səbəbdən ki, keyfiyyət öz-özlüyündə mövcud olmur, nəyəsə aid olur. Can isə bütün xüsusiyyətləri və keyfiyyətləri özündə cəmləyən ayrıca bir yaranışdır. Belə olan halda o,

hansı səbəbdən bədənin keyfiyyətlərindən ola bilər? O kəs ki deyir “o (qəlb, can) bədəndir”, bu da səhvdi. O səbəbdən ki, bədənlər bölünə, parçalana bilir, can (ruh) isə bölünmür. Lakin bir can da var ki, o bölünür. Bu can, əsasən, heyvanda var. Lakin bizim Qəlb adlandırdığımız ruh bütün canlardan qüvvətli və qüdrətlidir. O, Allahın dərki səbəbidir. Heyvanlarda beləsi yoxdu.

O (Qəlb), nə keyfiyyət, nə də bəndədir. O, ilahi varlıqlar qisminə aid olan müstəsna yaranışdır və bu səbəbdən, onun həqiqi mahiyyətinin dərki çətin, izahı mümkünsüzdü.

Bu bilik inam yoluna yenicə qədəm qoyanlar üçün deyil. O səbəbdən ki, inam yolunun başlanğıcı səy və çalışmalardır. Və o kəs ki yolu müvafiq qaydalar üzrə keçməyə səy göstərəcək, bu bilik özü onu haqlayacaq. Bu biliyi ona kimsə verməyəcək. Bu dərk möminlik yoluna aiddi. Məhz bu səbəbdən Uca Yaradan:

***“O kəslər ki səy göstərəcək, biz onlara Öz Mirvarimizin işıltısını göstərəcəyik”*** (Quran 29:69), – buyurub.

O kəslər ki inam yolunda səy və çalışmalar göstərməyib, onlara canın həqiqi məğzi barədə danışmağın mənası yoxdu. Lakin bütün səy və çalışmalardan əvvəl, Qəlbin ordusu barədə o səbəbdən bilmək vacibdi ki, o kəs ki öz ordusunu tanımır, o qalib gələ bilməz.

## *Öz bədən örtüyündə olarkən insanın cismani ehtiyaclarının səbəblərindən, aşkarda (zahiri) və gizlidə (batini) olan əsgərlərindən bəhs edən fəsil*

**“Bil ki, bədən – Qəlbin səltənətidi və bu səltənətdə Qəlbin müxtəlif qoşunları var. Yalnız Allah öz qoşunları barədə bilir”** (Quran 74:31).

Qəlb Ali Dünya üçün yaradılıb. Onun işi-peşəsi səadət axtarmaq, səadəti – Hamıdan Uca, Qüdrətli Yaradanı dərk etməkdi.

Hamıdan Uca Yaradanın dərki isə Onun yaratdıqlarının dərkindən yaranar ki, bu da Duyğular Dünyasına aiddi.

Onun (Yaradanın) dünyasından olan möcüzələrin dərki duyğuların köməkliyi ilə həyata keçərsə də, duyğuların özü bədən örtüyünə aiddi. Beləliklə, dərk – Qəlbin qəniməti, duyğular – onun köməkçiləri, bədən örtüyü – yedəyində getdiyi heyvanı və köməkçilərin hambalıdı.

Bədən örtüyü – Qəlbin sudan, torpaqdan, temperaturdan, nəmişlikdən yaradılan heyvanıdır. Bu səbəbdən o zəifdir, aclıq və susuzluq üzündən daxilən, düşmən hiyləsindən, heyvan hücumundan zahirən ölümlüdü. O səbəbdən ki, o, aclıq və susuzluq üzündən yeməyə və suya ehtiyaclıdır, ona bu nemətləri tapmaqdan ötrü qoşun gərəkdi.

İlk əvvəl bunu bilmək vacibdi ki, əllər, ayaqlar və digər köməkçi vasitələr onun (bədənin) zahiri (görünən) qoşunudu.

Digər qoşun – bədənin nəfs və tamah ehtiyacları qisminə aid olan gizli qoşundu. Görmədiyini arzulamaq mümkün olmayan kimi, görmədiyin düşmənlə döyüşə girmək də, mümkün olan iş deyil və burda ona (bədənə) aşkar kəşfiyyatçılar gərəkdi ki, bu da beş hiss üzvləridi: görmə, qoxulama, eşitmə, dadbilmə və duyğular. Digər gizli kəşfiyyatçılar da var (onlar da beşdi). Onlar beyində məskunlaşar. Bu: qavrama, düşüncə, yadda saxlama, xatırlama və təsəvvür qüvvəsidi. Bu kəşfiyyatçıların hər birinin öz işi var və onlardan hansı birisə korlanarsa, insanın bütün işləri alt-üst olar. İnam yolunda da, bu dünyanın işlərində də bu qoşunlar Qəlbə tabedirlər. O (Qəlb), onların şahı və hökmdarıdı. O, dilə əmr edərsə, dil danışar, ələ əmr edərsə, əl hərəkətə gələr, ayaqlara əmr edərsə, ayaqlar yeriyər, gözlərə əmr edərsə, gözlər görər, düşüncə qüvvəsinə əmr edərsə, insan düşünməyə başlayar.

Bu qüvvələr Qəlbə öz xoşlarıyla, öz təbiətlərinə uyğun şəkildə tabe olarlar ki, Qəlb bədəni öz nəzarətində saxlaya bilsin: öz qoşununu düzgün idarə etsin ki, bədən öz ovunu ələ keçirə bilsin, Ali Dünyayla əlaqələr qura bilsin ki, Səadət Toxumunu cücərtsin.

Bu qoşunun Qəlbə xidməti Hamıdan Uca Yaradanın buyruğundan çıxa bilməyən mələklərin Ona (Yaradana) xidmətinə bənzəyərsə də, mələklərdən fərqli olaraq, bu qoşun Qəlbin buyruqlarını öz arzusuyla, könüllü surətdə yerinə yetirər.

### *Bu qoşunun məqsədinin, oxşar misalınköməkliyi ilə dərki barədə fəsil*

Qəlb qoşunu barədə müfəssəl bilik kifayət qədər ətraflı məlumatlar tələb edir. Qısaca olaraq, bu qoşunun məqsədlərini sənin üçün misallarla izah edək.

Bil ki, bədən dövlətdir. Əllər, ayaqlar, eləcə də, digər bədən üzvləri bu dövlətin fəhlələridi. Bədən (cismani) istəkləri, bu dövlətin vergi müfəttişləri, təcavüzkarlıq – darğaları, Qəlb – şahıdır. Ağıl isə Ona (Qəlbə) vəzirlik edər.

Və bütün bunlar şaha (Qəlbə) o səbəbdən lazımdı ki, dövlətin (bədənin) işlərini nizamlaya bilsin. Lakin bədən (cismani) istəkləri – həmin bu vergi müfəttişləri daim ağılın əksinə gedən, vergi bəhanələri ilə dövlətin əmlakını tarmar etmək istəyən fırıldaqçılardır. Təcavüzkarlıq da, öz növbəsində, hər şeyi dağıdıb məhv etməyə meylli qəzəbli, qəddar, kobud, sərt darğadı.

Və əgər şah daim öz vəziri ilə məsləhətləşərsə, tamahkar və yalançı vergi müfəttişlərini vaxtlı-vaxtında öz yerinə oturdarsa, onların vəzir barədə dediklərinə əhəmiyyət verməzsə və darğanı da vəzirin ixtiyarına verərsə ki,

vəzir də (ağıl), çox çərənləyib zəhləsini tökməsin, darğanın da cilovunu əlində möhkəm saxlayarsa ki, o da vəzifə borclarından sui-istifadə edə bilməsin, bax onda dövlətin (bədənin) işləri qaydasında gedər. Və hər şey belə gedərsə, yəni şah (Qəlb) özünü vəzirin (ağlın) ixtiyarına verərsə və vəziri (ağlını) o birilərin nökərinə çevirməzsə, o halda dövlətin (bədənin) işləri öz qaydasında getməklə yanaşı, Səadətə (İlahi Kaşanəyə) aparan yol üzünə bağlı qalmaz.

Yox, əgər ağıl cismani istəklərin və təcavüzün əsirinə çevrilərsə, dövlət (bədən) tar-mar olar, şah isə bədbəxtliyə düçar olub, son ucda özünü məhv edər.

### *Cismani istəklərin, təcavüzkarlığın, bədənin, hisslərin və Qəlbin zəruriliyinin aşkar edilməsindən bəhs edən fəsil*

Sən yuxarıda deyilənlərdən bildin ki, cismani ehtiraslar və təcavüzkarlıq bədənin yemək və suyla, həmçinin müdafiə ilə təmin olunmasından ötrü yaradılıb. Deməli, onların hər ikisi bədənin nökəri, yemək və su isə, onun yemidi.

Bədən özü isə hisslərin daşıyıcısıdır. Bu, o deməkdi ki, bədən – hisslərin quludu. Hisslər isə ondan ötrü yaradılıb ki, ağıl üçün casusluq etsinlər, onun qarmağı və toru olsunlar və ağıl Hamıdan Uca Yaradanın möcüzələrindən xəbər tuta bilsin. Deməli, hisslər ağlın nökərləridi.

Ağıl isə Qəlbdən ötrü yaradılıb ki, o (ağıl), İlahiyyatı, Ordan sızan şüaları ona göstərmək üçün şam və çıraq olsun. O səbəbdən ki, İlahiyyat Onun (Qəlbin) Cənnətidi.

Deməli, biz bildik ki, ağıl Qəlbin nökəridir. Qəlb isə İlahinin gözəlliklərini seyr etməkdən ötrü yaradılıb və O (Qəlb), bununla məşğul olmağa başlayan andan Onun (İlahi Kaşanənin) nökərinə və quluna çevrilər ki, Hamıdan Uca Yaradanın buyurduğu:

***"Mən cinləri və insanları yalnız ondan ötrü yaratdım ki, mənə təzim etsinlər"*** (Quran 51:56) kəlamının mənası budu.

Beləliklə, Qəlb yaradıldı, Ona bu dövləti və onun qoşununu (yedəyində getdiyi heyvanı) – bədəni verdilər ki, onu bu fəna dünyada sürə-sürə Ali Ucalıqlara yetişsin. İndi əgər O bu xeyirxahlığın əvəzini qaytarmaq, Ona (Yaradana) xidmətin şərtlərinə əməl etmək istəyirsə, onda O, dövlət başında şah kimi oturmalı, İlahiyyatı özünə Qiblə və ali məqsəd seçməlidi. Ali dünyanın vətəni və sığınacağı, Yer dünyasınınsa, müvəqqəti dayanacağı olduğunu qəbul (təsdiq) etməli, bədənini yedəyində getdiyi heyvanı, əllərini və ayaqlarını nökərləri, ağlını vəzir bilməli, bədən ehtiyaclarını xəzinədarı, təcavüzkarlığını mühafizəçiləri, duyğularını kəşfiyyatçıları hesab edib, hər birini bu yad dünyadan məlumat toplamağa istifadə etməlidi.

Belə ki, beyinin qabaq hissəsində yerləşən qavrayış qüvvəsini bu kəşfiyyatçılara rəis təyin etmək gərəkdi ki, kəşfiyyatçılar əldə olunan məlumatları ona ötürsünlər. Beyinin arxa hissəsində yerləşən yaddasaxlama qüvvəsini əldə olunan məlumat bazasının qoruyucusu təyin etmək lazımdı ki, o da öz növbəsində bütün məlumatları kəşfiyyat rəisindən alsın və qoruyub saxlasın, sonra öz qabiliyyəti müqabilində vəzirin ixtiyarına versin ki, o (vəzir) da əldə olunan məlumatların əsasında dövlətin və şahın gələcəyi üçün tədbir görsün.

Yox, əgər O (Qəlb) hiss etsə ki, cismani ehtiyacları, təcavüzkarlığı və sairə ona qarşı üsyan edir, ayaqları tabeçiliyindən çıxıb ona birləşmək istəyir, bu halda çalışıb onlarla dil tapması gərəkdi.

Qəlbin itaətində olan bu qüvvələri məhv etmək mümkünsüz məsələdi. O səbəbdən ki, onlarsız dövlətin (bədənin) işləri getməz. Əksinə, belə hallarda düşünüb-daşınıb,

elə tədbir tökmək gərəkdi ki, bu qüvvələr yola gəlsinlər. Dövlətin oğru və quldurları yox, faydalı vətəndaşları olsunlar.

Əgər hər şey bu cür nizamlanarsa, Qəlb xoşbəxt olar və bu xeyirxahlığının əvəzini görər. Vaxtı yetişəndə də, bu xidmətinə görə mükafatını alar. Əks təqdirdə, yəni Qəlb özü üsyan edib, bu düşmənlərini və quldurları sevindirərsə, Uca Yaradanın Mərhəmətinə xəyanət etmiş olar və layiqincə cəzalandırılar.

## *Qəlbin qoşununu təşkil edən dörd gizli xisləti barədə fəsil*

Bil ki, Qəlbin öz daxili qoşunları ilə əlaqəsi var və bu əlaqə özünü müxtəlif keyfiyyətlər, xislətlər üzrə büruzə verər. Bu xislətlərin bəziləri naqis olduğu səbəbindən Onu (Qəlbi) məhv edər. Bəziləri isə, faydalı olanlar Qəlbə rahatlıq və səadət gətirər. Bu xislətlərin coxluq təşkil etməsinə baxmayaraq, ümumilikdə onlar dörd qismə ayrılır: heyvan xisləti, mal-qara xisləti, şeytan xisləti və mələk xisləti.

Cismani arzularına və ehtiyaclarına görə O (Qəlb), özünü mal-qara kimi aparar – yəni acgözlük və qarınquluIuq edər, əxlaqsızlıqla məşğul olar. Qəzəbinə görə o, itlərin, şirlərin və canavarların etdiyini edər: yəni öldürər, vuruşar. Satqınlıq, ikiüzlülük, biclik, insanlar arasinda nifaq salmaq meyli ilə o, şeytani əməllərə uyar. Şüura dayaqlandığı halda o özünü mələk kimi aparar, təhsili, qayda-qanunu sevər, pis işlərdən uzaq olar, xalq arasında əmin-amanlıq olmasına çalışar, öz qüdrətini, alçaq və yaramaz işlər görməkdən həddən ziyadə ucada oldugunu dərk edər, öz əməllərində Hamıdan Uca Allahı dərk etdiyinə sevinər və anlayar ki, cahillik – axmaqlıq və naqislikdi.

Və həqiqətən də, insan dediyimiz həmin bu dörd keyfiyyətin – it, qaban, şeytan və mələk xislətinin daşıyıcısıdır.

Axı it təkcə zahiri görünüşünə – pəncələrinə, qulaqlarına və quyruğuna görə yox, dalaşqan xasiyyətinə görə naqisdi; bu keyfiyyyətinə görə də pislənir. Həmçinin qaban da beləcə... onu da sifətinə, bədən quruluşuna  görə yox, tamahkarlığına, acgözlüyünə və natəmizliyinə görə sevmirlər. Deməli, itin də, qabanın da ruhunun mahiyyəti bundan ibarətdi.

Bu xislətlər insanda da eynilə bu cür meydana çıxır. Şeytan və mələk xisləti də onda eynilə bu cür aşkar olunur. Odu ki deyilib: **“İnsana buyrulub ki, özündə olan şeytanın alçaqlığını və hiyləgərliyini mələkliyin işartısı və izi olan ağlının şüaları ilə aşkar et ki, onlar məhv olsunlar və bir daha ixtilaflar yarada bilməsinlər.**

Bu barədə Peyğəmbərimiz (Ona Allahın salamı olsun!) deyib:

**“Hər bir insanda şeytan var. O şeytan məndə də var. Lakin Hamıdan Uca Allahım mənə kömək etdi və mən o şeytana qalib gəldim. Odu ki, o, daha mənə heç bir pislik edə bilməz”.**

Beləcə, insana da buyruldu ki, o, bu cismani arzular qabanını və o qəzəbli iti aglının nəzarətində saxlasın ki, onlar yalnız onun əmri ilə oturub-dursunlar. Və əgər insan bu buyruğa əməl edib bunu edərsə, o keyfiyyətlərdən və xasiyyətlərdən xilas olub xeyir tapar ki, bu xeyir onun səadətini cücərdər. Yox, əgər o, əksinə hərəkət edər, bu naqis xasiyyətlərinin qulluğunda dayanarsa, bu, onun bədbəxtliyini cücərdər. Düşdüyü vəziyyəti ona yuxuda, yaxud ayıqlıqda  işarələr və misallarla əyan olanda, o itə, ya qabana, yaxud şeytana qulluq elədiyini anlayar.

Müsəlmanı kafirə əsir verənin halı barədə bilirik. Təsəvvür edin ki, mələyi itlərə, qabanlara, şeytanlara əsir verəni nə gözləyir. Beləsinin halı çox acınacaqlıdı. Əgər insanların əksər hissəsi bir anlıq ayaq saxlayıb özünə nəzər salarsa, başa düşərlər ki, bütün həyatlarını öz cismani arzularının ehtiraslarına xidmətdə keçiriblər. Belələrinin bu

halı kənardan da görünür. Və baxmayaraq ki onlar hələ insan görünüşündə qalmaqlarındadır, Qiyamət günü bu adamların əsl mahiyyətləri aşkar olunacaq və görünüşləri mahiyyətlərinə uyğunlaşdırılacaq. Və o kəsə ki öz cismani arzuları qalib gəlib, o qabana, o kəsə ki qəzəb qalib gəlib, o itə, yaxud canavara çevriləcək. Və məhz həmin bu səbəbdən kim ki yuxusunda canavar gorür, bunun yozumu – acıqlı insan deməkdi, kim ki qaban görur, bunun yozumu – natəmiz insandı. Bunun səbəbi odu ki, yuxu ali dünyanın işarəsidir.

O səbəbdən ki, yuxu bu dünyadan uzaqdı və gizli mənalari ifadə edir, insana əslində kim olduğunu anlamaq imkanı verir.

Bu böyük sirdir ki, bu kitab onun izahı ilə məşğul olmayacaq.

## *Qayğıdan, əməllərdən və istirahətdən bəhs edən fəsil*

Beləliklə, sən bildin ki, həmin bu dörd pəzəvəng səndə gizlindədi. Buna görə, öz hərəkətlərini və istirahətini nizamla ki, bu dördündən hansı birinə tabe olduğunu müəyyənləşdirə biləsən.

Bunu bilmək vacibdi: o əməlləri ki sən törədirsən, onlardan sənin qəlbində keyfiyyətlər yaranır və bu keyfiyyətlər getdikcə sənin xasiyyətinə cevrilir. Və bil ki, xasiyyətlərin hər biri həmin bu dörd gizli qəhrəmanın xislətindən yaranır.

Sən içindəki qabanının arzularına tabe olarkən, xasiyyətində natəmizlik, abırsızlıq, acgözlük, yaltaqlıq, paxıllıq, xəsislik, bədxahlıq və sair bu kimi keyfiyyətlər yaranır. Lakin sən bu qabana qalib gələrsənsə, onu əhliləşdirib sənə xidmət etməyə məcbur edərsənsə, səndə müntəzəmlik,

dözümlülük, təvazökarlıq, dinclik, nəzakət, müdriklik, təmkin və qərəzsizlik kimi keyfiyyətlər yaranar. Yaxud əgər səni içindəki acıqlı it idarə edirsə, səndə natəmizlik, lovğalıq, şöhrətpərəstlik, qürur, dələduzluq, həyasızlıq, təkəbbür, dikbaşlıq, acıq, sırtıqlıq və ədəbsizlik kimi keyfiyyətlər yaranar. Yox, əgər sən bu iti əhliləşdirərsənsə, səndə hövsələ və dözüm, alicənablıq və mərdlik, mətinlik və dinclik, səxavət və şücaət yaranar. Əgər səni şeytan idarə etməyə başlasa, o şeytan ki işi bu qabanla iti şirnikləndirib oyatmaqdan, onları ürəkləndirib, səni alçaqlığa və satqınlığa sürükləməkdən ibarətdi, səndə naşükürlük, satqınlıq, alçaqlıq, saxtakarlıq və hiylə kimi keyfiyyətlər yaranar. Lakin əgər sən onun hiyləsinə uymadan, öz ağlının qoşununa üz tutub ona qalib gələrsənsə, səndə dərrakə, elmlilik, müdriklik, xeyirxahlıq, alicənablıq, alilik və idarəçilik keyfiyyətləri yaranar. Və nəticədə, səni qəbir evinə qədər müşayiət edəcək bu keyfiyyətlər gələcək səadətini cücərdər.

Həmin bu pis xasiyyətləri yaradan səbəblər – günah, xoş xasiyyətləri yaradan səbəblər – xeyirxahlıq adlandırılır. Və hər bir insanın əməllərində də, istirahətində də həm bu, həm də o birilər var.

Saf Qəlb güzgüyə bənzər, pis xasiyyətlər isə bu güzgünü his kimi çirkləndirib qaraldar. Belə olan halda, bu güzgüdə İlahiyyat görünməz. Axı onun səthi tutqundu! Xoş xasiyyətlər isə Qəlbi bütün günahlardan və çirkabdan təmizləyən işıqlı şüalara bənzər ki, bununla bağlı peyğəmbərimiz (Ona Allahın Salamı olsun!) deyib:

***“Hər axmaq hərəkətinin ardınca yaxşı birisini et ki, əvvəlkilər məhv olub getsin”.***

***“Qiyamət günündə bütün qəlblər Allahın Məhkəməsinə ya təmiz, ya natəmiz vəziyyətdə gələcəklər”*** (Quran 29:88).

**“Allahın hüzuruna saf qəlblə gəlməyənlərdən savayı, bir kəsə var-dövlət, oğul-uşaq verilməyəcək”.**

İnsan Qəlbi öz əzəli yaranışıyla elə bir dəmirə bənzəyir ki, bu dəmirdən, əgər o düzgün yonularsa, bütün dünya görünər.

Əgər bu baş tutmazsa, güzgünün üzü pas tutar və o elə bir hala gələr ki, ondan daha heç nə düzəltmək mümkün olmaz və onda Hamıdan Uca Yaradanın dediyi başa yetər:

***“Bundan da o tərəfə, onların qəlbi öz əməllərindən pas bağladı”.*** (Quran 83:1).

## *Qəlb dünyalarında möcüzələr səddinin olmaması barədə fəsil*

Qəlbin nəcibliyi bir də ondan ibarətdi ki, o, bu dünyada mövcud olanların hamısından heyrətamizdi. Lakin insanların əksəriyyəti bu barədə heç nə bilmir. Qəlbin nəcibliyi iki cür olur: biri – anlama baxımından, o biri – qüdrət baxımından. Anlama baxımından olan nəcibliyin özü də iki pillədən ibarətdir. Birinci pillə o pillədir ki, onu hamı görür və tanıyır. İkinci pillə isə görünmür. O, daha gizlində olduğu səbəbindən, onu heç kəs tanımır.

Bu, daha qiymətli pillədir.

Beləliklə, birinci, yəni görünən pillə özündə bütün elmləri və peşə biliklərini dərk etmək qüvvəsini cəmləyir. Onun vasitəsi ilə  bütün peşələrə yiyələnmək mümkündür. Əgər insan bütün kitabları oxusa, o, həmin bu qüvvənin köməkliyi ilə bütün texniki elmləri, riyaziyyatı, tibbi və astronomiyanı, eləcə də şəriəti mənimsəyə bilər. Hərçənd bu pillə bölünən, hissələrə ayrılan deyil, Yer üzündə mövcud olan bütün elmlər gözəgörünməz atomlar dənizdə cəmləşəntək, onda cəmləşə bilir. Şüur istəyərsə, o (qəlb) öz düşüncə qüvvəsi ilə bircə göz qırpımında yerdən göylərə, Şərqdən

Qərbə adlayantək istənilən nöqtəyə ötürülə bilər. Yerdə olmasına baxmayaraq, bütün göyləri ölçə, ulduzları saya, onlara qədər olan məsafələri hesablaya bilər. Məhz bu qüvvənin köməyi ilə insan dənizin dibindən balıqlar çıxarar, göylərdən quş ovlayar, dəvələri, atları və fil kimi güclü heyvanları ələ keçirib, onları özünə xidmət etməyə məcbur edər və dünya elmləri möcüzələrinin mənimsənilməsi onun üçün, öhdəsindən asanlıqla gəldiyi sıravi peşəyə çevrilər.

Deyilən bu mövcud elmlərə beş hissin köməyi ilə çatılır. Bunun səbəbi – həmin o biliklərin aşkar biliklər, onların hər birinə aparan yolun isə məlum və görünən olmasıdı. Və ən təəccüblüsü, insanın Qəlbində duyğular vasitəsi ilə əldə olunan bu elmi məlumatlar dünyasına beş qapı olduğu halda, İlahi Səltənətə açılan bircə kiçicik qapının mövcud olmasıdır.

Bu dünya “maddi dünya” adlandırılır, İlahi Səltənət isə “ruhi dünya”. İnsanların əksər hissəsi öz-özlüyündə məhdud olan həmin bu maddi dünyanı hisslərinin köməkliyi ilə tanıyır. Baxmayaraq ki bu dünya bir özüldür və burdan elmlərə də hisslər vasitəsi ilə çatılır, bu yolun özü də məhduddu.

İnsan Qəlbində ayrı növ biliyə açılan ayrı bir qapının da mövcud olduğunu sübuta yetirən iki dəlil də var. Bu dəlillərdən biri yuxudu.

Məhz yuxuda hisslərə aparan qapı bağlı, Qəlbə aparan qapı açıq olduğu səbəbindən, İlahi Səltənətdən və Gizli Yaddaş Lövhəsindən (Lövhi-Məhfuzdan) olan sirli mətləblər məhz orada – yuxuda açılır. Həmin bu səbəbdən də, gələcəkdə baş tutacaq olacaqları orada (yuxuda) ya aşkar, yaxud dolayı yolla görmək mümkündü.

İnsanlar elə bilirlər ki, aşkarda əldə edib mənimsədiyi biliklər əzəli biliklərdi. Bununla yanaşı, bunu da anlayırlar ki, həmin o aşkarda onlar gizlidə olanları görüb əldə

edə bilmirlər. Yuxuda isə həmin o bilmədiklərini, hisslərin köməkliyi olmadan anlayırlar.

Lakin bu kitabda biz yuxuların yozumundan danışmaq fikrindən uzağıq. Bunu da bilmək vacibdi ki, Qəlb öz mahiyyəti etibarı ilə güzgüyə bənzəyir. Gizli Yaddaş Lövhəsi isə bütün mövcud varlıqların simasının əks olunduğu ayrı bir Güzgüdü. Və əgər bu güzgü (qəlbin güzgüsü) o biri güzgü ilə üzbəüz qoyularsa, Gizli Yaddaş Lövhəsində olan hər bir şey öz əksini Qəlbdə də tapar. Qəlb Gizli Yaddaş Lövhəsi ilə əlaqə taparsa, o, hisslərdən azad olar və saflaşar.

Bunu da bilmək vacibdi ki, Qəlb hisslərlə məşğul ikən, İlahi Səltənətə olan yolu bağlanar, yuxuda isə (insan hisslərdən azad olduğu bir vaxt), İlahi Səltənəti dərk etməklə bərabər, Qəlbin mahiyyətində olanlar üzə çıxar. Lakin yuxu məqamında hisslər yoxa çıxarsa da, yaddaş yerində qalar və bu səbəbdən, insan yuxuda gördüklərini öz yaddaşının imkanlarına uyğun, ikimənalı, yaxud olduğu şəkildə görüb anlayarsa belə, bütün görünənlər örtüksüz, pərdəsiz olmaz.

Amma elə ki insan ölər, onun nə görmə yaddaşı, nə də hissləri qalar. Bax, yalnız onda Mövcud Olan hər bir şey örtükdən, pərdədən azad olar, onun gözləri önündə şahə qalxar və deyər:

***"Səndən bütün örtükləri çəkib çıxardım. İndi gözlərin hər şeyi olduğu kimi görür"*** (Quran 50**:** 22).

*Belədə insanlar deyirlər:*

***"İlahi, biz indi gördük və eşitdik. Bizləri geriyə qaytar ki, xeyirxah işlərlə məşğul olaq. Haqq olanı biz indi anladıq"*** (Quran 32:12).

O biri dəlil odu ki, elə bir insan yoxdu ki, onun Qəlbində hisslərlə qazandığı hansısa həyat təcrübəsindən yox, necəsə, birbaşa elə Qəlbin özündən gələn intuitiv gümanları, dammaları, ilhamı olmasın. Və adətən belədə

insan həmin bu gümanların, dammaların və ilhamın qaynaqlandığı mənbənin nə olduğunun fərqinə varmırsa da, hisslərlə əldə etdiyi məlumatların hələ biliklərin hamısı olmadığından duyuq düşür.

Yuxarıda gətirdiyim misallardan insan anlayır ki, Qəlb – bu dünyadan yox, Yaradanın Səltənətindəndir. Ona bu dünyada yaşaması üçün verilən hisslər isə o dünyanın anlanması üçün bir örtükdü. Və nə qədər ki o, hisslərindən azad olmayıb, həmin o dünyaya yolu bağlıdı.

## *Qəlbdə olan qapının İlahi Səltənətə yalnız yuxuda, yaxud, ölümdən sonra açıldığını düşünməyin əsassız olduğu barədə fəsil*

Lakin kimsə ayıq vəziyyətdə öz Qəlbini cismani arzulardan, tamahdan, bu dünyanın pis və nalayiq işlərindən təmizləmək üçün çalışarsa, bundan ötrü kimsəsiz bir yerdə əyləşib, gözünü göylərə zilləyərsə, bütün hisslərindən azad olub, öz Qəlbini İlahi Səltənətə yönəldərsə və dayanmadan "ay Allah, ay Allah, ay Allah" deyib Uca Yaradanı səsləyərsə və bunu dili ilə yox, Qəlbi ilə edərsə və bunu özü barədə, Hamıdan Uca Allahdan savayı, bütün olanlar barədə unudana qədər edərsə – bax, belə bir hadisə baş verərsə, onun Qəlbinin İlahi Səltənətə tuşlanan qapıları, o, yuxuda olmasa da, açılar. Onda, o birilərin yuxuda gördükləri ona aşkarda əyan olar. O, mələklərin ruhlarını, peyğəmbərləri görər, onların mühafizəsini qazanar, bundan məmnunluq duyduqca, ona Yerin və Göylərin İlahi Səltənəti açılar.

Elə ki o kəsin yolu açılar, o, sərhədi, ölçüsü olmayan Böyük İşlər Dünyasını görər və bu, Peyğəmbərin (Allah Onu salamat eləsin!) həmin bu dediyidi:

"Mənə Yeri göstərdilər və mən Qərbi də, Şərqi də gördüm".

Bu barədə Hamıdan Uca Yaradan buyurub:

***"Beləliklə, biz İbrahimə göylərin və Yerin İlahi Səltənətini göstərdik... Hər şey məhz belə olub"*** (Quran 6:75).

Bu, peyğəmbərlərin malik olduğu biliklər, hisslər, yaxud hansısa təhsil vasitəsi ilə yox, həmin bu yolla qazanılıb deməkdi. Bu yolun gedişatı isə səylərdən və çalışmalardan ibarətdi ki, bu barədə Hamıdan Uca Allah belə buyurub:

***"Ona tam arxayınlıqla təslim ol"*** (Quran 73: 8).

Yəni hər bir şeydən azad ol, saflaş, bütün varlığınla Ona uy, özünü bu dünyanın işlərinə sərf etmə; onların hamısını onsuz da Yaradan Özü yoluna qoyacaq.

***"Şərqin və Qərbin Allahı. Ondan savayı Allah yoxdu. Onu özünüzə rəhbər seçin"*** (Quran 73:9).

Odu ki, Onu özünə rəhbər seç və bu dünyadan azad ol, insanlara qarışma.

***"Onların dediklərinə döz, onlarla məsafə və xoş münasibət saxla".*** (Quran 73:10)

Bu biliklər öz üzərində çalışmalarla, Qəlbin insanların çirkablı təsirindən – cismani arzulardan, hisslərin verdiyi məlumatlardan təmizlənməsi ilə qazanılır ki, bu da sufilərin və peyğəmbərlərin yoludu.

Biliyin təhsil yolu ilə əldə edilməsi isə alimlərin yoludu. Bu da, öz növbəsində, böyük bir yoldu. Lakin bu yol, insan qəlbinə, heç bir köməkçi vasitə olmadan, birbaşa Hamıdan Qüdrətli Yaradan tərəfindən ötürülən biliklə, peyğəmbərliyin, Peyğəmbərlər Biliyinin və müqəddəslərin yolu ilə müqayisədə məhdud yoldur.

Bir çoxları haqq yolunun məhz bu yol olduğunu, ya təcrübənin, yaxud öz ağlınınköməkliyi ilə ona agah olan dəlillər üzrə anlayıb. Lakin sən özün bunu duymursansa, yaxud təcrübənin və ağlının gətirdiyi dəlillərdən anlamırsansa, yaxşı olardı, heç olmasa, buna inanasan ki, keçməli olacağın həmin o üç mərhələ üzünə qapanmasın və sən kafirə çevrilməyəsən. Axı insanı Qəlblər dünyasının möcüzələrindən məhz bu bilik agah edir. İnsan Qəlbinin nəcibliyi də, Allahın köməkliyi ilə, məhz bu yolla qavranılır.

## *Düşünmə ki, bu qavrayış yalnız peyğəmbərlərə xasdır. Çünki hər bir insanın daxilində olan inci öz əzəli keyfiyyətləri ilə belə bir qavrayışa qabildi. Bu barədə fəsil*

Öz əzəli keyfiyyətlərinin mahiyyətinə görə,Yer üzündə mövcud olan hər bir şeyi əks etdirən güzgünün düzəldilməsi üçün onun səthini ləkələməyəcək, yaxud pasla aşındırmayacaq yararlı dəmirin olmadığı kimi, beləcə, Qəlb də onu pas kimi çürüdüb aşındıran bu dünyaya və cismani həzzlərə olan ehtirasını dəf etməzsə, bütün qabiliyyətləri öz keyfiyyətini itirmiş olar.

**“Hər doğulan körpə bu dünyaya öz əzəli mahiyyətində gəlir. Onu yəhudi, xaçpərəst, yaxud zərdüşt edən onun valideynləri olur”**.

Həmin bu əzəli mahiyyətin bütün insanlarda olması barədə hamıdan Uca Yaradan belə buyurur:

**“Mən onlardan soruşdum, məgər Mən Sizin Allahınız deyiləm? Onlar dedilər: bəli”.**

Ona görə əgər kimsə desə ki: Sən ağıllı bir adamdan soruşsan iki birdən çoxdu, o “hə, bu düzdü” deyəcək” və

əgər o adam bunu heç vaxt eşitməyibsə belə, yenə dilinə belə gətirməyibsə, yenə səmimi qəlbdən təsdiq edəcək.

Bu bilik də beləcə, bütün insanlarda olan əzəli keyfiyyətlərdə var. Beləcə, İlahiyyatın dərki məqamı da bütün insanların əzəli keyfiyyətlərində var və bu barədə deyilib:

***"Əgər onlardan soruşsan ki sizləri kim yaratdı, cavab verəcəklər: Allah"*** **(**Quran 43:87).

Və bir də deyilib:

**"Əzəli olan Allahın təbiətidi ki, O, insanı ona uyğun yaratdı".**

Beləliklə, sən bildin ki, şüur vasitəsi ilə əldə olunan məlumatlar və yol üzrə əldə edilmiş təcrübələr, tək bir peyğəmbərlərə xas olan qabiliyyətlər deyil. Onlar bütün insanlığa xasdır.

***"De, həqiqətən mən də sizlər kimi insanam"*** (Quran 18:110).

İndi əgər bu yol kiməsə açılıbsa və o kəsə bu yolun faydasını xalqa göstərmək nəsib olubsa, əgər o kəs qalan insanları da bu yola yönəldə bilibsə, o halda onun insanlara anlatdığı – şəriət, o kəsin özü – peyğəmbər, düşdüyü hal – möcüzə adlanar. Yox, əgər o kəs xalqı öz ardınca apara bilməyibsə, ona "müdrik" adı verilər, halını "mərhəmətli" adlandırarlar.

Bu hala gəlib çatmış hər bir kəsin insanları öz ardınca aparması vacib deyil. Bu, Hamıdan Uca Allahın əlindədi. O, həmin kəsə insanları öz ardınca aparmaq hüququnu o səbəbdən verməyə bilər ki, şəriət işləri öz qaydasında gedir, insanları inama yönəltməyə ehtiyac qalmayıb, yaxud insanları idarə etməkdən ötrü elə bir qabiliyyət gərəkdi ki, bu müqəddəs insanda o yoxdu. Odu ki, sənin buna inanmağın vacibdi ki, müqəddəslik – müqəddəslərin mərhəmətindədi və bu da həqiqətdi.

Bu işin başlanğıcı isə, dediyim kimi, səylər və çalışmalardır. O səbəbdən ki, bu yol güclü inam və inad tələb edir. Lakin hər bıçaq hər şeyi kəsməyən kimi, hər yolçu da məqsədinə çatmır. Və hər axtaran tapmır. Lakin  hər bir işin öz müqabilində bir çox şərtləri olduğu kimi, burda o şərtlərin özünü də arayıb tapmaq çətindi. Bu isə insanın qavrayış və axtarış qabiliyyətinin dərəcələrindən ən nəcibidi. Bu işin öhdəsindən səy və çalışmalarsız, bu yolu artıq keçmiş təcrübəli müəllim olmadan gəlmək hədsiz çətin məsələdi. Və bundan da əlavə, bu məsələdə Uca Yaradanın niyyəti və yardımı olmadan, iş başa yetməz. Və əgər belə bir xoşbəxtliyin kiməsə nəsib olması əzəldən yazılmayıbsa, o kəs arzusuna çatmaz. Və bu, digər məsələlərə də – aşkarda olan elmi dərəcələrin qazanılmasına və eləcə, qalanlara da aiddi.

## *Qəlbin öz qüdrəti ilə nəcib olmasını bilməyin zəruriliyi barədə fəsil*

Sən insan mahiyyətinin nəciblik incisini büruzə verən, ilk anlamda Qəlb adlandırılan nişanə barədə bildin. İndi isə bil ki, Qəlbin özü də öz qüdrəti baxımından elə bir nəcibliyə malikdi ki, bu nəciblik mələklərdə olan keyfiyyətlər qismindəndi, heyvanlarda isə beləsi yoxdu.

Bu, təxminən, maddi dünyanı Uca Yaradanın buyruğu ilə idarə edən  mələklərin, insanın xoş hadisəyə ehtiyaclı olduğu məqamlar baharda yağışlar yağdırıb, küləklər gətirməyinə, heyvanların bətnini balalarla, torpağı ot və bitkilərlə bəzəməyinə bənzər bir xüsusiyyətdir. Bu işlərin hər birinin idarəsi müxtəlif mələklərə tapşırılıb. Beləcə, mələk xislətli varlıqlardan olan insana da belə bir idarəçilik verilib. Bu idarəçiliyin ayrı nəsnələri də var, lakin hər bir insanın öz dünyası – onun bədənidi. Bədən isə Qəlbin idarəsindədi.

Məlum məsələdi ki, barmağın canı yoxdu. Bu səbəbdən, barmağın biliyi də, arzusu da yoxdu. Lakin elə ki Qəlb əmr edər, barmaq tərpənməyə başlayar  və elə ki Qəlbdə təkəbbür yaranar, bədənin yeddi hissəsindən tər sızar ki, bu da həmin yağışdı. Qəlbdə cismani həzzlərə ehtiyac baş qaldıranda isə küləklər yaranar: bədən istəkləri tərəfə əsən küləklər.

İnsan təsəvvürünə yemək gətirərsə, dilin altındakı dad qüvvəsi hərəkətə gələr, yeməyi yaxşı çeynənməkdən ötrü islatmağa tələsər, şirə ifraz edər.

Bu sirr deyil ki, bədən Qəlbin malikanəsidir. Bədən özü isə Onun quludur. Lakin bunu da bilmək vacibdir ki, Qəlblərdən bəziləri daha nəcib və daha qüdrətlidir, öz mahiyyəti etibarı ilə mələk mahiyyətinə yaxındı. Belə olan halda, belə bir Qəlbin idarəçiliyinə onun bədəni xaricində olan digər bədənlər də düşür və əgər belə bir Qəlbin sahibi öz sirayətedici görkəmi ilə, məsələn, şirlə rastlaşarsa, şir zəifləyər və ona tabe olar. Əgər belə bir insan bütün qüvvəsini xəstəyə yönəldərsə, o xəstənin halı yüngülləşər, sağlama yönəldərsə, o xəstələnər. O, fikrində kiminsə gəlməsini arzulayarsa, o kəsin canında hərəkət yaranar. Əgər o, bütün fikrini yağışa yönəldərsə, yağış yağar. Bütün bunlar aydın dəlillərə və təcrübəyə əsaslanan mümkün işlərdi.

Nəzər və cadu adlandırılanlar da, həmin bu yuxarıda deyilənlər silsiləsindəndi. Özgə malı insan qəlbində təəssürat yaradır və əgər o qəlbdə paxıllıq hissi varsa, onda o insan, məsələn, sağlam mal-qaranı görüb, paxıllığından heyvanların ölümünü gözünün qabağına gətirərsə, bir müddətdən sonra mal-qara tələf olar. Bu barədə  rəvayətdə də deyilib:

“Pis göz insanı qəbrə, dəvəni küpəyə salar”.

Beləliklə, bu da  Qəlbdə olan qüvvələr sırasına aiddi və əgər belə bir qabiliyyət kimdəsə yaranarsa və o kəs bu barədə xalqa moizə oxuyarsa, bunu möcüzə adlandırarlar.

Belə bir qabiliyyətin sahibi xeyirxah əməl sahibi olarsa, onu Peyğəmbər, yaxud müqəddəs, pis əməl sahibi olarsa, cadugər adlandırarlar. Odu ki, cadugərlik də, mərhəmət də, möcüzə də Qəlbin qüdrətinin xüsusi keyfiyyətlərindəndi. Və hərçənd bu keyfiyyətlər arasında fərq böyükdü, bu kitab bunu izah etməyəcək.

## *Yuxarıda dediklərimizi anlamayan kəs peyğəmbərliyin həqiqi mahiyyəti barədə, yalnız ona deyilənlərə qulaq asanda biləcək. Bu barədə fəsil*

Beləliklə, peyğəmbərlik və müqəddəslik insan Qəlbinin nəciblik pillələrindəndir ki, bunun üç göstəricisi var.

Birinci göstəricisi odur ki, adi insanlara yuxuda açılanlar, belə insana ayıqlıqda əyan olur.

İkincisi odur ki, adi insan qəlbi  yalnız öz bədəninə təsir edə bilirsə, belə insanın Qəlbi onun bədəninin xaricində olanlara da elə bir təsir göstərməyə qabildir ki, bundan bütün xalq faydalana bilir və bu işdə heç bir səhv, yaxud xəta olmur.

Üçüncü göstərici odur ki, adi insanların elmə yiyələnmək məqsədi ilə kitabdan, təhsildən mənimsədiklərini, bu insan heç bir kitaba, təhsilə müraciət etmədən, öz Qəlbindən mənimsəyir. Bəzən də belə olur ki, o kəsin gözüaçıqlığı və qəlb təmizliyi bütün elmləri onun yadına, o heç bir təhsil almadan salır. Yaxud belə olur: daha gözüaçıq və saf qəlb sahibi olan kimsə hər şeyi öz içindən mənimsəyir,  yaxud, belə deyək: bütün mövcud elmlərə yiyələnir ki, həmin bu elmlər İlahi bilik adlanır və onlar barədə Hamıdan Uca Allah belə deyib:

**“Biz ona öz elmlərimizdən verdik”.**

İndi bil ki, hər kimdə dediyimiz həmin bu üç keyfiyyət yaranarsa, o kəs ya böyük Peyğəmbər, ya böyük Müqəddəs olar. Və o kəsdə ki bu üç keyfiyyətin tək biri özünü tam şəkildə büruzə verər, o da bu rütbələrdən qazanar. Lakin bu insanlar arasında da böyük fərqlər var.

Elə olur ki, bu keyfiyyətlər özünü kimdəsə azacıq, kimdəsə bir qədər çox büruzə verir və Peyğəmbərimizin kamilliyi, (Allahın ona salamı olsun!) ondan ibarət idi ki, bu keyfiyyətlər onda özünü, kamilliyin ən ali həddində büruzə vermişdi.

Hamıdan Uca Allah istəyəndə ki insanlar onun peyğəmbərliyini qəbul etsinlər, ardıcılı olub Səadətə aparan Yolu ondan öyrənsinlər, o insana üç xüsusi qabiliyyət nişanəsi verdi.

Bu qabiliyyətlərin birincisi yuxudu. Digəri dəqiq duyum, üçüncü biliklərin yadda düzgün saxlanılmasıdı.

Axı insan təsəvvürünün olmayan bir şeyə inanması çətindi və əgər haqqında danışılan nəyinsə nümunəsi onun gözləri qarşısında olmazsa, o heç nə anlamaz. Məhz bu səbəbdən Uca Yaradanın həqiqi varlığını Onun Özündən savayı, kamil dərəcədə anlamaq bir kəsə nəsib olmur. Bu tədqiqatın izahı çoxşaxəli və genişdi. Bu mövzuya biz “Allahın adlarının mənası” kitabında toxunmuşuq.

Yuxarıda deyilənlərin məqsədi bundan ibarətdi: necə ki biz deyirik Hamıdan Uca Yaradanı Onun Özündən savayı kamil dərəcədə qavramaq bir kimsəyə nəsib olmayıb, bunu da deyirik ki, peyğəmbəri də həmçinin, (Allah onu şad eləsin və salamlasın!), peyğəmbərin özündən və ondan yuxarıda Dayanandan savayı, bir kəs anlaya bilməz. Odu ki, peyğəmbərə bənzər insanlar haqqında yalnız peyğəmbərlər bilir, bizlərə isə bu ölçüdə bilik verilməyib.

Məsələn, bu ona bənzəyir ki, əgər bizim yuxu barədə təsəvvürümüz olmasaydı və kimsə bizə desəydi ki,

“bax, kimsə uzanıb tərpənmir, görmür, eşitmir və danışmır, sabah nə olacağını bilmir, bir qədərdən sonra isə o, yenidən eşidən və görən olacaq”, biz bunun nə olduğunu bilə bilməyəcəkdik və əgər həqiqətən belə bir vəziyyət alınsaydı, biz heç zaman buna inanmazdıq. O səbəbdən ki, insan görmədiyinə inanmaz və bu səbəbdən də Hamıdan Uca Yaradan buyurub:

***“Bu barədə bilikləri məhdud olduğundan, onlar bunu uydurma sayacaqlar və izahlar onlara çatmayacaq”*** (Quran 10:11).

Bu barədə O həm də buyurub:

***“O barədə əlində əsası olmayanacan, deyəcək: bu ki, köhnə uydurmadı”*** (Quran 46:11).

Ona görə, təəccüblənmə heç: peyğəmbərlərdə də, müqəddəslərdə də elə qabiliyyətlər var ki, onlar barədə o birilər heç nə bilə bilməz. Bir kəs onların o qabiliyyətlərdən aldıqları xüsusi həzzlər barədə, çatdıqları nəcib hallar barədə bilə bilməz. Bu, şeiri duymayan bir insanın, şeir dinləməkdən alınan həzzin səbəbini və miqyasını bimədiyinə bənzər bir şeydi. Və əgər kimsə ona şeir dinləməkdən alınan həzzin mənasını izah etməyə çalışarsa, o kəsin bu niyyəti o səbəbdən baş tutmaz ki, o birinin bu barədə təsəvvürü belə yoxdu. Eynilə belə, kor adama rənglərin ahəngdarlığının mahiyyətini, yaxud onları seyr etməkdən alınan zövqün nə demək olduğunu anlatmaq mümkün deyil.

## *Qəlb mahiyyəti incisinin halları ilə bağlı deyilənlərin bu həcmdə kitab üçün kifayət olduğu barədə fəsil*

Kim ki bu barədə daha ətraflı izah istəyir, biz bu izahı “Qəlbin möcüzələri” kitabında vermişik. Lakin elə bu iki kitabla da insan – ola biləcəyi qədərində öz-özünə də arif

ola bilər. O səbəbdən ki, bu kitabda olanlar Qəlbə dair keyfiyyətlərin nisbi izahıdır. Burda deyilənlər sütundur, ikinci sütun isə insanın bədənidir ki, onun da yaradılmasında bir çox möcüzələr var. Bədənin hər bir hissəsində gizli və aşkar möcüzələr var ki, bu möcüzələrin də hər birinin özünə aid heyrətamiz müdrikliyi var.

İnsan bədənində minlərlə qan damarı, sinirlər və sümüklər var ki, onların hər biri öz xüsusi quruluşuna və keyfiyyətinə malikdi. Və hər birinin öz xüsusi vəzifəsi var ki, sən bunların hamısı barədə bilmirsən. Bildiklərin də təxminən "əllər tutmaq üçün, ayaqlar yerimək üçün, dil danışmaq üçündü" səviyyəsindədi.

Lakin bil ki, göz on müxtəlif hissədən ibarətdi və əgər o hissələrdən bircəciyi belə sıradan çıxarsa, insanın görmə qabiliyyəti pisləşər. Sənə isə bu hissələrin hər birinin nədən ötrü olduğu, bu əzanın, ümumiyyətlə, nədən ibarət olduğu, görüm üçün nə kimi əhəmiyyət daşıdığı məlum deyil. Əgər gözün quruluşu bu qədər mürəkkəbdisə və onun elmi izahı cildlərlə kitabı əhatə edirsə, bütün bunlardan sonra sənin, onu yenə tanımamağın təəccüb doğurmur. İndi ki sən bunu bilmirsən, məlum məsələdi ki, sən qaraciyər, dalaq, öd kisəsi, böyrəklər və sair bu kimi, daxili əzalar barədə də heç nə bilmirsən.

Bil, qaraciyər ondan ötrüdü ki, mədəyə düşən müxtəlif növ qida ona süzülüb, qanın rənginə və tərkibinə uyğunlaşsın və bədənin yeddi hissəsinin istifadəsinə yararlı hala gəlsin. Elə ki qaraciyər həmin bu qanı yetişdirdi, ondan çürüntü əmələ gələr və bu çürüntü qara ödə çevrilər. Dalaq isə, bu ödü qaraciyərdən çıxarmaq üçündü. Qaraciyərin kökündə sarımtıl fırça kimi görünən isə sarı ödün kisəsidi. Öd kisəsi həmin bu sarı ödü ciyərdən çəkib çıxarmaq üçündü.

Qan qaraciyərdən çıxarkən o durulaşar, böyrəklər isə, qara və sarı öddən təmizlənmiş qan damarlarla axsın

deyə qandakı suyu özünə çəkər. Əgər öd kisəsi xəstələnərsə, öd yığılıb qanda qalar və insanı sarılıq, yaxud ödlə bağlı ayrı xəstəliklər tutar. Əgər dalaq xəstələnərsə, onda qara öd qana yığılar və dalaq xəstəliklərini yaradar. Böyrəklər xəstələnərsə, su qana yığılar, insan bədənində suşişi və digər şişlər və xəstəliklər yaradar.

Gördüyün kimi, insanın həm daxili, həm də xarici əzalarının hər biri öz işini görməkdən ötrü yaradılıb və hansı birinin fəaliyyəti pozularsa, bədən məhv olar.

Ümumiyyətlə isə, insan bədəni dünyanın kiçicik nümunəsi kimi yaradılıb. Dünyada olan hər bir şeyin nümunəsi bədəndə var. Məsələn, sümüklər dağlara bənzəyər, tər – yağışa, saçlar – ağaclara, beyin – səmaya, hisslər – ulduzlara və sair. Bütün nümunələri sadalamaq uzun çəkər, lakin bunu da mütləq deməliyik ki, insan bədənində bütün alçaq məxluqlar da, yuxarıda dediyimiz kimi, öz nümunəsi ilə mövcuddur. Donuz, it, qurd, mal-qara, şeytanlar, pəri və mələklər kimi, hərə öz fəaliyyətindədir. Hətta, olsun ki, bu dünyanın hər bir sənət sahibi belə, bədəndə öz nümunəsi ilə mövcuddur.

Məsələn, mədədə olan qüvvə yeməyi bişirən aşpaza bənzər. Təmizlənmiş qidanı qaraciyərə ötürüb, ağır tullantıları bağırsaqların köməyi ilə bədəndən çıxaran bu qüvvə həm də nehrə çalxalayana bənzəyər. Qaraciyərdə emal olunan qidanı qan rənginə salması ilə o, rəngkara, qadın döşünün qanını ağappaq südə, kişinin qasığındakı qanı ağ nütfəyə çevirməyi ilə boyaqçıya, qidanı qaraciyərdən o biri əzalara ötürməsi ilə naxırçı çobana, qandakı suyu böyrəklərdən çıxarıb sidik kisəsinə yollamağı ilə suçəkənə bənzəyər. O qüvvə ki bədən daxilində qara ödü sarı ödə qatar ki bədən korlansın, o, fitnəkar dələduza, bədəni öddən və xəstəliklərdən qoruyan qüvvə ədalətli hökmdara bənzəyər ki, bütün bunların izahı daha geniş təfsilat tələb edir.

Bütün bu deyilənlərdən məqsəd ondan ibarətdi ki, sən daxilində müxtəlif növ qüvvələrin olduğundan və bu qüvvələrin hamısının sənin üçün çalışdığından agah olasan. Gecələr sən rahat yatırsan, onlar isə istirahət etmir. Sən onlar barədə heç nə bilmirsən, bu qüvvələri və əzaları sənə xidmət üçün yaradan Yaradana öz minnətdarlığını belə bildirmirsən. Bircə gün sənin xidmətində dursun, deyə kimsə sənə bir günlük qul göndərərsə, sən o adama ömrün boyu minnətdar olarsan. Amma sənə daxilində gecə-gündüz dayanmadan, bircə an belə dincini almadan işləyən minlərlə qüvvə verən kəsi yada salmırsan.

Bədən quruluşu  və ona aid olan əzalar barədə məlumat verən elm "anatomiya" adlanır. Bu, böyük elmdir, amma qara camaat bu elmə maraq göstərmir, onu öyrənmir. Öyrənənlər isə tibb elmində usta olub, ad qazanmaqdan ötrü öyrənirlər. Tibb isə Yer üzünə nazil olunmuş elmlərin ən məhdududur. Hərçənd ona tələbat çoxdu, bu elmin inam yoluna heç bir aidiyyatı yoxdu. Lakin əgər kimsə həmin bu anatomiyanı hamıdan Uca Yaradanın möcüzələrini görmək məqsədilə öyrənərsə, o kəs mütləq şəkildə Ona (Yaradana) dair keyfiyyətlərin üçündən agah olar.

Birinci, o agah olar ki, bilir: bu quruluşu yaradan, bu bədənləri nazil edən – Öz Kamilliyində Qüdrətlidi və bu Qüdrətdə heç bir naqislik, çatışmazlıq yoxdu və ola bilməz. O, istədiyini etməyə qadirdir. Bundan heyrətamiz olanı yoxdu ki, bir damla mayedən belə bir bədəni yalnız O yarada bilir və belə bir Möcüzə Sahibi üçün ölümdən sonra bədəni diriltmək asan bir işdi.

İkinci, o kəs anlayar ki, bilir: O (Yaradan) elə bir Alimdi, biliyi bütün elmləri və sahələri əhatə edir. Bütün heyrətamiz müdrikliklərlə müqayisədə belə bir möcüzə yaratmaq ali biliksiz başa gələn məsələ deyil.

Üçüncü, o kəs onu da anlayar ki, Onun Öz bəndələrinə olan Rəhminin, Qayğısının və Mərhəmətinin həddi-hüdudu o

səbəbdən yoxdu ki, O, insan üçün lazım olan hər bir şeyi yaratdısa da, Özünə heç nə götürmədi. İnsana heyvanda olan qaraciyər, ürək, beyin kimi zəruri olanları da verdi, zəruri olmayıb əllər, ayaqlar, dil və digər ikinci dərəcəli əzalar kimi, yararlı olanları da. Və hətta nə zəruri, nə də yararlı olmayanları da verdi; gözəllik nişanələrini, vücud bəzəklərini – saç rənglərini, dodaqların qırmızılığını, qaşların qövslüyünü, gözlərin və kirpiklərin biçimliliyini və sair və ilaxırı da verdi. Bu Rəhmi O təkcə insanlara yox, bütün yaratdıqlarına, hətta milçəklərə, eşşəkarısı və mozalan kimi həşəratlara da əta elədi. O hər kəsə ona yararlı olanı verdi, üstəlik, hər birinin quruluşunu və vücudunu gözəl naxışlar və boyalarla bəzədi.

Odu ki, insanın yaradılması mərhələsinin müşahidəsi İlahi keyfiyyətlərin bir çoxunun dərk edilməsinə açardır. Məhz bu səbəbdən və təkcə elə bu baxımdan, bu, nəcib elmdir. Yoxsa ona görə yox ki, burda məsələnin mahiyyəti – həkimlik peşəsi qazanmaqdır.

Beləcə, poeziyanın, ədəbiyyatın və incəsənətin möcüzələrini də nə qədər çox qavrasan, qəlbində şairlər və yazıçılara, ədəbiyyatçılara, sənət xadimlərinə hörmətin bir o qədər artacaq. Eyni ilə beləcə, Hamıdan Uca Yaradanın, (Onun Uca Qüdrətinə eşq olsun!) yaradıcı möcüzələri yaradılanların Onun bənzərsiz qüdrətini anlamasından ötrü bir açardır. Və bu, həm də özünü dərk edib anlamaq üçün bir fəsildir. Lakin bu açar, Qəlbin qavranılması ilə müqayisədə o səbəbdən məhduddur ki, o, yalnız bədənin qavranılmasına yarayır. Bədən isə, dediyimiz kimi, minik heyvanı, Qəlb – bu heyvanın yedəyində gedən Atlıdır. Böyük Yaranışın məqsədi isə minik heyvanı yox, Atlının özüdür. O səbəbdən ki, minik heyvanı atlı üçün yaradılıb, atlı minik heyvanı üçün yox.

Bu səbəbdən deyilir: baxmayaraq ki, sənə səndən yaxını yoxdu, özünü tam dərk etmək elə də asan məsələ deyil.

Həm də o kəs ki özünü sonacan tanımadan o biriləri tanımağa cəhd edər, o, evində yeməyə heç nəyi olmadığı

halda, məmləkətin bütün kasıblarını süfrəsinə dəvət edən dilənçiyə bənzəyər və bu da mənasız bədgümanlıqdan savayı, ayrı bir şey deyil.

### *Qəlbin nəcibliyi, ləyaqəti və qüdrəti haqda hər şeyi bildikdən sonra, sənə aşağıdakıları da bilməyinin vacib olduğu barədə fəsil*

Bil ki, sənə Qəlbin mahiyyətində olan qiymətli inci verilibsə də, bu incini həm də səndən gizli saxlayıblar. Əgər onu axtarıb tapmasan, yaxud onu əbəs yerə çirkləndirib zəhərləsən və bunun nəticəsində onun mahiyyətindən bixəbər qalsan, sənə bunun böyük zərəri və xətası dəyəcək.

Çalış, bütün qüvvəni səfərbər et ki, axtarıb onu tapasan, bu dünyanın puç fanilik gərdişindən çəkib çıxarıb, nəcibliyini mükəmməlləşdirəsən, beləliklə bu nəciblik üzə çıxsın və o, bu dünyanın kədər tərəfi olmayan səadətinə, son ucu olmayan əbədiyyətinə, zəif tərəfi olmayan qüdrətinə, şübhə yeri olmayan biliyinə, naqis tərəfi olmayan gözəlliyinə qovuşa bilsin.

O ki qaldı Qəlbin nəcibliyinin mükəmməlləşməyinə, bu, o biri dünyaya hazırlıq, bu dünyada olanlardan ora üçün yararlanmaqdan ibarətdi. Çünki O (Qəlb), öz həqiqi nəcabətinə yalnız orada çatar. Yox, əgər bu baş verməzsə, O (Qəlb) bu dünyada naqis və miskin olan nə varsa – soyuğun, istinin, aclığın və susuzluğun, xəstəliklərin, həyəcan və qüssənin əsirinə çevrilər, harda firavanlıq və şənlik varsa, orda peyda olar. Bütün bunlar isə o səbəbdən onun zərərinə işləyər ki, oralarda faydalandığı hər bir şey ona kədər, təlaş, iztirab və qüssə gətirər.

Bax, əgər bir insan alicənab və şöhrətpərəstdisə, bu, ya onun biliyinə, qüvvəsinə və qüdrətinə görə, yaxud

genişürəkliliyinə və iradəsinə, ya da gözəlliyinə və zahiri görkəminə görədi. Amma bir qədər aramlı olub onun biliyinin nədən ibarət olduğunu dərindən arasan, deyərsən: "Ondan cahil olanı varmı?" Axı o, beynində bircə qan damarı çatlayarsa, ağır xəstəliyə, yaxud məhvə düçar olacağından xəbərsizdi?!.. Əgər bu baş verərsə, o kəs heç bilməz ki, bu nədən baş verdi və bunun müalicəsi nədi. Hətta bu müalicə onun burnunun ucunda olarsa belə və o, onu öz gözləriylə görərsə belə, tanımaz.

Onun qüvvəsini və qüdrətini yoxlasan, deyərsən, bu adamdan zəifi varmı? Bu adamın gücü milçəyə belə çatan deyil və əgər başının üstünü ağcaqanadlar alarsa, o məhv olar. Eşşəkarısı sancarsa o, yuxusundan və rahatlıqdan məhrum olar.

Onun genişürəkliliyinə baxsan, görərsən ki, bircə gümüş pulun dəyərində zərərə düşəndə, o tam dəyişər, yaxud, ac qalarsa, yeməyi bircə günlüyə yoxa çxarsa, huşunu itirər. Ondan tamahkarı varmı?

Gözəlliyinə, zahiri görünüşünə diqqətlə baxsan əgər, görərsən ki, bu, sadəcə, zirzibil üzərinə çəkilmiş dəridi. İkicə gün çimməzsə, bu zibilin üfunəti üzə çıxar, iyi ətrafa yayılar və o, öz-özünə nifrət edər. Ondan üfunətlisi və eybəcəri varmı?

Gün ərzində iki dəfə yuyub-təmizlədiyi bu çirkab onun içindədi. O çirkabın daşıyıcısı o özüdü.

Günlərin bir günü Şeyx Əbu Səid sufilərlə yol gedirmiş. Onlar, üzərində nəcis parçası üzən, çirkab su dolu çalanın yanından ötürlərmiş. Bu mənzərəni görənlər burunlarını tutub kənara qaçıblarmış. Bircə Şeyx burnunu tutmadan, kənara qaçmadan, yerində dayanıb bir müddət nəcisə baxandan sonra üzünü o birilərə tutaraq:

– Ay camaat, bilirsiz bu nəcis mənə nə deyir? – deyibmiş.

Hamı soruşubmuş:

– Nə deyir?

Şeyx cavab verir:

– O deyir: dünən mən bazarda idim. Bu adamların hamısı pul kisələrinin ağzını açıb, məni almaqdan ötrü yarışa girmişdilər. Mən onlarla bircə gecəmi keçirdim və görün nə günə düşdüm. İndi deyin, kim kimdən uzaq qaçmalıdı: onlar məndən, ya mən onlardan?

Həqiqətən də, insan bu dünyada sonsuz dərəcədə naqis, zəif və gücsüzdü. Və o, Qəlbini Əbədi Səadətə qovuşmağın ən sadə yoluna yönəldərsə, Onu heyvan, mal-qara səviyyəsindən mələk halına çatdırarsa, Doğum günü sabah yetişəcək. Yox, əgər bu dünya və onun arzularında qərarlaşarsa, canındakı qabanlar və itlər zirək tərpənəcək. Son ucda onlar heçə çevriləcək, iztirablardan azad olacaqlar. O isə o iztirablarıyla əbədi qalacaq.



# YANLIŞLIQLARDAN QURTARAN KİTAB

## *(ixtisarla)*

*Bütün yazılanlardan və deyilənlərdən ucada duran Böyük Yaradana həmd olsun! Doğru bələdçiliyi ilə yanlışlıqlardan qurtaran Elçisinə – rəsulu Məhəmmədə, onun ailəsinə və davamçılarına O Özü yar olsun!*

Ey mənim inam qardaşım! Sən məndən elmlərin məqsədi və sirləri, bilik qazanmağın son həddi və bu işin incəlikləri barədə məlumat verməyi, müxtəlif nəzəriyyələrə və təlimlərə əsaslanan cərəyanların toqquşmasından əldə etdiyim həqiqətləri dərk etdikcə, başıma nələrin gəldiyi haqda, ənənəvi ehkamlar pilləsiylə görümün (təsəvvüfün) zirvəsinə necə qalxmağım barədə danışmağı xahiş eləmişdin. İlk əvvəl, kəlamı öyrənərkən mənə gərəkli və faydalı olan nələri əldə etməyim barədə, İmam ənənələri üzrə bilik əldə etmək qabiliyyəti olmayan talimitlərin həqiqəti axtarmaq üsullarında ürəyimə yatmayan məqamlar haqda, fəlsəfəçilikdə nələri bəyənmədiyim barədə və nəhayət, bilik əldə etməyin sufi üsullarında ürəyimə yatanlar barədə danışmağı xahiş eləmişdin. Məndən insan düşüncələrini tədqiq etdikcə, qarşımda Mütləq Həqiqətin hansı incilərinin açıldığı barədə, məni tələbələrimin günü-gündən artıb çoxaldığı bir vaxtda Bağdaddakı elmi fəaliyyətimi dayandırmağa, uzun

fasilədən sonra Nişapurda yenidən bərpa etməyə məcbur edənin nə olduğu barədə danışmağı xahiş eləmişdin.

İstəyinin səmimiliyini duyub, xahişini yerinə yetirirəm. Allaha yalvarıb, Ondan kömək istəyirəm, Ona arxalanıram, bu işdə məndən yardımını və himayəsini əsirgəməməsini diləyib, sənin istəyinə əməl edirəm.

Bil ki, (Allah sizləri haqq yoluna yönəltməyə izn versin və Öz Himayəsi ilə haqqa sarı hərəkətinizi asanlaşdırsın!) insanların dinlər və təriqətlər üzrə fərqi, həmçinin hər bir təriqətdaxili izahların fərqi, bu sayaq mətləblərlə bağlı müxtəlif cərəyan və yanaşma ziddiyyətlərinin çoxluğu dərin bir dəryaya bənzəyir ki, bu dəryanın qaranlıq sularında saysız-hesabsız batanlardan tək-tükləri xilas ola biliblər. Xilas olan hər dəstə özünü "qurtulmuşlar" qismində o səbəbdən görüb ki, öz biliyindən və irəli sürdüyü nəzəriyyəsindən son dərəcə razı olub. Bu da Allahın Yer üzünə göndərdiyi rəsullar Başçısının (Allah ona yar olsun!) dediyi (o isə heç zaman səhv eləmirdi) həmin bu məsələdir: "Mənim ümmətim yetmiş üç dəstəyə bölünəcək. Onlardan yalnız biri xilas olacaq".

Odu ki, deyilən həyata keçdi.

Ömrümün çiçəkləndiyi dövrlərdən, yəni mən həddibüluğa çatandan (mən isə, yaşım iyirimini haqlamamış hədd-büluğa çatmışdım artıq) yaşım əllini ötdüyü bu günəcən, həmin o dərin dəryanın sularına sonsuz dəfələrlə baş vurmuşam. O dərinliklərin zülmətini dönə-dönə cəsur cəngavər kimi (ehtiyatlı qorxaq kimi yox) yarmışam, qaranlıq suallarına baş vurub, qarşıma çıxan maneələrlə üz-üzə dayanmışam, ən keçilməz sədləri adlayıb, hər dəstənin nəzəriyyəsini, hər təriqətin gizli niyyətini aşkarlamışam ki, doğrunu yalandan, həqiqi möminliyi yenilikçi kafirlərdən ayıra bilim. İşimi bitirib başa vuranadək nə bircə batiniyyə, nə də zahiriyyə təliminin davamçısını nəzərimdən qaçırmışam.

Fəlsəfəsinin ən gizli dərinliklərinə varmadığım bircə filosofu, kəlamının və nitq mədəniyyətinin son məqsədini dərk etmədiyim bircə mütəkəllimi, sirlər aləminə toxunmaq ehtirasıyla alışıb-yandığım bircə sufini, ənənəviliyinin nə ilə nəticələndiyi ilə maraqlanmadığım bircə ənənəçini, kafirliyə düçar olub, Allahı inkar edəndə nəyə dayaqlandığını araşdırmadığım bircə kafiri yaddan çıxarmamışam.

Hər bir şeyin mahiyyətini, həqiqi təbiətini öyrənmək yanğısı mənə hakim kəsilmişdi. Bu yanğı ilk müstəqil addımlarımdan, gəncliyimin ilkin dövrlərindən mənim gündəlik istəyimə, ehtiyacıma çevrilmişdi. Bu, mənim iradəmin fövqündə olan, Allah tərəfindən xislətimə verilmiş anadangəlmə, instinktiv bir keyfiyyətdi. Olsun ki, hələ yeniyetmə yaşlarımdan, o dövrlərin ruhuma hakim kəsilmiş ehkamlarından və ənənəviçiliklərindən azad olmağımın səbəbi həmin bu yanğı idi. Axı mən xristian təriqətli yeniyetmələrin xristian, yəhudilərin yəhudi, müsəlmanların isə müsəlman tərbiyəsi ilə yetişdiyini görmüşdüm?! Mən Peyğəmbərimiz barədə, (Allah ona yar olsun!) bir hədis eşitmişdim ki, bu haqda o: "Bu dünyaya doğulan hər körpə bura əzəli saflıqla gəlir. Sonradan onu yəhudi, ya xristian, yaxud cadugər edən onun valideynləri olur", – deyib.

* * *

Artıq gənc yaşlarımdan məndə insanın əzəli təbiətini, valideynlərin və müəllimlərin təkidi ilə öyrənib mənimsədiyim təlimlərin həqiqi mahiyyətini anlamaq, bu təlimlərin bir-birindən fərqli cəhətlərini öyrənib-ayırd eləmək yanğısı vardı. Buna görə öz-özlüyümdə düşündüm ki, ilk növbədə, mənə mövcud olanların həqiqi mahiyyətini dərk etmək gərəkdi. Bundan sonra dərketmənin özünün mahiyyətini anlamaq gərək olacaq.

O dövrlər mənə elə gəlirdi ki, həqiqi bilik özünü büruzə verəndə dərk olunanların şübhəyə yer qoymadığı bilikdi. Belə bir bilik hər hansı yanlışlıqdan o qədər uzaq olmalıdı ki, bir kimsə onu təkzib edə bilməsin, özünün haqlı olduğunu sübuta yetirməkdən ötrü daşı qızıla, yaxud əsanı ilana çevirsə belə, yenə ortaya şübhəli görünən, yaxud tərəddüd doğuran bir sübut, dəlil çıxmasın. Yəni əgər mən on rəqəminin üç rəqəmindən çox olduğunu dəqiq bilirəmsə və kiminsə ağlına mənə "xeyr, üç ondan çoxdu və buna sübut olaraq, mən bu əsanı ilana çevirəcəyəm" demək gəlsə və bu zaman o, həqiqətən, dediyini mənim gözlərim qarşısında eləsə belə, yenə onun yanlışlığa yol verdiyinə şübhə eləyə bilmərəm. Belə olan halda, mən yalnız o kəsin bunu necə elədiyinə təəccüblənə bilərəm, lakin ürəyimdə öz bildiyimə zərrə qədər şübhə oyanmaz. Və sonralar mənə aydın oldu ki, əgər mənim biliyim və bu biliyin həqiqiliyi yuxarıda deyildiyi dərəcədə deyilsə, deməli, o biliyə bel bağlamaq olmaz, bu, etibarsız bilikdi. Hər hansı etibarsız bilik isə həqiqi bilik deyil.

## *Səfsətəçiliyə[1] giriş və biliklərdən imtina*

Sonralar dərk etdiklərimi bir də nəzərdən keçirəndə isə anladım ki, onların hamısı yuxarıda dediyim həmin o keyfiyyətdən, yəni həqiqilikdən məhrumdur. İstisna – yalnız mənim öz hisslərimlə duyub anladıqlarım və zəruri xarakter daşıyan müəyyən qanunlardır. Mən düşündüm: "İndi ki belədi, deməli, həqiqi biliyi əyani şəkildə, yəni gözlə görünənlərdən, hisslərlə qavranılanlardan və zəruri xarakter daşıyan qanunlardan əldə etməkdən savayı ayrı yol qalmır.

[1]***Səfsətəçilik*** – sofistika (qədim yunan fəlsəfəsi)

Bu qənaətə gələndən sonra, mən böyük həvəslə hisslərim və şüurumla əldə etdiyim məlumatları araşdırmağa başladım görüm ki, özümdə onlara qarşı şübhə yarada bilərəmmi? Uzun-uzadı düşünüb-daşınandan sonra özümdə onlara qarşı da şübhə yaratmağa nail oldum və bunun ardınca o qərara gəldim ki, hətta öz duyğularımın və şüurumun köməyi ilə əldə etdiyim məlumatlara da etibar edə bilmərəm. Bu üzdən, şübhələrim bir az da artmağa başladı.

Mən düşündüm ki, insanın öz hisslərinə etibarı nədən yaranır? Hisslərin ən güclüsü görümdür. Amma axı kölgəyə baxanda adama elə gəlir, o, yerindən tərpənmədən dayanıb-durub və burdan sən bu qənaətə gəlirsən ki, o yerindən tərpənmir. Lakin həmin o kölgəyə bir saatdan sonra baxanda anlayırsan ki, o, durmadan tərpənir, yerini dəyişir və bunu sərt təkanlarla yox, tədricən, bilinər-bilinməz ehmallıqla, dayanmadan edir. Yaxud məsələn, ulduza baxırsan və sənə elə gəlir ki, o bapbalacadı, dinardan da balaca. Lakin həndəsə sübuta yetirir ki, həmin o ulduz öz ölçülərinə görə Yer kürəsindən də böyükdü. Bu, eynilə beləcə, o biri hisslərdən əldə olunan məlumatlarla da baş verir. Hər zaman Hiss hakimi bir qərar çıxarır, Şüur hakimi isə hisslərin verdiyi məlumatların nəticəsini inkar edib, ortaya bu yalanı faş eləyən elə bir dəlil qoyur ki, o birinin müdafiəsinə ehtiyac qalmır.

Beləliklə, hiss məlumatlarına olan etibarım darmadağın olandan sonra, mən düşündüm ki, həqiqətən də, yalnız şüurun verdiyi məlumatlara etibar eləmək olar. Olsun ki, məhz bu məlumatlar, dediyim həmin o "on rəqəmi üçdən böyükdür", "eyni bir şeyi eyni zamanda həm inkar, həm də təsdiq etmək mümkün deyil", "eyni bir şey eyni zamanda həm yaradılmış, həm əbədi, mövcud olan və olmayan, zəruri və qeyri-mümkün olan ola bilməz" kimi qanunlara dayaqlanır.

Bu zaman hisslərim dilə gəlib mənə dedi: “Axı niyə sən elə düşünürsən ki, şüurunun verdiyi məlumatlara olan inamın hiss məlumatlarına olan inamınla birdi? Axı əvvəllər sən bizə etibar edirdin, sonra Şüur gəldi və bizi təkzib etdi. Lakin əgər Şüur olmasaydı, sən yəqin ki, yalnız bizə etibar edəcəkdin. Bəs düşünmürsən ki, elə də ola bilər ki, Hisslərin qərarını təkzib edən Şüurun özünü də mühakimə edib təkzib edən ayrı bir vasitə ortaya çıxar və əgər belə bir dərk qabiliyyəti hələ özünü büruzə verməyibsə, bu heç də o demək deyil ki, belə bir şey mövcud deyil”.

Mən hiss elədim ki, ağlım bu suala cavab verməyə ləngidi. Buna səbəb – yuxugörmənin mahiyyəti barədə düşünüb-daşınmalarım oldu.

Öz-özümə dedim: “Məgər sən öz yuxuların, orda gördüklərin barədə ötəri və əsassız olan bir şey haqda düşünəntək, düşünmürsənmi? Yuxuda gördüklərinin həqiqiliyinə şübhəylə yanaşmırsanmı? Yuxudan ayılandan sonra orda görüb inandıqlarının əsassız və mənasız görüntüdən savayı ayrı bir şey olmadığını düşünürsənmi? Əgər elə isə, onda niyə elə düşünürsən ki, ayıq vəziyyətdə şüuruna və hisslərinə etibar eləyib inandıqların, yuxulu vəziyyətdə görüb-inandığından daha realdı? Hərçənd sənin elə bir halın da ola bilər ki, bu hal sənin ayıqlığının yuxulu vəziyyətinə nisbətində olan kimi bir şey olar və sənin həmin o ayıqlığın, bu halınla müqayisədə yuxugörmədən fərqli bir şey olmaz. Odu ki, əgər bu hala düşmək məcburiyyətində qalsan, anlayacaqsan ki, nə vaxtsa ağlınla anladıqların vur-tut mənasız təsəvvürlərdir. Ola bilsin bu həmin o haldı ki, sufilər bu barədə yalnız onlara məxsus olan bir şey kimi danışırlar. Yəni hisslərdən imtina edib özlərinə çəkiləndə, dedikləri kimi, elə məqamların şahidinə çevrilirlər ki, bunları şüurun qənaətləri ilə bir araya gətirmək mümkün olmur.

Olsun ki, belə hallardan biri də ölümdür. O səbəbdən ki, ilk və son peyğəmbərlər Başçısının (Ruhu şad olsun!) dediyi kimi: "İnsanlar yuxudadırlar, öləndə ayılacaqlar". Ola bilsin ki, bu tərəfin həyatı o biri tərəfin həyatına nisbətdə hədsiz miskindi və insan öləndən sonra hər şey ona, burda göründüyü kimi görünməyəcək. Məhz onda ona deyiləcək: "Biz səndən örtüyü götürdük və sənin görümün artıq iti oldu".

Bu yerə gəlib çatanda və fikirlərim vücudumu sarıb ruhumu qığılcımdan alışan alovtək odlamağa başlayanda, mən özümü bu vəziyyətdən çıxarmağa çalışdım və elə həmin anda da məlum oldu ki, bunu eləmək, sən demə, elə də asan məsələ deyilmiş. Anladım ki, düşdüyüm bu vəziyyətdən qurtulmağın bir yolu var: həqiqətə dayaqlanan sübutların və dəlillərin köməyi ilə qurtulmaq.

Dəlillərə gəlincə isə, onların əzəli qanunlara dayaqlanmadığından və bu səbəbdən, hər hansı yanlışlığa uğrayıb-uğramadığı bəlli olmadığından, heç birinə dayaqlana bilməyəcəyimi anladım.

Sağalmaq ehtimalı olmayan bu xəstəliyim iki aya yaxın davam elədi. Bu zaman ərzində mən, səfsətə nəzəriyyəsi üzərində işləməyə imkan tapdım. Bu işə məni kimlərinsə fikir və mülahizələri yox, o dövrlər düşdüyüm öz vəziyyətim yönəltdi.

Mənim bu halım Hamıdan Uca Yaradan məni bu azardan qurtaranacan, ruhum əvvəlki sağlam həddinə qayıdanacan, zəruri əqli qanunlar tam və şərtsiz qaydada etimadımı qazananacan davam elədi.

Mən buna, şüurumun ortaya qoyduğu nizamlı sübutlarla, fikir ardıcıllığıyla yox, İlahi tərəfindən qəlbimə salınan İşıqla nail oldum. Bu həmin o İşıqdı ki, böyük biliklərin açarıdır və kim düşünürsə ki, həqiqətin aşkar olunmasında tək

bir dəlillər kifayətdi, o kəs Allahın sərhədsiz Rəhmini çox dar çərçivələrə salır.

Allahın Rəsulundan (Ruhu şad olsun!) Uca Yaradanın insanlara müraciətlə dediyi: “O kəs ki Allahın iznində olmağı arzulayır, qəlbini İslama açıq saxlayır” kəlamında “açıq saxlayır” ifadəsinin mənasını soruşanda, o belə cavab verir: “Bu həmin o işıqdır ki, Allah insanın qəlbinə salır”. Onda ondan soruşurlar: “Bunun əlaməti nədi?” O cavab verir: “Bu fani dünyanı tərk edib, əbədilik məkanına üz tutmaq”. O işıq barədə bir də o deyib: “Allah insanları zülmət qaranlıqda yaratdı, sonra Öz İşığının zərrəsindən üzərlərinə səpdi”.

Bax, həqiqəti məhz həmin o İşıqda axtarmaq gərəkdi. İlahi səxavətdən axan o İşıq, bu dünyada yaşayanlardan yalnız bəzilərinin qismətinə düşür və bu qisməti mütləq şəkildə gözləmək gərəkdi. O səbəbdən ki, peyğəmbərimiz (Ruhu şad olsun!) deyən kimi:

“Taleyüklü günlərinizdə Allahınız sizlərə Öz Təravətli Nəfəsindən üfürür. Sizlərə isə özünüzü bu Axıntının qarşısına qoymaq qalır”.

Bütün bunları danışmaqda məqsədim, bütün ömrümü həsr elədiyim və axırda, axtarılmasına heç bir lüzumun olmadığı mətləblərin üzərinə gəlib çıxdığım tədqiqatlarımı tam mənzərəsində sənə göstərməkdi.

Sən demə, əzəli qanunları arayıb-axtarmağa heç bir ehtiyac yoxmuş, onlar göz qabağındadırlar. Göz qabağında olan isə elə bir şeydi ki, ona toxunmaq istəyəndə, o nəzərdən qaçır və yoxa çıxır.

Odu ki, axtarılmağa ehtiyacı olmayanların axtarışında olanları, hələ aşkar olunmamış nələrinsə axtarışındakı başısoyuqluğuna görə qınamaq olmaz.

## *Həqiqət axtaranların növləri*

Böyük Yaradan Öz Rəhmi və sonsuz Səxavəti ilə məni bu xəstəlikdən xilas edəndən sonra belə bir qənaətə gəldim ki, həqiqəti axtaranların dörd növü var.

1. Özlərini nüfuzlu və aidiyyatlı simalar kimi təqdim edən mütəkəllimlər;

2. Özlərini müqəddəs İmamdan alınan təlimin tərəfdarları elan edən batinilər;

3. Məntiq və dəlillər tərəfdarı olduqlarını bildirən filosoflar;

4. Həqiqətin aşkar edilməsində müstəsna iştirak etmək qabiliyyətinə, onun qeyri-adi müşahidənin köməyi ilə aşkarlanmasında şahidliyə iddialı olan sufilər.

Ona görə mən öz-özümə dedim: "Həqiqət bu dörd yolun heç birinə o səbəbdən müqavimət göstərmir ki, onların hər biri, onun (həqiqətin) axtarışı yolu ilə irəliləyirlər və əgər o (həqiqət) özünü büruzə vermirsə, deməli, onu əldə etmək mümkünsüz məsələdi. Nə vaxtsa uzaqlaşıb "əlvida" dediyin bu axtarış ənənələrinə qayıtmağın mənası nədi? İnsan hər hansı ənənəni o zaman davam etdirə bilər ki, bu ənənənin daşıyıcısı olan nüfuz sahiblərinin qeyri-ixtiyari, şüursuz şəkildə davamçısı olsun. Lakin elə ki o, bunu anlayar, dayaqlandığı həmin o həqiqət şüşə kimi çatlayıb xırda qəlpələrə ayrılar. Çatı yamamaq, bir-birindən ayrılan qəlpələri bir yerə toplamaq isə mümkün olan məsələ deyil. Odu ki, bircə yol qalır: əlində olanları odda əridib, onların əvəzinə tamamilə yenisini yaratmaq.

Mən bu yolu seçdim və adlarını yuxarıda sadaladığım bu dəstələrin baxışlarını ayrı-ayrılıqda tədqiq etməyə tələsdim. Bundan ötrü ilk əvvəl kəlamın tədqiqini, ikinci – bunun fəlsəfi yozumunu, üçüncü – batinilərin irəli sürdüyü ehkamları, daha sonra sufi təcrübəsini araşdırmağa başladım.

## *Kəlamın tədqiqi, onun məqsədi və mahiyyəti*

Beləliklə, birinci növbədə kəlamın tədqiqinə başladım. İlk əvvəl bunun nə olduğunu araşdırıb dərk eləməyə çalışdım. Bundan ötrü, bu tədqiqin nümayəndələrinin araşdırmalarına dair kitabları tapıb oxudum və onlarla bağlı zəruri hesab etdiklərimi bir kənara yazdım. Nəticədə anladım ki, kəlamda olan bilik, mütəkəllimlərin məqsədinə cavab verə biləcək qədərində olsa da, qarşıma qoyduğum məsələnin həllinə kifayət etməyəcək qədərindədir. Mütəkəllimlərin qarşılarına qoyduqları məqsəd – Sünnəyə dayaqlananların inam ənənələrinin qorunub saxlanılması və bu ənənələrin kafirlərin müdaxiləsi ilə olunan yeniliklər qarmaqarışıqlığından qorunması idi.

Hamıdan Uca Yaradan Haqqı Öz Rəsuluna verib. Quranda və digər mənbələrdə deyildiyi kimi, ruhi və dünyəvi həyatların ləyaqət şərtlərinin hamısı ordadır. Lakin bunun ardınca, İblis kafirlərə Sünnəyə əks olanları təlqin etdi və kafirlər hay-küy salıb, Sünnənin həqiqi ehkamlarına inanan insanlarda çaşqınlıqlar yaratmağa başladılar. Məhz bu səbəbdən Hamıdan Uca Mütəkəllimlər məktəbini yaratdı və onları davamlı olaraq Sünnənin müdafiəsinə yönəltdi. Kəlam və onun davamçılarının yaranma tarixi budur.

Bu yolda mütəkəllimlər öz rəqiblərinin nəzəriyyələrindən bəhrələndilər, lakin mənə, Haqq Olan barədə məqbul izahlı məlumat verə, tutulduğum xəstəlikdən qurtulmağa kömək edə bilmədilər.

## *Fəlsəfə*

Fəlsəfənin mahiyyəti haqda düşüncələrim, əsasən, nələrin araşdırılmalı, nələrin mühakimə olunmalı, nələrin olunmamağı barədə, filosofların kafir kimi, yaxud digər

nöqteyi-nəzərlərdən çıxış etdiyi mətləblər, onların bəzən kafirlərin yeniliklərini qəbul etdiyi və etmədiyi məqamlar barədə idi. Fəlsəfə elminin tədqiqinə mütəkəllimlərin nəzəriyyələriylə tanışlığı bitirdikdən sonra baş vurdum.

Mən yaxşı bilirdim: hər hansı elm sahəsindəki çatışmazlıqlar barədə o kəs fikir yürüdə bilər ki, həmin o elmi elə təfərrüatlı şəkildə mənimsəmiş olsun, həm də onun ən qabaqcıl təmsilçiləri ilə bir bərabərdə dayanmaqla yanaşı, öz mülahizələri, alimlik dərəcəsi ilə onları geridə qoya bilsin, həmin o elmin o qatlarına vara bilsin və o barədə bu sahənin ən nüfuzlu tədqiqatçılarının təsəvvürü belə olmasın. Yalnız bu halda hər hansı elmə dair naqisliklər barədə mülahizələr əhəmiyyət kəsb edə bilər.

Mən isə elə bir müsəlman aliminə rast gəlmədim ki, məsələnin bu tərəfində diqqətli olsun. Filosofların nəzəriyyələrini təkzib edən mütəkəllimlərin kitablarında isə bu elmin (fəlsəfə elminin) naqislikləri barədə o qədər əlaqəsiz və qarmaqarışıq şəkildə danışılır, orada yer almış ziddiyyətlər və xətalar o qədər qabardılır ki, ortaya çıxan mətləblər, hətta ən ağıllı adi adam üçün heç bir əhəmiyyət kəsb etmir, o ki qala bu elmi təfərrüatlı şəkildə mənimsəməyə iddialı olanlar üçün.

Hər hansı bir nəzəriyyəni, onun mahiyyətini dərk edib dərinliklərinə bələd olmamış təkzib etməyin, gülləni havaya buraxmaq kimi əbəs bir şey olduğunu anladıqdan sonra, mən qollarımı çirmələyib bu elmi öyrənməyə girişdim.

Mən yalnız oxuduqlarıma dayaqlanır, kömək üçün bir kəsə müraciət eləmirdim. Bu işlə, əsasən, yazdığım kitabların, Müsəlman Hüququ fənnindən dediyim dərslərin arasında tapdığım asudə vaxtlar məşğul olurdum. Hamıdan Uca və Rəhmlinin köməyi ilə iki il ərzində qısa fasilələrlə məşğul olduğum mütaliənin hesabına, tam şəkildə fəlsəfə elminə yiyələndim. Təqribən bir il də ətraflı şəkildə

mənimsəyib, dönə-dönə yenidən nəzərdən keçirdim, ən gizli qatlarına varıb, nəyin yalan, nəyin həqiqət, nəyin puç xülya olduğunu, nəhayət ki, müəyyən etdim. İndi qulaq as, gör fəlsəfə hara aparır.

Fəlsəfə ilə dərin məşğuliyyətlərdən sonra mən anladım ki, filosoflar bir neçə qismə, onların nəzəriyyələri isə bir neçə növə bölünür və hansı qismə aid olmasından asılı olmayaraq, hər birinin üzərində eyni möhür – inamsızlıq və Allahsızlıq möhürü parlayır.

## *Filosof qisimləri və onların inamsızlıq möhürü ilə bir olmaları barədə*

Bil ki, məktəblərinin çoxluğuna, nəzəriyyələrinin fərqliliyinə baxmayaraq, filosoflar üç qismə bölünürlər: dəhritlərə, təbiətçilərə və metafiziklərə.

Dəhritlər ən qədim fikir sahibləridir ki, Hər Şeyi Yaradıb Təşkil Edəni – Hər Şeydən və Hamıdan Uca Yaradanı qəbul etməmişlər.

Dəhritlər qəti şəkildə bu dünyanın əzəldən Yaradansız, öz-özünə mövcud olduğunu, heyvanın nütfədən, nütfənin heyvandan yarandığını, bunun əzəldən belə olduğu və bundan sonra da əsrlər boyu belə olacağı müddəalarını irəli sürmüşlər. Onlar kafirlərdir.

İkinci qisim – təbiətçilərdir. Bunlar fundamental axtarışlarını təbiətin qoynunda aparanlar, heyvanların və bitkilərin vəhşi təbiətini təhlil edib, canlıların anatomik quruluşunu çoxsaylı elmi tədqiqatlarla öyrənənlərdir. Bu tədqiqatlar zamanı onlar Hamıdan Ucanın yaratdığı elə möcüzələrlə rastlaşmış, Onun Müdrikliyinin elə bəhrələri ilə tanış olmuşdular ki, hər şeyin mənasını və əhəmiyyətini

təyin edən hansısa Müdrik Yaradanın mövcudluğunu etiraf eləməyə məcbur olmuşdular.

Həqiqətən də, bu mümkün olan məsələ deyil ki, kimsə anatomiyanı öyrənsin, heyvan, ələlxüsus, insan yaranışındakı kamilliyi görüb, bu qənaətə gəlməsin. Lakin təbiət aləminin tədqiqi üzrə çalışan bu adamların dediyindən belə çıxırdı ki, heyvan xislətinin mahiyyətinə fərqli mizacların[1] təsiri var. Onların mülahizələrinə görə, insanın fikir ehtiyatı da onun mizacından qaynaqlanır və bu ehtiyat həmin mizacla bir məhv olub yoxa çıxır. Bu fikrin davamı olaraq, onlar məhv olub, yoxa çıxmışın geriyə qayıtmasının qeyri-mümkünlüyünü israr edir və burdan ruhun öldükdən sonra geriyə qayıtmadığı barədə sərt nəticələrə gəlib çıxır, bununla o biri dünyanı – Cənnəti, Cəhənnəmi, Axirət gününü, Qiyaməti, əməllərə görə Qorxunc Məhkəməni inkar edirdilər. Onların qənaəti belə idi ki, itaət mükafatlandırılmır, itaətsizlik cəzalandırılmır. Onlar cızıqlarından çıxmışdılar, heyvani ehtiraslarına uyub, öz alçaq ehtiyaclarını doyurmağın çirkablı girdabına uğramışdılar.

Onlar da kafirlərdir.

Dinin əsası – Hamıdan Uca olan Allaha və Axirətə inamdır. Bu adamlar isə Allaha inansalar da, qorxunc Hesabat Gününü inkar edirdilər.

Üçüncü qisim – metafiziklərdir. Bunlar, vaxtilə Aristotelin müəllimi olmuş Platonun müəllimi Sokrat da daxil olmaqla, sonrakı filosoflardır.

Onların sonuncusu (Sokrat) məntiqdə səliqə-sahman yaratmağa, nəzəriyyələrə nizamlı quruluş verib o dövrlərə qədər yazılmayanları yazmağa, o zamanadək mükəmməlləşməmişləri mükəmməlləşdirməyə nail oldu. Qalanları isə inamsızlıqdan və kafirlikdən qurtula bilmədilər.

Odu ki, içimdə bu metafiziklərlə yanaşı, onların davamçılarını da, məsələn, Aristotel nəzəriyyəsinin dərinlik-

---

[1] ***Mizac*** **–** temperament

lərinə yiyələnmiş İbn Sina, əl-Fərabi kimilərini də ifşa etmək zərurəti yarandı.

## *Talimit nəzəriyyələri və bunun zərəri*

Fəlsəfə ilə işimi bitirdikdən sonra, mənə aydın oldu ki, məqsədimə tam nail olmaqdan ötrü bu da kifayət deyil. O dövrlər talimit nəzəriyyəsi böyük şöhrət qazanmışdı. Camaat arasında Haqqın günahsız İmam vasitəsi ilə dərki geniş yayılmışdı.

Və mənim ağlıma gəldi ki, onların kitablarında yazılanları öyrənməkdən ötrü, kəlamlarını axtarıb tapım. Sonra iş belə gətirdi ki, mən hökmdarımız Xəlifədən talimit təlimlərinin özəl mahiyyətini açıqlayan kitab tərtib etmək əmrini aldım. Buna əməl eləməyə bilməzdim: ən azı o səbəbdən ki, bu əmr mənim daxilimdən gələn bir istəyin zahiri tərəfi idi. Və mən onların kitablarını axtarmağa, kəlamlarını toplamağa başladım. Bütün yazılanları və deyilənləri bir yerə cəmləyib, təlimin mahiyyətini açıqlayan mülahizələri hazırlamağa, bu düşüncənin həqiqiliyini aşkar edən gedişatı izləyib, talimitlərdə sual doğura biləcək məqamlara tutarlı arqumentlər toplamağa başladım və məqsədimə nail oldum.

Mən talimit nəzəriyyəsininin yol verdiyi səhvləri kəskin şəkildə ortaya qoydum, bu nəzəriyyənin həqiqiliyinə şübhə yaradan dəlilləri açıqladım və beləliklə, təlimin yanlışlığını sübuta yetirdim. Özüm üçün də bu qənaətə gəldim ki, bu təlimdən heç bir nəticə əldə edilmir, o faydasızdır.

## *Sufi yolu*

Bundan sonra bu elm sahələri ilə işimi bitirib, diqqətimi sufi yoluna (təriqət) yönəltdim. Öyrəndim ki, bu yol (təriqət) həm nəzəriyyəni, həm də təcrübəni o səbəbdən

kamil həddə özündə cəmləyir ki, onun mahiyyətini qəlb ehtiraslarının məhvi, ruhun Hamıdan Ucanın dərkindən və Onun gözəlliyinin zikrindən savayı, xoşagəlməz və naqis meyllərdən qurtuluşu təşkil edir.

Əvvəla, onu deyim ki, sufi nəzəriyyəsi mənə, onların təcrübəsindən daha asan gəldi. Bu nəzəriyyələri mən Əbu Talib əl Məkkinin "Qəlb qidası" kitabından, Həris əl Mühasibin əsərlərindən, Əl Cünayd, Əl Şibli, Əbu Yezid əl Büstami haqqında yazılmış rəvayət və hekayətlərdən, onların mənəvi başçılarının – şeyxlərinin əsərlərindən, bu cəhdlərinin mahiyyətində olanları söhbətlər zamanı və sufi nəzəriyyələrinə yiyələnməklə tədqiq etməyə başladım. Bu zaman mənə aydın oldu ki, bu nəzəriyyələrin müstəsna xüsusiyyəti – əldə olunanlara bilik yolu ilə yox, ruhi qabiliyyətlərin mükəmməlləşdirilməsi, sınağı və dəyişməsi yolu ilə çatılmasıdır.

Sağlamlığın və toxluğun nə demək olduğu: bunun səbəb və şərtlərini bilməklə, özünün sağlam və tox olmağının arasındakı fərq həddən ziyadə böyükdür. Və beləcə, sərxoşluğun nə olduğunu – bunun mədədən qalxan buxarın fikir mənbəyinə (beyinə) təsiri olduğunu bilməklə, özünün sərxoş olmağın arasındakı fərq böyükdür. Axı sərxoş insan sərxoşluğun nə demək olduğunu, bunun nəzəri cəhətdən necə baş verdiyini bilmir və hərçənd ki sərxoşluğun mahiyyəti barədə onun zərrə qədər məlumatı yoxdur, o sərxoşdur. Ayıq isə, baxmayaraq ki o zərrə qədər sərxoş deyil, sərxoşluğun nə demək olduğunu və onun yaranma səbəblərini bilir. Beləcə, həkim də xəstələnəndə öz xəstəliyinin nə olduğunu, bunun səbəblərini, ondan sağalmağın yollarını, bundan ötrü lazım olan dərmanların adlarını bilir, amma bu bildikləri ona sağalmağa kömək etmir. Eynilə beləcə, zahidliyin də mahiyyəti, bunun şərtləri və qaynaqları barədə bildiklərimizlə, zahidlik halı – ruhun bu

dünyaya ikrahla yanaşması arasında fərqlər böyükdür. Və mənim üçün tamamilə aydın oldu ki, mən nəzəri cəhətdən əldə edə biləcəklərimi artıq əldə etmişəm. Bu adamlar isə anlayıb əldə etmək istədiklərinə elmi, nəzəri mülahizələrlə yox, dadmaqla çatanlardır.

Odu ki, burda bir yol qalırdı: söhbətlər və nəzəriyyələrlə əldə edə bilmədiklərimi müvafiq həyat şəraiti və sınaqlarla əldə etmək.

Buna qədər isə, artıq neçə vaxtdan bəri məşğul olduğum iki elm sahəsini – din hüququnu və **rasional** dini tədqiq etdiyimə görə, dərin inam hissi ilə Hamıdan Uca Yaradana, Peyğəmdərliyə və Qiyamət Gününə tapınmışdım. Bu yolda, İlahiyyatın əsasını təşkil edən bu üç mənbə qəlbimdə hansısa sübut və dəlillər səbəbindən yox, dediyim həmin o məqamların və təcrübənin sayəsində elə dərin köklər atdı ki, bunları dillə ifadə etmək mümkün deyil.

Mənə ilk əvvəl o aydın oldu ki, o dünyanın səadətinə o kəs ümid edə bilər ki, o, bu dünyanın cazibəsindən, tamahından kənarlaşıb mömin həyatını yaşayır. Aydın oldu ki, burda əsas məqam – ruhunu maddi dünyaya bağlayan zəncirləri qırıb bu fanilik məkanını tərk etmək, əbədi ölümsüzlük məkanına üz tutmaq, diqqətini Hamıdan Ucaya yönəltməkdi. Və mən anladım ki, bunu yalnız o kəslər əldə edə bilər ki, şan-şöhrətdən, var-dövlətdən imtina ediblər, dünyəvi sarsıntılardan və həyəcanlardan qurtulublar.

Bunun ardınca diqqətimi öz vəziyyətimə yönəltdim və belə məlum oldu ki, məni dörd bir yandan mühasirəyə almış dünyəvi əlaqələrin və münasibətlərin içində itib-batmışam. Diqqətimi fəaliyyətimə, fəaliyyətimin ən üstün tərəfinə – mühazirələrimə, dərslərimə yönəltdim və anladım ki, məni məşğul edən bu işlərin də, özünü o biri dünyanın səyahətlərinə hazırlayan kəs üçün heç bir faydası və mənası yoxdu. Müəllimlik fəaliyyətimlə bağlı son məqsədim

barədə düşünüb-daşınanda isə anladım ki, bu fəaliyyətimin məqsədi, onun təkanverici qüvvəsi – təkcə Hamıdan Uca Yaradan yox, həm də şöhrətlənmək, geniş miqyaslı nüfuz qazanmaq niyyətimdı.

Bir sözlə, başa düşdüim ki, uçurumun kənarındayam və əgər təcili surətdə vəziyyətimi dəyişməyə başlamasam, Cəhənnəm sakiniyəm.

Beləcə, günlər ötür, mən düşdüyüm vəziyyət barədə düşünməyə ara verməsəm də, son qərara gələ bilmirdim. Bu gün məni əhatə edən həyatla bütün əlaqələri qırıb, Bağdada yollanmağı qərara alırdımsa, sabahı günü fikrimi dəyişirdim. O günlər mən bir ayağıyla irəliyə, o biri ayağıyla geriyə addımlayan adamın halını yaşayır, səhərlər sidq-ürəkdən o biri dünyaya aparan yolları arayıb-axtarmaq arzusuyla yanıb-yaxılır, axşamın düşməyi ilə bu istəyimin, onu soyudub heçə çıxaran dünyəvi ehtiraslar cənginin hücumundan dağılmağı bir olurdu. Bir yandan din səsi məni yola çağırıb:

– Yola hazırlaş! Yola hazırlaş! Həyatının sonuna az qalıb! Səni qarşıda uzun səfər gözləyir. Başını qatdığın bütün o elmlər, işlər boş, yalançı təxəyyüldən savayı, ayrı bir şey deyil. Özünü o biri dünyaya indi səfərbər eləməsən, nə vaxt edəcəksən? Səni bu dünyayla bağlayan zəncirləri indi qırmasan, nə vaxt qıracaqsan? – dediyi bir vaxtda, o biri tərəfdən dünyəvi ehtiraslar qoşunu qol-qıçımı qandallayıb məni özünə sarı çəkir, yerimdən tərpənməyə qoymurdusa da, içimdən yenidən qaçmaq istəyi baş qaldırır, qərarım möhkəmlənirdi. Və həmin dəqiqə də İblis özünü yetirib qulağıma:

– Fikir vermə, bu, ötəri haldı, – deyirdi, – ona uymağı ağlına belə gətirmə. Bu hal tezliklə ötüb keçəcək. Amma əgər, ona uysan, sənə bəxş edilən şan-şöhrətini, dərd, ələm tanımayan təminatlı həyatını, düşmənlərinin belə səndən ala bilməyəcəyi əmin–aman, firavan həyatını itirəcəksən. Vaxt

gələcək, sənin ruhun yenidən ora dönməyə can atacaq. Lakin sən bir daha ora qayıda bilməyəcəksən.

Təqribən, altı ay mən, dörd bir yandan davamlı şəkildə şirnikləndirildiyim dünyəvi həzzlərlə o biri dünyanın çağırışları arasında qaldım. Bu, 488-ci ilin rəcəb ayında (1005-ci ilin iyul-avqust ayları) baş verirdi.

O dövrlər belə oldu ki, mənim bu halım, artıq azad seçim həddini aşaraq, zərurət xarakterini alıb. Belə ki, iş o yerə çatdı ki, Allah mənim nitqimi qurutdu, dilimi bağladı və bu lallıq mənə dərslərimi davam etdirməyə imkan vermədi…

Bu, belə baş verdi ki, günlərin bir günü mən dərs keçdiyim yerdə, mühazirələrimdə iştirak edən bir qisim insanın qəlbində məmnunluq yaratmağa cəhd göstərdiyim məqam, qəfildən dilimin tutulduğunu hiss etdim. Demək istədiyim sözün bircəciyini belə içimdən çəkib çıxara bilmədim. Halım pisləşdi, mən dərsi yarımçıq saxlayıb, qanıqara halda evə döndüm. Bu lallıq qəlbimdə dərin kədər hissi oyatdı.

Bir qədərdən sonra isə mən nitqimlə bərabər, həzm qabiliyyətimi də itirdim. Nə bir qida, nə maye iştahamı açmırdı, boğazımdan çörək keçmirdi. Qüvvəmi o qədər itirdim ki, həkimlər məndən əllərini üzdülər, çiyinlərini çəkib:

– Bu nədisə, əvvəl onun qəlbini, sonra bütün bədənini zədələyib. Onu yalnız o halda sağaltmaq olar ki, bu zədələyənin nə olduğu bilinə, – deməklə canlarını qurtarırdılar.

Mən zəifləyib əldən düşdükdən, seçim iradəmi itirdikdən sonra çıxılmazlıq zərurətinin əsirinə çevrildim, öz iradəsi ilə qərar çıxarmaq qabiliyyətini itirmiş adamlar kimi üzümü Hamıdan Ucaya tutdum.

...Və mənə Onun Özü – çıxılmazlıq zərurətinin əsiri olanların müraciətlərinə Cavab Verənin Özü cavab verdi... Daha şan-şöhrətdən, var-dövlətdən, övladlarımdan və

dostlarımdan imtina etmək üçün qəlbimə zor eləməyə heç bir ehtiyac qalmadı.

Beləliklə, qəlbimdə Suriyaya səfər etmək niyyətini tutsam da, Məkkəyə köçmək barədə qərarımı elan etdim. Bu addımı atmağımın səbəbi – Suriyada məskunlaşmaq qərarımla Xəlifədən və dostlarımdan ehtiyatlanmağım idi. Mən, Bağdaddan həmişəlik getdiyimi və bir daha geriyə dönməyəcəyimi onlardan gizlətmək istəyirdim. Amma bu hərəkətimlə bütün İraq əhalisinin və din başçılarının qınağına tuş gəldim. Bunun da səbəbi o idi ki, onların heç biri mənim bu hərəkətimin, yəni hər bir şeydən imtinamın kökündə dini mətləblər dayandığını ağıllarına belə gətirmirdilər. Onlar düşünürdülər ki belə bir hərəkəti yalnız dinin ən yüksək mərtəbələrinə çatmış şeyxlər edə bilər. Onlar bundan o tərəfə heç nə bilmirdilər.

Bu hadisədən sonra adamlar müxtəlif ehtimallar irəli sürməyə başladılar. İraqdan uzaqda olanlar elə bildilər ki, mən öz vətənimdən hakimiyyətdən duyduğum xoşagəlməz münasibətə görə gedirəm. Lakin hakimiyyətdəkilərin mənə olan münasibətini bilənlər mənimlə sıx əlaqələrini kəsmir, məni yola gətirməyə çalışsalar da, qərarımdan döndərə bilməyəcəklərini anlayıb:

– Bu, tale yazısıdı. Müsəlman icmasının, təriqət qardaşlığının nəzərə gəlməsindən savayı, ayrı bir şey deyil, – deyirdilər.

Beləliklə, olanım nə vardısa, hamısını adamlara paylayıb, Bağdadı tərk etdim. Özümdə saxladığım – ailəmi və uşaqlarımı doyuracaq qədərində idi.

Bağdadı tərk edəndən sonra, Suriyaya gəldim və orda iki ilə yaxın sufi nəzəriyyələrindən mənimsədiyim ruhi saflaşmanı, mənəvi keyfiyyətlərimin kamilləşməsini təmin edən zahidlik və tənhalıq təlimləri ilə zəngin həyatımı yaşamağa başladım. Günlərimi, bircə anlığa belə tərk etmədiyim Dəməşq məscidində keçirir, minarəyə qalxıb

qapını arxamca kilidləyir, günümü səhərdən axşamacan orada keçirirdim. Bir qədərdən sonra yerimi dəyişib, Yerusəlimə (Qüds) köçdüm və orada da günlərimi, saatlarımı əs-Səhra kilsəsinin bağlı qapıları arxasında keçirməyə başladım. Allahın dostunun – İbrahim Peyğəmbərin (Allah ona yar olsun!) qəbrini ziyarət edəndən sonra isə qəlbimdə, ruhuma dayaq olacaq müqəddəs yerləri – Məkkəni və Mədinəni, Allahın Rəsulunun qəbrini ziyarət eləmək ehtiyacı yarandı və mən Həcc ziyarətinə yollandım...

Bir neçə ildən sonra belə oldu ki, ailə qayğıları və övladlarımın inadlı çağırışları məni yenidən vətənə qaytardı və hərçənd qayıtmaq fikrindən uzaq idim, amma ora qayıtdım. Lakin vətənə döndükdən sonra da tənhalığımı qoruyub saxlamağa, insanlardan kənar qaçmağa, günümü Allah haqqında düşüncələrdə keçirməyə çalışdımsa da, ev, ailə qayğıları, məişət ehtiyacları bu yolda mənə əngəllər törətməyə, davamlı şəkildə zahidlik həyatımın tənha sakitliyinə fanilik havası qatmağa  başladı.

Mən zəruri olan hallara ara-sıra düşməyə imkan tapırdımsa da, əvvəl-axır istəyimə çatacağıma ümidimi itirmir, qarşıma çıxan maneələri dəf edib, məqsədimə doğru irəliləməyə davam edirdim.

Beləcə on il keçdi. Həmin bu on ilin tənhalığında mənə elə şeylər əyan oldu ki, onları nə dillə demək, nə sadalamaq, nə də aydınlaşdırmaq mümkün deyil. İşimizin faydasından ötrü bircə bunu deyim ki, Hamıdan Ucanın məsləhət bilib, göstərdiyi yolla gedənlər məhz sufilərdir. Ən dürüst həyat tərzi onların həyatı, ən düzgün inam yolu onların yolu, ən saf əqidə, onların əqidəsidir. Mən bundan da artıq deyə bilərəm: əgər bütün şüurlu insanların şüurunu, müdriklərin müdrikliyini, ilahi qanunlar bilicilərinin biliyini bir yerə toplasan ki onlar sufinin həyat tərzində, onun əqidəsində nəyisə dəyişmək, mükəmməlləşdirmək üçün nə isə edə bilsinlər, heç nə edə bilməzlər. O səbəbdən ki, sufilərin

bütün işləri və əməlləri, dilə gətirdiklərinin və sirr kimi saxladıqarının mənbəyi – Peyğəmbərlər Hücrəsindən axan İşıqdır və Yer üzündə insanları doğru yola yönəldəcək həmin bu İşıqdan savayı, ayrı bir işıq yoxdur.

Bir sözlə, adamların, haqqında çox danışdıqları bu Yol (təriqət) – ruhun saflaşma yolu ilə Hamıdan Uca Allaha aid olmayanlardan təmizlənməsi, Onun başlanğıcı – İlahiyyata qapılma, sonu – Allahda ərimə yoludur.

Lakin "son" deyərkən, həmin bu "son" Yolun yalnız başlanğıcı, buna qədər olanlar isə Ora daxil olmaq istəyənlər üçün Astana olduğunu üzə çıxarır.

Gizlidə olanların aşkarlanması və müşahidə olunması da, yolun başlanğıcında baş verir. Belə ki, sufilər hətta ayıq vəziyyətdə belə, mələkləri və peyğəmbərlərin ruhlarını görürlər, onların səslərini eşidir, söhbətlərindən bəhrələnirlər. Bütün bu görüntülərdən sonra, açılışın digər yeni mərhələləri – dilə gətirilməsi mümkün olmayanlar gəlir və əgər kimsə bunları dilə gətirməyə cəhd edərsə, o sözlər öz-özlüyündə, mütləq halda yuyulmaz günahlar daşıyıcısı olacaq.

Qısası, sufilikdə İlahiyyata qovuşma məqamları o həddə çatır ki, bəzilərinə bu, Allahda ərimək kimi, digərlərinə Ona qovuşmaq kimi, o birilərə yetmək, çatmaq təsiri bağışlayır. Belə hallarda buraxılan səhvlərin mahiyyəti barədə biz "Ali məqsəd" kitabında izahlar vermişik.

Qısası, bu halları yaşayan insan "O oldu. Amma o nə idi, bunu xatırlamıram", yaxud "bir az dərindən düşün və məndən izah istəmə"dən artıq bir şey deyə bilməz.

Yəni bu halları yaşamayan kəsin həqiqi peyğəmbərlik keyfiyyətlərindən anlayacağı – yalnız nələrinsə adları olacaq.

Müqəddəslərin möcüzələri isə, bu məsələyə yaxın zamanlardan baxanda, peyğəmbərliyin ilkin əlamətləri kimi aşkar olunur. Və Allahın Rəsulunun da (Allah ona yar olsun), bu dünya həyatından üz çevirib Hirə dağına qalxanda, orda

öz Allahıyla təkbətək qalıb, Ona öz sevgisini bəyan edəndə halı, ərəblər deyən kimi "Həqiqətən, Məhəmməd öz Allahının sevgisiylə alışıb-yandı" – məhz belə olub.

Bu halı bilavasitə yaşayanlar buna yalnız sufi yolunun tədqiqi ilə nail olunduğunu anlayırlar. Bu halı yaşamayan kəs bu bilgini o birilərin (sufilərin) təcrübəsindən yaxud, söhbətləri əsnasında aldığı məlumatlardan əldə edə bilər – əgər, əlbəttə ki, o kəs sufilərlə tez-tez görüşürsə.

Bəli, o bilik yalnız bu halda əldə edilir. İnsana onlarla (sufilərlə) bircə dəfə oturmaq kifayət edir ki, bu inamı onlardan mənimsəsin.

Sufilər pislik, ədavət, kin-küdurət bilməyən, həlim təbiətli, mehriban həmsöhbətlərdir. Kimə ki onlarla ünsiyyətə girmək nəsib olmayıb, bu barədə elmi sübutların və dəlillərin yer aldığı əsərləri – bu barədə ətraflı izahlar verdiyimiz "İlahiyyat elmlərinin dirçəlişi" və "Qəlb möcüzələri" kitablarını əldə edə bilərlər.

Həqiqətin məntiqi dəlillərlə sübutu dərkə əsaslanır. Özünü bu hala gətirmək isə bunu bilavasitə öz canında hiss etmək deməkdi. Bu barədə o birilərin təcrübəsindən və söhbətlərindən eşitdiklərini məmnunluqla qəbul etmək isə inamdır.

Bu, həmin o üç pillədir ki, məhz onun barədə deyilib:

"Sizlərdən inama gələnləri və anlamaq iqtidarında olanları Allah pillələr üzrə ayırıb".

Onlardan sonra cahillər gəlir. Bu o kəslərdir ki, Allah onların qəlblərini möhürləyib, o kəslərdir ki, onları kor və kar edib.

* * *

Sufi üsullarını sınaqdan keçirdikcə mənim üçün aydın olan məqamlardan biri də, peyğəmbərliyin mahiyyəti və onun özəl xüsusiyyətləri oldu. Burda biz mütləq şəkildə

peyğəmbərlik mahiyyətinin üzərində dayanmalıyıq. Çünki buna zəruri ehtiyac var.

## *Peyğəmbərlik mahiyyəti və bunun bütün insanlar üçün zərurəti*

Bil ki, insan mahiyyəti ilkin halda Hamıdan Uca Yaradanın aləmləri barədə heç bir bilgisi olmadan, saf və təcrübəsiz yaradılıb. Böyük Yaradanın aləmləri isə o qədər saysız-hesabsızdır ki, onları yalnız O Özü sadalaya bilir. Özü Deyəntək: “Sənin Allahının hərbi barədə də Onun Özündən savayı bir kimsə bilməz”.

Bu dünyayla isə insan onu anladıqca tanış olur. İnsanın anlam qabiliyyəti elə bir əsasla yaradılıb ki, o, reallığı onun vasitəsi ilə dərk edə bilsin. Dünya anlamının alt qatında isə biz reallığın digər müxtəlif tərəflərini anlayırıq. Bu baxımdan insanda yaradılan ilkin anlam vasitəsi – duyum qabiliyyətidi. Məhz onun köməyi ilə o, reallığın istilik və soyuqluq, nəmişlik və quruluq, yumşaqlıq və bərklik kimi təzahürlərini hiss edib anlayır. Duyumun rəngləri, yaxud səsləri seçmək qabiliyyəti yoxdur, onlar duyum üçün sanki yox halındadırlar.

Bunun ardınca, insanda yaradılan növbəti anlam vasitəsi – görmə qabiliyyətidi ki, məhz onun köməyi ilə o, duyduqlarının daha geniş tərəfini təşkil edən rəngləri və quruluşları görür.

Bunların ardınca insanın dad qabiliyyəti yaradılıb.

Və bu, beləcə, insan duyuma gələnlər dünyasının sərhədlərini aşanacan davam edir. Təqribən yeddi yaşını haqlayanda, insanda fərqləndirmə qabiliyyəti yaranır. Bu, artıq onun mövcudluğunun ayrı bir pilləsidir. Bu pillədə o,

tamamilə duyum dünyasından olmayan, duyumla qavranılanlar aləmindən kənarda qalanları anlamağa başlayır.

Bunun ardınca o, daha yeni bir pilləyə qalxır və bu pillədə şüur yaradılır. Bu qabiliyyətlə o, qavranılması mümkün olanları və olmayanları, yəni əvvəlki pillələrdə rastına çıxmayanları dərk edir.

Şüurdan sonra bir pillə də var. Bu pillədə insanın tamamilə yeni növ görüm qabiliyyəti açılır ki, bu görümlə o, gizlidə olanları, gələcəkdə olacaqları və şüurun qavramaq iqtidarında olmayanları seyr etməyə başlayır.

Əgər yalnız seçmə qabiliyyəti olan insana şüurun anladıqlarını təsvir etsəydilər, o, onları inkar edib, bunu ağlasığmazlıq sanardı. Eynilə beləcə, bir qisim şüurlu insan da peyğəmbərlik vergisi ilə anlaşılanları inkar edirdi.

Bu isə sırf nadanlıq idi. Ona görə, onlar bunu belə izah edirdilər ki, peyğəmbərlik pilləsinə hələ çatmayıblarsa, demək, belə bir pillə mövcud deyil. Onların fikrinə görə, ümumiyyətlə, belə bir şey öz-özlüyündə mövcud ola bilməz və sair.

Hamıdan Uca isə, Öz yaratdıqlarını peyğəmbərlikdən agah etmək üçün, onları peyğəmbərliyin spesifik xüsusiyyətlərindən biri olan yuxu ilə təchiz etdi. Belə ki, yatmış kəs gizlidə olanı, yaxud gələcəkdə olacağı aydın, yaxud əlamətlər şəklində görmək qabiliyyəti əldə etdi ki, bu görüntülərin mənasını yalnız həmin o yuxunun yozumuyla aça bildi.

Lakin əgər belə bir halı yaşamayan, yəni yuxu görməyən kəsə desələr ki, insanların arasında elələri var ki, onlar huşunu itirib hisslərindən məhrum olurlar, görmə, eşitmə qabiliyyətini itirib, yarıcan hala düşürlər və o zaman gizlidə olanları anlayırlar, o etiraz edib, bunun boş cəfəngiyat olduğunu sübuta yetirməkdən ötrü: “Duyum qabiliyyətləri, duyulanın dərki səbəbidir və əgər kimsə bu

qabiliyyətləri özündə hiss etmirsə, bu qabiliyyətlər zəifləyəcək və o, əlbəttə ki, onlardan məhrum olacaq” – deyəcək. Bu, yenə də həmin o qənaətlərdən olacaq ki, reallıq və aşkarlıqla inkar edilir.

Lakin necə ki şüur insan mahiyyətini təşkil edən pillələrdən biridir, insan onun köməyi ilə ayrı növ görüm qabiliyyəti əldə edir və bu qabiliyyətlə hisslərinin qüdrəti çatmadığı müxtəlif həqiqətləri seyr edir, beləcə, peyğəmbərlik də öz-özlüyündə müəyyən bir pillə təşkil edir; ona malik olan kəs, insan şüuruna gizli qalan və əlçatmaz olanları aşkarlayan işığa malik olub, yeni növ görüm qabiliyyəti əldə edir.

Belə bir halın mövcudluğuna sübut odu ki, həqiqətən, dünyada elə biliklər var, onların şüurla qavranılmasını təsəvvürə belə gətirmək mümkün deyil. Bu sayaq biliklərə, əsasən, İlahidən verilən, yaxud Hamıdan Ucanın köməyi ilə əldə olunan biliklər aid edilir. Bu bilikləri ayrı yolla əldə etmək mümkün deyil.

* * *

…Bu sübutlardan anlaşılır ki, şüurla qavranılması mümkün olmayanları anlamağın yolları var.

Yuxarıda haqqında danışdığım “profetizm” məhz o səbəbdən bu qabiliyyətə malikdir ki, şüurun qavrama fövqündə olanların dərki, onun malik olduğu misilsiz xüsusiyyətlərindən yalnız biridir və dediyim həmin o qabiliyyət burda, dənizdə damla misalındadır. Bu məsələyə mən o səbəbdən toxunuram ki, sən onun yalnız bircə nümunəsinə – gizlidə olanı yuxuda anlamağa qadirsən. Sən tibbə, nücum elminə dair biliklərə də bu səviyyədə maliksən. Və yalnız şüurla qavramaq qabiliyyətində olan kəslər üçün bu biliklər də əlçatmazdır.

Peyğəmbərlik keyfiyyətlərinə gəlincə, buna, yalnız sufilər edən kimi, bilavasitə təcrübə vasitəsi ilə, yəni yaşantılarla çatmaq mümkündü. Peyğəmbərlik keyfiyyətinin mahiyyətini sən yalnız o halın oxşarı olan yuxugörmənin sayəsində anlaya bilərsən və əgər belə bir qabiliyyətin olmasaydı, bunu anlamaq sənə çətin olacaqdı. Əks halda peyğəmbərdə səndə olmayan hansısa fərqli bir qabiliyyətin olduğunu necə anlaya bilərdin? Axı insan yalnız anladığına inanır!..

Bax, sufi yolunun ilkin mərhələlərində bu sayaq məqamlar aşkarlanır və məhz bunun sayəsində insan müəyyən növ yaşantılara və inamın fərqli dərəcələrinə qadir olur ki, bu da bir sıra məntiqi dəlillərlə sübuta yetirilə bilər. Lakin sənə gəlincə, inamı Peyğəmbərlik yolu üzrə əldə etməyə bu xüsusiyyətlərdən biri də kifayət edər.

Əgər səndə müəyyən bir şəxs barədə, onun peyğəmbər olub-olmadığı barədə şübhə yaranarsa, o halda onun əməlləri, gördüyü işlərlə əyani şəkildə tanış ol, həyatını müşahidə et, yaxud digərlərinin onun barəsində dediklərini dinlə. Həqiqəti əldə edəcəksən. Necə ki tibb elmini, yaxud müsəlman hüququnu bildiyin üçün, həkimlərin və hüquqşünasların özləri, yaxud işləri ilə yaxından tanış ola bilərsən, onları bilavasitə müşahidə və dediklərinə istinad edə bilərsən, burda da belə. Necə ki bizlər üçün əş-Həfinin (Allah ona rəhmət eləsin!) həqiqətən hüquqşünas, yaxud Halənin həqiqətən həkim olduğunu dəqiqləşdirməyin elə bir çətinliyi yoxdu, burda da məsələ belədi. Bundan ötrü sənə onları təkrarlamaq yox, tibb və müsəlman hüququ barədə hər hansı bilikləri əldə etmək, onların yazdığı kitabları və əsərləri oxumaq gərək olacaq ki, nəticədə onların gördüyü işlər barədə dəqiq bir nəticəyə gələ biləsən.

Peyğəmbərlik keyfiyyətinin də öyrənilməsinə gəlincə, o da eynilə bu sayaq baş verəcək. Əgər sən, peyğəmbərliyin mənasını anlayıb-mənimsəsən, bundan ötrü

Quranı və hədisləri mükəmməl səviyyədə öyrənsən, Allahın Rəsulunun peyğəmbərliyin ən uca pilləsində olduğu barədə ən zəruri məlumatları alacaqsan. Bu yolda sənə, onun ibadət haqqında və ibadətin ruhun təmizlənməsinə təsiri barədə dediyi "Kim ki öz biliyi üzrə hərəkət edir, o bilinməzləri anlayan, İlahi yolun davamçısıdır", yaxud "Allah qəddarla əlbir olanı qəddara həvalə edər", yaxud "Kim ki səhərlər yuxudan təkcə bir qayğının əzabıyla oyanar, Allah onu bu dünyanın və o biri dünyanın digər qayğılarından azad edər" – kəlamlarında nə qədər haqlı olduğunu öz üzərində sınaqdan keçirməyin kömək ola bilər.

Əgər sən bunu min dəfə, iki min dəfə, minlərlə dəfə eləsən, həmin o zəruri və şəksiz biliyi əldə edəcəksən. Peyğəmbərlik haqqında həqiqi biliyi də bu qabiliyyətindən istə, Peyğəmbərlərin möcüzələrindən olan əsanın ilana çevrilməsindən, yaxud Ayın əriməsindən yox.

Əgər sən fikrini, kənar məsələlərdən çəkib yalnız bu məqamlarda cəmləsən, olsun ki, ilkin mərhələlərdə bu, sənə sehrbazlıq, yaxud səni Allahdan uzaqlaşdıran riya görünəcək.

O, "istədiyi kəsi azdırar, istədiyini isə doğru yola yönəldər".

## *Bu məşğuliyyətlərdən imtina edəndən sonra, elmi təbliğ etməyimin səbəbi barədə*

Bunun ardınca, davamlı şəkildə keçirdiyim tənha zahidlik həyatının təqribən on ili ərzində apardığım saysız-hesabsız təcrübələr sayəsində qarşımda belə bir vacib həqiqət aşkarlandı ki, insan bədəndən və qəlbdən ibarətdir. Üstəlik "qəlb" dedikdə, mən ölüdə, yaxud heyvanda olan bir tikə qanlı ət parçasını yox, onun ruhi mahiyyətini nəzərdə tuturam. İlahiyyat barədə biliklərin hücrəsi məhz Odur.

Və mənim qarşımda o həqiqət də aşkarlandı ki, bədən, yalnız sağlam şəraitdə sağlam olduğu və xəstəlik onun ölüm səbəbi olduğu kimi, eləcə qəlb də sağlam, yaxud xəstə ola bilir və Onun da bu və o biri dünyada əbədi olaraq öldürücü xəstəliklərə tutulmaq ehtimalı var. Hamıdan Ucanın dediyi kimi: “Onların qəlbində xəstəlik var”.

Bunun ardınca o həqiqət də aşkarlandı ki, Allahı tanımamağın özü öldürücü zəhərdir və itaətə gəlməyən, öz ehtiraslarının quluna çevrilən kəslərin qəlbini sağalmaz xəstəliyə düçar edən məhz budur.

İlahi bilik isə bu zəhəri məhv edən dirildici iksirdir. Ehtiraslara müqavimət göstərən, itaətə gələn qəlbə məlhəm olan – odur. Mənə aydın oldu ki, bədənin xəstəlikdən sağalması üçün dərman lazım olduğu kimi, qəlbin də xəstəlikdən sağalmasının yeganə əlacı, onun dərmanı – həmin bu bilikdir. Mən həmçinin onu da müəyyən etdim ki, bədənin xəstəlikdən sağalması, ona təyin olunan dərmanların tərkib hissəsindən asılı olduğu kimi, eynilə beləcə, ibadətin də qəlbə şəfaverici təsiri, sahibinin inam həddindən asılıdır.

Bil ki, bu həddin dərəcə miqyası peyğəmbərlər tərəfindən təyin olunub və bu şəfaverici vasitənin qəlbə nə kimi təsirlər göstərdiyini ən ağıllı insanların belə qavramaq imkanı yoxdu.

Bunun ardınca mənə aydın oldu ki, bədənə şəfa gətirən dərmanlar müxtəlif növdə və kəmiyyətdə olan müalicəvi qarışıqlardan ibarət olduğu kimi, qəlbə şəfa verən ibadət də, özündə müxtəlif növdə və kəmiyyətdə olan hərəkətləri cəmləyir. Belə ki, məsələn, ayaqüstü təzim iki diz üstü təzimə bərabərdir. Eləcə, sübh namazı, öz əhatə tutumuna görə, qürub namazının yarısı qədərindədir. Burada, həmçinin, ibadətin yalnız peyğəmbər işığıyla aşkar edilən sirləri də yer aldı.

Sözün qısası, peyğəmbərlər o kəslərdir ki, qəlb xəstəliyinə çarə edə bilirlər. Şüurun bizə verdiyi fayda və onun fəaliyyət dairəsi isə bizləri bu qənaətlərə gətirib çıxarmasıdır.

Şüur, peyğəmbər inamını peyğəmbər bəsirəti ilə əldə olunanların, əlimizə aldığımız əşyanın mahiyyətini anlamadığımız kimi, anlamaqda tam qüdrətsiz olduğumuzun şahidliyini verir. Odu ki, korlar öz bələdçisinə, xəstə təcrübəli həkiminə arxalanantək, biz də peyğəmbərliyə arxalanırıq.

Bütün bu deyilənlər isə tənhalıq və zahidlik illərinin bilavasitə müşahidələrində əldə olunanlardır.

Bunun ardınca, mən bir müddət müəyyən qisim insanların Şəriətə olan münasibətini tədqiq eləməyə başladım. Onlarda şübhə oyadan məqamları müəyyən etməyə çalışdım və nəticədə bir sıra sirlər aşkar etdim, bir sıra qənaətlər əldə edə bildim.

Bəzən bu adamlardan birinə:

– Sənə nolub? – deyirdim. – Axı niyə Şəriətin vacib buyruqlarına bu qədər saymazyana yanaşırsan? Sən ki o biri dünyanın mövcudluğuna inanırsan. Ora hazırlaşmaqdansa, oranı bu dünyaya dəyişirsən. Axı bu axmaqlıqdı! Axı sən heç zaman iki olan bir şeyi bir olana dəyişməzsən?! Belə olan halda niyə ölümsüz, əbədi həyatı günləri barmaqla sayılan bu yer həyatına dəyişirsən? Yox, əgər o biri dünyanın mövcudluğuna inamın yoxdursa, demək, sən kafirsən. Elə isə, inama gəl. Onu axtar. Bax, gör bu gizli inamsızlığının alt qatında nələr yatır.

Bunun cavabında bəziləri:

– Burda məsələ belədi ki, əgər bu, vacib bir şey olsaydı, bunun təəssübünü insanların ən ləyaqətlisi olan alimlər çəkərdi, – deyirdi. – Lakin görkəmli alimlərdən olan, məsələn, filankəs ibadət etmir, bu biri filankəs şərab içir, o birisi vəqflərin və yetimlərin əmlakını satır, daha o

biri dövlət vergisini yeyir, bu biri məhkəmə işlərinə və şahidliyə rüşvət alır və sair və ilaxır.

Digərləri – sufi nəzəriyyəsini yaxşı mənimsəyənlər elə bir ilahiyyatçılıq əldə etdiklərini bəyan edirdilər ki, guya hər hansı ibadətdən Allaha yaxın olanı odur.

Ola bilər, sən Quran oxuyub ibadət məclislərində iştirak edən kiminsə şərab içdiyini, bu və ya digər zina hərəkətlərinə davam etdiyini görəcəksən. O məqam ondan:

– Peyğəmbərliyə inamın yoxdusa, niyə ibadət eləyirsən? – soruşsan, o:

– Bədən tərbiyəm üçün, bir də yaşadığım məmləkətin qayda-qanununu, mülkiyyətimi və ailəmi qoruyub saxlamaq naminə, – deyə cavab verəcək.

Yaxud o, belə də cavab verə bilər ki:

– Şəriət – haqq, peyğəmbərlik – həqiqətdi.

Belə olan halda gərək ona deyəsən ki:

– Əgər elədisə, onda niyə şərab içirsən?

Bu suala o, belə cavab verəcək:

– Şərab o səbəbdən qadağan edilib ki, insanda qıcıq və qəzəb oyadır. Mən ağlımın köməyi ilə bu şeylərdən qaçıram. Şərabı isə şüurumu itilətməkdən ötrü içirəm.

Hətta İbn Sina belə, öz vəsiyyətnaməsində şərabı insanlara həzz məqsədi ilə yox, müalicəvi əhəmiyyətinə görə, Allahın qarşısında Şəriət qanunlarına ciddi şəkildə əməl etmək, dini qaydalara ehtiram göstərmək şərti ilə içməyi məsləhət görüb.

* * *

Yuxarıda göstərdiyim səbəblər üzündən inamı laxlamış müxtəlif növ insan zümrələrini nəzərdən keçirdikdən sonra bütün bu anlaşılmazlıqların kökünü açmağı özümə borc bildim və içimdən qığılcım kimi belə bir fikir ötdü ki, bu iş təcili və zəruridir. Düşündüm ki, qəlb xəstəliyinin bu

şəkildə yayılıb kütləvi hal aldığı, həkimlərin özlərinin də xəstələndiyi, insanların isə öz məhvlərinin astanasında dayandığı belə bir vaxt tənhalığa qapılmaq zahidlik məqamı deyil. Bunun ardınca öz-özümə fikirləşdim ki, bəs bu zülməti nə vaxt dağıtmaq, bu cahil qaranlıqlarıyla üz-üzə dayanmaq fikrindəsən? Axı yaşadığın bu zaman kəsiyi insanların inam gücünün zəiflədiyi bir dövrə təsadüf edir?! Həmin bu dövr – saxtalıq və riya dövrüdür?! Əgər sən insanları dilə tutub səhv yoldan döndərmək, haqq yoluna yönəltmək fikrinə düşəcəksənsə, çağdaşların sənə nifrət eləməyə başlayacaq. Onlara müqavimət göstərməyə gücün çatacaqmı? Belə olan halda, bu adamlarla necə böyür-böyürə yaşayacaqsan?..

Bunları qəfildən anladım. Öz-özümə: "Bu, yalnız bir halda ola bilər ki, ölkənin başında, inamında sarsılmaz olan mömin hökmdar dayana", – dedim. Diz çöküb, Hamıdan Ucaya yalvarmağa başladım ki, haqqı əlimdə olan dəlillər və sübutlarla aça bilməyəcəyimə görə, mənə öz zahidlik həyatımı davam etdirməyə icazə versin. Beləliklə, bu məqam Allah tərəfindən yazılmış Yazı başa gəldi… Həmin dövrdə taxtda oturan hökmdar hansısa kənar təsirlərdən yox, öz daxili ehtiyacından doğan səmimi istəklə, insanlarda yaranmış etiqad zəifliyinə qarşı ölçü götürmək məqsədi ilə Nişapura gəlməyi mənə əmr etdi.

Mən bunu eləməliydim. Eləməsəydim, zahidlik həyatı mənə sıxıntıdan savayı, heç nə verməyəcəkdi. Onu da anladım ki, Allaha yalvarıb dilədiyim mətləb də artıq öz əhəmiyyətini itirib. Tənhalığı tənbəllik üzündən, ya istirahət üçün, yaxud hər hansı xoşagəlməzliklərlə üzləşməmək məqsədi ilə seçmək isə mənə yaraşmazdı. Nəhayət, Hamıdan Uca: "Rəhmli və Mərhəmətli Allahın adıyla. Əlif-Lam-Mim (Quranın bir çox surələri bu üç hərflə başlayır) İnsanlar düşünürdülərmi ki, biz onları sınamamışdan əvvəl onlara "Biz haqqa tapındıq" deməyə icazə veriləcək? Biz artıq ona

qədər olanları sınadıq”, – deyirsə, yolunu azmışları Haqq yoluna yönəltməyin çətinliyindən qaçmaqmı olar?..

Böyük və Əzəmətli Yaradan ən qiymətli varlığına – Öz Rəsuluna deyir: “Sənə qədər göndərilən elçiləri yalançı hesab edib, riyakarlıqda günahlandırıb incidəndə, onlar Bizim yardım yetənədək dözdülər”.

Və O, (Hamıdan Uca və Əzəmətli) deyir: “Rəhmli və Mərhəmətli Allahın adıyla. Ya-sin. Bu müdrik Qurana and olsun” və “Allahı yad edənlərə xəbər ver”.

Mən bu məsələ ilə bağlı qəlb və müşahidə əhlinə müraciət etdim, onlar da bir ağızdan mənə zahidlik həyatından əl çəkməyi, öz tənhalıq küncümdən cəmiyyətə çıxmağı məsləhət gördülər. Buna bir qisim mömінin davamlı şəkildə gördüyü yuxular da əlavə olundu. Bu yuxular mənim bu addımımın Şərəfli Yaradan tərəfindən yeni yüzilliyin başlanğıcına hesablandığına şahidlik edirdi. Axı həqiqətən də, Hamıdan Şərəfli Yaradan Öz dinini hər yüzilliyin başlanğıcında dirçəltməyə söz verib!..

Beləliklə, ümidim artdı, bütün bu əlamətlərə dayaqlanan niyyətim qələbə çaldı. Hamıdan Uca Yaradan bu məsələnin həlli üçün mənim Nişapura sarı hərəkətimi asanlaşdırdı və bu, 499- cu ilin zül-qəddə (1106-cı ilin iyul-avqust ayları) ayında baş tutdu…

Mən Bağdaddan 488-ci ilin zül-qəddə ayında çıxdım. Deməli, oradakı zahidlik həyatım on bir il çəkmişdi. Bu da Hamıdan Uca Yaradanın heyrətamiz möcüzələrindən idi ki, qəlbim bütün o zahidlik illərinin tənhalığı zamanı, bir gün bu halımla xudahafizləşəcəyimi, Bağdaddan çıxıb gedəcəyimi mənə xəbər verməmişdi. Qəlbləri və halları dəyişən O – Hamıdan Uca Yaradandır və deyilən kimi: “Mömінin qəlbi, Mərhəmətlinin iki barmağı arasındadır”.

Bir şeyi dəqiq bilirəm ki, əgər o vaxt qayıtmasaydım, daha qayıtmayacaqdım. Çünki həmin bu qayıdış, olub ötüb keçənlərə qayıdış idi. Həmin o olub-ötmüş dövrlər

mən elə bir elmin təbliği ilə məşğul olurdum, insanları öz sözüm və əməlimlə elə bir səmtə yönəldirdim ki, bununla böyük nüfuz qazanmaq olardı. İndi isə insanları o elmə yönəltməliydim ki, bu, nüfuzumun itirilməsi ilə nəticələnə bilərdi. Bax mənim məqsədim və narahatlığım da buna görə idi. Bu da Allaha məlum idi.

Özümü və o biriləri dəyişmək istəyirdim və mənə məlum deyildi ki, bu istəyimə çata biləcəyəm, yoxsa məqsədimə yetmədən öləcəyəm. Lakin qəti şəkildə əmin idim ki, hər şey Uca və Rəhmli Yaradanın əlindədi; bilirdim ki, heç nəyi özbaşına eləməmişəm, məni hərəkətə gətirən O olub. Bütün əməllərimin səbəbkarı mən yox, məni işlək aləttək, hərəkətə gətirən O olub. Bu zaman Ona yalvarmağa başladım ki, qoy O, əvvəl məni, sonra mənim vasitəmlə o biriləri dəyişsin. Əvvəl məni Haqq yoluna yönəltsin ki, sonra o biriləri də mənim vasitəmlə o yola yönəltsin. Yalvarırdım ki, O, mənə haqq olanın həqiqiliyini göstərsin və ona əməl etməyə yardımçı olsun, mənə, saxta olanın saxtalığını göstərsin və ondan uzaq olmağa kömək eləsin.

* * *

…Yenə o məqama qayıdaq ki, səmərəli məntiqə dayaqlanan Şəriət qaydaları hansı səbəbdən peyğəmbərlik bəsirəti kimi qəlbləri təmizləmək, onlara şəfa vermək qüdrətinə malik deyil. Halbuki, bəziləri bundan da möcüzəli üsulların mövcud olduğunu deyir, bu barədə öz kitablarında da yazırdılar. Məsələn, belə möcüzəli qabiliyyətlərdən biri, doğuş zamanı çətinlik yaranan zahı qadının yükündən tez azad olması məqsədi ilə, heç vaxt isladılmamış iki parça qırığının üstünə müəyyən şəkillər çəkilərək, zahıya göstərilməsi, qadın bu şəkillərə öz gözləri ilə baxdıqdan sonra, bu parça qırıqlarının onun dabanları altında yerləşdirilməsi nəticəsində körpənin dünyaya gəlməsidir.

Belə bir şey həqiqətən olmuşdu. Bu barədə "Heyrətamiz qabiliyyətlər" kitabında da var. Bu belə olur ki, həmin o parça qırıqlarının üzərinə çəkilmiş şəkildə doqquz ədəd quş yuvası təsvir edilir, hər yuvanın içində də o sayda rəqəmlər yerləşdirilir ki, yuxarıdan-aşağı, yaxud soldan-sağa oxunarkən bunların ümumi həcmi on beş olur.

İndi mən bilmək istəyərdim: görən elə bir adam tapılacaqmı ki, buna inansın, həm də ağlını işə salıb, sübh namazının niyə iki rükət, günorta namazının niyə dörd rükət, axşam namazının isə beş rükət olduğunu anlaya bilməsin. Adi halda namazlar arasındakı bu fərqlər yalnız günün vaxt fərqləri ilə əlaqələndirilir, bunun özəlliyi isə yalnız peyğəmbərlik işığıyla dərk edilir.

Qəribə işdir, əgər biz bu mülahizənin xülasəsini dəyişib, bunu münəccimlərin təbirincə izah etsəydik, həmin insanlar zaman fərqlərinin səbəblərini anlayacaqdılar. Yaxud digər bir misal: biz heç bir vaxt heç bir xəstəlik keçirməmiş yetkin yaşlı, ağıllı bir adamı təsəvvürümüzə gətirək. Təsəvvür edək ki, o xəstələnib və onun tibb elmini dərindən bilən mərhəmətli atası var ki, o, ağlı kəsən gündən bura, atasının tibb barədə fikir və mülahizələrini dinləyib. İndi isə atası onun üçün dərman hazırlayıb deyir:

– Bu dərman bu xəstəliyin sağalmasına kömək edir və səni azardan qurtaracaq.

Belə olan halda, əgər bu dərman zəhər kimi acı və üfunətli olarsa belə, xəstənin şüuru ondan nə tələb edəcək? O, dərmanı qəbul edəcək? Yoxsa, onu qəbul etməkdən boyun qaçırıb:

– Başa düşmədim, bu dərmanın xəstəliyin sağalmasına nə dəxli var? Axı mən heç zaman onu qəbul eləməmişəm?! – deyəcək?

Şübhəsiz, əgər o belə eləsə, sən onu axmaq hesab edəcəksən. Eynilə beləcə, müdrik, uzaqgörən insanlar da səni axmaq hesab edirlər.

Yox, əgər sən:

– Mən hardan bilim ki, peyğəmbər (Allah ona yar olsun!) rəhmdildi və tibb elminin bilicisidi? – desən, mən:

– Sən atanın rəhmdil olduğunu hardan bilirdin? Bu ki duyumla anlaşılan məsələ deyil?! Şübhəsiz ki, sən bu qərara, onun əməllərinə və hərəkətlərinə, elədiklərinin nəticələrinə görə gəlmisən, – cavabını verəcəyəm.

Kim ki Allahın Rəsulunun dediklərini anlayacaq, onun insanları Haqq yoluna hansı qayğı və mərhəmətlə yönəltdiyini, onları düzgünlüyə, saflığa səsləyərkən bunu hansı incəliklərlə elədiyi barədə bizlərə gəlib çatan məlumatların mahiyyətinə varıb, bunun nə olduğunu dərk edəcək, zəruri bilik o kəsə veriləcək və o kəs xalqına olan rəhmin, valideynin övladına olan rəhmindən üstün olmalı olduğunu dərk edəcək. Əgər o, gizlidə olanın möcüzəsi qarşısında açılarkən orda baş verənlərin Quranda və hədislərdə Qiyamət günü barədə deyilənlərin mahiyyətinə vararsa və deyilənlərin mənasını anlayarsa, qoy bilsin ki, ali şüurun ilkin pilləsinə qədəm qoyub və artıq şüur üçün əlçatmaz olanların, yalnız seçilmişlərin anladığı gizli olanın aşkarlanması bəsirətinə sahib olub.

Zəruri biliyin Peyğəmbərə inam üzrə əldə edilməsinin yolu budur.

Bir də Quranı və hədisləri diqqətlə oxu, ordan anladıqlarını öz üzərində sına, o zaman hər şeyi öz gözlərinlə görəcəksən.

* * *

Bu məsləhətlər filosoflar üçün də gərəklidi. Onların üzərində dayanmağımın səbəbi, hazırkı məqamda bu adamlara olan ehtiyacımızdı. Çünki insanlar arasında etiqad zəifliyinin bir səbəbi də, alimlərin özlərini pis aparmasıdı ki, bu azardan qurtulmağın üç yolu var.

Sən deyə bilərsən ki:

– Əgər sən deyən kimi, özünü pis aparan, Şəriətin yasaq etdiklərinə uyan alimi götürsək, deyə bilərik ki, onun həmin o yasaq olunanlarla bağlı məlumatı, sənin şərab içmək, donuz əti yemək, rüşvət almaq, yalan, böhtan yaymaq, şər atmaq və sair və ilaxır bu kimi işlərlə bağlı məlumatlarından fərqli və nisbidi. Bu fikrə də gəlmək olar ki, sadaladığın bu əməlləri sən o səbəbdən yasaq hesab edirsən ki, bunu itaətsizlik yox, insan iradəsini üstələyən ehtiraslar sanırsan. Amma axı onun da ehtirasları sənin ehtirasların kimidi?! O ehtiraslar onun iradəsini üstələdiyi kimi, sənin də ehtirasların sənin iradəni üstələyir?! O ki qaldı onun, səndən fərqli olaraq, bu məsələnin sərhədlərindən kənardakıları da bilməsinə, bu o demək deyil ki, o, nəfsini bu və ya digər əməldən çəkindirməkdən ötrü həmin o bilgilərindən istifadə etmir. Bax bir: tibb elminə inanan nə qədər insan həkimlərin qadağalarını qulaqardına vuraraq, özlərini suyu soyuq halda içməkdən saxlaya bilmir?! Amma bu, qətiyyən "zərərsizdi" anlamına gəlmir, yaxud "tibb elminə inanmaq olmaz" demək deyil. Bax, "alimlərin səhvi" dediyin də belə bir şeydi.

İkinci, qara camaata belə də demək olar:

– Sən alimin öz elminə, özü ilə o biri dünyaya aparacaq ehtiyat kimi baxdığına inanmalısan. O düşünür ki, elmi orda onu xilas edəcək, yaxud Hamıdan Ucanın qarşısında əməlləri barədə hesabat verərkən, heç olmasa, halını yüngülləşdirəcək. Amma bilmir ki, həmin o elmi, əslində, onun halını ağırlaşdıra bilər. Eyni zamanda, hansısa dərəcədə yüngülləşdirə də bilər. Belə bir şeyin mümkünlüyü var. Alim xeyirxah əməllər sahibi olmaya da bilər, bəraətini öz biliyi ilə də qazana bilər. Və əgər sən – adi kütlə adamı ondan nümunə götürüb, xeyirxah işlər görməsən, biliyin və elmin olmadığı səbəbindən, pis əməllərin səni məhv edəcək. O səbəbdən ki, arxalanmağa bir şeyin olmayacaq.

Üçüncü, həqiqi olan budu ki, əsl alim günahı, bir çox hallarda, diqqətsizlik üzündən törədir və bu işlərdə (xeyirxahlıqda) qətiyyən davamlı olmur. Çünki əsl elm o elmdi ki, insanlara Hamıdan Ucaya itaətsizliyin – öldürücü zəhər, o biri həyatın bu birindən yaxşı olduğunu izah edir. Bunu anlayan kəs heç bir zaman yaxşını pisə dəyişməz.

Bu biliklər, insanların əksər hissəsinin məşğul olduğu elm növləri ilə qazanılmır. Bu, həmin o elm növləridir ki, insanları Hamıdan Uca Yaradana daha cəsarətlə itaətsizlik nümayiş etdirməyə sövq edir.

Əsl bilik isə öz sahibinə ilahi qorxular və həyəcanlarla yanaşı, böyük ümidlər verir, onu günah əməllərdən çəkindirir. Mömin olan kəs əgər günah əməl törədibsə belə, tövbə edir və günahlı işlərə davam etməkdən, günah bataqlığında itib-batmaqdan çəkinir.

Sənə demək istədiklərim – fəlsəfənin, talimit nəzəriyyəsinin səhvləri və bəlaları, filosofları və talimitləri inkar edənlərin başına gələn bəlalar, insanları inam yoluna gətirməyin yolları və sair barədə danışmağımın səbəbi bu idi.





## HƏDİS-ÜL QÜDS İMAM ƏL-QƏZALİNİN MOİZƏLƏRİNDƏN ÇIXIŞLAR

Günlərin bir günü, Musa Əleyhissalam (Allah onu şad eləsin!) küçədə rastına çıxan İsrail övladlarıyla söhbət edərkən, həmsöhbətlərindən biri vəcdə gəlib köynəyinin yaxasını cırır. Bu məqam Musanın qulağına Hamıdan Uca Yaradanın səsi gəlir: “Ona de ki, qoy o, Məndən ötrü köynəyinin yaxasını yox, qəlbini cırsın”.

**Ey Adəm övladı! Mən o adama təəccüb edirəm...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Mən o adama Təəccüb Edirəm, əvvəl-axır öləcəyini bilir və şad-xürrəm yaşamağa davam edir.

O adama Təəccüb Edirəm, Hesabat Gününün əvvəl-axır yetişəcəyini bilir və mal-dövlət yığır.

O adama Təəccüb Edirəm, qəbir evinə aparan yolun onu gözlədiyini bilir və əylənib şadlanır.

O adama Təəccüb Edirəm, Qiyamət Gününün yetişəcəyini bilir və qəm çəkmir.

O adama Təəccüb Edirəm, həyatın ötəriliyini anlayır və rahat yaşamağına davam edir.

Mən o adama Təəccüb Edirəm, başqalarının eyiblərinə qeyzlənir, öz qəlbinin eyiblərindənsə xəbərsizdi.

O adama Təəccüb Edirəm, o, həqiqətən Hamıdan Uca Yaradanın ona dikilən Nəzərlərini duyur və yenə imana gəlmir.

Mən o adama Təəccüb Edirəm, öləndə tək canıyla öləcəyini, qəbir evinə də təkbaşına daxil olacağını, hesabatını da  tək bir özü verəcəyini bilir, amma xilasını insanlarda axtarır.

Həqiqətən, Məndən savayı Allah yoxdu. Məhəmməd Mənim Qulum və Rəsulumdu".

**Mən sizləri sizərdə və bütün yaradılmışlarda yaratdım...**

Hamıdan Uca Yaradan Buyurur:

"Mən sizləri sizlərdə və bütün yaradılmışlarda yaratdım ki, bununla Yeganə Olduğumu Sübuta Yetirim. Bu yaradılanlarda Mənə bənzəri yoxdu. Məhəmməd Mənim Qulum və Rəsulumdu.

O kəs ki Mənim Hökmümdən narazıdı, Sınaqlarıma dözümsüzdü, Rəhmimdən məmnun deyil, ona Bəxş Etdiklərimlə qane olmur, qoy o, ayrı bir allaha – hər bir şeydə Mənə bərabər olanına itaət etsin.

Kim bu dünyanın düyünlü işlərinə qeyzlənir, o Mənə qeyzlənir.

Kim varlı adamın ayağına gedib özünü onun qarşısında alçaldır, o, inamının üçdə iki hissəsini itirmiş olur.

Kim Ölümlə barışmır, əziz adamının ölümünə görə ağlayıb ah-vay edir, o, əlinə nizə alıb Mənimlə savaşa qalxır.

Kim qəbiristanlıqda bitən bircə budağı qırır, o, Mənim Kəbəmin qapısını dağıdır. (qəbiristanlıqda bitən hər bitki "təsbih"[1] qılır, ona toxunmaq günahdır).

Kim dolanışığının, qazandığı pulu hansı yolla əldə etdiyinin (halal, ya haram) fərqinə varmır, o, Cəhənnəmin hansı qapısından içəri ötürüləcəyinin fərqinə varmır.

---

[1] ***Təsbih*** – ibadət

Kim öz şəriətinə uyğun xeyirxah əməllərini artırmır, o kəs zərərə düşür. O kəs ki buna da məhəl qoymur, onun ölməyi yaxşıdı.

Kim öz biliyini əmələ çevirir, Hamıdan Uca Allah ona bilmədiyi elmləri də bəxş edir.

Kim ümidlərlə yaşayır, o kəsin xeyirxahlığı da saxtadı".

**Ey Adəm övladı, aza qane ol!**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı, aza qane ol ki, heç nəyə və heç kimə ehtiyaclı olmayasan. Paxıllıqdan uzaq ol ki, rahat yaşayasan. Yasaq olunmuşlardan üz çevir ki, imanın sahmanlı olsun".

"Ey Adəm övladı, bil ki, kim qeybətdən uzaq olar, ona Mənim Məhəbbətim əyan olar. Kim insanlardan uzaq qaçar, onların dərd-bəlasından uzaq olar. Kim aza qane olar, Hamıdan Uca Allaha arxayın olmuşlardan olar".

"Ey Adəm övladı! Sən bildiklərinə əməl etmirsən. Təsəvvürünə belə gətirə bilmədiyin biliyi (İlahi bilik nəzərdə tutulur) necə əldə etmək istəyirsən?

Sən bu dünyada elə çalışıb-vuruşursan, elə bil sabahkı gün ölən sən olmayacaqsan. Var-dövləti elə yığırsan, elə bil bu dünyada əbədi yaşayacaqsan".

"Ey bu dünyanın olanlar! Sizə tamah salandan qaçın! Sizdən qaçana sarı gedin, sizləri kənardan seyr edənin olun"!

**Ey Adəm övladı! Kim bu dünyanın olana görə qəm çəkər...**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Kim bu dünyanın olana görə qəm çəkər, o, Allahından uzaq düşər; bu dünyada əzab-əziyyət, o dünyada yorğunluq qazanar. Hamıdan Uca Yaradan

onun qəlbinə bitib-başa gəlməyən narahatlıq, doyumsuz ehtiyac, onu rahat yaşamağa qoymayan tükənməz arzular salar”.

“Ey Adəm övladı! Sənin həyatın hər gələn yeni günlə qısalır. Sənsə bunu anlamırsan. Hər yeni gün Mən sənə yaşamağın üçün, dolanışığın üçün imkanlar Yaradıram. Sənsə  Mənə şükür etmirsən, aza qane olmursan, çoxla doymursan.

Sənin elə bir günün yoxdu ki, Mən sənin üçün Qurub Nizamlamayım. Və elə bir gecən yoxdu ki, mələklər Mənə sənin pis əməllərindən xəbər gətirməsinlər.

Sən Mənim sənin üçün Yaratdıqlarımla qidalanırsan, amma imana gəlmirsən.

Sən Məni köməyə çağırırsan. Mən hər dəfə sənə Cavab Verirəm.

Sənə Mənim yaxşılığım, Mənə sənin pis əməllərin çatır.

Sənin nə yaxşı Qəyyumun varmış?!.. Və Mənim nə pis qulum varmış?!..

Sən Mənim sənə onsuz da Verəcəklərimi oğurlayırsan. Mənsə sənin pis əməllərini bir-birinin ardınca örtbasdır edirəm.

Sənə görə Mən Utanıram. Sənsə Məndən utanmırsan. Məni unudub, o birilərini düşünürsən.

Sən insanlardan çəkinirsən, Məndənsə çəkinmirsən.

Sən insanların qəzəbindən qorxursan, Mənim Qəzəbimdən qorxmursan”.

**Ey Adəm övladı! Tövbə edib, günaha batanlardan olma!**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Tövbə edib günaha batanlardan olma! Əlvan ümidlərlə yaşayanlardan, yaxşılıq etmədən

Əbədi Həyat (Axirət) arzulayanlardan, sözdə mömin olub, əməldə riyakar olanlardan olma.

Onlara nə qədər verilərsə, yenə qane olmazlar. Nələrisə az düşsə, o dəqiqə səbrləri tükənər.

Onlar saleh əməllərdən danışarlar, özləri isə yaxşılıq etməzlər.

Onlar pis əməlləri yamanlayarlar, özlərisə pis əməllərdən çəkinməzlər.

Onlar yaxşı insanları sevərlər, özlərisə onlardan olmazlar.

Onlar ikiüzlülərə nifrət edərlər, özlərisə onlardan biri olarlar.

Onlar o mətləblərdən danışarlar ki, özləri ona əməl etməzlər və o işlərə qarışarlar ki, onlara buyrulmayıb.

Onlar verilən sözə əməl edilməsini tələb edərlər. Özləri isə dediklərinə əməl etməzlər".

"Ey Adəm övladı!.. Elə bir gün yoxdu ki, üstü ilə yeridiyin yer, üzünü sənə tutub: "Ey Adəm övladı, indi sən mənim üstümlə gəzirsən, sabahsa səni mənim içimə basdıracaqlar, – deməsin. – Üstümdə səni ehtirasların və nəfsin yeyir, içimdə isə səni əqrəblər, həşəratlar yeyəcək. Axı mən iztirablar, sıxıntılar oyuğuyam?!.. Tənhalıqlar, zülmət qaranlıqlar, sorğu-sual məkanı, ilan, əqrəb yuvasıyam!"

**Ey Adəm övladı! Ey dinarlar və dirhəmlər qulu!**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Ey dinarlar və dirhəmlər qulu! O dinarları və dirhəmləri sizlər üçün Mən Yaratdım ki, Mənim nemətlərimlə qidalanasız, geyinəsiniz ki, bəlkə yadınıza düşəm.

Siz Mənim Kitabımı (Quranı) əlinizə alıb bir kənara qoyursuz (Ona əməl etmirsiz). Dinarları və dirhəmləri əlinizə

alır, onları hər şeydən uca tutursuz. Mənim Evimdən (məsciddən) uca evlər tikirsiz.

Siz yaxşılardan deyilsiz. Siz azad deyilsiz. Siz dünya malının qulusuz. Sizinlə görüş, üstü əhənglə ağardılmış, içi çürüntü və çirkab dolu qəbirlərlə görüşə bənzər.

Siz özünüzü insanlara yaxşı adam kimi təqdim edirsiz. Saxta nitqiniz, gözəl ədalarınızla onların məhəbbətini qazanırsız, sonra onlardan uzaqlaşırsız. Qəlblərinizin qabalığını, ruhunuzun eybəcər hallarını gizlətməkdən ötrü insanlardan qaçırsız".

"Ey Adəm övladı! Gördüyün işi sidq-ürəkdən gör və Məndən istə! Həqiqətən, Mən sənə, sənin istədiyindən artıq Verərəm".

**Ey Adəm övladı! Mən sizləri elə-belə yaratmadım.**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Mən sizləri elə-belə Yaratmadım. Mən Bilənəm. Sizlər barədə hər şeyi Bilirəm. Məndən ötrü nəfsinizə qalib gəlib dözüm göstərməsəniz, Məndə Olan qismətiniz olmayacaq.

Sözümdən çıxıb çəkəcəyiniz iztirablardan, imana gəlib səbrli olmağınız daha yüngüldü. Günahlı əməllərdən çəkinmək, Mənə Cəhənnəm əzabından qurtulmaqdan ötrü yalvarmaqdan asandı".

"Ey Adəm övladı, bil ki, bu dünyada çəkdiyin əzablar O dünyanın əzablarından qat-qat yüngüldü".

"Bil ki, Mənim Seçib Haqq yoluna Yönəltdiklərimdən savayı, hamınız yolunuzu azmışlarsız. Pis əməllərdən Çəkindirdiklərimdən savayı, hamınız pislik yayanlarsız. Çəkinin o əməllərdən! İmana gəlin.

Mən Xahiş Edirəm sizdən. Siz gəlin, sirlərinizi Onun üçün Sirr Olmayana açmayın".

**Ey Adəm övladı! Bax bir, gör ehtiraslar və nəfslər küləyi nə qədər ocaqlar söndürüb?!..**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Bax bir, gör ehtiraslar və nəfslər küləyi nə qədər ocaqlar söndürüb?!.. Şöhrət, şan azarı nə qədər insanı yolundan azdırıb?! Mal-dövlət, var hərisliyi nə qədər varlının ağlını əlindən alıb və kasıblıq nə qədər kasıbı məhv edib?! Nə qədər sağlamı həmin o sağlamlığı öldürüb?! Nə qədər alimi öz biliyi söndürüb?! Nə qədər cahili öz cahilliyi məhv edib"?!

**Ey Adəm övladı! İmanınız saflaşarsa, əməlləriniz də, qanınız və canınız da saflaşar.**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! İmanınız saflaşarsa, əməlləriniz də, qanınız və canınız da saflaşar.

İmanınız yetərsiz olarsa, əməlləriniz də, qanınız və canınız da zəifləyər".

"Ey insan, özünü insanlara işıq vermək naminə odun əvəzinə yandıranlardan olma! Bu dünyaya olan sevgini qəlbindən çıxar.

Həqiqətən Mən Mənə və dünyaya olan sevgini bir qəlbdə yerləşdirmirəm".

"Dünya malına tamahda həddi aşma. O mal çoxdan bölünüb. Tamahkar bədbəxtdi, simic, miskindi. Allahın onlara Rəhmi uzun çəkməz".

"Dünya malına görə rahatsızlıq böyük bəladı. Haqq olan, həyatın sonu – Axirətdi".

"Allahın insana bəxş etdiyi ən böyük müdriklik – tövbədi. Ən dəyərli var – aza qane olmaq, ən doyumlu ərzaq – Allahdan qorxudu".

**Ey Adəm övladı! Yaratdıqlarıma lənət etmə…**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Yaratdıqlarıma lənət etmə, o lənətlər özünə qayıdacaq".

“Ey Adəm övladı! Göylər Mənim Adlarımdan Biri ilə (Hökmümlə) sütunsuz dayanır. Sizlərin qəlbi Mənim Kitabımın minlərlə ibrətindən sahmanlanmır ki, sahmanlanmır”.

“Ey insanlar! Su daşı yumşalda bilmədiyi kimi, Mənim Öyüdlərim sizlərin qəlbini yumşalda bilmir”.

“Ey Adəm övladı! İmana gəlmədən Hamıdan Uca Allahın qulu olduğunuza necə şəhadət verərsiz? Ölümün haqq olduğunu necə təsdiq edirsiz ki, Ona nifrət edirsiz?

Siz bilmədiklərinizdən danışır, bunu xırda və əhəmiyyətsiz hesab edirsiniz və Allah qarşısında böyük günah qazandığınızı bilmirsiz”.

**Ey insanlar! Sizlərə Allahınızdan Quran göndərildi...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey insanlar! Sizlərə Allahınızdan Quran göndərildi ki, inamsızlıqdan zədələnib xəstələnən qəlbləriniz şəfa tapsın”.

“Niyə siz yalnız sizə yaxşılıq edənlərə yaxşılıq edirsiz və yalnız sizlərlə yaxşı davrananlarla yaxşı davranırsınız?

Niyə yalnız sizinlə danışanlarla danışırsız, sizi yedirdənləri yedirdirsiz? Niyə yalnız sizə hörmət edənə hörmət edirsiz? Biriniz ki o birinizdən artıq deyil”?!

“Həqiqətən, möminlər Allaha və Onun Rəsuluna inananlardı. Bu o kəslərdi ki, onlara pislik edənlərə yaxşılıq edər, qohumluq əlaqələrini kəsənlərlə özləri əlaqə yaradarlar. O kəslərdi ki, onları bağışlamayanları, istədiklərini verməyənləri bağışlayar, onlara dönə-dönə yalan satanlara dönə-dönə inanarlar. Onlardan üz çevirənləri dindirər, alçaldanlara hörmət edərlər. Həqiqətən, sizlər barədə məlumatlı olan Mənəm”.

Hamıdan Uca Yaradan Buyurur:

“Ey insanlar! Həqiqətən, bu dünya evsizlərin evi, dilənçilərin səltənətidi”.

“Dünya malını ağılsızlar yığar, ona arif olmayan kəslər sevinər, Allaha tapınmayanlar can atar. Ona biliksiz[1] kəslər tamah salar”.

“Kim ki bu ötəri həyatın müvəqqəti rahatlığına can atar, özünü darısqallığa salar. Bu, öz həyatını unudub, bu dünyanın həyatına aldananlardı. Aşkarda və gizlidə günaha batanlar da onlardı. Həqiqətən, günahkarlar öz əməllərinin cəzasını o biri dünyada çəkəcəklər”.

“Ey Adəmin övladları! Buyurduqlarıma riayət edin! Mənim Qanunlarıma uyğun hərəkət edin! Saleh əməllər sahibi olun ki, o biri dünyada mükafatlandırılasız”.

“Məndə elə bir Sərvət var ki, onu gözlər görməyib, qulaqlar eşitməyib. Elə bir Sərvət ki, insan təxəyyülü Onu dərk etməkdə acizdi. Mənim Xəzinəm azalan, bitib qurtaran deyil”.

**Ey Adəm övladı! Mənə Mənə olan ehtiyacınız qədər can atın.**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Mənə Mənə olan ehtiyacınız qədər can atın.

Məni ömrünüzün uzanmasından, qismətinizə düşən taleyinizdən, günahlarınızın gizli qalmasından narahat olmayana qədər, Cəhənnəm Odunun əzablarına dözə biləcəyiniz qədər eşitməyin”.

“Var olan hər bir şey yoxluğa məhkumdu. Tək bir Ondan savayı.

Son qərarı verən Odu və bütün qayıdışlar Onadı”.

**Siz, ey inananlar! Niyə özünüz əməl etmədiyinizi o birilərə buyurursuz?**

---

***[1] İlahi bilik nəzərdə tutulur.***

Hamıdan Uca Yaradan Buyurur:

“Siz, ey inananlar! Niyə özünüz etmədiklərinizi o birilərə buyurursuz? Siz nə çox danışırsız? Və niyə dediklərinizin əksini edirsiz?!

Siz nə çox qadağalar qoyursuz? Özünüzsə o qadağaları pozursuz? Nə çox əmrlər verirsiz? Özünüzsə onları icra etmirsiz?

Siz nədən yeyə bilmədiklərinizdən bu qədər yığırsız? Tövbələrinizi günü günə, ili ilə dəyişə-dəyişə uzadırsız? Sizlərə borca vaxt veriləcəyinə əminsiz? Yoxsa Ölümə zəmanətinizmi var? Ya Cəhənnəmdən qurtulmağa bəraətiniz var? Ya bəlkə əminsiniz ki, canınızı Cənnətlə xilas edə biləcəksiz? Uca Rəhmlinin sizə Mərhəmətli olacağına razılığını almısız bəlkə?

Rəhm və nemət bolluğu sizləri yoldan azdırıb, özündən bədgüman edib.

Uzun ömür sürəcəyinizə əminliyiniz sizləri aldadır.

Siz artıq sağlam deyilsiz. Günləriniz, alıb-verdiyiniz hər nəfəsiniz çoxdan hesablanıb. İndi siz payınıza düşən vaxtdan istifadə edirsiz”.

“Ey Adəm övladı! Sənin həyatın ana bətnindən çıxan gündən bəri günbəgün, damla-damla axıb yoxa çıxmaqda, sən günbəgün öz qəbrinə yaxınlaşmaqdasan. Pis əməllərindənsə əl çəkmək billmirsən ki, bilmirsən”.

“Ey Adəm övladı! Sənin həyatın balın başına hərlənib, axırda içinə düşən milçəyin uçuşuna bənzər”.

**Ey Adəm övladı! Sənə buyurduğum kimi yaşa!**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Sənə Buyurduğum kimi yaşa! Özünü Yasaq Etdiklərimdən qoru. Onda Mən səni əbədiyaşar Edərəm və sən insanların qəlbində əbədi yaşayarsan.

Əbədi Diri və Ölməz olan – Mənəm. Nəyə “Ol!” deyərəmsə, olar”.

“Ey Adəm övladı! Əgər sənin sözlərin gözəl, əməllərin çirkindirsə, sən ikiüzlülük sultanısan. Əgər zahirin yaraşıqlı, qəlbin çirkindirsə, bil ki, çarəsiz məhv olmuşlardansan”.

“Onlar elə bildilər Allahı aldadırlar. O isə hər şeydən Agahdı. Onlar bilmədilər ki, özləri özlərini aldatdılar”.

“Ey Adəm övladı! Bil ki, Cənnətə yalnız Mənim Qüdrətim qarşısında diz çökən, gününü Məni anmaqda keçirən, nəfsindən və ehtiraslarından Mənə görə çəkinən daxil olacaq”.

“Mən qəribə sığınacaq Verənəm, kasıbı Dolandıran, yetimi Yüksəldənəm. Onlara rəhmli atadan Rəhimli Olan Mənəm.

Dul qadınlarla həssas, qayğıkeş ər olan Mənəm.

Məni çağırana Mən Cavab Verərəm. Məndən istəyənə istədiyindən artıq Verərəm”.

**Ey Adəm övladı! Məndən kimə şikayətlənirsən?**

Hamıdan Uca Yaradan Buyurur:

“Adəm övladı! Məndən kimə şikayətlənirsən ki, Mənə bərabər olanı yoxdu?! Məni nə zamana qədər unudacaqsan? Mən ki bunu səndən tələb eləmirəm”?!

“Nə vaxta qədər siz Məndən imtina edəcəksiz? Mən ki Öz qulumu sıxıntılara Salmıram”?!

“Nə vaxta qədər sən Mənim Rəhmimə şükür etməyəcəksən? Nə vaxta qədər Mənim Kitabıma məhəl qoymayacaqsan? Mən ki səni əziyyətə salmıram”?!

“Nə vaxta qədər Mənə etinasız olacaqsan? Axı sizlərin Məndən savayı, ayrı allahı yoxdu?!

Siz xəstələnəndə sizi Məndən savayı hansı həkim sağaldacaq”?

“Məndən gileylənirsiz, Mənim dəyişilməz Buyruqlarıma qeyzlənirsiz.

Amma sizlərə Rəhm Edib torpaqlarınız üçün bol yağışlar göndərən Mənəm.

Siz deyirsiz, bu yağışları sizlərə hansısa ulduzlar bəxş edir. Amma o yağışları sizlərə Mən, Öz Mərhəmətim müqabilində lazım olan qədərində, zəruri miqdarlarla göndərirəm".

"Birinizin ərzağı üç günlük veriləndə, o kəs "halım pisdi, heç yaxşı deyiləm" deyirsə, o Mənə, Mənim Rəhmimə şükür eləmək istəmir".

"Kim ki öz mülkünə görə zəkat vermir, o, Mənim Kitabıma məhəl qoymur. O kəs ki namazın vaxtının çatdığını bilir və buna vaxt ayırmır, o, həqiqətən, Məni unudub".

**Ey Adəm övladı, döz və tabe ol.**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı, döz və tabe ol. Onda Yüksəldərəm səni.

Mənə minnətdar ol, sənə istədiyindən artıq Bəxş Edərəm.

Məndən üzr dilə, günahından Keçərəm.

Məni çağır, sənə Cavab Verərəm.

Mənə tabe ol, tövbəni Qəbul Edərəm.

Məndən istə, Verərəm.

Sənə əl açıb dilənənlərə əl tut, taleyinə Xeyir-dua Verim.

Qohumluq əlaqələrini qoru, ömrünü Uzadım.

Məndən uzun müddət sağlam olmağı, xilası tənhalıqda tapmağı, başladığın işləri saf niyyətlə yerinə yetirməyi, itaətdə zahidliyi, azla varlı olmağı dilə".

"Ey Adəm övladı! Əgər sən toxsansa, Allaha hansı xidmətin arzusundasan?

Səni kasıblıq qorxudursa, Allahdan necə qorxa bilərsən?

Bu dünyayla yaşayırsansa, Allaha niyə can atırsan?

Simiclik edib kasıblara əl tutmursan, həm də Allahın səndən razı qalmasını istəyirsən?

Dünya malını, tərifləri sevirsən, həm də Cənnəti arzulayırsan.

Biliyin (ilahi bilik) azdı, amma, xoşbəxt olmaq istəyirsən.

Xoşbəxtliyin məkanı o biri dünyadı".

**Ey insanlar! Qənaətcillik ən böyük vardı!**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey insanlar! Qənaətcillik ən böyük vardı! Ən uca möminlik səhvlərdən qorunmaqdı.

Ehtiramdan qüdrətli sevgi, itaətdən güclü dost yoxdu.

Bilikdən (ilahi bilik) üstün itaət, Allah qorxusundan üstün dua yoxdu.

Səbrdən üstün uğur, Allah köməyindən böyük səadət yoxdu.

Ağıldan üstün zinət, həlimlikdən sadiq sirdaş yoxdu".

"Ey Adəm övladı! Mənə tapın. Mən sənin qəlbini zinətləndirərəm. Taleyini xeyir-duamla bəzəyər, bədəninə rahatlıq və dinclik verərəm.

Məni anmaqdan usanma. Məni unutmağa başladıqca, qəlbinə ehtiyac, bədəninə yorğunluq və ağrılar, ruhuna qayğılar və iztirab hakim kəsilər. Bilsən yaşamağına nə qədər qalıb, əlin bütün ümidlərdən üzülər".

"Ey Adəm övladı! Sən Mənə Mənim Sənə Verdiyim sağlamlığınla itaət edirsən.

Mənim Köməyimlə sən, Mənim sənin boynuna Qoyduğum vəzifələri yerinə yetirirsən.

Sən Məni, səndən ötrü Yazdığım Yazıyla eşidirsən. Arzuladığını, Mənim İstəyimlə arzulayır, özün üçün istədiklərini Mənim İstəyimlə istəyirsən.

Mənim Səxavətimlə sən ayağa qalxır, oturursan, çölə çıxır, evinə qayıdırsan.

Sən Mənim Səxavətimlə yaşayırsan, sənə Verdiyim sağlamlıqla bəzənirsən... və Məni unudub, ayrı bir kimsəni düşünürsən”.

**Ey Adəm övladı! Ölüm sənin sirlərini açacaq...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey adəm övladı! Ölüm sənin sirlərini açacaq. Əməllərin Qiyamət günü saf- çürük olunacaq. Səni cəzan ifşa edəcək.

Etdiyin günahların böyük-kiçikliyinə baxma, kimin hökmündən çıxdığını yadına sal.

Sənə verilən sınağın böyük-kiçikliyinə baxma, bax, o sınağı sənə Kim Verib.

Kiçik günahlarını əhəmiyyətsiz bilmə. Onun Hökmündən çıxmaq günahının ölçüsü yoxdu.

Elə bilmə Qəzəbimin təhlükəsindən qurtulmusan. Həqiqətən bu sənə, qara qarışqanın gecənin zülmət qaranlığında qara daşın üzəriylə yeriməsindən daha görünməzdi”.

“Ey Adəm övladı! Mənim Qəzəbimi xatırlasaydın, Hökmümdən çıxmazdın. Sənə yasaq olunanlardan çəkinərdin”.

“Mənə olan borclarını Dediyim kimi yerinə yetirirsən?

Kasıbları sənə Verdiyim varınla ovundurursan?

Sənə pislik edənə yaxşılıq edirsən?

Səni incidəni bağışlayırsan?

Səninlə əlaqəni kəsən qohum-əqrəbanla özün əlaqə yaradırsan?

Səni aldadanla ədalətlə davranırsan?

Qonşularının işinə yarıyırsan?

Alimlərdən din və bu dünyanın həyatı barədə soruşub öyrənirsən?

Həqiqətən, Mən sizlərin zahirinə, gözəlliyinə baxmıram. Sizin qəlblərinizə Nəzər Salıram və bu işlərinizdən Razı Qalıram”.

**Ey Adəm övladı! Özünə və Mənim bütün Yaratdıqlarıma nəzər sal...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Özünə və Mənim bütün Yaratdıqlarıma nəzər sal. Səndən üstünü varsa, onu özünlə tutuşdur. Əgər beləsi yoxdusa və ruhun sənə əzizdisə, tövbə et, özünü saleh əməllərlə şərəfləndir. Allahın Rəhmini, sizlərin “Biz Səni eşidirik və Sənə itaət edirik” deyən zaman səninlə bağladığı Əhdi-peymanı xatırla...”[1]

Siz Allahınızdan, Qiyamət Günündən, həmin o Böyük Dirilmə Günündən, fəlakətlər və bədbəxtliklər Günündən, müddəti “əlli min il olan Gün”dən[2], “...onların öz xeyirlərinə heç nə deyə bilməyəcəkləri, öz müdafiələri üçün, onsuz da, heç nə edə bilməyəcəkləri səbəbində danışmalarına icazə verilməyəcək[3]” Gündən qorxun. Bu, böyük fəlakətlər törənəcəyi, fəryadların göylərə ucalacağı, “üzlərin büzüşüb yığışacağı, alınların dərin qırışlar bağlayacağı” bir Gündü[4]. “Bir insanın o birinə nə əl tuta, nə pislik edə biləcəyi, hökm və qərarın tək bir Uca Yaradanın əlində olacağı Gündü[5]”.

Bu, “dəhşətli zəlzələlər, qorxunc məhkəmələr Günüdü. Dağların lərzəyə gələcəyi, vaxtın sürətlənəcəyi, ağır cəzalar kəsiləcəyi, sonuncu qışqırtının göylərə dağılacağı, körpə uşaqların saçının ağaracağı Böyük Fəlakət Günüdü”.

**Ey iman gətirənlər! Allahınızı tez-tez anın...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey iman gətirənlər! Allahınızı tez-tez anın. Gecə və gündüz Ona şükür edin”.

---

[1] ***Təfsir-ül Cəlaleyn*** **–** (Əl-Məyid surəsi,7-ci ayə)
[2] ***Təfsir-ül Cəlaleyn*** **–** (Əl-Məric surəsi, 4-cü ayə)
[3] ***Təfsir-ül Cəlaleyn*** **–** (Əl-Mursalat surəsi, 35-36-cı ayələr)
[4] ***Təfsir-ül Cəlaleyn*** **–** (Əl-İnsan surəsi, 10-cu ayə)
[5] ***Təfsir-ül Cəlaleyn*** **–** (Əl-İnfitar surəsi, 10-cu ayə)

“Ey Musa ibn İmran! Ey izah edən! Dediklərimi eşit!

Mənimlə – taleləri müəyyən edən (Ali Məhkəmənin Sahibi) Allahla sənin aranda tərcüməçi yoxdu. İnsanları Hamıdan Uca Rəhmlinin Qəzəbinin artdığından, Cəhənnəm Odunun gücləndiyindən xəbərdar et”.

“Ey Adəm övladı! Əgər sən qəlbində qabalıq, bədənində xəstəlik, ruzində kəsir, əmlakında çatışmazlıq hiss etsən, bil: sən, sənə aid olmayanlar barədə danışırsan”.

“Ey Adəm övladı! Sənin dilin həqiqəti söyləməyincə, imanın həqiqi olmaycaq. Sənin dilin Allahından utanmayınca, həqiqəti söyləməyəcək”.

“Ey Adəm övladı! Sən öz eyiblərinə göz yumub, o birilərin eyiblərini qınayırsansa, bil ki, Şeytana qulluq edirsən, Uca Mərhəmətlinin Qəzəbini qazanırsan”.

**Ey Adəm övladı! Həqiqətən, Şeytan sizlərin düşmənidi...**

Hamıdan Uca Yaradan Buyurur:

Ey Adəm övladı! Həqiqətən, Şeytan sizlərin düşmənidi. Onu özünüzə düşmən bilin.

Uca Rəhmlinin qarşısında kütlələrlə dayanacağınız Günü yadınıza salın. Onun qarşısında əməllərinizin hərfbəhərf yazıldığı kitabları oxuya-oxuya, cərgələrlə dayanacağınız, gizlidə və aşkarda elədiklərinizə görə sorğu-suala tutulacağınız Gününüzü yaddan çıxarmayın”.

“Qəlbi Allah qorxusuyla döyünənlərin, Uca Rəhmlinin Hüzuruna toplaşdığı, günahkarlarınsa naxıra ötürülən ilxıtək, kütlələrlə Cəhənnəmə daxil olduğu Günü yadınızdan çıxarmayın[1]”.

“Həqiqətən Mən Allaham. Mənə bənzəri, Qüdrətimə bərabər olanı yoxdu.

Mənə görə oruc tutana Mən Öz Qidamdan verərəm.

---

[1] ***Təfsir-ül Cəlaleyn*** **–** (Əl-İmran surəsi,18-19-cu ayələr)

Gecəsini Mənə xidmətdə keçirənə Öz Keyfiyyətlərimdən Bəxş Edərəm. Yasaq Etdiklərimdən çəkinənləri Öz Cəhənnəmimdən Qoruyaram”.

“Allah – Mənəm. Tanıyın Məni.
Yaradan – Mənəm. Mənə minnətdar olun.
Qoruyan – Mənəm. Mənimlə qorunun.
Xilaskar – Mənəm. Niyə Məndən kömək istəmirsiz?
Mən Bağışlayanam. Niyə Məndən üzr diləmirsiz?
Mən Bəxşkaram, niyə Məndən diləmirsiz?
Mən dualara Layiq Olanam, niyə Mənə dua etmirsiz?
Mən Bilənəm! Özünüzü Məndən gözləyin”.

**Ey Adəm övladı! Allah Öz Əlamətləri ilə Bildirir...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Allah öz əlamətləri ilə Bildirir ki, həqiqətən Ondan savayı, ayrı allah yoxdu. Mələklər də buna şahiddilər, bilik sahibləri də (peyğəmbərlər və digər möminlər) buna əmindilər ki, Hamıdan Uca Yaradan ən ali ədalətlə İdarə Edəndi. Şahidlik edirlər ki, Qüdrətlilər Qüdrətlisi, Müdriklilər Müdriki Allahdan savayı, ayrı allah yoxdu”.

“Saleh əməl sahibi olanı Allah Cənnətlə sevindirər”.

“Kim Allahı həqiqətən dərk edər, Ona tapınar, o, qurtulmuşlardan olar.

Şeytan, Onu dərk edib, tabe olmayana toxuna bilməz.

Haqqı dərk edib, o yolla gedən kəsi heç bir yerdə təhlükə gözləməz.

Kim saxta olanı dərk edər və ondan ehtiyat edər, o qalib gələr.

Kim Şeytanı və bu dünyanın həyatını dərk edər və onların hər ikisindən üz çevirər, xoşbəxtlərdən olar.

Kim Axirət həyatının nə olduğunu dərk edər və daim ona can atar, doğru yolda olanlardan olar.

Allah həqiqətən Doğru Yola sevdiyi bəndəsini yönəldər. Sizlərin hamınızın qayıdışı Onadı".

"Ey Adəm övladı! Allah sənin taleyini Öz Boynuna Götürübsə, nədən nigaransan?

Xərclədiyinin əvəzini sənə Uca Yaradan Verəcəksə, niyə simiclik edirsən?

İblis Hamıdan Uca Yaradana düşməndisə, sənin bu laqeydliyin, etinasızlığın nədi?

Cəhənnəm Odunun cəzası varsa, içindəki bu rahatlıq hardandı?

Allahın mükafatı Cənnətdisə, Onun Hökmündən niyə çıxaq"?

"Hər şey Mənim Yazımla yazılıb. Bu nə narahatlıqdı"?

Bunu sizlərə açdıq ki, tutduğunuz günahlardan çox da qəmə batmayasız. Onun (Allahın) sizlərə olan Mərhəmətinə də çox da arxayın olmayasız. Allah özündənrazıları sevməz[1]".

**Ey Adəm övladı! Azuqəni bol elə! Yol həqiqətən uzundu.**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Azuqəni bol elə. Yol həqiqətən uzundu.

Çalış, gecələri az yat, namaz qıl, dualar oxu. Dərya həqiqətən dərindi (digər nəşrdə": Gəmini dəyiş. Dərya həqiqətən dərindi").

Saleh əməllər sahibi ol. Sirat həqiqətən çox nazikdi.

Gördüyün işlərdə səmimi ol. Baxan həqiqətən hər şeyi Görəndi".

"Bu dünyanın olanlara – ikrah, möminlərə–sevginlə yaxınlaş.

Həqiqətən Allah safqəlblilərin mükafatını Əsirgəməz".

---

[1] **Təfsir-ül Cəlaleyn –** (Əl-Hadid surəsi, 23-cü ayə)

**Ey Adəm övladı! Bu nemətlər Mənim Nemətlərimdi, sənsə Mənim qulumsan...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey Adəm övladı! Bu nemətlər Mənim Nemətlərimdi, sənsə Mənim Qulumsan.

Bil ki, sənə Verdiklərimdən – yeyib, geyib, xərclədiyindən və kasıblara paylamaqla qoruyub saxladığından savayı heç nəyin yoxdu”.

“Mənim Qarşımda sən üç hissədən ibarətsən. Birinci – Mənim olan, ikinci – sənin olan, üçüncü – ikimizin arasında (ümumi) olandı.

Mənim olan – sənin ruhun, sənin olan – əməllərindi. Mənimlə sənin aranda olan – sənin duaların və Mənim o dualara Cavabımdı”.

“Ey Adəm övladı! Allahını tanı. Sənə verilənə qane ol, Məni hiss edəcəksən.

Mənə itaət et, Mənə çatacaqsan.

Məni axtar, tapacaqsan”.

“Ey Adəm övladı! Əgər sən Cəhənnəmə, yolunu azıb düşən hökmdarlardansansa, yaxud Ora Allahın Buyruğundan çıxdığına görə düşən ərəblərdənsənsə, yaxud Ora paxıllığı ucbatından düşən alimlərdənsənsə, insanları aldatdağına görə düşən tacirlərdən, yaxud lovğalığı və ikiüzlülüyü ucbatından, yaxud təkəbbüründən düşən varlılardansansa, yaxud Ora yalançılığı ucbatından düşən kasıblardansansa, onda Cənnəti axtaranlar hanı?”

**Ey iman əhli! Allahdan sidq-ürəklə qorxun...**

Hamıdan Uca Yaradan Buyurur:

“Ey iman əhli! Allahdan sidq-ürəklə qorxun. Onu yada salıb şükür edin. Ona itaət edin. Ölən gününüzdə də Onun Tək və Yeganə olduğuna sidq-ürəkdən inananlar kimi ölün”.

“Ey Adəm övladı! Həqiqətən əmələ keçməyən bilik – yağışı olmayan şimşəyə, göy gurultusuna bənzər.

Biliksiz əməl barsız ağaca, biliyini həyata keçirməyən alim yaysız kamana, əmlakından zəkat verməyən qayalıqda duz əkənə bənzəyər.

Axmaq adama moizə oxumaq ləl-cavahiratı yem əvəzi heyvanın qabağına tökməyə bənzər.

Bilikli insan suda saxlanan daşa bənzər.

Eşitmək istəməyənə moizə oxumaq, qəbiristanlıqda tütək çalmağa bənzər.

Dilənçiyə haram gəlirdən sədəqə verənlər paltarının çirkini öz sidiyi ilə təmizləyənə bənzər.

Zəkatsız namaz ölü bədənə bənzər.

Tövbəyə gəlməyən alim özülsüz binaya bənzər.

Doğrudanmı bu kəslər özlərini Uca Yaradanın Qəzəbindən qorunmuş bilirlər? Yoxsa azanlar və məhvə düçar olanlar elə bunlardı"?

**Ey Adəm övladı! Mənim sənə Münasibətim, sənin bu dünyanın olanlara və Mənə olan münasibətin qədərindədi...**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Mənim sənə Münasibətim, sənin bu dünyanın olanlara və Mənə olan münasibətin qədərindədi.

Həqiqətən Mən, Mənə olan sevgi ilə bu dünyanın olanlara sevgini bir qəlbdə yerləşdirmirəm".

"Ey Adəm övladı! Allahını tanı ki, Məni tanıyasan.

Aclıq et, Məni görəcəksən.

Özünü bütünlüklə Mənə ithaf et, Mənə çatacaqsan.

Gördüyün hər işdə səmimi ol, Mən səni mələklərin yanında yada salaram".

"Ey Adəm övladı! Sənin qəlbində çox şeylər var, tək bir Allahdan savayı. Amma ümidini Allaha bağlayırsan. Nə vaxtacan "Uca Yaradan hamıdan yüksəkdədi" deyib, Ondan yox, o birilərdən qorxacaqsan? Həqiqəti dərk etsəydin, sən

Allahdan savayı heç nə barədə düşünməzdin. Ondan (Allahdan) savayı bir kəsdən çəkinməzdin və sənin dilin Allahı yad etməkdən yorulmazdı.

Həqiqətən günahları saxta peşmanlıqla yuyub aparmaq mümkün deyil. Əgər sən Cəhənnəm Odundan kasıblıqdan qorxantək qorxsaydın, Mən sənə, sənin gözləmədiyin yerdənTale Yazardım.

Əgər sən Cənnəti bu dünyanın olanları arzuladığıntək, arzulasaydın, Mən səni hər iki dünyada xoşbəxt edərdim.

Əgər siz Məni bir-birinizi yada saldığınız qədər yada salsaydız, mələklər gecə-gündüz sizi salamlayardılar.

İbadəti bu dünyanın olanları sevdiyiniz qədər sevsəydiz, Mən sizləri elçilərim qədər qiymətləndirərdim".

"Ey insanlar, qəlblərinizi bu dünyanın olanlarla doyurmayın. Axıra az qalıb".

**Az-az etdiyiniz günahlardan çəkinməkdə səbrli olmaq...**

Hamıdan Uca Yaradan Buyurur:

"Az-az etdiyiniz günahlardan çəkinməkdə səbrli olmaq, Cəhənnəmin bitib-tükənməz iztirablarına dözməkdən asandı. Oranın əzabı həqiqətən qaçılmazdı. Səbr və ibadət isə sənə Əbədi Səadət, dinclik və rahatlıq gətirəcək".

"Ey Adəm övladı! Nə qədər ki sənə o birini Verməmişəm (nə qədər ki dirisən), sənə əmanət Verdiyimdən arxayın ola bilərsən.

Nə qədər ki səndən İmtina Etməmişəm, sən gəl bu dünyanın olanlardan əl çək, qorxunc Qiyamət Gününə alnıaçıq, üzüağ çıxmağına mane olacaqlardan uzaq qaç. Qəlbini Axirət həyatının xatırlamalarıyla bəzə.

Axı həqiqətən sənin qəbir evindən savayı ayrı bir evin yoxdu"!..

“Ey Adəm övladı! Kim ki Cənnəti arzular, saleh əməl sahibi olmağa tələsər.

Kim ki Allahdan qorxar, pis əməllərdən çəkinər.

Kim ki ehtiraslarına qalib gələr, ən yüksək pilləyə (dərəcəyə) çatar”.

“Ey Musa ibn İmran! Əgər bəla səni təmiz olmadığın məqamda yaxalayarsa, buna görə özündən küs”.

“Ey Musa! Ən böyük ölüm – saleh əməllərin azlığıdı”.

“Ey Musa! Kim ki məsləhət istəməz, o kəs peşman olar. Allahından kömək diləyən peşman olmaz”.

**Elədiklərinə görə şöhrət axtaran...**

Hamıdan Uca, Qüdrətli və Böyük Yaradan Buyurur:

“Elədiklərinə görə şöhrət axtaran, suyla dolu kuzəni belinə alıb, dağa dırmanana bənzər. Kürəyində su daşımaqdan yorulsa da, dağa tökülən su dağı yumşaltmadığı kimi, bu adamın tövbələri də Allahı yumşaltmaz”.

“Ey Adəm övladı! Bil ki, Mənə görə sidq-ürəklə elədiklərindən savayı, heç bir əməlin qəbul olunmayacaq. Həqiqətən safqəlbli səmimi insanları böyük səadət gözləyir”.

“Ey Adəm övladı! Qapını kasıblıq döysə, ona:

“Xoş gəlmisən, ey möminlik əlaməti”, – de.

Görsən ki qapını var-dövlət döyür, ona:

“Bu gələn əzablarımı artıran günahlarımdı” – de.

Qapında xoşagəlməz qonaq görsən, ona:

“Mən lənətəgəlmiş Şeytandan Allaha tapınıram”, – de.

“Ey Adəm övladı! Var-dövlət Mənə məxsusdu. Sən – Mənim Qulum, Qonaq – Mənim Rəsulumdu.

Səni Rəhmimdən məhrum edəcəyimdən qorxmursan”?

“Sənin taleyini Mən yazmışam. Mənə minnətdar ol, şükür et ki, faydasını görəsən.

Axı niyə sənə Verdiklərimə görə şükür eləmirsən”?

“Ey Adəm övladı! Sənin boynunda üç vəzifə var:

– əmlakından zəkat verməк;

– qohumlarınla xoş münasibət saxlamaq;

– ailən və qonaqların qarşısında borcunu yerinə yetirmək.

Boynuna düşən bu vəzifələri yerinə yetirməsən, cəzan bütün aləmlərə dərs olacaq”.

“Ey Adəm övladı! Əgər sən qonşuluq borcunu ailə borclarıntək yerinə yetirməsən, sən tərəfə Baxmaram, saleh əməllərin qəbul olunmaz, duaların Cavabsız qalar”.

“Ey Adəm övladı! Özünə bənzərlərə bel bağlama, Məndən məhrum olarsan, özünə bənzərlərin himayəsinə keçərsən”.

“Yaratdıqlarıma üstdən-aşağı baxma. Həqiqətən, sənin özülün bir damla nütfə toxumasından yaradılıb”.

“Yasaq Elədiklərimə baxma. Soxulcanlar ilk əvvəl gözləri yeyər”.

“Bil ki, son ucda sən həmin o baxdıqlarına, meyil salıb bağlandıqlarına hesabat verəcəksən.

Qarşımda dayanacağın sabahkı gününü düşün. Həqiqətən, Mən sənin gizli fikirlərindən, bir anlığa da olsa, Xəbərsiz Qalmıram.

Mən, sizlərin qəlbində olanlardan Agah Olanam”.

**Ey Adəm övladı! Mənə xidmət et...**

Hamıdan Uca Yaradan (O, hamıdan Qüdrətli və Böyükdü!) buyurur:

“Ey Adəm övladı! Mənə xidmət et. Həqiqətən Mən Mənə xidmət edəni Sevərəm və Öz qullarımı ona xidmətə Məhkum Edərəm.

Həqiqətən sən keçmiş həyatında Mənim Buyruğuma nə qədər əməl etdiyindən, gələcək həyatında nələr edəcəyindən bixəbərsən.

Məni unutma. Həqiqətən Mən İstədiyimi Edənəm.

Mənə təzim et. Həqiqətən sən Mənim qulumsan, Mənsə Böyük Allah”.

“Əgər Adəm nəslindən olan dostların və əzizlərin sənin günahlarından zərrə qədər xəbər tutsalar, yaxud Mənim onlar barədə bildiklərimi bilsələr, sənə yaxın gəlməz, səninlə dostluq etməzlər. Günahların günbəgün artırsa, həyatınsa doğulduğun andan bura günbəgün azalırsa, necə olsun?”

“Ey Adəm övladı! Bil ki, gəmisi qəzaya uğrayan, sahilə dalğaların arasıyla üzən bircə şalbanın üstündə qayıdanın halı səninkindən qat-qat yüngüldü. Günahlarının hesabatını ver, hərəkətlərində ehtiyatlı ol”.

“Ey Adəm övladı! Mən sənin rahatlığının, işlərinin qayğısına qalıram. Mənim sənə ehtiyacım yoxdu. Sənsə Məni eşitmirsən”.

“Ey Adəm övladı! Nə vaxta qədər özünü göstərəcəksən?

Sən bir azdan yoxa çıxacaq həyatını qurub-bəzəyir, heç vaxt yox olmayacaq Əbədi Həyatınısa məhvə uğradırsan.

Sən insanların işinə yarımağa çalışırsan, onların səndən narazı qalacağından qorxursan, Mənim Hüzurumda hansı vəziyyətdə olacağındansa xəbərsizsən.

Yer və Göy sakinləri Məndən sənin günahlarının bağışlanmasını diləsələr belə, Qarşımda durarkən, günahlarına görə ağlayacaqsan”.

“Ey İmranın oğlu Musa! Qulaq as, Mən nə Deyirəm. Mən yalnız həqiqəti Deyirəm. Nə qədər ki insanlar bir-birinin pisliyindən, bicliyindən, qeybətindən, təzyiqindən xilas olmayacaq, qullarımdan heç biri Mənə mükəmməl inamla inanmayacaq.

Ey Musa! Sənə nazil olanı de. Sizlərin Allahından Nazil Olan həqiqəti de. Qoy kim istəyirsə, inansın. İstəməyən cahil qalsın”.

**Ey Adəm övladı! Sən iki rəhm arasındasan...**

Hamıdan Uca Yaradan (O Qüdrətli və Böyükdü!) Buyurur:

“Ey Adəm övladı! Sən iki rəhm arasındasan. Sənin üçün bunlardan hansı daha əhəmiyyətlidi: günahlarının insanlardan gizli qalması, yoxsa məmnun, gözəl həyatın? Əgər insanlar Mənim sənin barəndə Bildiklərimi bilsəydilər... Bunlardan daha vacib olanı, sənə verilən sağlamlığın, insanlara ehtiyacsızlığın, onların sənə olan ehtiyaclı olması və sənin onların zərərindən qorunmağındı. Mənə şükür et, sənə verilən nemətlərin dəyərini anla. Gözə kül üfürən əməllərini yığışdır. Aclıqdan qorxan yolçunun (o dünya yolçuluğu) ərzağıyla ehtiyatlan və Mənim Arşınımla Ölçülən əməllər sahibi ol”.

“Ey Adəm övladı! Ölü qəlbləriniz sizin əməllərinizdən ağlayır. Əməlləriniz bədənlərinizdən, bədənləriniz dilinizdən, diliniz gözlərinizdən ağlayır”.

“Ey Adəm övladı! Mənim Xəzinəm bitib-tükənən deyil. O birilərə nə qədər xərcləyəcəksən, sənə bir o qədər veriləcək. Nə qədər simiclik edəcəksən, səndən bir o qədər kəsiləcək.

Simicliyin – ehtiyaclarını ödəməyin barədə səhv qənaətlərin, kasıblıqdan qorxun – Mənə olan inamsızlığındı.

Həqiqətən sənin bu narahatlığını, dolanışıq, qazanc narahatlığını səndə Mən yaratdım.

Dolanışıq narahatlığına düşəndə, ruzini sənə Mən Verirəm.

Sən xərclə, Verdiyimə simiclik etmə. Onu (ruzini) Mənim Qullarım arasında ədalətlə bölüşdür. Sənə ədalətlə xərclədiyinin əvəzini Yetirəcəyimə Söz Verirəm”.

“Kim ki Mənə inanmır, Mənim peyğəmbərlərimə inanmır, Mənim Allahlığıma inanmır.

Mənim Allahlığıma inanmayan kəsi Mən Cəhənnəmə üzüqoyulu Atıram".

**Ey Adəm övladı! Mən Allaham və Məndən başqa allah yoxdu...**

Hamıdan Uca Yaradan Buyurur:

"Ey Adəm övladı! Mən Allaham və Məndən başqa allah yoxdu. Mənə itaət et. Mənə şükür elə, naşükür olma".

"Ey Adəm övladı! Kim ki mənim övliyama[1] düşmən kəsilir, o kəs Mənimlə savaşa girir".

"Mənim Qəzəbimi, Məndən savayı köməyi olmayana zülm edən artırır".

"Kim ki Mənim Verdiyim ruzidən məmnun qalar, onun ruzisi artar, bu dünyanın olanlar, o istəməsə belə, ona can atar".

**Ey Adəm övladı! Əlini ürəyinin üstə qoy…**

Hamıdan Uca Yaradan (O Qüdrətli və Böyükdü!) Buyurur:

"Ey Adəm övladı! Əlini ürəyinin üstə qoy və özünə arzuladığını o birinə də arzula".

"Ey Adəm övladı! Sənin sonun ölümdü. O (ölüm) özünü sənə yetirənədək, Ona işlə".

"Ey Adəm övladı! Mən sənin bədənində qidası olmayan əza yaratmadım".

"Ey Adəm övladı! Səni kor yaratsaydım, sən korluğundan qəm çəkərdin, kar yaratsaydım, karlığından qəmlənərdin. Mənim sənə olan Mərhəmətimin Qüdrətini dərk et, şükür et, naşükür olma. Son dönüşün Mənədi".

"Ey Adəm övladı! Sən gəl özünə əziyyət verib, Mənim sənin üçün Ayırdığımı axtarma. O Özü axtarıb səni tapacaq".

---

[1] ***Övliya*** **–** Allaha yaxın olan

“Ey Adəm övladı! Mənim Adımla yalançı vədlər vermə. Mənim Adımla yalançı vədlər verəni Mən Cəhənnəmə vasil edərəm”.

“Ey Adəm övladı! Sən gəl Məndən sabahkı günün ruzisini tələb eləmə. Mən ki səndən sabah nə edəcəyinin hesabatını Tələb Eləmirəm?!..”

“Ey Adəm övladı! Mən sənin ən xırda yaxşı əməlindən Məmnun Oluram. Sənsə Mənim sənə verdiyim bol nemətlərdən narazısan”.

“Ey Adəm övladı! Əgər Mən bütün dünyanı qullarımdan hansı birinəsə verməli olsaydım, Mən onu Mənim peyğəmbərlərimə verərdim ki, onlar Mənim qullarımı Mənə itaətə və Yazının icrasına çağırsınlar”.

“Ey Adəm övladı! Ölüm özünü sənə yetirənəcən çalış, xeyrinə işləyən əməllər sahibi ol və bil ki, o əməllərin səni yarı yolda qoymayacaq. Həqiqətən, onların nəticəsini sən Axirətində görəcəksən”.

“Ey Adəm övladı! Başını bu dünyanın həyatıyla, günahlarına görə nə vaxtsa tövbə edəcəyinə ümidlərlə qatma. Yoxsa onu (tövbəni), köməyinə gələcək vaxta saxladığına peşman olarsan”.

“Ey Adəm övladı! Onda ki sən Mənim Verdiyimdən ayırıb kənara qoymursan, kasıbları onlara düşən paylarından məhrum edirsən, Mən sənə səndə olanları əlindən alacaq qəddar insan Göndərərəm. Və əlindən alınanların əvəzi sənə verilməz”.

“Ey Adəm övladı! Əgər sən Məndən Rəhm gözləyirsənsə, Mənə səliqəylə itaət et. Cəzamdan qorxursansa, Buyruğumdan çıxmaqdan çəkin”.

“Ey Adəm övladı! Bu dünyanın olanlar barədə düşünəndə, ölümünü yadına sal.

Niyyətin günah olanda, tövbə edəcəyini yadına sal.

Var-dövlət əldə edəndə, Qiyamət Günündə verəcəyin hesabatı yadına sal.

Süfrə arxasında oturanda, acları yadına sal.

Nəfsin səni zəiflər üzərində zora səsləyəndə, Allahın sənin üzərindəki Qüdrətini yadına sal.

O (Allah) istəsə, Onu (Qüdrətini) sənə qarşı yönəldər.

Bəlaya düşəndə Məndən: "Lə hövlə və lə qüvvətə illəh billəhil əliyyül əzim" (Hamıdan Uca Allahın köməyi olmadan, şərdən qorunub, xeyrə tapınmağa gücüm çatmır) sözləriylə yardım dilə.

Xəstələnəndə özünü kasıblara əl tutmaqla sağalt.

Çətinə düşəndə: "İnnə li İlləyhi və innə illəyil rəcciunə" (Biz həqiqətən Allaha məxsusuq və qayıdışımız onadı, – de".

**Ey Adəm övladı! Yaxşılıq et...**

Hamıdan Uca Yaradan (O Qüdrətli və Böyükdü!) Buyurur:

"Ey Adəm övladı! Yaxşılıq et. Həqiqətən Cənnətin açarı və Ora aparan yolun başlanğıcı budu.

Pislik etməkdən çəkin. Həqiqətən Cəhənnəmin açarı və Ora aparan yolun başlanğıcı odu".

"Ey Adəm övladı! Bil ki, tikib-qurduqların bir gün sökülüb dağılacaq. Və sənin həyatın da beləcə, sökülüb dağılacaq.

Sənin bədənin torpağındı. Yığıb topladıqlarınsa vərəsələrinin. Yığıb topladıqlarının ləzzətini o birilər dadacaq. Hesabatı isə, nə qədər ki özünə verməmisən, sən verəcəksən. Yığıb topladıqlarının cəzası da, peşmançılığı da səninlədi.

Bil ki, qəbir evində sənin yeganə dostun – əməllərin olacaq. Nə qədər ki sorğu-suala çəkilməmisən, hesabatı ilk əvvəl özünə ver.

Özünü Mənə tabe olmağa məcbur et. Mənim Buyruğumdan çıxmaqdan çəkin. Mənim sənə Verdiklərimdən razı qal və Mənə şükür edənlərdən ol".

“Ey Adəm övladı! Kim ki günahı gülə-gülə törədər, o, Cəhənnəmə ağlaya-ağlaya daxil olar.

Kim ki Hüzurumda Allah qorxusuyla ağlayar, onu Mən Cənnətə şad-xürrəm Daxil Edərəm.

“Ey Adəm övladı! Sən bir bax: nə qədər dövlətli Qiyamət Günündə kasıblıq arzulayıb?! Və Ölüm nə qədər qəddar hökmdarı diz çökdürüb?!

Nə qədər şirin arzuları Ölüm acı dadızdırıb və bu dünyanın naz-nemətinə şirələnən nə qədər insanı qəm-qüssəyə batırıb?!

Bu dünyanın sonu kədərlə bitən nə qədər həzzləri var”?!

“Ey Adəm övladı! Heyvanlar Ölüm barədə sizlərin bildiyi qədər bilsəydilər, ölənəcən qidadan da, sudan da imtina edərdilər”.

“Ey Adəm övladı! Sənə ölümdən və iztirabdan savayı, ayrı bir şey yazılmasaydı, sən gecələri rahat yatıb, gündüzlər hərəkətdə olmazdın. Bəs o necə olsun ki, daha çətini Ölümdən sonra gəlir?!”

“Ey Adəm övladı! Ölümü əbədi həyatında sənə rahatlıq gətirəcək nemət bil. Qoy qəm-kədərinin səbəbi bu dünyada elədiyin yaxşılıqların azlığı olsun. Sən gəl bu dünyanın olanları qazandığına görə sevinmə, onların (bu dünyanın olanların) əlindən çıxdığına qəm yemə”.

“Ey Adəm övladı! Mən səni torpaqdan Yaratdım. Səni ona da Qaytaracağam. Oradan da Dirildəcəyəm. Bu dünyanın olanlarla xüdahafizləş və Ölümə hazır ol”.

“Bil ki, Mən Öz qulumu Sevərəmsə, onu bu dünyanın olanlardan Uzaqlaşdıraram. O qulumdan Əbədi Həyat üçün İstifadə Edərəm. Ona yer həyatının naqisliklərini Göstərərəm ki, onlardan üz çevirib, Cənnət əhlinin sahib olduğu əməllər sahibi olsun və onu Öz Mərhəmətimlə Cənnətə Daxil Edərəm.

Quluma Qəzəblənsəm, onu Məni unudub bu dünyanın olanlarla əylənməyə Sövq Edərəm. Onu bu dünyanın olanların İstifadəsinə Verərəm. Bil ki, o, Cəhənnəmə vasil olar".

"Ey Adəm övladı! Hər bir həyat, nə qədər uzun olarsa belə, əvvəl-axır bitib başa çatar. Bu dünyanın olanlar kölgəyə bənzər. Onların da ömrü uzun çəkməz. Onlar tezliklə çəkilib gedər və bir daha sənə qayıtmazlar".

"Ey Adəm övladı! Bil ki, səni Yaradan Mənəm.

Ruzini verən Mənəm.

Canını alan Mənəm.

Səni ölülər arasından seçib ayağa qaldıran Mənəm.

Səni sorğu-suala çəkən Mənəm".

"Ey Adəm övladı! Bil ki, sən öz xeyrinə, ya zərərinə nə isə etməkdə acizsən. Nə ölümündə, nə yaşamağında, nə Qiyamət Günündə dirilməyində heç nəyi dəyişə bilməzsən".

"Ey Adəm övladı! Mənə tabe ol. Mənə xidmət et və öz qismətindən nigaran qalma. Mən onu sənə, yetərincə Nəsib Edərəm.

Sən gəl sənə ayrılmış paydan ötrü təşvişə düşmə".

"Ey Adəm övladı! Sən görmədiyin işə görə alınmayan mükafatı qazanmaq istəyəntək, sənə yazılmayanı necə qazanmaq istəyirsən"?

"Ey Adəm övladı! İnsan son ucu Ölüm olan bu dünyanın nəyinə və necə sevinir? Əbədi mənzili qəbir olan insan, bu dünyadakı mənzilinə necə sevinir?"

"Ey Adəm övladı! Sənə şükranlığınla nəsib olan cüzi qismət,  naşükürlüklə qazanacaqlarından xeyirlidi".

"Ey Adəm övladı! Bil ki, səndə olan ən dəyərli var – O dünyaya özündən əvvəl göndərəcəklərindi (əməllər). Ən dəyərsiz var – ölümündən sonra bu dünyada saxlayacaqlarındı (miras). Sən gəl Ölüm səni haqlamamış yaxşılıqlar elə. Bil ki, onları Məndə tapacaqsan".

“Ey Adəm övladı! Narahat olanın rahatsızlığını Aradan Qaldıran Mənəm.

Əfv diləyəni Bağışlayan Mənəm.

Tövbə edəni günahlardan Çəkindirən Mənəm.

Çılpağı Geyindirən Mənəm.

Qorxağı qorxudan Azad Edən Mənəm.

Acı Doyuran Mənəm”.

“Ey Musa! Kim ki kasıbların, yetimlərin əmlakı hesabına varlanar, onu Mən O dünyada əbədi ehtiyac içində Saxlayaram.

Kasıblara, zəiflərə zülm edənin qurub düzəltdiklərini Dağıdıb, Yerlə-Yeksan Edərəm, onu Cəhənnəmə Vasil Edərəm”.

*Bütün bu yazılanlar əvvəlki yazı bükülülərində – İbrahimlə Musanın yazılarında öz təsdiqini tapıb (İbrahim üçün 10 bükülü, Musa üçün “Tövrat”).*



# ƏBU HAMİD QƏZALİNİN KƏLAMLARI

Haqqın Buyruğunu heç olmasa bircə dəfə dərk etməkdən ötrü, qəlbindən və şüurundan imtina et.

* * *

Öz ehtirasına qalib gələ bilsən, Kainat və orda olan bütün aləmlərə sahib ola bilərsən.

* * *

O kəs ki özü öz ağası deyil, o, bitkiyə də ağalıq edə bilməz.

* * *

Sənə aidiyyatı olmayanlar barədə düşünmə və getmədiyin yolla getmə.

* * *

Ehtiras – sənin canında gizlənən ata, qəzəb – itə bənzər. Çalış, onları tarazlıqda saxla. Nə şişirdib hörmətə mindir, nə də alçaldıb məhv et. Çalış, hər ikisi bir bərabərdə qalsınlar.

* * *

Elmin faydası – onun əmələ keçməsindədir. Bunsuz o, yalnız məqsəddi.

* * *

Qəzəb və ehtiras heyvani keyfiyyətlərdir, ağıl və bilik – insan gözəlliyi.

* * *

Şüur Onun (Allahın) Kandarınacan aparır. Səni Ona, Onun Öz Səxavəti çatdıracaq.

* * *

Şüur sarıdan kamil insan tapa bilərsən. Sevgidə kamil olanı tapmaq çətindi.

* * *

Sevginin şüurla heç bir əlaqəsi yoxdu. Onun qaynağı nə xeyir, nə də şərdi.

* * *

Bütün olanlar Onun (Allahın) İxtiyarındadı. Dörd bir tərəf, hər bir şey Onun Özüdü. Amma hamı Onu axtarır.

* * *

Şüa şüaya yönəlsə də, heç bir vaxt Günəşdən uzaqlaşmaz.

* * *

Səmimi insanın biliyi onun qəlbindədi. İkiüzlünün biliyi onun dilindədi.

* * *

Onun (Allahın) Biliyi insanlara xidmət edir, yalnız arif olan kəsləri mükafatlandırır.

* * *

Bu şərab sənin nəyinə gərəkdi? Axı sənin həyatın onsuz da hər an sınıb dağıla biləcək şüşəli yük və axsaq eşşəklə getdiyin buzlu yola bənzəyir...

* * *

Ağcaqanad fildən az yaşayır: qaniçənlərin ömrü uzun olmur.

* * *

Canilər arasında ən ağır günahın sahibi – günahsızı incidəndi.

* * *

Bütün dünya Onun (Allahın) Yaradıcılığının nəticəsidi. Hamının qayıdış yeri və qayıdış səbəbi də Odu.

* * *

Sən şüurundan, ruhundan, bədənindən şəfqət tələb edirsən. Bu şəfqət, əgər Onun (Allahın) tərəfindən sənə buyrulmayıbsa, zorla əldə edəcəyin halda, o (şəfqət) sənə bədbəxtlik gətirəcək.

* * *

Sən, bu dünyada necə dinc ola bilərsən ki, dünya özü öz təbiəti etibarı ilə dincliyin nə olduğunu bilmir?!

* * *

Öz ağlından razı olana, mübahisədən savayı hər şey gülünc görünür.

* * *

Qəlblərə ağılla yol axtarılanda, hər kəs qəlbində olanı deyər.

* * *

Yaradanı şüurla, qəlblə, duyğuyla dərk etməkmi olar? Əgər O Özü Onu qavramaq üçün cığır açmasaydı, şüur Onun barəsində nə bilə bilərdi?

* * *

İnsan Onu (Allahı) özbaşına dərk edə bilməz. Onun (Allahın) mahiyyəti Onun Öz Köməkliyi ilə dərk edilər.

* * *

Ey özünü dərk etməyə qüdrəti çatmayan! Sən Allahı necə dərk edə bilərsən?

* * *

Öz bədəninin yalnız bir hissəsini görməyə qadir olan, Bütöv Olan barədə səhvsiz düşünə bilərmi?

* * *

Kor insan elmə yiyələnə bilmədiyi kimi, ümummövcudluq barədə də bir kimsə nə isə bilə bilməz.

* * *

Yanlış təsəvvürlər hamını öz əsarəti altına aldı və insanlar Allah barəsində heç bir təsəvvürə malik olmadılar. Onun (Allah) barəsində mömin alimlər də heç nə bilə bilmədilər.

* * *

Bütün işlərin açarı Onun (Allahın) əlindədi və bütün işlərin yönümünü Müəyyən Edən Odu. Xeyirin və şərin, bütün olanların və olacaqların səbəbi Odu.

* * *

Təcrübəsiz mövcudluq, mövcud olmamağa bərabərdir. Tərcübə isə əldə etdiyin şüurundu.

* * *

Dünyanın hərəkətini və dəyişkənliyini izah edərkən, şübhələr mənə dinclik vermir. Qəlbdə şübhə varsa, nə barədə və hansı əminliklə danışmaq olar?





## İBN ƏL-ƏRƏBİ – QÜDRƏTLİ ŞEYX

***"Günahlı, naqis adama acıqlı görünə bilərəm,***
***Saf qəlblilər üçünsə, mərhəmətliyəm mən…"***
***Mirzə Xan Ənsari***

Dünya fəlsəfəsinə, müqəddəs sufilik yoluna qədəm qoyduğu andan bu günümüzəcən "Qüdrətli Şeyx" ləqəbini qazanmış böyük sufi İbn Əl-Ərəbi varlığı və bəşəriyyətə miras qoyub getdiyi əsərləri ilə istər müsəlman, istər xristian aləminə ən güclü metafizik təsir göstərənlərdən olub.

İbn Əl-Ərəbi bu günəcən ərəblər arasında ən səxavətli adam hesab edilən Hətim Ət Tayinin nəslindəndir. O, 1164-cü ildə Mürsiyədə doğulan zaman İspaniya artıq 400 ildən çox idi ki, ərəb sülalələrinin hakimiyyəti altında idi. Bəzi tarixi mənbələrdə Ərəbinin "Əndaluz" adlandırılmağının bir səbəbi də, doğulduğu bu yerlərin o dövrlərdəki coğrafi vəziyyəti ilə əlaqədardır.

Cəsarətlə demək olar ki, yaşadığı dövrdə İbn Əl-Ərəbi nəinki İspaniyanın, yaxud Ərəbistanın, ümumiyyətlə, bütün ölkələrin və xalqların tanınmış simaları arasında qüdrətlilərin ən qüdrətlisindən olub.

Bir çox ədəbi məxəzlərə əsasən belə hesab edilir ki, o, dünya poeziyası tarixinə məhəbbət poeziyasının misilsiz nümunələrini bəxş edib. Əsərlərinin daxili gücü və şəxsi həyat nümunəsi ilə ortodoksal ilahiyyatçılara Ərəbi qədər təsir edən ikinci bir sufi olmayıb.

Həyatının otuz ilə yaxın bir müddətini Ərəbi Sevilyada yaşayıb və bu illər ərzində incə poeziyası və gözəl natiqlik qabiliyyəti ilə özünə nəinki İspaniyada, o dövrlər dünya mədəni həyatının mərkəzi sayılan Mərakeşdə də böyük nüfuz qazanıb.

İbn Əl-Ərəbini bütün sufilər sevir. Tarixin bütün mərhələlərində onun hədsiz çox ardıcılları olub və bu gün də var.

Ərəbi kifayət qədər ibrətamiz həyat yaşadı və bununla bərabər, öz varlığı ilə formal cəmiyyətə təhlükə olaraq qaldı.

Bir çox məqamlarda İbn Əl-Ərəbi ilə böyük sufi Əl-Qəzali arasında oxşarlıqlar var. Ərəbi də Əl-Qəzali kimi, sufi ailəsində dünyaya göz açıb. O da Qəzali kimi, seçdiyi həyat yolu ilə Qərb düşüncəsinə təsir göstərməyə çalışıb. O da İslam dininin parlaq bilicisi olub. Lakin Əl-Qəzali sufiliyə, artıq şöhrətinin zirvəsində ikən, ilahiyyat elmi ilə məşğuliyyətləri dövründə, bu elmin onun daxili ehtiyaclarını ödəmək iqtidarında olmadığı səbəbindən müraciət edibsə, İbn Əl-Ərəbi insanlarla, poeziya ilə münasibətlərini bilavasitə sufiliyin əsasında qurub.

Əl-Qəzali sufiliyi İslamla barışdıraraq, sufiliyin küfr yox, etiqadın iç mənası olduğunu sübuta yetirib. İbn Əl-Ərəbinin missiyası isə sufi ədəbiyyatını yaratmaq və bu ədəbiyyatın öyrənilməsinə, tədris edilməsinə insanlarda maraq oyatmaq olub. Ərəbiyə görə bu ədəbiyyat insanlara sufi ruhunun duyulmasında, onların mövcudluğunun, davranışlarının və fəaliyyətlərinin sufi baxışlarıyla izahına köməklik göstərməli idi.

Əl-Qəzali kimi İbn Əl-Ərəbi də, müasirlərindən çox-çox üstün intellektual qabiliyyətlərə malik idi. Lakin bu qabiliyyətlərindən istifadə edib ilahiyyat sferasında özünə yüksək mövqe qazanmaq əvəzinə, Ərəbi də, o biri sufilər kimi belə bir bəyanat verdi: "Əgər insan güclü intellektə malikdisə, o, bu intellektin əsas vəzifəsinin, insanın hansısa ayrı tərəfə keçməsinə ilkin pillə olduğunu dərk etməlidi".

İbn Əl-Ərəbinin bir sıra bəyanatlarının alt mənasının izahı insanda sarsıdıcı təəssüratlar yaradır. "Müdrikliyin səddləri" əsərində o yazır ki, Allahı hər hansı qeyri-maddi sima quruluşunda görmək üçün əziyyət çəkmək lazım deyil:

"Allahı qadında görmək bu görümün ən kamil həddidi".

Ərəbi həmçinin dinə aidiyyatı olan hər bir şeyi hərfi səviyyədə təhlil etməyə öyrəşmiş ilahiyyatçılara müraciət edərək, mələklərin insan xislətli, insanın bədən üzvlərində olan qüvvələr olduğunu birbaşa deyir. Sufiliyin məqsədi isə həmin bu qüvvələrin insan mahiyyətində fəallaşdırılmasından ibarətdi.

İspaniyalı sufi-qadın Fatimə Bin Valiyənin rəhbərliyi altında təhsil alan İbn Əl-Ərəbi, şəksiz ki, sufilərin uzun illər üzərində işləyib mükəmməlləşdirdiyi xüsusi psixoloji hallara çatırdı. Bunu o, dəfələrlə öz əsərlərində də qeyd edir. Bəzi əsərlərinin, məhz həmin trans vəziyyətində yazıldığından, mənasının İbn Əl-Ərəbinin özünə, yalnız əsər üzərində iş başa çatdıqdan bir xeyli sonra açıldığını qeyd edir.

Ərəbinin ilham qaynağı xəyallar idi. Buna baxmayaraq, onun şüuru həmin bu xəyallar aləmində öz sayıqlığını bircə anlığa belə itirmirdi. O, öz unikal sufi qabiliyyətlərinin köməyi ilə intellektinin ən gizli dərinlikləri və tanıdığımız bu dünyanın bütün görünənlərinin mahiyyətini müəyyənləşdirən faktor kimi xarakterizə etdiyi ən ali reallıqları arasında əlaqə yarada bilirdi.

Onun əsərləri, insanların əksər hissəsinə məlum olmayan və çoxları tərəfindən "fövqəltəbii" kimi qəbul olunan həmin o qabiliyyətlərin həyata keçirilməsinin vacibliyini bildirir.

Ərəbi yazır: **"insan öz fikirlərini yuxuda da nəzarəti altında saxlamalıdı. Bu sayıqlığın inkişaf etdirilməsi insana aralıq dünyalarla – fövqəldünyalarla tanış olmaq imkanı yaradacaq və ona misilsiz faydalar gətirəcək. Bu fövqəladə qabiliyyəti qazanmaqdan ötrü isə hər bir kəsin öz üzərində səylə çalışması gərəkdir".**

Bütün sufilər kimi İbn Əl-Ərəbi də Məhəmməd peyğəmbəri kamil insan idealı hesab edirdi. "Mühəmməd" sözünün mənasının dəqiqləşdirilməsi barədə isə o, digərlərindən daha açıq danışır.

Məhəmməd barədə iki rəvayət mövcuddur. Rəvayətlərdən biri Məkkədə və Mədinədə yaşamış insanı nəzərdə tutur, digəri əbədi Məhəmmədi. Ərəbi məhz ikincisi barədə danışır, bu Məhəmmədi bütün peyğəmbərlərlə, həmçinin İsa peyğəmbərlə eyniləşdirir. Digər sufilərə görə də, daxili dünyada müəyyən funksiyaları həyata keçirən Məhəmməd peyğəmbər də, digər peyğəmbərlər də hansısa mənada eyni bir adam olmuşlar. Onlar bu eyniliyi ərəb dilində "Həqiqət əl-Mühəmmədiyə" ("Məhəmməd reallığı") adlandırır və bu adı müxtəlif dövrlərə və zümrələrə aid insanlara da şamil edirlər.

Ərəbinin yaşadığı dövrdə də indiki kimi çox az qisim adam anlayırdı ki, eyni bir hadisə, yaxud fakt eyni zamanda müxtəlif əhəmiyyətlər kəsb edə bilər. Məsələn, ən yaxşı halda, adi insan "gözəl qadının İlahinin sənət əsəri" olduğunu anlaya bilər. Lakin həm də həmin o adam qadın gözəlliyi ilə İlahiyyatın eyni bir şey olduğunu qəbul etmək iqtidarında deyil. Sufi baxışları ilə görünən reallığa əsaslananlar arasında yaranan anlaşılmazlığın mahiyyəti məhz burdan yaranır.

Məhz bunun nəticəsində İbn Əl-Ərəbinin məşhur “Arzular təsnifatı” əsəri zahirən erotik poeziya təsiri bağışlasa da, sufilər bu əsərin o biri üzünü və tərəflərini görürlər.

Əsərlərində ənənəvi terminologiyanı tətbiq etsə də, İbn Əl-Ərəbi həm də onu sübuta yetirirdi ki, görünən nə varsa, həqiqi ola bilər və insan sevgisinin fiziki qüvvəyə malik olduğu üzə çıxar. Lakin əslində həmin bu görünənlərin, əsl reallığın yalnız örtüyü, yaxud bu reallığa əlavə olmaqdan savayı, ayrı bir qüvvəsi yoxdur.

Ərəbiyə görə əsl reallıq məhz həmin o gizli reallıqdır ki, aşkar olanlardan kənarda, onların fövqündədir.

***Mənim qəlbim qəlibdi***
***Ayin-dualar üçün;***
***Kilsədi kahin üçün,***
***Bütpərəst üçün məbəd,***
***Möminlərçin Kəbədi.***
***Quran, İncil vərəqi...***
***Etiqadım – Məhəbbət…***
***Bu nə gözəl səadət?!..***

Romantik təbiətli insanlar böyük Şeyxin bu kiçicik bənddə yer almış “məhəbbət” dediyini məlum məhəbbət kimi, insanın insana olan məhəbbəti kimi qəbul edəcək. Sufilər üçün isə, Ərəbinin dediyi bu məlum məhəbbət – o məhəbbətdi ki, insan onun səddlərini aşıb, o biri üzə keçə bilmir…



# ALLAH AXTARANLARA MƏSLƏHƏT

## MƏKKƏ AÇIQLAMALARI

### *(ƏL-FÜTUHƏT ƏL-MAKİYYƏ)*

Öz biliyini istifadə etməyən arif kəsi görsən, o kəslə mərifətlə dolan, onun biliyindən özün istifadə et ki, əldə etdiyinin müqabilində o kəsə borcunu qaytara biləsən. O səbəbdən ki, bilən odu və qoy o kəsin (bilənin) halı səni yolundan yayındırmasın. Axı öz əməlinə görə onun da Allahın yanında öz pilləsi (dərəcəsi) var!

Bil ki, Qiyamət Günündə hər kəs öz sevdiyi ilə birgə çağırılacaq. Kim yer dünyasında Allahın keyfiyyətlərindən mənimsəyəcək, o kəs Qiyamət günündə Onun (Allah) tərəfindən həmin o mənimsədiyi ilə çağırılacaq və Orada Onda (Allahda) doğulacaq.

Hər hansı bir işi görmək istədikdə, onu Allaha xoş gedəcək şəkildə, Onun (Allahın) sevdiyi kimi gör, o işə ürəklə giriş. Bu işinlə sən özünü Allahın sevgisinə susamış halınla bəzəsən, Allah səni sevər, sevib, sənə Özünü Tanıtmaq Səadətini bəxş edər. Səni Öz Səxavəti ilə – Özünü sənə Büruzə Verməklə Mükafatlandırar və sınaqlarla Ovundurar. Allahınsa sevdikləri kifayət qədərdi və indi mən öz imkanlarım və anlamaq qabiliyyətim müqabilində onlardan bəzilərini sənə öyüd və məsləhət qismində izah edəcəyəm.

Beləliklə, ilk əvvəl çalış, Allahın qarşısında gözəl ol. Allahın qarşısında gözəl olmaq (təcəmmül) öz-özlüyündə

müstəsna, müstəqil bir ibadətdi. Ələlxüsus dualar zamanı. Bu, Hamıdan Ucanın Öz Hökmüdü:

“Ey Adəm övladı! Mənim Qarşımda diz çökərkən gözəl ol”.

Ayrı bir yerdə O (Allah), bəndəsini ittiham edərək deyir:

“De ki, Allahın Öz bəndələri üçün Yaratdığı gözəl (nemətlərə), həyatı üçün Müəyyən Etdiyi təmiz, halal qaydalara kim qadağa qoydu? De: “Burada (Yer dünyasında) bu imkanlar yalnız möminlərə verildi və Qiyamət Günü də yalnız onlara veriləcək. Bilən kəslərə əlamətləri Biz belə İzah Etdik”.

Bu və digər bu kimi izahları sən özün Quranda tapacaqsan.

Allahın gözəlliyi ilə (zinət əl-lah) bu dünyanın gözəlliyi (zinət əl-həyat əd-dünya) arasında bir fərq var: məqsəd (qəsd) və niyyət (niyyə) fərqi. Gözəlliyin özü isə həmindir (əyn əz-zina), ayrı birisi deyil. Və deməli, niyyət hər bir şeyin canıdı.

Odu ki, hər kəsə öz niyyətinə görə verilər.

Deyək ki, (son) axır kimi baxılan (hicr), öz-özlüyündə olduğu kimi, dəyişməz qalır (vahid ət əl-əyn). Kim ki Allaha və Onun rəsuluna can atır, o kəsin yolu məhz Ona (Allaha) aparar. O kəs ki öz (yer) həyatını abadlaşdırmağa meyllənir, istədiyi qadını özünə arvad eləməyə çalışır, o da ayrı bir səmtə yox, məhz həmin o yola yönəlir. Əs-Səhihdə (hədisdə) də bu barədə deyilir. İmama and içdiyinə görə Qiyamət günü Allahın dindirməyəcəyi, günahları bağışlanmayacaq, ağır iztirablara düçar olacaq üç kişi haqqında deyilir. Belə ki, bu üç kişidən biri öz fani arzularına görə imama and içir və yer dünyasına aid tamahları qane olunana qədər andına sadiq qalır. Qane olunmayanda, andını pozur.

Beləliklə, əməllər niyyətlərə görə qiymətləndirilir. Bu, müsəlman etiqadının əsas dayaqlarından biridir. Əs-Səhihdə deyilir ki, bir kəs Allahın rəsuluna (Allah onu şad eləsin!) deyir:

“Ey Allahın rəsulu! Mən möhkəm, yaraşıqlı ayaqqabını və gözəl libası çox sevirəm”.

Onun bu sözünə Allahın rəsulu (Allah onu şad eləsin!) belə cavab verir:

“Allah Özü gözəldi, gözəlliyi də sevər”.

Bu sözlərin mənası budu: Allah, Qarşısında gözəl olana yaxındı.

Məhz bu səbəbdən Uca Yaradan Cəbrayılı onun (Məhəmmədin) yanına Dihyanın simasında göndərdi. Dihya öz dövrünün insanları arasında ən gözəli idi. Deyilənə görə Dihyanın gözəlliyi o qüdrətdə idi ki, hansı şəhərə girirdisə, onu görən boylu qadınlar bətnlərindəki uşaqlarını salırdılar. Dihyanın gözəlliyi məxluqat aləminə belə təsir edirdi.

Cəbrayılı Öz rəsulunun (Allah onu şad eləsin!) yanına, Onda Olandan Agah Etməkdən ötrü göndərən Uca Yaradan bununla sanki:

“Məhəmməd, Mənimlə sənin aranda yalnız gözəl sima dayana bilər”, – dedi. Allahın qarşısında gözəl olmayanın isə (bu barədə demişik), Onun (Allahın) müstəsna sevgisini qazanması mümkün deyil. Allahın xüsusi sevgisini qazanmayan, Onun (Allahın) ona Verdiklərinə sahib ola bilməz: o kəs bilik (ilahi bilik) almaz, üzə çıxmaz, bərəkət və nemət sahibi olmaz, səadət məkanına yetməz, bu dünyada öz davranışı və şahidliyi ilə Ruhun şahidliyinə və mənalar üzrə biliklərə layiq olanlar sırasına qalxmaz. Bütün bunlara o halda sahib olmaq mümkündü ki, bəndənin niyyəti, deyilən kimi, Allahın qarşısında gözəl olmaq olsun. Daha yer dünyasının fənalıq köpüyü – lovğalıq, şan-şöhrət, o birilərin qarşısında öyünmək yox.

Sonra, hər hansı sınağa düşərsənsə, Allaha tapın. Çünki O, Onun Rəsulu (Allah onu şad eləsin!) demişkən, Ona ürəkdən tapınanları sevər. Allah Özü bu barədə belə Buyurur:

“Ölümlə həyatı Yaratdım ki, kimin kim olduğunu Müəyyən Edim”.

Ayrı sözlə, Allah insanı sınaqlara saldıqca, onun mahiyyətini Müəyyənləşdirər: Görsün ki, həqiqətənmi o kəs sözüylə görünməyə çalışdığı kimidi?

“Bu, sənin sınağından savayı, ayrı bir şey deyil: həmin o sınaqla Sən kimi istəyirsən, azdırırsan, kimi istəyirsən, doğru yola yönəldirsən”, yəni ona, həmin o sınaqdan çıxış yolunu göstərirsən.

Bil ki, sınaqların ən çətini, tamahların ən şövqlüsü – qadınlar, var-dövlət, uşaqlar və hakimiyyətdi.

Onda ki Allah Öz bəndələrindən hansı birinəsə bu nemətlərdən birini, yaxud hamısını birdən verər, o bəndə Allahın onu bu nemətlərlə sınadığının səbəbini anlayıb, bunun Allahın Özü tərəfindən ona göndərildiyini dərk edərsə, onlara uymayıb, yalnız Ona (Allaha) üz tutarsa, o halda bu sınaqlar bəndəni Hamıdan Ucaya yaxınlaşdırar. Ucaldıqca o bu nemətlərin, həqiqətən, ona Hamıdan Uca Yaradan tərəfindən göndərildiyini anlayar, anladıqca minnətdarlıq hissləriylə dolub-daşar.

Bu barədə İbn Məcca öz “Əs-Sünnə”sində danışır. O, Allah rəsulunun (Allah onu şad eləsin!) sözlərini misal gətirərək deyir:

“Günlərin bir günü Uca Yaradan Musaya (ruhu şad olsun!) Buyurur:

“Ey Musa! Mənə qarşı həqiqi minnətdarlıqla dol!”

Musa üzünü Yaradana tutub soruşur:

– İlahi! Həqiqi minnətdarlıq nədi?

Onun bu sualına Allah belə Cavab Verir:

“Görsən ki, Mən sənə yalnız nemət Göndərirəm, bil ki, həqiqi minnətdarlıq budu”.

Allah Öz rəsulu Məhəmmədin (Allah onu şad eləsin!) bütün keçmiş və gələcək günahlarını Bağışlayıb, ona:

“... ondan ötrü ki, Allahın sənin keçmiş və gələcək günahlarını bağışlasın” Deyəndə, peyğəmbər yorğunluq, istirahət bilmədən, ayaqları şişənəcən ayaq üstə qalaraq, Hamıdan Ucaya şükranlıq duaları oxuyur. Onun bu halını görüb acıyanların: “Özünə yazığın gəlmir?” sualına Allah rəsulu (Allah onu şad eləsin!) belə cavab verir:

“O qədirbilən mən deyiləmmi?” Axı o, Hamıdan Uca-nın: “Allahına itaət et ki, qədirbilənlər sırasında olasan” Buyruğundan agah idi!..

Və əgər bəndə öz Himayədarına qarşı minnətdarlıq hissi ilə dolmazsa, o, yalnız qədirbilənlərə agah olunan həmin o müstəsna Sevgidən kənarda qalar. Bu barədə Uca Yaradan belə Buyurur:

“Bəndələrimin az qismi qədirbiləndi”. İlahi sevgini qazanmayan bəndə Onun (Allahın) barəsində biliyə də sahib ola bilməz. Allah ona Görünməz, ona Öz Nemətlə-rindən Bəxş Etməz və o kəsə Böyük Sınaq Günündə müs-təsna görüm və mərhəmət əta edilməz.

Axı Allah Sevgisinin hər hansı təzahürü insana xü-susi növ bilik, ruhi dirçəliş, maddi və mənəvi rifah gətirər. Həmin bu səbəbdən də, bu nemətləri qazanan kəs o birilərdən fərqlənər.

Əgər sınaq qadınlarla göndərilərsə, bu halda o kəs Allahına həmin o ehtirasından tapınmalıdı. Qadınları sevərək o anlamalıdı ki, əslində Bütöv Olan öz hissəsini sevir... o hissəyə qarşı incə meyl duyur. Yəni qadınları sevərək, əslində o, özü özünü sevir. O səbəbdən ki, qadın öz yaranışı etibarı ilə ta əzəldən kişidən – onun qabırğasından yaradılıb. Odu ki, qoy o (qadın), həmin o kəs üçün Allahın yaratdığı Kamil İnsan təcəssümü olsun. Əslində də bu (qadın), Allahın, Özünü ona güzgüdə əksi kimi təqdim etdiyidi. Və o halda ki güzgüyə baxan orada özündən olan nəyisə görər, o

kəs də güzgüyə baxınca, orada ilk növbədə ayrı bir şeyi yox, özü özünü görər. Odu ki, qadını bütün varlığıyla, ehtirasla sevən kəs onda (qadında) özünü, öz quruluşunu görər və o bilsin ki, qadında görüb-sevdiyi həmin o quruluş onun özüdü.

Sən isə artıq bilirsən ki, həmin bu quruluş Uca Yaradanın Öz Quruluşudu ki, Onu Özünə uyğun yaradıb.

İndi bil ki, sevən kəs sevdiyi qadında ayrı nə isəni yox, Allahı tapar. Onu (Allahı) bu qadınla hər təmasda, sevgi ehtiraslarında tapar. Belə olan halda, həmin kəs öz məhvini də o qadında tapar və bu iki bənzərlik bir-birində əriyəntək, həmin o qadında əriyər. Məhz o səbəbdən sevən kəs öz məhvini qadında tapar ki, o hər toxuması ilə qadına hopar, bu sevgi cərəyanına bütün varlığı ilə qoşular və bütün varlığı ilə də öz oxşarında məhv olar. Bu hüdudsuz sevgi qaynağında əriyib itər, "ehtirasdan közərən, Mən Özüməm. Şevgi atəşindən külə dönən Mən Özüməm" deyər.

Bu mərhələyə çatan bir qisim isə "Həqq mənəm!" deyər. Beləliklə, əgər sən kimisə belə bir sevgiylə sevərsənsə və əgər Allah sənə həmin o biz deyəni o kəsdə tapmağa İmkan Verərsə, bil ki, O (Allah) səni sevir və bu sınaq səni Haqqa aparacaq.

* * *

Qadınları bir də belə sevmək olar ki, onlar səbr və doğum kanı olduqları səbəbindən, hər nəsildə yeni-yeni məxluqlar və canlılar yaranar. Və şübhə yoxdu ki, dünyanı mövcud olmayan halında götürəndə, Allah bu dünyanın məxluqatını tək bir ona görə sevdi ki, onlar səbrin və dözümün oyuğuna çevrildilər. Onda O (Allah) Öz Hökmünü Verib olanlara "Ol!" dedi və onlar oldular.

Beləliklə, onlardan Onun mülk Şahlığı aşkar oldu. Yaradılan məxluqat Allahın ilahiliyinin qiymətini verdi və budu, Allahın varlığı anlaşıldı. Bu məxluqat Hamıdan Uca Allaha öz anlayışları müqabilində, Ona uyğun gələn bütün

adları ilə, bu adların mahiyyətindən xəbərsiz olsalar belə, sitayiş etdilər.

Səbəbi bu idi ki, Allahın elə bir adı yoxdu ki, bəndə o adda öz zahirinə və daxilinə uyğun olan nə isə tapmasın. Adlar barədə duada da, Allahın rəsulu (Allah onu şad eləsin!) bunu nəzərdə tutur:

" ...o adlar barədə biliyi gizli saxlayıb, mənasını tək bir Özün bildin, ya da olsun ki, bunu Öz məxluqatından kimlərəsə anlatdın".

O bəndələr biliklə də qalanlardan fərqləndilər. İnsanda, onun həm zahiri quruluşunda, həm də halında o qədər sirlər var ki, onlar barədə o özü heç nə bilmir. Allaha isə onda (insanda) olan bütün sirlər məlumdu.

Odu ki, əgər sən qadını biz dediyimiz şəkildə sevsən, ona olan sevgin səni Allaha çatdırar və sən bu sınaqda şəfqət taparsan. Allaha qadına olan sevginlə tapınsan, Onun Sevgisinə toxunmuş olarsan.

Əgər biz görsək ki, kimsə öz sevgisiylə yalnız bir qadına bağlanıb (hərçənd bu deyilənləri istənilən qadında tapmaq olar), bil ki, bu hal həmin bu iki insanın müstəsna ruhi vəziyyəti ilə əlaqədardı. Deməli, onlar belə yaradılıblar, onların hər ikisinin təbiəti və ruhu belədi. Bu cür bağlılıqlar müəyyən müddətə olur; bəzən isə əbədi olur. Daha doğrusu, belə bağlılığa yalnız ölüm son qoyur, bağlılığın özü isə qalır. Peyğəmbərin (Allah onu şad eləsin!) Aişəyə sevgisi də belə bağlılıq idi.

* * *

Məsələ burasındadı ki, insan ruhunda kifayət qədər Allahın sizlərdə görünən olanlardan da, sizlərdən xəbərsiz qəlblərinizin dərinliklərində gizlədilənlərdən də gizlin saxladığı sirlər var: ... yoxsa göylərdə və yerdə gizlin olanı Aşkar Edən, gizlədiklərimizi Görən, tapdıqlarımızdan Agah Olan Allaha itaət etməzdilər".

Allah daim bəndəsinin ruhunda olan, onun özünün xəbərsiz olduğu sirləri Üzə Çıxarar. Həkim öz xəstəliyindən bixəbər olan xəstəyə baxıb onun xəstəliyini görən kimi, Allah da Öz məxluqatının qəlbinin dərinliklərində gizlədilənlərdən məlumatlıdır. Peyğəmbər (Allah onu şad eləsin!) “Özünü tanıyan Allahını tanıyar” deyəndə, bunu nəzərdə tutub.

Lakin hər insan öz qəlbini tanımaz. Hərçənd ki, bu “qəlb” dediyimiz, əslində onun özüdü ki var.

Beləliklə, Allah zaman-zaman insan qəlblərinin gizlinlərini üzə çıxarar. Bunu gördükcə insan öz qəlbi barədə əvvəllər bilmədiklərini anlamağa başlayar. Odu ki, bir çoxları” Möminin qəlbindən ən axırda Ağasına (Allaha) olan sevgisi çıxar” deyirlər.

Həmin bu sevgi qəlbdən çıxan məqam aşkar olar və o kəslər İlahiyyatı sevməyə başlayar. Lakin bu sevgi adi insan sevgisinə bənzəməz. “Onlar Onu (Allahı) o səbəbdən sevər ki, Onu (Allahı), Onun (Allahın) dili ilə desək, öz gözləri və qulaqlarıyla (həmçinin digər imkanları və bədən üzvləri ilə) hiss edərlər”.

Bu halı keçirdikləri səbəbindən, onlar ibadəti də Allaha görə sevərlər. Bu həmin o kəslərdi ki, Allahın dünyadan əvvəl olduğundan, bütün yaradılanların isə Onun qulu olduğundan agahdırlar. Nə aşkarda, nə də qalan bütün mənalarda qulsuz ağa yoxdur.

Ağa Öz qulunu ali sevgi ilə Sevər. O səbəbdən ki, Onun ağalığının dəlili Onun quludu.

Şah üçün şahlıqdan qiymətli olanı yoxdu. O səbəbdən ki, onun şahlığının sübutu – şahlıqdı.

“Ən axırda möminlərin qəlbindən Ağasına olan sevgi çıxar” ifadəsini onlar məhz bu cür anlayarlar. Bu o deməkdi ki, onlar bu sevgini yalnız duyduqdan sonra dərk edərlər. Əks halda bu sevgi onları tərk edər və onlar daha ilahiyyatı sevməzlər. Axı ilahiyyatı sevmədən onu nə anlamaq, nə də

duymaq mümkündü! Allahın yaratdıqlarının məzmunu və mahiyyəti budu. Peyğəmbər (Allah onu şad eləsin!) demişkən:

“Allah Adəmi Öz Simasında Yaratdı”. (Hərçənd bunu müxtəlif cür izah edirlər). Beləliklə, bunu bil və yadında saxla. Hakimiyyət özünü buyruğunun icrasıyla təsdiq edər. Onun (Allahın) Buyruğu qədər tez, deyilən an icra olunanı yoxdu. “O nə İstəyərsə, tək bir “Ol!” Deməyi kifayət edər və o olar” (Quran).

Odu ki, bil: canı və qanıyla Allahın olan bəndənin səlahiyyəti çox böyükdü. O bəndə dəyişmədən, özü olaraq qaldıqca, bunu özü də hiss edər (görər) ki, o həqiqətən Allahın Yer üzündə təcəssümüdü və anlayar ki, bu, misilsiz bir oxşarlıqdı. O bəndə ağadı. Hamıdan Qüdrətli, Böyük Allah isə müstəsna Ağadı. Həm də Həqiqi Yeganədi.

Üçüncü, var-dövlət barədə deyək. Bu ad ona (var-dövlətə) ona görə verilib ki, insanlarda ona təbii meyil var. Allah o səbəbdən bəndələrini var-dövlətlə sınağa çəkməkdə qərarlıdı ki, hər şey məhz onun (varın) vasitəsi ilə aşkarlanar, varlılara qarşı (onlar tamahkar olsalar belə) insanların sevgisini də bu səbəbdən artırar.

İnsanlar varlıya hörmət və ehtiramla yanaşar, onun bu qədər mal-dövləti varsa, heç kəsə ehtiyacı olmadığını düşünərlər. Əslində isə həmin o varlı, olsun ki, qəlbinin dərinliyində sahib olduğu mal-dövlətindən məmnun deyil, insanla ünsiyyətə, bəlkə, o birilərdən daha çox ehtiyaclıdı. O səbəbdən ki, insanların qəlbi bu var-dövlət sahibinə onun varına görə meyllənər, onlar onun yox, onun mal-dövlətinin aşiqinə çevrilərlər.

Arif olan kəslər də Allahı eynilə bu sayaq sevərlər. Sınaq və nəfs də bu məqam aşkar olar, düzgün yolun və həqiqi hakimiyyətin nə olduğu məhz burda üzə çıxar.

Ariflərin diqqəti Allahın imkanlı adamlara müraciətlə "... və Allahın yolunda varından keç" (Quran) Buyruğuna işləyən ilahi məqamlara cəmlənər. Onlar (arif olan kəslər) öz varını da bu səbəbdən sevərlər. Sevərlər ki, deyilən bu İlahi Buyruq onlara da şamil olunsun ki, hər zaman, hər yerdə bu Kəlamın icrasından həzz ala bilsinlər. Məhz arif olan kəslər öz varından o səbəbdən keçərlər ki, dilənən əlin Allahın Əli olduğunu anlayarlar. Allah Verdiyi varı bu yolla qəbul edər və onu (varı) verənlərlə Şərik olar. Bu, böyük şəriklikdi (vüslət əl-münəvəla).

Allah Adəmi o biri yaratdıqlarından üstün tutaraq, onun barədə Buyurur:

"O kəsi ki, Mən Öz Əllərimlə Yaratdım..." (Quran)

Lakin Onun (Allahın) İstəyinə əməl edib, Onu (Allahı) özünə borclu çıxaran Onun (Allahın) Nəzərində, Onun Öz Əlləri ilə Yaratdığından (Adəmdən) üstündü.

Lakin var-dövlət sahibi olmadan da Allahın bu Buyruğuna əməl edib, həmin o ilahi şərikliyi (əttənavü ər-rübbaniyyə) qazanmaq mümkündü.

Beləliklə, Allah ilk əvvəl həmin o kəsləri var-dövlətlə, sonra borcla (sədəqə) ilə Sınağa Çəkər. O Özünü varı, imkanı olan kəslərə əl açıb dilənən ehtiyaclı bəndənin halına Salar:

"Ey Mənim bəndəm! Mən səndən yemək İstədim, sən Məni yedirtmədin. Mən səndən su İstədim, sən Məni içirtmədin (Quran).

Vara, dövlətə olan məhəbbətin mahiyyəti bu məqam anlanar. Və O (Uca Yaradan), arifləri tamahdan keçirib Haqq yoluna Çıxarar.

Övladlar da öz-özlüyündə bir sınaqdı. O səbəbdən ki, oğul atanın sirridi, onun ətindən və qanından olandı.

Övlad valideynə ən yaxın olandı və bu səbəbdən o onu özünü sevdiyi qədər sevər.

Hər şeydən çox isə hər kəs özünü sevər. Bu səbəbdən Allah Öz bəndəsini onun özü ilə – zahirən ona bənzəri ilə (övladı) Sınağa Çəkər ki, Görsün özü özü ilə doyurulan bəndə Allahın ona Buyurduğu borcları və vəzifələri unudacaqmı?

Bax: Allahın rəsulu (Allah onu şad eləsin!), qəlbində əbədi yeri olan qızı Fatimə barədə deyir:

"Əgər Məhəmmədin qızı Fatimə oğurluq edərsə, mən onun əlini kəsərəm".

Ömər bin Əl-Həttab isə öz oğlunu eyş-işrətlə məşğul olduğuna görə qamçıladır. Ürəyi, yalnız oğlu öləndən sonra sakit olur. Maiz və həmin qadın da özlərinə cəza tələb edib, özlərini məhv edirlər. Allahın rəsulu isə (Allah onu şad eləsin!) onlar barədə deyir:

"Onları xalqın arasında bölüşdürsəydilər, tikələri hamıya çatardı".

Bir də, elə bir tövbə varmı ki, insanın öz canını könüllü şəkildə qurban verməsi ilə müqayisəyə gəlsin?

Daha böyük olan isə o kəsdi ki, bütün bu sınaqlara davam gətirib, özünə ən acı, lakin layiqli cəza kəssin.

Allah övladını itirən valideyn barədə belə deyir:

"Mömin bəndəmin yaxınlarından Götürərəmsə, bunun əvəzində ona Cənnət bəxş edilər" (Quran).

İnsan nəslində hamıdan böyük o kəs olacaq ki, bütün bu keçilməz sınaqlardan və şiddətli tamahlardan keçib, onlardan Allaha tapınacaq. O kəsi heç zaman unutma.



# RUMİ CƏLALƏDDİN İBN BAHAUDDİN

***Şeyx. İran sufi şairi, filosofu.***

1207-ci ilin 29 sentyabrında mömin alim ailəsində dünyaya gəlib.

Anadan olduğu yer – Bəlx. Əfqanıstan.

1212 – 20-ci illərdə Nişapurda, Bağdadda, Dəməşqdə, Hələbdə yaşayıb. Mədrəsə təhsili alıb.

1220-ci ildə ailəsi ilə birlikdə Konyaya köçüb. Orada, o dövrlər və sonrakı əsrlər ölkənin ictimayi-siyasi həyatında böyük dəyişikliklər yaradan mövləvi-sufi cəmiyyətini yaradıb. Alim olmağa səy göstərib.

1244-cü ildə böyük sufi Şəmsəddin Təbrizinin təsiri altında dərviş təriqətinə qoşulub. Bir çox qəzəllərini müəllimlərinin imzasıyla ictimailəşdirib. Müəllimlərinin izsiz-soraqsız itməsindən sonra "Divani-Şəms Təbrizi"ni yazıb.

1273-cü ilin 17 dekabr tarixində Türkiyənin Konya şəhərində dünyasını dəyişib.

Bir sıra əsərləri – lirik divanları, sufi-fəlsəfi traktatları, sufizmin əsas qaydalarını özündə əks etdirən "Məsnəvi və mənəvi" poeması, "Divani-Şəms Təbrizi", "Olanların mahiyyəti barədə poema" Rumi tərəfindən yaradılmış mövləvi-sufi ordeni üçün dərslik qaydasında istifadə olunur.

## *Qısa tərcümeyi halı*

Anadan olduğu il: 29 sentyabr 1207.

Anadan olduğu yer: Bəlx şəhəri, İranın şimal-şərqi (indiki Əfqanıstan).

Adı: Cəlal əd-din Məhəmməd Mövləvi Bəlxi Rumi.

Atası: Məhəmməd ibn Hüseyn əl-Xətibi əl-Bəlxi, alimlərin sultanı kimi tanınan Bahauddin Vələd.

Anası: məlumat yoxdur.

Babası: Cəlal əd-din Hüseyn əl-Katibi.

Arvadı: Gövhər Xatun – Sərafəddin Lalının qızı.

## *Müəllimləri*

Mədrəsədə təhsil aldığı dövrlər: Burhanəddin.

Sonrakı illər: Şəms Təbrizi

## *Həyatının mühüm hadisələri*

1212-ci ildə (Rumi 5 yaşında olarkən) ailəsi ilə birlikdə Bəlxi tərk edib Bağdada yollanır.

1215-ci ildə Bağdaddan Məkkəyə və Dəməşqə səyahət edir.

1226-cı il – Rumi Gövhər Xatunla evlənir və həmişəlik İranın şimal-qərbində yerləşən Konyada məskunlaşır.

1244-cü ilin 26 noyabr tarixində Ruminin Şəmslə görüşü baş verir.

1246-cı ilin 14 mart tarixində Şəms Rumidən ayrılır.

## *Əsərləri*

“Divani-Şəms Təbrizi” – Şəms Təbriziyə həsr olunmuş poetik nümunələr külliyyatı, 45.000-dən artıq şeir; fars dilində.

“Kitab əl-Məsnəvi” – 24.660 ikisətirliklərdən ibarət yeddi kitab; Ruminin ən məşhur əsəri; Bir qismi fars dilində, bəziləri ərəb dilində yazılmış şerlərdən ibarətdir. Bu əsəri “fars dilində Quran” adlandırırlar. Rumi bu kitabı 43 ilə yazıb.

“Olan olduğu kimidir”.

“Metafizik mövzularda söhbətlər”.

## *Ölüm tarixi*

16 dekabr 1273-cü il. 66 yaşında. Konya şəhərindəki evində.



## KƏLAMLARI

Elm sözlə anlanar, peşə – təcrübə ilə, tənhalıq – məclislə.

* * *

Adi insana daş görünən, arif kəs üçün mirvaridi.

* * *

Qış ayları yatmıştək görünən quru budaqlar əslində gizli həvəslə yaza hazırlaşır...

* * *

Ta əzəldən kim idin sən? Torpaq mərhələsini başa vurub bitkiyə çevrildin... Bitkidən heyvana, heyvandan insana

çöndün. Bu yolları keçə-keçə hayana üz tutduğunu bilmədən uzun-uzadı səyahətin yolçusu oldun. Qarşıda səni hələ nə qədər səyahətlər gözləyir!..

* * *

Gizli dünyanın bu dünyanın buluduna, yağışına bənzəməyən öz buludları, öz yağışları var. Oraların göyləri də, Günəşi də, gün şüaları da tamam ayrı cürdü... Onları yalnız dünyanın tək bir bu dünya ilə bitmədiyini anlayan kəslər görər...

* * *

Bu dünyanın ali məqsədi insandı. İnsanın ali məqsədi – an. Bədənin məqsədi ruh əldə etməkdi. Ruhun məqsədi hissləri idarə etmək. Hissləri idarə etməyin məqsədi qəlb kamilliyi əldə etməkdi. Qəlbin məqsədi isə sevgidi...

* * *

Ey sufi! Şərabsız məst olan, çörəksiz toxtayan, havalanıb yeməyini, yuxusunu unudan, dilənçi əbası geymiş padşah!.. Xarabalıq xəzinəsi, havadan, torpaqdan olmayan, alovdan, sudan olmayan sahilsiz dəniz... Yüzlərlə aygünəş sahibi!.. Müdrikliyi kitabdan olmayan, Haqdan yoğrulan kamil insan!..

* * *

Sufiyə “mömin” demək olarmı? Yox-yox, o daha ali ucalıqlardadı!.. O, etiqadın və kafirliyin fövqündə olandı. Onun üçün nə saleh əməl, nə günah yoxdu. O gizlidədi, axtarma onu.

* * *

Günəşin mövcudluğuna sübut – Günəşin özüdü. Sübut istəyirsənsə, Ondan üz çevirmə.

* * *

Bu dünya dağlardı, bizim əməllər – çığırtılar... Çığırtımızın əks-sədası daim özümüzə qayıdacaq...

* * *

Dörd bir yanımız, hər bir şey səhər-axşam bizə Allahdan xəbər gətirməkdədi. Bunu hər kəs yox, yalnız bəzi kəslər hiss edər.

* * *

Zamanın dövriyyəsindən çıxmaq lazımdı. Sevgi dövriyyəsinə düşmək gərək...

* * *

Siz səhər-axşam müxtəlif növ, saysız-hesabsız ovqatlara düşür, bu halınızı törədən səbəbləri müəyyən edə bilmirsiz. Bunu bacarsaydız, özünüzü asanlıqla idarə edə bilərdiz. İndi ki halınızı dəyişən səbəbləri müəyyən edə bilmirsiz, bu dünyanı qurub yaradan Möhtəşəm Dəyişikliklər Karxanası barədə nə bilə bilərsiz? Samandan dağ yaratmaq mümkün olmaz. Dünyaya işıq verən Günəş ona yaxınlaşarsa, dünya məhv olar...

* * *

Nə qədər ki bəndə  özünü dərk etməyib, Onunla (Yaradanla) qovuşma baş tutmaz. Onunla qovuşma ona çevrilmək demək deyil, Onda əriyib yoxa çıxmaqdı.

* * *

Əgər bir evə on adam daxil olmaq istəyər, lakin bunlardan yalnız doqquzu daxil olarsa, qalan bir nəfər: “Bu, Allahın yazısıdı”, – deməməlidi, onu qapı arxasında qoyan naqisliyini arayıb-axtarmalıdı.

* * *

Müdriklik və bilik, yolu yolsuzluqdan ayırmaqdan ötrü yaradılıb. Hər tərəf yol olsaydı, müdriklik gərəksiz, artıq bir şey olardı.

Uca Yaradan bizləri ondan ötrü yaradıb ki, Həqiqət bizim vasitəmizlə dərk edilsin. Piyada at-arabayla ayaqlaşa bilməz. Yox, əgər onun ətəyi arabaya ilişərsə, o, istədi-istəmədi yüyrək getməlidi.

* * *

İlkin şərt – münbit mənbədi. Mömin məsləhəti – sonra. Ən parlaq nitq, anlamaq intizarında olmayana nə verəcək?

* * *

Dünyaya məst gözlərlə baxma. İlanı gözəl naxışlar bəzəyir, zəhəri isə öldürür.

* * *

Mən təsdiq edirəm ki, insan qanmazlığı növlərindən ən pisi, ən yaramazı və zərərlisi, bu dünyadan sonra ayrı bir həyatın olmağına inamsızlıqdı. Əslinə baxanda, bütün filosofların, müdrik yazıçıların əsərlərini vərəqləyəndə də görürük ki, onların hamısı eyni bir şeyi deyir: bizlərdə əbədi olan nə isə var.

* * *

Qəlb əhlinin zahiri davranışı onların daxili ilə həmahəngdi.

* * *

Əsaslı bir şey olmasa da, xarici görkəminə fikir ver. Çünki əsl mahiyyətə aparan odu – zahiri görkəm.

* * *

Duyğular və düşüncələr həqiqətə aparan yolu çirkab təmiz suyu bulandırantək bulandırar. Həqiqətin dərki yoluna əngəl olan çirkabı kənara atıb təmizləyə bilən – şüurdu.

* * *

Nə qədər ki sağlam və qüvvətlisən, işlə! Zəhmət və səylər sənin  xəzinə tapmaq səadətinə mane olmayacaq. Odu ki, işindən qalma. Əgər sənə xoşbəxt tale yazılıbsa, o, özü səni tapacaq.

* * *

Var-dövləti olmayan – dilənçidi. İnam yolçusu öz bədənini inkar edəndi.

* * *

Sənin hisslərin yarasaya bənzər. Onlar Qərb tərəfə can atar, sədəf saçan duyğularınsa Şərqə sarı üz tutar.

* * *

Ey atlı, səndə olan o beş hiss uzunqulaqda da var. Ey uzunqulaqlara tay olan, utan! Sənin ki o beş hissindən savayı, qırmızı qızıla çalan ayrı beş hissin də var. Bədən hissləri zülmətlər səltənətinin qidası ilə bəslənər, qəlb hissləri isə günəşlərlə...

* * *

Şübhəsiz ki, insan iki növ hisslər vəhdətindən yaranıb. Bunun ən alçağı bədən hissləri, ən alisi isə qəlb hissləridi.

Uca Yaradan bu iki əks qütblü müxtəlifliyi Öz Ali Qüdrəti ilə birgə yaradıb.

* * *

Biz yerimizi dəyişmədən dayanmışıq, lakin daim hərəkətdəyik. Sənsə bunu görmürsən.

* * *

"Yuxarı", "aşağı", "qabaq", "arxa" bədənə aid olan məfhumlardı. Maarifli qəlb sahibi isə bu anlayışlardan azaddı.

* * *

Bütün dünya qaçır... Hərə bir cür. İnsan qaçışı bu qaçışların bir tərəfidi, bitki yerişi ayrı tərəfi. Bütün bu qaçışlardan tam fərqli olan ruhun qaçışıdı...

* * *

Bu dünya həyatı yuxudu... İnsanı həqiqi dünyadan ayıran, tezcə unudulan yuxu. İnsan həmin bu bir anlıq yuxuda, uzun illər yaşadığı şəhərini unutmuş kimi yaşadığını, bu dünyanın uydurmalarına uyub öz həqiqi vətənini unutduğunu, bu dağıdıcı aləmin onun gözlərini bulud ulduzların üstünü örtəntək örtdüyünü anlamır...

* * *

Ay qardaş, sən qəlbinin gözündə tük ola-ola, bu qəsri necə görə bilərsən? Qəlbinin gözünü tükdən, xəstəlikdən təmizlə ki, çalışıb onu görə biləsən. Qəlbini ehtiraslardan və arzulardan təmizləyən, Onun (Yaradanın) mahiyyətini görəcək (anlayacaq). Məhəmməd Uca Yaradanı məhz bu səbəbdən – bu dünyanın od-alovundan, tüstüsündən təmizləndiyinə görə üz tutduğu hər yanda görürdü...

* * *

Zahirən bədən qəlbdən qüdrətli görünsə də, bədəni aliləşdirib nəcibləşdirən qəlbdi. Bədən ruhun dəryasında

bir damladı. Lakin onun (bədənin) da öz dəyəri var. O da, öz növbəsində, ehtirama və şərəfə layiqdi. O, gizli dünyanın dostudu. Ağac qabıqsız keçinə bilmədiyi kimi, qabıq da ağacsız keçinə bilmir.

* * *

Şüur insana, uçana qanad lazım olan kimi lazımdı. Şüurun yoxdusa, özünə dərrakəli yolgöstərən seç. Sən hər hansı işdə qalib çıxsan da, öz qalibiyyət axtarışlarında mahir olsan da, dərk açarın olmasa, bir qapını aça bilməyəcəksən. O açılmayacaq, özünü boş yerə yorma.

* * *

Hər bir düşmənin sənə dərmandı. O, sənə fayda gətirir: qəlbinə dinclik verir. O səbəbdən ki, ondan qaçıb tənhalığa qapanmağa məcbur olur və Allahın mərhəmətinə tapınırsan.

* * *

Zahirən insan bu dünyanın bir hissəsidi. Lakin məfhumlar baxımından o, onun (bu dünyanın) əsasıdı.

Zahirən insanı bircə ağcaqanad da narahat edə bilir, daxilən isə o, göyləri fəth edir.

* * *

Kainatın yaranmasına altı il sərf edilibsə, insanın yaranması qırx il çəkib...

* * *

Bu dünyada tam pis olan nə isə mövcud deyil. Bil ki, pis olan hər bir şeyin pisliyi nisbidi. Sən elə bir zəhər, yaxud elə bir qənd parçası tapa bilməzsən ki, hamıya zərər, yaxud xeyir gətirsin.

Zəhər ilan üçün həyatdı, insan üçün isə ölüm.

Dəniz canlıları üçün dəniz münbit həyat bağçasıdı, quruda yaşayanlar üçün isə ölüm.

* * *

Təzəni tikmək istəyirsənsə, köhnəni dağıtmalısan; buğda üyüdülməzsə, ondan necə çörək yaparsan?..

* * *

İnsan axar suya bənzər – bulanarsa, dibi görünməz.

Çayın dibi inci-mərcanlarla dolu olar. Ehtiyatlı ol, onu bulandırma.

İnsan ruhu havaya bənzər – tozla qarışarsa, göyün üzünü örtər, Günəşi görünməz edər.

* * *

İnsanlığın ümdə amalı – saflaşmaq, yontalanmaq, saf Günəşin özülünü əks etdirən güzgüyə çevrilməkdi.

Odu ki, insan hər an kamilləşməyə səy göstərməlidi. O şüşədən, yaxud gildən düzəldilən qaba bənzər. Bu qabın üstünü yumaq nə qədər vacibdisə, içini daha mükəmməl yumaq ondan da vacibdi. O səbəbdən ki, İlahi Şərab yalnız təmiz qəlblərə dolar...





# HÜSEYN İBN MƏNSUR HƏLLAC

## DOĞULUŞDAN SUFİLİYƏ QƏDƏR UZANAN ƏFSANƏVİ HƏYAT YOLU

### *Həllacın həyat yolu*

Sufi tarixinin ən parlaq və barışmaz simalarından olan sufi-şair Hüseyn ibn Mənsur əl Həllac 244/858-59-cu illərdə İranın Beyz şəhərində anadan olub.

Hüseynin babası qədim İranda geniş vüsət almış Zərdüştlük təliminin davamçılarından olub.

Atası Mənsur – Allahın Məhəmməd peyğəmbər vasitəsi ilə insanlığa bəxş etdyi yeni, azad və saf dini – İslamı qəbul edib.

Həllacın tədqiqatçıları onun atasının yun və pambıq əyirən (xovlayıcı) olduğunu, bu işlə Bağdad, Bəsrə, Kufə kimi toxuculuq mərkəzlərində məşğul olduğunu bildirirlər.

Həllac hələ erkən yaşlarından ərəb qrammatikasına və ilahiyyatçılıq elminə yiyələnir; Quranı və ona dair şərhləri əzbər bilir. Təhsilini başa vurduqda (16 yaşını haqlayanda) o, biliklərinin kifayət dərəcədə olmadığını, daha

əsaslı və dərin bilik əldə eləməyə ehtiyac duyduğunu anlayır. Həmin dövrlər Həllacın əmisi gənc ilahiyyatçıya azadfikirli, qorxmaz sufi Səhl Tustari barədə danışır.

Səhl bin Abdullah ət-Tustari dövrünün ən yüksək, sufi imam dərəcəsinə çatmış şeyxlərindən idi. Əmisinin dediyinə görə, Səhl – "İslamın Həqiqi Ruhunun şərhçisi idi". Deyilənə görə o, ömrünü qəbul olunmuş vaxtı və qaydaları aşan orucda keçirir, hər gün dörd yüz rükət namaz qılırdı.

Əmisinin bu hekayətlərindən ilhamlanan gənc Həllac Tustara üz tutur. Orada məşhur sufi Səhl bin Abdulla ət Tustarinin xidmətinə qəbul edilir.

Tustar şəhərində keçən iki il ərzində Həllac dini təcrübə ilə məşğul olaraq, Haqqa (Həqiqətə) aparan yolu ruhi kamilləşmə mərhələləri üzrə keçir. İki ilin tamamında isə müəllimini tərk edərək Bəsrəyə köçür və orada, o dövrün məşhur din xadimi Əmrə ibn Osman əl Məkki ilə tanış olur.

Bəsrədə yaşadığı dövrlər Həllac dini təcrübənin son mərhələlərini keçir və Əmrə Həllaca cod kətandan tikilən dərviş libası geyindirib, onu sufiliyə qəbul edir.

Həmin andan Həllac Kamillik Zirvəsi mərhələsinə çatmış nəhəng sufilər cərgəsinə daxil olur.

### *Həllacın dünyagörüşünün formalaşması*

Həllacın dünyagörüşünün necə formalaşdığını anlamaqdan ötrü, mütləq halda onun mənəvi müəllimi Əmrə ibn Osmanın iç dünyasına baş vurmaq gərəkdir.

Əmrə ibn Osman əl Məkki – fars Əl Cünaydın (Əbül-Qasım əl Cünayd), Məhəmməd əl Kəvariri əl Həzzaz əl Bağdadinin şagirdi olmuşdu.

Əl Cünaydın sufi baxışları daimi təmizlənmə və baxış ziddiyyətləri üstə qurulmuşdu. Cünayd hesab edirdi ki, sufi yolu, yəni ruh dərəcələri üzrə kamilliyin əldə edilməsi

– Allahın Yeganə Vahidliyini fasiləsiz səy və çalışmalarla anlamaq, hər məqam, hər bir şeydə əbədi olaraq, Ondan asılı olduğunu, Onun qarşısında heçliyini dərk etməkdi.

Əl Cünayd, sufizmin doktrinasını formalaşdırmışdı. Bu doktrinaya görə "Yeganə mövcudluq – Allahın mövcudluğudu. İnsan, eləcə də bütün qalan yaradılmışlar öz mənşəyini və əzəlini Allahdan götürdüyü kimi, gec-tez öz qaynağına – Ona da qayıtmalıdı ki, öz əvvəlki halına düşsün. Yəni Onda olsun". Bu hala sufi, Allahın Vahidliyi zikri ilə – Ona daim itaətdə olmaqla, təxəyyülündə Onun (Allahın) Adlarını təkrar etməklə, Onun Qarşısında heçliyə çevrilməklə çatır. Bu elə bir haldı ki, sufinin özünün mövcudluğu tamlıqla yoxa çıxır, o, bütün keyfiyyətlərini və xüsusiyyətlərini itirir, hiss və həyəcanı yox olur. Bir sözlə, hər şey Allahda əriyir. Nəticədə bir mövcudsuzluq halı yaranır ki, orada yeganə həqiqi mövcud olan – Allahdır.

Əl Cünaydın "Ayıqlıq təlimi" adlı təliminə görə, Allahın fərdi şəkildə qavranılması – sufini öz nəzarəti və iradəsi altında saxlamağa qadir, kamil varlığa çevirir.

Beləliklə, çox keçmir ki, Əmr ibn Osmanla keçən 18 aydan sonra Həllac onu da tərk etmək qərarına gəlir.

Quranda deyilən: **"Zahidliyi onlar özlərindən uydurdular. Allahın rəğbətini qazanmaqdan ötrü biz bunu onlara yazmadıq"** (57:27) ayəsini rəhbər tutaraq, Həllac tezliklə Bəsrə şəhərinə qayıdır və orada Əmrə Məkkinin qızıyla evlənərək, üç oğul və bir qız atası olursa da, sufi yolundan çəkilmir, müəllimi Əl Cünaydla yazışmalar vasitəsi ilə, ondan öyüd və məsləhətlər almağa davam edir.

892-ci ildə Həllac Həcc ziyarətinə getməyi qərara alır. Həllacın Həcc ziyarətinə getməkdə məqsədi qəlbini gün doğandan, gün batana qədər saxladığı orucla təmizləmək, özünü tamlıqla Allahın İradəsinə təslim etmək dərəcəsinə çatdırmaq idi.

Həllac bu ziyarətdən yeni fikirlər və ideyalardan ilhamlanmış halda qayıdır. Bu ideyaların ən başlıcası – Allahın axtarışlarına həsr edilən sufi yolunun cəmiyyətin mənəvi dirçəlişinə yönəldilməsi və bu istiqamətdə mükəmməlləşdirlilməsi idi.

Həllac ziyarət vaxtı əldə etdiyi mistik kəşflərini – Agah Olunduqlarını Əmrə Məkki və Cünayd kimi sufilərin müzakirəsinə çıxarır. Lakin onlar sərt şəkildə Həllaca qarşı çıxırlar. Bu qarşıdurmanın səbəbi – Məkki ilə Cünaydın baxışlarının Həllacın baxışlarıyla üst-üstə düşməməsi, görüşlər arasında yaranan ziddiyyətlər olur. Belə ki, Məkkiyə və Cünayda görə, sufi yolunun ilkin şərti yer həyatına qarşı laqeydliyə əsaslanmalıdı.

Beləliklə, Həllac yenidən Bəsrəyə qayıtmalı, bir müddət orada müəllimlik fəaliyyəti ilə məşğul olmalı olur. Və qısa müddət ərzində ətrafına çoxlu sayda tələbə və davamçılar toplaya bilir. Getdikcə Həllacın şöhrəti artır və qayınatası Əmrə Məkki ilə aralarında yaranan ziddiyyətlər kəskinləşməyə başlayır.

Əmrə Məkki keçmiş tələbəsindən və sirdaşından üz çevirir. Həllac isə ona son ana qədər sadiq olan arvadı və qaynı ilə birgə Tustara qayıtmalı olur.

Həllacın bu hərəkətindən qəzəblənən Əmrə ibn Osman onu günahlı əməllərdə təqsirli bildiyi məktubla Əhvazın məşhur şeyxlərinə müraciət edir və vəziyyət daha da kəskinləşir.

Nüfuz və hörmət sahibi olan sufi şeyxlər Həllacla bütün münasibətləri kəsərək, onu saxtakarlıqda və riyada günahlandırmağa başlayırlar.

Şeyxlərin bu hərəkətindən sarsılmış Həllac bütün sufilərlə əlaqələri kəsmək qərarına gəlir. Lakin sufilikdə qəbul olunan kimi, üstünlüyü susmağa yox, öz fikirlərini xalqa moizələrlə çatdırmağa verir.

O, kobud keçədən olan dərviş libasını çıxarsa da, "Haqqı dərk edib, Ondan həzz almaqdan ötrü Yola davam etmək gərəkdi" deyərək, öz "Allah axtarışlarına" – zahidliyə davam edir.

899-cu ildə Həllac öz moizələri ilə ölkənin şimal-şərq sərhədlərinə yollanırsa da, sonradan Cənuba istiqamətlənərək, yenidən Əhvaza gəlib çıxır. Beş il sürən bu səfərdə o, müxtəlif ənənələrin dini rəhbərləri ilə tanış olur, öz fikir və ideyalarını Xorasanın müxtəlif şəhərlərində və vilayətlərində təbliğ edir.

Ecazkar moizələrindən ilhamlananlar arasında onu özünə müəllim (mürşid) seçən mürid dəstələri də Həllaca qoşulur.

Həllac moizələrində gizli Kainat sirlərinə, xalqın dilə gətirə bilmədiyi, yalnız qəlbinin dərinliklərində gizlədyi ən mübhəm həqiqətlərə toxunur. İllər ötdükcə onun məşhurluğunun miqyası sürətlə artır. İnsanlar ona: "Həllac əl Əsrar" (Qəlb Sirlərinin Həllacı) ləqəbini verirlər. Beləliklə, Həllac – "Qəlb Sirlərinin Əyirəni"nə çevrilir.

## *Həllac – Qəlb sirlərinin əyirəni*

Həllac Məkkəyə ikinci ziyarətə 400 adamın müşayiəti ilə yollanır. Bağdaddan başlayan bu səfərdə o, öz irfançı ideyalarını şəhərbəşəhər gəzərək, kütləvi şəkildə bəyan edir.

Hüseyn ibn Mənsur Həllac barədə əfsanələrin əksər hissəsi, həmin bu ikinci Həcc səfəri ilə bağlıdır. Bu rəvayətlərdə Həllacın qeyri-adi qabiliyyətlərindən, müridlərinə (şagirdlərinə) keçdiyi təlimlərin üç kənd aralıda, zəmilərdə və əkin sahələrində eşidildiyindən bəhs olunur.

Xalq arasında dildən-dilə gəzən bu rəvayətlərdən Həllacın düşmənləri də yararlanır, bədxahları onu "cinlərlə

əlaqəyə girməkdə, cadugərlikdə və kafirlikdə" günahlandırırlar.

Həllac Tustarı əbədi tərk etməyi, dost münasibətlərində olduğu sufilərin məskunlaşdığı Bağdada köçməyi qərara alır.

O dövrlər Bağdadda məskunlaşmış həmin bu sufilərin arasında nəqşbənd qardaşlığı Şeyxi – Osman Nuri Topbaş, tarixə məşhur "Sufi olmaq – bu dünyaya gələnə qədər olduğun olmaqdı" kəlamıyla daxil olmuş Bağdad Şeyxi Əbu Bəkr əs Şibli kimi möhtərəm şeyxlər də var idi.

Həllacın İslam tarixində bir müstəsna xidməti də, türklərin İslama tapınmasında əsaslı rol oynamasıdı.

Dəniz yolu ilə qərbi Hindistana yollanan Həllac oradan şimala sarı hərəkət edərək, İslamın sərhədi olan Bağdada qayıtmışdı. Bu səfər altı il sürmüş və Həllaca möhtəşəm ad-san və məşhurluq qazandırmışdı. Həllacın ötdüyü yerlərdə Qurana, Məhəmməd peyğəmbərə inananların sayı getdikcə artmaqda idi.

Mənsur Həllacın dərslərinə çox adam qatılırdı – Allaha inananlar da, inanmayanlar da. Rəvayətlərə görə, bu moizələrdə Həllacın odlu-alovlu nitqindən sarsılmış 9000 adam İslamı qəbul etmiş, 60 000 günahlı müsəlman günahını boynuna alaraq tövbə etmiş, 11 adam dünyasını Allah qorxusuyla dəyişibmiş.

Həllacın kəramətini (müqəddəsliyini) sübuta yetirən növbəti məqam – onun dediklərini moizələrdə iştirak edən karların da eşitməsi idi...

İslam şəriəti davamçılarından daha geniş və dərin düşünmək qabiliyyəti əldə etmiş Həllac, səfərdən sonra bir müddət Bağdadda məskunlaşır. Onun tərəfdarları və davamçıları arasında müxtəlif dinlərin və təriqətlərin təmsilçiləri, nüfuzlu möminlər də yer alır.

Əttar Nişapuri öz "Təzkirətül övliya" kitabında müxtəlif dinlərin və təriqətlərin təmsilçiləri olan möminlərin Həllaca yazdıqları məktublar və bu məktublarda Həllaca verilən müxtəlif ləqəblər barədə belə yazırdı: "Ona dünyanın ən ucqar bölgələrindən məktublar yazırdılar. Hindistanlılar onu "Əbül Qeys", Çin əhli – "Əbül Moin", Xorasan əhli – "Əbül mehr", İran əhli –"Əbu Abdallah", Bağdad əhli – "Müstəlam", Bəsrə əhli – "Mühəbbər" adlandırırdı.

290/902-3 tarixində Həllac Məkkəyə üçüncü – son ziyarətini başa vurur. Rəvayətlərə görə, ziyarət boyu oxuduğu moizələrdə o, öz düşmənlərinə – ona şər və böhtan atanlara müraciətlə: "Mənim qəlbimdə olanın bircə zərrəsi bu dağların üzərinə düşsə, dağlar əriyər", – deyir.

Deyilənə görə, həmin o üçüncü ziyarətdə Həllac Ərəfat dağında ayaq saxlayır. Üzünü Allaha tutaraq, bu duanı oxuyur:

"İlahi! Məni bir az da zəiflət, gücsüz elə! Ay Allah! Məni biabır elə ki, insanlar üz çevirsinlər məndən! Ey Uca Yaradan! Qoy insanlar məndən bezsinlər! Dilimdən çıxan hər kəlməm Sənə ünvanlansın ki, özümü səndən savayı bir kimsənin qarşısında borclu bilməyim!"

İki il sürən bu səfər Həllac üçün çoxdan bəri gözlənilən ali məqamla – Haqqın Dərki ilə nəticələnir. O qəfildən ekstatik vəcdlə ali yüksəkliklərə – zirvələrə qalxdığını, "uydurma pərdələrin aralanıb, onu Haqqla üz-üzə qoyduğunu" anlayır. Əsası "fəna" (Allahda ərimə) olan zikrlərin birində Həllac vəcdə gəlib: "Ən əl-Həqq!" (Haqq Mənəm!) – deyə səslənir. Bu sözlər xalq arasında çaxnaşma yaradır, alimləri sarsıdır. Mömin sufi, kafirlikdə və küfr yaymaqda günahlandırılsa da, bu dəfə ağır cəzadan yayınır. Lakin Həllacın "Allahda ərimədə" duyduğu ekstatik hal onda Allahın insanlığa olan sevgisini sübuta yetirmək, özünü bu yolda "qurbanlıq qoyun"a çevirmək arzusunu oyadır. Həllac taleyinə yazılmış

bütün ağrı-əzabı, təkcə hər bir müsəlmanın yox, bütövlükdə insanlığın günahlarına görə çəkməli olduğunu anlayır...

Həllac İsa peyğəmbərin qəhrəmanlığını təkrar etmək qərarına gəlir.

Həllacın Bağdad küçələrində və bazarlarında, məscidlərdə səsləndirdiyi: "Ey müsəlmanlar! Allaha sevgiylə ölən – sufidi! Mənə kömək edin! Məni Onun (Allahın) əlindən alın!  Ay camaat! Allah mənim qanımı sizə halal edib! Məni öldürün ki, mükafat sahibi olasınız, mən də rahatlıq tapım. Mən istəyirəm (özünə işarə ilə) bu lənətəgəlmiş qətlə yetirililsin!" çağırışları eşidilməyə başlayır. Bu heyrətamiz, sarsıdıcı çağırışlar Həllacın üzünü Allaha tutub qəhər içində söylədiyi: "Hamının günahını bağışla, bütün günahlara görə məni cəzalandır", –  sözləri ilə bitirdi.

Əttar Nişapuri Həllac barədə deyir: "Həllaca bəxş olunan nitq parlaqlığı, duyum və düşüncə incəliyi başqa bir kimsəyə verilməmişdi".

Həllac ən məşhur və nüfuzlu insanları da qəlblərini təmizləməyə, ruhlarını saflaşdırmağa çağırırdı. Onun təsirli sözləri insanlarda güclü hisslər – həyatlarını dəyişmək istəyi yaradırdı.

Sosial ədalətsizlik, ölkədə hökm sürən gərgin siyasi vəziyyət sadə xalqla bərabər, hakim elitanın da narazılığına səbəb olurdu. Xəlifəyə qarşı Allahın və İslamın onun üzərinə qoyduğu qayda-qanunlara əməl etmək tələbləri irəli sürülürdü.

Dövlət xadimləri arasında da Həllacın davamçıları var idi.  Əli ibn İsa bu adamlardan biri idi.

Həllac nazirlərin vəzifələri barədə fikirlərini kağıza yazıb, davamçılarından olan dövlət xadimlərinə verirdi. Deyilənə görə, bu adamlardan bir qismi Həllacın siyasətə qoşulmasını istəyir, hətta ona hakimiyyəti öz əlinə almağı təklif edirdilər. Lakin Həllac bütün bu təkliflərdən yayınırdı.

## *Təqiblər və zindan həyatı*

Həllacın xalq arasında da, xəlifənin yaxınları arasında da çoxlu dostları və düşmənləri var idi. Müxalifət liderlərinin çoxu onun tələbələri idi və onlar Həllacın xalqa sirayət etmək bacarığından istifadə etməyə çalışırdılar.

Həllacın tərəfdarları arasında saray adamları da var idi. Onlar onu qoruyur, cəmiyyətin sosial rifahının yüksəldilməsi istiqamətində aparılan islahatlarda onun yardımından istifadə edirdilər.

Beləliklə, ölkədə hakimiyyət uğrunda amansız mübarizələr başlanır və Həllac son məqamda saraya qarşı olan müxalifətin tərəfinə keçir.

296/908-9-cu illərdə Həllac təqib olunmağa başlayır. Bundan duyuq düşdükdə o, Əhvaza qaçır  və üç il orada gizli yaşayır. Onu axır ki Sus şəhəri yaxınlığında ələ keçirirlər, Bağdada gətirib zindana salırlar. Axtarlışlar zamanı Həllacın evindən, əcaib kriptoqramlardan, bütün ehtimallara görə Allahın müxtəlif kalliqrafik adları yazılmış vərəqələrdən savayı heç nə tapılmır.

Rəvayətlərə görə, zindana salındığı birinci gecə ora daxil olan qarovulçular Həllacı orda tapmayıb heyrətə gəlirlər. Həllac yoxa çıxır.

İkinci gecə onlar yenidən zindana gəlirlər və onu orda tapırlar. Lakin bu dəfə yoxa çıxan – zindan olur.

Üçüncü gecə qarovulçular yenidən zindana gəlir  və zindanın da, Həllacın da öz yerində olduğunu görürlər. Həllacdan bu əcaib çevrilmələrin səbəbini soruşanda, o: "Birinci gecə mən Allahın yanında idim. İkinci gecə Allah mənim yanımda idi. Bu günsə burdayam". – deyə cavab verir.

Bir sıra ehtimallara görə Həllac məşhur "Kitab ət-təvasin" əsərini məhbəsdə yazır. Bu kitab "Ta-Sin" adı verilmiş səkkiz fəsildən ibarətdir.

Bütün əsərlərində Həllacın Allahla insan arasında olan qarşılıqlı sevgiyə baş vurmaq cəhdləri duyulur. Həllaca görə bu sevgi yalnız əzablar və iztirablarla gerçəkləşir.

"İnsan Allaha yalnız iztirablara sinə gərdikcə, hətta bu iztirabları arzu etdikcə qovuşacaq".

Cünayddan fərqli olaraq, Həllaca görə iztirabın insanı öz insan xislətinin fövqünə ucaltmaq, onu öz əzəli halına – "əvvəl olduğuna" qaytarmaq gücü yoxdu. O hesab edir ki, iztirabın əhəmiyyəti – onun insana, Allahın və Onun yaratdıqlarının mahiyyətində ehtiras və vəcd dolu sevgi dayandığını anlamağa imkan yaratmasındadı. Həllacın nəzəriyyələrinə görə, bu qarşılıqlı sevginin mükafatı – insanın "mən"inin yoxa çıxması və görüm əldə etməsidi. Məşhur bir şeirində Həllac yazır: "Sevgilimə qəlbimin gözləri ilə nəzər saldım. O: "Sən kimsən?" – deyə soruşdu. Mən: "Sən!" – deyə cavab verdim.

Bu sətir Həllacın "Mən – Allaham!" kimi başa düşülən "Ən əl-Həqq!" ifadəsinə açardır.

Hüseyn ibn Mənsur Həllac doqquz il məhbəs həyatı yaşayır. Bu illər ərzində dəfələrlə onun ölüm hökmü gündəmə gəlir. Rəvayətlərə görə, Mənsurun zindana salınmasına etiraz əlaməti olaraq üsyana qalxmış Bağdad əhli zindanı dövrəyə alıb, Həllacın yatdığı məhbəsin qapılarını dağıdaraq içəri daxil olsalar da, Həllac: "Qaçmaram", – deyib, yerində qalır.

Ömrünün son doqquz ilini zindanda keçirən Həllac orada son ideyalarını kağıza köçürür, "Təsin əl-əzəl" traktatını başa vurur.

Xəlifənin Həllacın yaxın tərəfdarlarından olan müşaviri bu doqquz ili onu müxtəlif sui-qəsdlərdən və işgəncələrdən yayındıraraq, müəyyən müddət qorumağa nail olur.

Həllac doqquz il yatdığı zindan həyatında da iki od arasında – Bəni Abbas sarayı uğrunda amansız mübarizələr aparan dostları və düşmənləri arasında qalır. Bu illər ərzində Bağdadda bir sıra üsyanlar və çevrilişlər baş verir

və nəticədə Həllacın keçmiş düşməni, Xəlifənin baş vəziri Həmid ibn Abbas qalib gəlir. Həmid ibn Abbasın taxta çıxmasından çox ötmür ki, əməlləri və fikirləri ilə möminlik ənənələrinə xələl yetirdiyi, xalq arasında oxuduğu moizələri ilə insanları haqq yolundan azdırdığı üçün, həmçinin sufilər tərəfindən verilən ittihama əsasən, Allah tərəfindən ona etibar edilmiş gizli sirləri aşkarladığı və Allaha qovuşmağın ekstatik yollarını əyani şəkildə insanlara nümuyiş etdirdiyi üçün Mənsur Həllaca ölüm hökmü oxunur.

Qəribə olanı bu idi ki, Həllaca oxunan ölüm hökmü bəzi sufilər tərəfindən müsbət qarşılanır, digərləri isə, sadəcə, susmağa üstünlük verirlər.

Deyilənə görə, Həllaca kəsilən ölüm hökmü oxunandan sonra məşhur sufi Cünayd Bağdadidən: "Mənsurun dediklərinin izahı varmı?" soruşanda, o: "Qoy hələ ki öldürsünlər, izah iki gündən sonra olacaq", – deyə cavab veribmiş.

## *Dar ağacında*

Nəhayət, 309-cu il zilhiccə ayının 24-də Bağdadda Mənsurun ölüm hökmünün icrasına hazırlıq işləri başlanır. Dar ağacı Xorasanın giriş qapıları ağzında qurulur. Yazılanlara görə, Mənsurun edamını yüz min adam müşahidə edir.

Əttar Nişapuri öz "Təzkirətül-övliya" kitabında Həllacın edamını ətraflı təsvir edir.

Bu mənbədə yazılana görə, edam yerinə ağır qandallarla qandallanmış halda gətirilən Həllac, bütün yolu rəqs edib, ucadan vəcd sərxoşluğu barədə dördsətirliklər oxuya-oxuya gedir.

Öldürüldüyü gün o, bütün gecəni dar ağacının altında oturub dua oxumaqda keçirir. Və qeybdən gələn bu sözləri eşidir: "Biz Mənsuru sirlərimizin birindən agah etdik. O, bu sirri o birilərə açdı. Biz onu sirri açdığına görə cəzalandırdıq".

Hüseyni dar ağacına apararkən, yolda bir dərviş ondan soruşur: “Sevgi nədi?”

Mənsur: “Bu gün sən onu görürsən. Sən onu sabah da, o biri gün də görəcəksən”, – deyə cavab verir.

Dar ağacına çatan Həllac:

– Məni öldürün, ey sadiq dostlar! Axı bilirsiz ki, mənim həyatım ölümümdədi?!. – deyir, sonra üzünü edama yığışan camaata tutaraq:

– Baxın!.. Dar ağacında doğulanların mətanətinə tamaşa edin! – səslənir.

Onda  onun qollarını bağlayıb qamçılayır, adamlar onu daş-qalaq edirlər.

Onu daşlayanların arasında Həllacın yaxın sirdaşlarından olan müdrik Əl Şibli də olur. O, dostuna gül atır.

Əl Şiblinin bu hərəkəti Həllacı təhqir edir, o ah çəkib, yaralanmış kimi zarıyır.

Ondan:

– Sənə daş atanda zarımırdın, gül atanda zarıdın. Bunun səbəbi nədi? – soruşanda, o, adamlara işarə ilə:

– Onlar üçün keçərlidi... Mənə əzab verən – mənim kim olduğumu bilən bu dostumdu (Əl Şibli). Gərək o, bunu eləməyəydi. – cavabını verir.

Həllacın qollarını kəsirlər... O gülür. Sonra ayaqlarını baltalayırlar. O gülümsəyir... kəsik qollarını üzünə sürtüb, sifətini, boyun-boğazını al-qana bələyir.

Ondan:

– Niyə belə eləyirsən? – soruşanda, o:

– Qan itirmişəm... saralmışam. İstəmirəm ki, elə bilsinlər bu sarılıq qorxudandı. Üzümü qana boyayıram ki, qarşınızda al sifətdə dayanım, – deyə cavab verir.

Ondan soruşurlar:

– Bəs sinəni niyə qana boyadın?

O:

– Dəstəmaz aldım, – deyə cavab verir.

Ondan:

– Qanla da dəstəmaz alarlar? – soruşanda, o:

– Sevginin iki rükəti var ki, onlara yalnız qanla dəstəmaz alınar, – deyə cavab verir.

Axşam Həllacın başı kəsilir. Başı vurulan an Həllac yenə gülür.

Rəvayətlərə görə, başı vurulandan sonra, Həllacın kəsik bədən əzalarından: "Ən-əl Həqq!" sədaları eşidilməyə başlayır. Bundan vahiməyə düşən Xəlifə onun bütün əzalarını bir yerə yığıb yandırmağı əmr edir.

Hökm icra olunandan sonra Həllacın külündən": Ən-əl Həqq" – deyən pıçıltılar eşidilməyə başlayır.

Həllacın külünü Dəclə çayına atanda, çayın suyu köpüklənib şahə qalxır. Çay qalxarkən Mənsurun qulluqçusu, belə olacağını ölümündən əvvəl bilən Həllacın vəsiyyətinə görə, onun paltarlarını çay kənarına gətirib suya atır və çayın qəzəbi yatır.

Bu hadisədən bir müddət ötəndən sonra Əl Şiblidən edam vaxtı Həllaca gül atmağının səbəbini soruşanda, o:

– Mən kütlədən qorxdum. Hamı daş atırdı. Mən heç nə atmasaydım, onların qəzəbinə tuş gələcəkdim, – deyir. – Ona daş ata bilməzdim. Çünki Hüseynin günahsız olduğunu bilirdim. Heç nə atmamağa da kişiliyim çatmadı. Gül, sadəcə, vəziyyətdən çıxış yolu idi. Hüseynə əzab verib ağladan da bu oldu – mənim ağciyərliyim.

Həllacın edam vaxtı axıtdığı göz yaşları Əl Şiblinin bütün həyatını dəyişir, qalan bütün ömrünü, peşmançılıq və vicdan əzabları içində keçirir. Dilənçi-dərviş libası geyib, göz yaşları və qəlb ağrıları içində 12 il sərgərdan həyatı yaşayır. Ondan bu halının səbəbini soruşanlara:

– Hüseyn ibn Mənsuru mən öldürdüm, – deyir. – Bunu məndən savayı, bir kimsə edə bilməzdi. Onu təkcə mən anlaya, müdafiə edə bilərdim. Mənsə kütlənin fəndinə düşdüm. Ona gül atdım...

Həllacın edamından sonra, kəsik başını şəhərlərdə nümayiş etdirməkdən ötrü Xorasana göndərirlər.

Fərid əd-din Əttar Hüseyn ibn Mənsura bəxş olunan Ali İşıq barədə belə yazır:

"Yazıqlar olsun ki, bu cür böyük müqəddəsi müasirləri anlamadı. Əgər "Ən-əl Həqq" kəlməsi ağacdan gəlsəydi, siz ona baş əyərdiniz. Bu sözləri deyən insanı isə siz ölümə məhkum etdiniz. Siz bilməliydiniz ki, dünyanın bütün böyük müqəddəsləri vəcd halında olarkən, bu sayaq sözləri Allahın adından deyirlər. Onların dili ilə danışan – Allah olur, onların cismləri isə ölüdür".

İslam tarixinin seçilmiş müqəddəsi, böyük sufi Mənsur Həllacın macəralar dolu həyat hekayəti bununla sona yetsə də, İslam mədəniyyəti tarixinə həkk olunmuş adı və əsərləri unudulmur, öz aliliyini, işığını itirmir.

Müxtəlif dövrlərin ilahiyyatçıları və şərhçiləri Həllacın həyatını, əsərlərini və təlimlərini tədqiq etməyə davam edirlər. Onların əksəriyyəti Mənsurun şüur və duyğu nəhəngliyini təsdiq edir, onun təlimləri və nəzəriyyələri əsasında cərəyanlar və məktəblər yaranır.

Həllacın həyatı, xüsusən edam səhnəsi İran ədəbiyyatında təfərrüatlı şəkildə öz əksini tapıb. Onun taleyi XIV əsrin məşhur İran şairi, Hafiz Şirazinin şeirlərində də geniş şəkildə təsvir olunur.

Əttar Nişapuri ona: "Bu, Allah yolunda öldürülən Həllacdı. Beyin və qəlb cəngəlliklərinin Aslanı, cəsur, qorxmaz mömin, fırtınalı Hüseyn Mənsur Həllac dənizində qeyb olmuş həmin Həllacdı" – tərifini verir.

Abbas Tusi Mənsurun ölümü ilə bağlı yazır: “Qiyamət günündə Mənsuru qandallayıb gətirəcəklər ki, vəcdə gəlib dünyanın altını-üstünə çevirməsin”.

Həllacın ölüm sirrini bir vaxtlar həqiqi müsəlman mömin haqqında deyilmiş aşağıdakı sözlərlə ifadə etmək olar: “Müqəddəs o kəsdi ki, bu dünyanın günahlarını və ağrılarını öz üzərinə götürür. Əzablı ölüm bu insanlar üçün İnam Qələbəsidi. Bu adamlar bütün insanlıq üçün “böyük xilas” və təsəlli, bu dünyaya isə, canlı iraddı. Onların varlığı müstəbidləri təhqir edər, ölümləri cəlladları heyrətə gətirər. Belə insanların tonqallarda yandırılması inamın, ümidin və sevginin qələbəsidi”.

Həllac bəşər tarixində – İslamdan gələn “fərdi nəcibliyin ən gizli imkanlarını” əyani şəkildə kütləviləşdirməyə nail olmuş, fərqli Şəhid zirvəsində yaşamaqdadır. O, kamil sevginin insanı hansı dərəcələrə yüksəltdiyini, Yeganə İlahi Eşqə tapınmağın bəşər üçün nə dərəcədə vacib və əhəmiyyətli olduğunu sübuta yetirdi. Və bunu müqəddəsliyin bu və ya başqa pilləsinə yüksəlməkdən ötrü yox, bu gizli ilahi sirri insanlığa bəyan etməkdən, Onun içində yaşamaqdan və Onun naminə ölməkdən ötrü etdi.



# MÜQƏDDƏSLƏR VƏ ONLARIN SÖYLƏDİKLƏRİ

## *İmam Həsən Bəsri*

Bu dünyanı hər kəsin görə bilmədiyi, görümü, tanınması hər kəsə verilməyən, çılpaq qiyafətdə görüb, tanıyıb, ömrünü qorxular və sarsıntılar içində başa vuran müqəddəslərdən biri də sufilik ənənəsinin zahiri – müqəddəs Malik Dinar Həsən Bəsri idi (748-ci ildə vəfat edib). Erkən zahidlik (tərki-dünyalıq) ənənəsinə mənsub olan İmam Həsən, ömrünü Allaha aparan Müqəddəs Yolun cazibəsində yaşadı...

Erkən İslamçılığın müqəddəsi, Sufi məktəbinin yaradıcılarından olan Müqəddəs İmam Həsən Bəsri haqda söylənənlər:

Həsən dünyaya gələndə atası Dinar qul idi.

Lakin köləlikdə doğulmuş Malik Dinar hər iki dünyadan azad idi...

Geniş qəlb sahibi, Bilik və Əməl Kəbəsi, imtina və azsözlülük yolunun aparıcısı, Allahın Qüdrətindən daim qorxu duyub, daim Ona can atan Həsən Bəsri Məhəmməd Peyğəmbərin himayəsində böyümüşdü.

* * *

Həsənin anası Ümm Sələmənin[1] yaxınlarından idi. Deyilənə görə, körpə ikən anasının başı işə qarışdığı zaman Həsən ağlayır. Bu vaxt Ümm Sələmə (Allah Öz Mərhəmətini ondan əsirgəməsin!) uşağı qucağına alır, sakitləşdirməkdən ötrü ona öz döşünü verir. Körpə döşü əmdikcə, döşün giləsindən bir neçə damla süd axır. Deyilənə görə, Allah saysız-hesabsız xeyir-duaları Həsən Bəsriyə Ümm Sələmənin həmin o bir neçə damla südünün ardınca verir.

* * *

Deyilənə görə, uşaqlıq illəri Ümm Sələmənin evində keçən Həsən, peyğəmbərin kuzəsindən bir qurtum su içibmiş.

Bunu bilən peyğəmbər:

– İçdiyi suyu ona halal elədim, – deyibmiş.

Sonralar İmam Həsən:

– Məndə olan bilik peyğəmbərin içdiyi suyla qazanılıb, – deyirmiş.

* * *

Deyilənə görə, Həsən uşaq vaxtı hər hansı bir günah iş tutanda, elədiyini tikişlə təzə köynəyinin yaxasına tikdirərmiş və hər gün oxuyub, ürəyi gedənəcən ağlayarmış...

* * *

İmam Həsən həftədə bir dəfə moizə oxuyurdu. Moizə zamanı adamların arasında Rəbiyyəni[2] görməyəndə, sözünü yarımçıq kəsib minbərdən enir, evinə yollanırdı.

---

[1] ***Ümm Sələmə*** – Məhəmməd peyğəmbərin arvadlarından biri
[2] ***Rəbiyyə*** – Rəbiyyə əl-Ədəviyyə; tanınmış sufi moizəçi

Günlərin bir günü onun bu hərəkətindən qeyzlənən camaat Həsəndən soruşub:

– Ay Hacı, niyə bu boyda camaatı, bu qədər adamı, hacıları bir başı çadralı qoca qarıya görə pərt eləyirsən?

İmam Həsən:

– Mən fil üçün düzəldilmiş şərbəti qarışqaların qarnına tökə bilmərəm, – deyə cavab verib.

* * *

Deyilənə görə, insanlar İmam Həsənin ehtiraslı, məstedici moizələrindən vəcdə gəldiyi məqamlar o, üzünü Rəbiyyəyə tutaraq:

– Ey bakirə qız! Bütün bu dediklərim sənin közərmiş qəlbinin kömürləridi! Ey seyyida! Bütün bu alov, bu qızmar yanğın, sənin qəlbinin bircə kömürcüyünün istisindəndi!.. – deyirmiş.

* * *

Yığıncaqlardan birində bir nəfər ayağa qalxıb:

– Bu Həsənin nəyi bizdən artıqdı axı? – deyəndə, orada iştirak edən bir müdrik:

– Onun bizlərdən üstünlüyü – bu dünyada hamının onun biliyinə ehtiyaclı olması, onunsa heç kimə ehtiyaclı olmamasıdı. Bütün möminlərin onun sözünə ehtiyacı var. O isə bu dünyada hamıdan azaddı. Bununla da bizlərdən ucadadı.

* * *

İmam Həsəndən soruşublar:

– Müsəlmanlıq nədi və müsəlmanlar kimdi?

O deyib:

– Müsəlmanlıq kitablarda, müsəlmanlarsa, qəbirlərdədi.

* * *

İmam Həsəndən soruşublar:

– Dinin əsası nədi?

O deyib:

– Qənaətcillik.

Soruşublar:

– Onu məhv edən nədi?

İmam Həsən:

– Tamah, – deyə cavab verib.

* * *

İmam Həsəndən soruşublar:

– Şeyx, bizim qəlblərimiz sanki yuxudadı. Sənin sözlərin də onları oyada bilmir. İndi biz nə edək?

O cavab verib:

– Yatsaydı, nə vardı ki? Yatana toxunanda, o oyanır. Sizin qəlbləriniz ölüdü, nə qədər tərpətsən də, oyanmazlar.

* * *

İmam Həsən deyib:

– Mən, məni içkiyə çağıranı, bu dünyanın işlərinə çağırandan üstün tuturam.

* * *

Deyilənə görə, Mürtəza [1] (Allah onu şad eləsin!) Bəsrəyə təşrif buyurub, şəhərin işləri ilə tanış olmağa başlayır. Üç gün keçməmiş minbərləri sökdürməyi əmr edir, namaz qılmağı qadağan edir.

[1] ***Mürtəza –*** “Seçilmiş” deməkdir; Xəlifə Əlinin titullarından biridir.

Həmin günlərin birində təsadüfən o, İmam Həsən Bəsrinin moizəsində iştirak edir. Onu axıra qədər dinlədikdən sonra:

– Sən tələbəsən, yoxsa müəllim? – deyə ondan soruşur.

İmam Həsən:

– Nə oyam, nə də bu. Mən, peyğəmbərin dediklərindən agah olan bir kəsəm. Onun dediklərini təkrar edirəm,– deyə cavab verir.

Mürtəza:

– Allah ona rəhmət eləsin. Bu cavan söz deməyə layiqdi,– deyib, Həsənin çıxışlarına qadağanı götürür və məclisi tərk edir.

O gedəndən sonra Həsən bu adamın kim olduğundan duyuq düşür, minbərdən yerə enib, onun ardınca qaçaraq, Mürtəzanı haqlayıb qarşısında diz çökür, ətəyinə toxunub:

– Allah xatirinə, mənə dəstəmaz almağı öyrət, – deyir.

Bab-ət-teşt adlı bir yer var. Mürtəza Həsəni o yerə aparır, teşt gətizdirib, Həsənə dəstəmaz almağın qayda-qanununu öyrədir və şəhəri tərk edir.

* * *

Bir dəfə Bəsrəyə quraqlıq düşür. İki yüz min adam məscidə axışıb, İmam Həsəndən minbərə çıxmağı, yağışın yağması üçün dua etməyi xahiş edir.

Həsən minbərə qalxıb:

– Ay camaat! İstəyirsiz yağış yağsın? – deyir.

Adamlar bir ağızdan:

– Əlbəttə, istəyirik! Bura elə bundan ötrü yığışmışıq! – deyirlər.

Həsən:

– Onda Həsəni Bəsrədən qovun! – deyir.

* * *

Deyilənə görə, İmam Həsən hələ uşaqlıq illərindən canında gəzdirdiyi anlaşılmaz, səbəbsiz qorxudan əziyyət çəkirmiş; onun içində elə bir möhtəşəm qorxu varmş ki, tez-tez oturduğu yerdə:

– Elə bil cəlladın hüzurunda otururam,– deyirmiş.

Deyilənə görə, onun üzündə, bircə dəfə də olsun, təbəssüm ifadəsi görən olmayıbmış. Möminlər bunun səbəbini İmamın canında gəzdirdiyi böyük, izaholunmaz qorxu hissi ilə bağlayırlarmış.

* * *

İmam Həsənin yaxınlarından biri belə bir əhvalat danışıb:

– Bir axşam Həsən mənim evimdə oturub ağlayırdı. Mən ona dedim ki, axı niyə sən bu boyda biliyin, bu qabilliyətlərin sahibi ola-ola bu qədər ah-vay edirsən?

O, cavabında:

– Çünki təkcə mənə – Həsənə bilmədiyim bir işin qulpundan tutmaq, ya Allahdan nə isə diləmək qadağandı. O dəqiqə Həsənə: “İtil! – deyiləcək, – bundan sonra bir quruşluq dəyərin yoxdu daha!”

* * *

Deyilənə görə, bir dəfə kimsə İmam Həsənin hücrəsinin kandarında oturub onu gözləyirmiş. Həmin vaxt Həsən hücrəsinin damında namaz qıla-qıla hönkür-hönkür ağlayırmış.

Həsənin göz yaşının bir damlası kandarda oturanın üzünə sıçrayanda, o ayağa qalxıb, damda namaz qılan Həsəndən üstünə sıçrayan suyun pak, yoxsa murdar olduğunu soruşanda, İmam Həsən:

– Üstünə sıçrayan mənim göz yaşımdı, – deyibmiş, – sənə, bu murdar sudan yuyunub təmizlənməyi məsləhət görürəm. Çünki bu, namaz vaxtı itaətə gəlməyən, yaşını axıdıb günaha batan gözlərimin yaşıdı.

* * *

Deyirlər bir dəfə İmam Həsən ölüyə yaxınlaşaraq, meyiti qəbrə endirib üstünü torpaqlayarkən, torpağın üstə oturub o qədər ağlayıb ki, torpaq islanıb. Ağlayıb doyandan sonra Həsən üzünü adamlara tutaraq:

– Ay camaat! Baxın, bizim əvvəlimiz də, sonumuz da bu qəbir xəndəyidi, – deyib. – Bu dünyanın axırı da bu xəndəkdi, o biri dünyanın əvvəli də. Axırı bu kiçik qəbir xəndəyi olan bu dünyanın nəyinə fərəhlənirsiz? Əvvəli bu qəbir olan o dünyanın nəyindən qorxursuz?..

* * *

Həsən deyirmiş:

– Hamıdan Uca Yaradan müqəddəs Quranda buyurur:

Sənin bütün günahlarından keçərəm, tək bir Məni düşünsən əgər…

* * *

Bir gün Səbət Bönnəni[1] İmam Həsənə belə bir məktub yazır:

“Eşitmişəm ziyarətə hazırlaşırsan. Sənə yoldaş olmaq istəyirəm”.

İmam Həsən cavabında ona yazır:

“Gəl hər ikimiz Allahın kölgəsi altında öz yolumuzu gedək. Birlikdə olmaq hər ikimizin gizli eyiblərini açacaq və bizi bir-birimizə düşmən edəcək”.

---

[1] ***Səbət Bönnəni* –** ilahiyyatçı-moizəçi

* * *

Bir dəfə İmam Həsəndən:

– Bu dünyanın əzabı nədi? – soruşurlar.

O:

– Ruhun məhvi,– deyə cavab verir.

– Ruhun məhvi nə deməkdi? – soruşanda, o:

– Bu dünyaya olan sevgi,– deyə cavab verdi.

* * *

Deyirlər, bir dəfə İmam Həsənə yaxınlaşan bədəvi ərəb ondan səbr barədə fikir söyləməyi xahiş edir.

Həsən:

– İnsan səbrinin qüvvəsi var. Kim ki öz taleyi ilə barışar, onun səbri Haqqa xidmət edər, – deyə cavab verir.

Və deyir: "Kamillik – özündə kin və ədavətin zərrəsini belə duymadığın andan başlanır";

və deyir: "Əbədi Cənnət – bu dünyada gördüyün xırım-xırda işlərə görə yox, ürəyində daşıdığın xeyirxah niyyətlərlə qazanılır";

və deyir: "Qəlb əhli susmağı üstün tutar. Onların əvvəl qəlbi dilə gələr, sonra dili";

və deyir: "Qənaətcilliyin kiçicik zərrəsi namaz və orucun min-min misqalından dəyərlidi";

və deyir: "Müdrikliyin ən uca zirvəsi – düşünmək və hər bir şeydən ehtiyat etməkdi";

və deyir: "Bilsəydim ki ikiüzlü deyiləm, özümü bu dünyanın ən varlı adamı hesab edərdim";

və deyir: "Üzdə və arxada, dildə və ürəkdə olanlar arasındakı ziddiyyətlər ikiüzlülükdən yaranır";

və deyir: "Əsl mömin – narahat adam deyil, odununu ala-qaranlıq düşər-düşməz gizlincə yığan, əlindən gələni edən, ağzına gələni danışan deyil";

və deyir: “Böyük və Qüdrətli Allah bu dünyanın borc verildiyini yalnız bəzilərinə anladır. Məhz o kəslər borclarını qaytarıb, bu dünyadan rahatca köçə bilirlər”;

və deyir: “Allahı tanıyan Onu sevər. Dünyanı tanıyan onu özünə düşmən bilər”;

və deyir: “Dostlar – bizə əziz olanlar, Allahın Göndərdikləridi. Ailə və uşaqlar bu dünyanın dostları, bizlərin rəqibləridi”;

və deyir: “Qəlbsiz qılınan hər namaz insanı əzablara yaxınlaşdırar”;

və deyir: Kim ki insanlardan uzaq qaçar, özünü tənhalıqla qoruyar. Kim hisslərinin əsarətindən çıxar, azadlıq qazanar;

və deyir: Müdrik olan kəs bu dünyanın özülünü dağıdıb, yerində ayrı – əbədi dünyanın qalasını ucaldandı;

və deyir: Axmaq ətraf (yoldaş) Haqqı axtaranı yolundan azdırar;

və deyir: Allahı tanıyan – bu dünyanı özünə düşmən bilər. Bu dünyanı sevən – Allahın düşməninə çevrilər.

* * *

Günlərin bir günü küçədə İmam Həsənə rast gələn bir adam ondan:

– Necəsən, Həsən? – soruşur.

İmam Həsən:

– Gəmisi qəzaya uğrayan, özü suyun üzünə çıxan taxta parçalarından yapışan kimi, – deyə cavab verir.

* * *

Deyirlər, İmam Həsən məclislərdə danışıb-gülən adamları görəndə:

– Bu adamlara məəttəl qalıram, – deyirmiş. – Bunların, deyəsən, öz hallarından xəbərləri yoxdu.

* * *

Deyilənə görə, imam Həsən yalnız ölüm yatağında – ölümünə sayılmış dəqiqələr qalanda gülməyə başlayıbmış. Gülə-gülə:

– Günaha bir bax... Sən bir günaha bax... – deyib dünyasını dəyişibmiş.

Həsənin üzündə təbəssüm əlaməti görməyənlər bundan heyrətə gəliblərmiş.

## *Həzrət Həbib Əcəmi*

Həzrət Həbib Əcəmi Quran oxunarkən acı kədərlə ağlayırmış. Adamlar ondan:

– Sən ki müqəddəs Kitabın yazıldığı dili bilmirsən, nə səbəbə ağlayırsan?.. – soruşanda, o:

– Mən iranlı olsam da, qəlbim ərəb qəlbidi… – deyə cavab verib.

## *Həzrət Mühəmməd Vasi*

Vasidən: “Halın necədi, Vasi?” soruşanda, o:

– Ömrü günü-gündən qısalanın, günahlarının sayı isə günü-gündən artanın halı necə olar, elə, - deyə cavab verir.

## *Həzrət Davud Təyi*

– Yeməyi bütöv tikələrlə ağıza qoymaq lazım deyil. Onları suda isladıb udmaq gərəkdi, – Həzrət Təyi deyirdi.

Ondan bunun səbəbini soruşanda, o:

– Quran ayələrini oxumağa sərf olunacaq vaxt çeynəməyə getməsin, – deyə cavab verib.

* * *

Deyilənə görə, Təyi uçuq-sökük daxmada yaşayırmış. Adamlar ona:

– Damın çöküb, hər an başına uçula bilər, – deyəndə o, cavabında:

– Mənim dama baxmağa vaxtım yoxdu. Bundan da savayı, bu qərara gəlmişəm ki, bir də ev tikdirməyim, – deyib.

Təyinin daxmasının damı, deyilənə görə, o, dünyasını dəyişəndən bir gün sonra uçub.

* * *

Adamlar Təyidən onlara ibrətli məsləhətlər verməyi xahiş edəndə, o:

– Bu dünyadan və onun adamlarından qaçın, – deyib. – Yadınızda saxlayın ki, boş söhbətlərə vaxt sərf eləmək öldürücüdü. Əşyalara və mənzərələrə tamaşa eləmək isə faydasızdı.

### *Həzrət Zün-n-Nun Misri*

Yaradılmışların sevdiyini Allah sevməz.

* * *

Tənhalıq – kamillik yolunun müəllimidir.

* * *

Deyilənə görə, Zün-n-Nunun cansız bədənini qəbiristanlığa apararkən, göydə süzən quşlar qanad açaraq, onun tabutu üzərinə kölgə salıblarmış. Tabut məscidin yanından ötəndə isə minarədən azan səsi eşidilməyə başlayıbmış.

Bu zaman insanlar Zün-n-Nunun barmağının göylərə tuşlandığını görüb, onun ölmədiyini zənn ediblərmiş. Lakin məlum olanda ki, o həqiqətən ölüb, qəbiristanlığa yollanıblarmış.

Deyilənə görə, Zün-n-Nunun barmağı o, qəbrə qoyulanda və üstü torpaqlananda da göylərə tuşlanmış vəziyyətdə qalıbmış…

## *Həzrət Cəfər Sadiq*

Bir gün Xəlifə Cəfər Sadiqi hüzuruna dəvət edir. Cəfər Xəlifənin dəvətini qəbul edib saraya yollanır.

Söhbət zamanı Xəlifə ondan çox razı olduğunu bildirir və bu razılığın əlaməti olaraq, Cəfərə qızıl təklif edir. Cəfər qızılı qəbul etməkdən imtina edir. Onda Xəlifə Cəfərdən ürəyi istədiyini ona deməsini xahiş edir. Cəfər Xəlifəyə belə cavab verir:

– Əgər həqiqətən məndən razısansa, səndən bircə diləyim var: məni bir də bu saraya çağırma.

## *Həzrət Malik ibn Dinar*

Bu dünyanın alçaq (maddi) təbiətini dərk edəndən sonra mənə və hərəkətlərimə verilən qiymətə laqeydəm.

* * *

Malik Dinarın qızı ondan gecələr yatmamağının səbəbini soruşanda, o, qızına belə cavab verir:

– Mən Allahın Öz Rəhmini mənə nə vaxt göndərəcəyinin dəqiq vaxtını bilmirəm. Qorxuram bu, mən yuxuda ikən baş verər və Onun göndərdiyi böyrümdən ötüb-keçər. Üstəlik mənə Allahın nemətlərini tar-mar edən, İblisə xidmət edən

insan olmaq bədbəxtliyi nəsib olub. Odu ki, sənə deyirəm: əgər bir gün bir kimsə məscidin qapısından bu dünyanın ən alçaq və şərəfsiz adamını səsləsə, bil ki, o mənəm.

## *Həzrət Füzeyl bin Əyad*

Qiyamət günü bir çox varlılar ağır cəza çəkəcəklər. Güclülər isə möhtəşəm vahimə yaşayacaqlar.

* * *

Hamıdan Ucanın Rəhmi o qədər böyükdü ki, hamınıza xilas bəxş ediləcək, tək bir mən günahlıdan savayı.

* * *

Allah sevdiyinə əzab göndərir, sevmədiklərinə isə bu dünyanın nemətlərini bəxş edir.

* * *

Cənnətdə göz yaşı axıtmaq mümkün olmadığı kimi, bu dünyada gülmək də yalnız heyrət doğurur. O səbəbdən ki, Cənnət – göz yaşı yeri deyil, bu dünya da gülüş məkanı deyil.

* * *

Otuz ildi ki, üzüm gülümsəmir.

* * *

Danışırlar ki, bir gün Füzeyl, onun görüşünə gəlmək istəyən qohumlarına:

– Özünüzə mənalı bir iş tapmadınız ki, vaxtınızı belə axmaq işlərə sərf etmək istəyirsiz? – deyə cavab verir.

## *Həzrət Üveys Gerani*

Allahı özünə dost bilən, bir kimsəylə dostluq münasibəti yaratmır.

* * *

Ölümün qənşərində yat, onu yaxınlığında hiss et, yuxudan ayılanda isə, düşünmə ki, çox yaşayacaqsan.

* * *

Quranı özünə bələdçi bil və ölümünü bircə anlığa belə unutma.

* * *

İbadət vaxtı o hala gəlməlisən ki, kürəyinə sancılan nizənin ağrısını hiss eləməyəsən.

* * *

Günlərin bir günü bir nəfər Geraniyə bir neçə quruş təklif edir.

Gerani cibində iki dirhəmi olduğunu bildirib, quruşları qəbul etməkdən imtina edir.

Həmin adam Geraniyə:

– O miskin dirhəmlər sənin neçə gününə bəs edəcək ki? – deyəndə, Gerani ona belə cavab verir:

– Verdiyin o quruşlardan sonra nə qədər yaşayacağımı bilirsən?

## *Həzrət əbu Şəfiq Bəlxi*

Allaha xidmətin doqquz payı tənhalıq və qorxu, bir payı sakitlikdi.

* * *

Ölüm gələndə çəkilib getmir. Odu ki, hər an Ona hazır ol.

### *Həzrət Haris Mühasibi*

Bircə tikə quru çörək kifayətdi ki, dərvişin könlü açılsın.

* * *

Çox yemək – qəlbin aynasını bulandırar.

* * *

Susmaq, oruc, tənhalıq – Yolun əsasları bunlardı.

* * *

Təsəvvüf (sufilik) – bütün bəlalardan keçmək qabiliyyəti və Allaha aid olmayan şeylərdən imtinadır.

* * *

Bu dünyanın işləri ilə məşğul olmaq – həqiqəti anlamağa əngəllər yaradır.

* * *

Ağla və həyatının sonu barədə düşün.

* * *

Hamıdan Ucanın Nəzərində bu dünya ağcaqanaddan dəyərli deyil.

### *Həzrət Mühəmməd Səməq*

Səməqdən evlənməməyinin səbəbini soruşanda, o:

– Mənim iki iblislə mübarizə aparmağa gücüm yoxdu, – deyib.

## *Həzrət Sirri Səqəti*

Sirri Səqəti ömrünün qırx ilini bal yemək arzusuyla yaşasa da, bal dadmaq ona qismət olmayıb.

* * *

Səqətiyə görə Allahı tanıyan tənhalığa çəkilməli, bu dünyadan üz çevirməlidi ki, dünyəvi olanların cəzbi ruhunu məhv edə bilməsin.

* * *

Səqəti deyirdi: “Daim Allahı düşünmək və bu dünyaya nifrət etmək gərəkdi. Kamillik yolu budu.”

* * *

Günlərin bir günü Səqəti moizə oxuyan vaxt məsciddə təmtəraqlı müşayiətlə Xəlifə təşrif buyurur. O, məclisə daxil olarkən Səqətinin:

– Bütün yaradılanların ən nəcibi insandı. Allahın ən sevimli yaranışı olsa da, o daim günah edir... – dediyini eşidir.

Moizə bitdikdən sonra sarayına qayıdan Xəlifə bütün gecəni Allah cəzasının qorxusundan yata bilmir. Səhəri gün o, bahalı xəlifə libasını bir kənara atıb, kasıb dərviş əbasına bürünür, Səqətinin yanına gəlib, onun moizəsindən sonra qəlbinin bu dünyadan üz çevirdiyini, içində təklənmək ehtiyacı yarandığını söyləyir, ondan kamilliyə çatmağın ən qısa yolunu göstərməyi xahiş edir.

Səqəti ona belə cavab verir:

– Bunun iki yolu var. Birinci yol: gecə-gündüz dua oxuyub namaz qılmaq, dilənçilərə sədəqə verib, digər dini ayinləri vaxtlı-vaxtında icra etməkdi. İkinci yol – daha qısa

və təsirli olanı, heç kimdən heç nə istəməmək, insanlardan heç nə qəbul etməmək, Allahın verdiyi ilə kifayətlənmək, istədiyini yalnız və yalnız Allahdan diləməkdi.

Səqətini dinlədikdən sonra Xəlifə birbaş səhralığa üz tutur.

Bu hadisənin üstündən bir müddət ötəndən sonra Səqətinin yanına Xəlifənin gözüyaşlı anası gəlir. Qadın Səqətiyə, onun sözlərinin oğlunu yolundan azdırıb çöllərə saldığını, taxt-tacından imtina edib, yeri-yurdu bilinməyən dərvişə çevirdiyini deyib ağlayır.

Səqəti qadına narahat olmamağı, oğlunun tezliklə geriyə dönəcəyini deyib, onu yola salır.

Bir müddətdən sonra Səqətinin yanına dərviş-xəlifənin özü gəlir. Səqəti adam göndərib Xəlifənin anasını, arvadını və oğlunu evinə dəvət edir. Xəlifənin anası və arvadı Səqətinin evinə daxil olarkən, Xəlifəni görüb sıtqamağa, ağlamağa, yalvarıb ondan saraya qayıtmağı xahiş eləməyə başlayırlar.

Xəlifə saraya qayıtmaqdan imtina edib getmək istəyəndə, arvadı ondan oğlunu da özü ilə aparmasını xahiş edir. Xəlifə arvadının sözünü yerə salmır, oğlunun bahalı libasını əynindən çıxarıb, ona cod yundan olan dərviş libası geyindirir. Bunu görən ana oğlunun qolundan yapışıb, öz yanına çəkir. Beləliklə, onların hər üçü geriyə – saraya qayıdırlar. Xəlifə isə dağlara çəkilir.

Bu hadisədən bir müddət sonra Səqətinin yanına bir adam gəlir. O Səqətiyə, yaxın günlərdə Xəlifənin bura gələcəyini, o zamana qədər isə onu öz yanına çağırdığını deyir.

Səqəti Xəlifənin olduğu yerə – qəbiristanlığa yollanır və orada onu torpağın üstə üzüqoylu yatan yerdə tapır. Yanında diz çöküb, başını qucağına alanda, Xəlifə güclə eşidiləcək heysiz səslə:

– Bir az gec gəldin... – deyir və Allahın adını bir neçə dəfə çəkib, canını tapşırır.

Xəlifə torpağa basdırılandan sonra, Səqəti geriyə qayıdarkən yolda əllərində kəfən, qəbiristanlığa tərəf addımlayan çoxlu adam dəstələriylə rastlaşır. Adamlar Səqətiyə, qulaqlarına Allahın sədasının gəldiyini, Onun onlara qəbiristanlığa gedib, orada indicə canını tapşıran ən sevimli dostunu torpağa basdırmağı əmr etdiyini deyirlər.

* * *

Səqəti deyirdi: "Həkim xəstələnərsə, dərmanı kimdə axtaraq?  Allahın mələyi Xıdır yolunu azarsa, Yolu bizlərə kim göstərəcək?"

* * *

Bir gün Sirri Səqəti bir müqəddəsdən soruşur:

– Adın nədi?

O:

– O, – deyə cavab verir.

Ondan:

– Sənə yeməyə nə verək? – soruşanda, o:

– Onu, – deyə cavab verir.

Müqəddəs o biri sualları da eynilə belə cavablandıranda, Səqəti:

– Sən "O" deyəndə  kimi nəzərdə tutursan? – deyə soruşur.

Müqəddəs:

– Hamıdan Uca və Müqəddəs olan Allahı, – deyə cavab verir.

Bunu eşidən Səqəti huşunu itirir.

* * *

Günlərin bir günü Səqəti tələbəsi Həzrət Cünayddan soruşur:

– Sevgi nədi?
Cünayd:
– Bəzilərinə görə bu, Allahın əmrlərinə itaətdi. Digərlərinə görə, Onun istəklərinə tabe olmaqdı.
Səqəti əl atıb qolunun dərisini çəkmək istəyirsə də, dərisi sümüyünə yapışdığından bunu edə bilmir və deyir:
– Əgər mən desəm ki məni bu hala salan, qanımı, canımı qurudan həmin o sevgidi, düzü bu olacaq.
Səqəti sözünü bitirib huşunu itirir, yerə yıxılır. Üzü isə Günəştək nur saçmağa başlayır. Bir qədərdən sonra özünə gələndə, o deyir:
– Sevgi – ona mübtəla olanı o hala salır ki, ildırım da vursa, o ağrı hiss etmir. Əvvəllər mən bunun nə olduğunu bilmirdim. Amma O (Allah), mənə Öz Mərhəmətindən əta elədi və indi mən sevginin nə olduğunu anlamağa başlayıram…

* * *

Bir dəfə tələbələri Səqətidən xahiş edir ki, o, Allaha yalvarıb, onlara Ondan bilik diləsin. Səqəti Allaha yalvarmağa başlayır və tələbələrinə o biliyi diləyir ki, o bilik onlara Onun (Allah) barəsində fikirləşməyə mane olmasın.

## *Həzrət İbrahim bin Ədhəm*

Dərviş olana qədər İbrahim Bəlxin sultanı idi, var-dövlət içində yaşayırdı. Günlərin bir günü öz sarayında yatdığı yerdə, damda gəzən adamların ayaq səsinə oyanıb yuxarıdakılara:
– Kimdi orda, damda gəzir?.. – deyə səslənir.
Dərhal yuxarıdan:
– Sən tanıdıqların, – deyə cavab verirlər.

– Siz orda nə edirsiz? – Sultan soruşanda, yuxarıdan:

– İtkin düşmüş dəvəmizi axtarırıq, – cavabı gəlir.

Sultan heyrət içində:

– Ey mənim tanımadığım kəslər, dəvənin damda nə işi? Damda da, dəvə axtararlar? – deyəndə, yuxarıdan:

– Sultan libası geyib Allahı necə axtararlarsa, elə, – cavabı eşidilir.

Bu cavabdan Sultanın vücudunu Hamıdan Ucanın qorxusu sarır.

Bu hadisənin üstündən bir qədər keçmiş, İbrahim sarayın qəbul otağında oturarkən, içəri tanımadığı bir şəxs daxil olur. Onun əzəmətli görkəmi saray əhlini heyrətə gətirirsə də, bir kəs ondan adının nə olduğunu, bura hardan, necə gəlib çıxdığını soruşmağa ürək eləmir.

Yad adam dörd bir yanına nəzər sala-sala, birbaş Sultanın taxtına sarı addımlayır.

İbrahim ondan buralarda nə axtardığını soruşanda, o:

– Özümə bu karvansarayda münasib yer axtarıram, əyləşim, – deyir.

İbrahim qəzəb içində:

– Amma bura karvansaray deyil, mənim sarayımdı!.. – deyiəndə, yad adam:

– Bu saray əvvəllər kimin olub? – Sultandan soruşur.

– Mənim atamın, – İbrahim cavab verir.

– Bəs ona qədər? – Yad qonaq sual verməyinə davam edir.

– Mənim babamın, – Sultan cavab verir.

– Sahiblərindən sonra yerlərini başqaları tutduğu bir yeri daha necə adlandırmaq olar? – yad adam deyir və yoxa çıxır.

Hamı dağılışandan sonra İbrahim diz çöküb Allaha yalvarır ki, O, bu adamın kim olduğunun sirrini ona açsın.

Qeybdən İbrahimə səda gəlir. Belə məlum olur ki, bu adam – Xıdır İlyas imiş.

Bunu biləndə, Sultanın vücudunu yenə Allah qorxusu sarır.

* * *

Bu hadisənin üstündən bir qədər keçmiş, Sultan əyanlarıyla ova çıxır və qəfildən gözü ağacların arasıyla gəzişən iri buynuzlu marala sataşır. Ovçular maralın ardınca götürüləndə, Sultanın atı o biri atları ötüb, hadisə yerindən uzaqlaşır və çox keçmir ki, meşənin kimsəsiz dərinliyində peyda olur.

Bu məqam qeybdən Allahın Sədası gəlir:

– İbrahim! Nə qədər ki ölməmisən, ayıl!

Bu sözlər bir neçə dəfə təkrar olunur. Sultan heyrət içində donub-qalır və huşunu itirir. Özünə gələndə, yaxınlıqda dayanan maralı görür. Əlini yayına atıb oxu buraxmaq istəyəndə, maral üzünü ona çevirir və insan səsiylə:

– Mən bu meşəyə səni ovlamaqdan ötrü gəldim, sənin ovun olmaqdan ötrü yox, – deyir. – Sən məni öldürə bilməzsən. İndi cavab ver, bir dəfə də olsun düşünmüsənmi heç, Hamıdan Uca Yaradan səni nədən ötrü yaradıb? Bəlkə elə bilirsən, səni ondan ötrü yaradıb ki, həyatını eyş-işrət içində puç edəsən? Özünə layiqli məşğuliyyət tapa bilmədinmi?

Maralın dediyi bu sözləri hadisə yerinə yaxınlaşmaqda olan əyanlar da eşidir.

İbrahimin vücudunu Hamıdan Ucanın Cəza Alovu qorxusu bürüyür, qəlbində o vaxta qədər duymadığı anlaşılmaz hisslər baş qaldırır. O, maralın qarşısında diz çöküb ağlayır, göz yaşları sultanlıq libasının yaxalığını isladır.

İbrahimin həqiqi inama oyanışı belə baş verir.

* * *

Bu hadisədən sonra o, sarayı və yaxınlarını tərk edib, meşəyə çəkilir. Orda sultan libasını – bu dünyanın bahalı, lakin çirkab və günah dolu hökmdar geyimini ilahi saflıqdan biçilmiş maral dərisinə dəyişir və meşənin dərinliyinə üz tutur. Bütün yolu günahlarına görə tövbə edəedə, dualar oxuyub göz yaşı tökə-tökə gedir və nəhayət, təklənə biləcəyi mağaraya yetişir.

İbrahimin sonrakı, uzun-uzadı doqquz ili, həmin bu tənha mağarada keçir. Ordan o, yalnız cümə günləri, o da meşədə odun yığıb bazarda satmaq üçün çıxır. Qazandığı pulu ən zəruri ehtiyaclarına və yaxınlıqda məskunlaşan dərvişlərə xərcləyir.

İbrahimin möminliyi barədə xəbərlər tezliklə bütün məmləkəti bürüyür. O özü isə mağaranı tərk edib Məkkəyə yollanır.

Bu hadisədən bir müddət sonra, öz sarayını tərk etmiş şeyx Əbu Səid də, hansı möcüzəyləsə İbrahimin tənha mağarasına gəlib çıxır və deyilənə görə, orda mağaranın havasına hopmuş ecazkar qoxunu – şirin müşkənbər ətrini duyur…

* * *

…Məkkəyə aparan səhra yollarında İbrahim qumun üstündə, üzərlərinə örtük çəkilmiş yetmiş dərvişə rast gəlir. Onlardan altmış doqquzunun bədəninin qan-qəltana bürünmüş ölü olduğunu, sonuncu dərvişin isə nəfəsinin hələ də gəldiyini hiss edib, ondan burda nə baş verdiyini soruşur.

Dərviş İbrahimə bunları söyləyir:

– Kamillik yolu hədsiz çətin yoldu. Bu yolda ehtiyatlı olmaq gərəkdi. Mütləq bir kuzə suyun və başının üstə damın

olmalıdı. Həyata nə çox uzaq, nə də həddən ziyadə yaxın olmalısan. Sayıq olmalısan ki, Uca Yaradanın hökmünə riayətdə diqqətsizliyə yol verməyəsən, həm də ifrat cəsarətinlə həddini aşmayasan. Ey cavan, bil ki, biz sufilərik. Allaha, bir kəlmə belə olsun danışmadan susacağımıza, Ondan savayı heç kimdən qorxmayacağımıza, hər addımımızla kamilliyə üz tutacağımıza və Ondan savayı bir kəs, ya bir şey haqqında fikirləşməyəcəyimizə and içmişdik. Lakin Məkkəyə çatanda, bizi müqəddəs Xıdır İlyas qarşıladı. Biz bundan çox xoşbəxt olduq, onu salamlayıb dedik: Allaha minnətdarıq ki, əziyyətlərimiz əbəs getmədi, onunla görüşmək səadətini bizlərə nəsib elədi. Lakin sözümüz ağzımızdan çıxar-çıxmaz, Allahın qəzəbli Sədasını eşitdik: “Siz Mənə verdiyiniz andı pozdunuz! İndicə Mənim Yaratdığımla həmsöhbət olmaqdan ötrü Məni – həmin o həmsöhbətinizi Yaradanı unudan siz deyildiz bəlkə? Buna görə öləcəksiz”.

İndi, ey cavan, gördüyün bu adamlar Allaha olan sevginin alovundan ölənlərdi. Odu ki, İbrahim, bunu bu başdan qərarlaşdır: Yol budu. Onu gedəcəksən, yoxsa evinə qayıdacaqsan?

İbrahim dərvişdən soruşanda ki, “bəs necə oldu ölümdən qurtuldun?”

Dərviş:

– Gördüyün bu canlarını tapşırmış sufilər Yolun əvvəlində, artıq yetişmiş, mükəmməl insanlar idilər. Mənsə hələ çox gənc və təcrübəsizəm, – deyə cavab verdi və çox keçmədən, o da canını tapşırdı...

* * *

İbrahim tez-tez deyərdi:

– İnamsız bilik bir qara quruşa dəyməz.

* * *

Günlərin bir günü İbrahimdən:

– Səni Sultanlıqdan üz çevirməyə nə vadar elədi? – soruşanda, o belə cavab verir:

– Bir dəfə mən güzgünün qabağında əyləşmişdim, özümə baxırdım. Qəfildən qarşımda son mənzilim – qəbrim peyda oldu… və mən bu son məkanıma tək-tənha, dostlarsız və yaxınlarsız yollanacağımı anladım. Üstəlik, ora əliboş getdiyimi, ədalətli Hakimin qarşısında mənə bəraət qazandıracaq qədər dəlilim (xeyirxah əməlim) olmadığını anladım və o gündən taxt-tac çiyinlərimə ağırlıq edən yükə çevrildi.

* * *

Günlərin bir günü bir dərviş İbrahimə dedi:

– Kim ki evlənir, o, qayığa minmiş olur. Ayrı cür desək, möhkəm özülü, axarı onu hara aparacağı məlum olmayan dənizə daxil olur. Uşaq doğulanda, o qayıq batır.

* * *

Bir dəfə, bir adam İbrahimə min dinar təklif edir. O, dinarlardan imtina edib:

– Mən kasıblardan hədiyyə qəbul eləmirəm, – deyir.

Həmin adam heç də kasıb olmadığını, əksinə, varlı olduğunu bildirəndə, İbrahim ondan:

– Sən bu halından razısan, yoxsa bundan da varlı olmaq istəyərdin? – soruşur.

Həmin adam:

– Əlbəttə ki, bundan da varlı olmaq istəyərdim, – deyə cavab verir.

Onda İbrahim:

– Deməli, sən məndən kasıbsan, – deyir. – O səbəbdən ki, mən bu kasıblığımdan məmnunam və mənə daha heç nə lazım deyil.

* * *

Bir kəs İbrahimdən soruşur:

– Gecələr niyə yatmırsan?

İbrahim:

– Yaşı daim axan gözlər necə yumulsun? – deyə cavab verir.

* * *

Deyilənə görə, İbrahim namazı bitirib başa çatdırandan sonra, üzünü əlləri ilə qapayarmış. Ondan niyə belə elədiyinin səbəbini soruşanda, İbrahim:

– Allahın dualarımı qəbul eləməyib üzümə çırpacağından qorxuram, – deyə cavab verib.

* * *

Bir dəfə adamlar İbrahimdən onun nə ilə məşğul olduğunu soruşurlar. İbrahim:

– Mən bu dünyanın bütün işlərini insanlara saxlamışam. Özüm isə tək bir Onu düşünürəm. Həyatım bitib-başa çatanacan, belə də olacaq, – deyə cavab verir.

* * *

Bir adam İbrahimdən:

– Sənə bu həyatda xoşbəxtlik nəsib olub? – soruşanda, İbrahim:

– Mənə bu həyatda xoşbəxtlik iki dəfə, o da dərviş həyatımda nəsib olub, – deyib. – Bir dəfə saçlarım dağınıq, əyin-başım cır-cındır içində qayıqda oturmuşdum. Mənə bir adam yaxınlaşdı, bədənimi zarafatla yumruqlamağa, məni

lağa qoyub gülməyə başladı. İlk xoşbəxtliyi mən həmin o məqam – içimdəki “mən”im alçaldılanda duydum.

İkinci xoşbəxtlik mənə yorğun-arğın halda məsciddə yatdığım zaman üz verdi. Bir dəstə adam məsciddə yatmağımdan qəzəblənib, ayaqlarımdan yapışdı, məni sürüyüb pilləkənlərdən üzüaşağı buraxdı. Başım, ayaqlarım pillələrə dəyib yarıldıqca, mən kamilləşdiyimi hiss etdim. Yerə dəyəndə isə, pillələrin bitdiyinə təəssüfləndim. Elə istəyirdim ki, kamillik təcrübəm bir az da artsın.

* * *

İbrahim danışırdı ki, “bir dəfə bir zarafatçıl adam kiçik ehtiyacını mənim üstümü islatmaqla ödəyəndə, içimdə baş qaldıran “mən”ə: “Sən bundan artığına layiq deyilsən”, – dedim.

* * *

İbrahim danışırdı ki, “bir dəfə paltarıma bit düşmüş, bədənim yara tökmüşdü. Onda mən öz “mən”imə əmr elədim ki, bir vaxtlar əynimdə gəzdirdiyim şahlıq libasına görə heyifsilənməsin.

* * *

Bir dəfə bir adam İbrahimdən soruşur:

– Sən özünə azuqəni hardan əldə edirsən?

İbrahim cavab verir:

– Bunu, o azuqəni mənə Göndərəndən soruş. Soruş, O onu hardan əldə edir?

* * *

İbrahim danışırdı ki: “Bir dəfə mən özümə qul aldım və ondan soruşdum ki, “adın nədi?” O, cavab verdi ki, “ürəyin nə istəyir, o”.

Soruşdum ki, “yeməyə nə istəyirsən?”

Cavab verdi ki, “mənə nə verəcəksən, onu”.

Soruşdum ki, “əyninə nə geyim istəyirsən, alım?”

Cavab verdi ki, “nə alacaqsansa, onu”.

Soruşdum ki, “hansı işin qulpundan yapışmaq istəyirsən?”

Cavab verdi ki, “mənə buyuracağın işin”.

Soruşanda ki  “bəs axı sən özün nə istəyirsən?”, o cavab verdi: “Mən qulam, nə istəyə bilərəm ki?”

Onda mən özlüyümdə düşündüm ki, kaş mən də Allahıma belə qul ola biləydim.

* * *

Günlərin bir günü bir neçə müqəddəs söhbət üçün bir yerə toplaşırlar. İbrahim də onlara qoşulmaq istəyəndə, müqəddəslər geyimindən sultan olduğunu duyub ondan məclisi tərk etməyi xahiş edirlər.

* * *

İbrahim deyirdi:

– Bu dünyadan imtina edib Allahla dostlaşın, sizlərə məsləhətim budu. Boğçalarınızı (var-dövlətinizi) yığışdırıb, ağızlarını düyünləyin, ağzı boş olan o biri boğçanızın (dilinizin) da düyününü tarım çəkin. Susun və sədəqə verməyə simiclik etməyin.

* * *

Kəbəyə ziyarəti zamanı İbrahim aclıq çəkir. Həmin aclıq məqamları onun qarşısında İblis peyda olur və ona deyir:

– Şahlıqdan imtina eləyib Allaha tapınmağının əvəzi budumu ki, belə bir müqəddəs ziyarətdə də yeməyə bir şey tapmırsan?

İbrahim qəlbində Allaha üz tutub:

– Dostunun yoluna niyə düşmən çıxardın? – deyəndə, qeybdən Allahın Sədası eşidilir:

– İbrahim, cibindəki gümüş pulları yerə at!

İbrahim cibindəki pulları yerə atır və İblis yoxa çıxır.

* * *

Danışırlar ki, İbrahimin kim olduğunu bilməyən bir adam onu özünə bağban götürür. Günlərin bir günü o İbrahimdən, bağdan ona bir neçə nar dərib gətirməyi xahiş edir. İbrahim bağın dərinliyinə gedib, hələ dəyməmiş, turş narları ağacdan dərib gətirir.

Ev sahibi ona:

– Gör bir, neçə aydı yanımda işləyirsən, hələ də kal meyvəni dəymişdən seçə bilmirsən, – deyəndə, İbrahim:

– Məni bu işə meyvələrin dadına baxmaqdan ötrü yox, onlara qulluq eləməkdən ötrü götürüblər, – cavabını verir.

Ev sahib heyrət içində:

– Olmaya, sən İbrahimsən? – deyəndə, İbrahim yoxa çıxır.

* * *

İbrahim danışırdı ki, "bir gün yuxuda Cəbrayılı gördüm. Onun əlində kitab vardı. Soruşdum ki, bu nə kitabdı? Cavab verdi ki, bu kitaba Allahın dostlarının adını yazır. Soruşdum ki, ora mənim də adımı yazarsanmı"?

O:

– İbrahim, sən Onun dostu deyilsən, – dedi.

Onda mən dedim:

– Dostu da olmasam, Onun dostlarının dostuyam.

Bunu deyəndə, Cəbrayıl bir qədər susdu, sonra:

– Mənə Allahdan buyruq gəldi ki, sənin adını siyahıda birinci yazım. Çünki kamillik yolunda ümid ümidsizlikdən doğar.

* * *

Bir dəfə İbrahim səhrada bir əsgərə rast gəlir. Əsgər ondan şəhərə aparan yolu soruşanda, İbrahim ona qəbiristanlığa aparan yolu göstərir. Bundan qəzəblənən əsgər İbrahimi başından vurub yaralayır, əl-qolunu bağlayıb şəhərə gətirir.

İbrahimi tanıyan şəhər camaatı əsgərə:

– Bu ki İbrahim Sultandı, onu niyə bu hala salmısan? – deyəndə, əsgər:

– Axı o, mənə düz yolu göstərmədi?! – deyir.

İbrahim əsgərə:

– Şəhər, əhalisinin sayı günü-gündən artan bir yerdi. Amma göründüyü kimi, adamlarının sayı günü-gündən azalır. Qəbiristanlıqda isə artır, – deyə cavab verir.

Bu sözdən sonra əsgər müqəddəsin qarşısında diz çökür.

* * *

Sultanlıqdan imtina edib, cod yundan olan dərviş libasına bürünəndə İbrahim artıq ata idi. Uzun illərdən sonra, oğlu böyüyüb boya-başa çatanda o, atasının Məkkədə olduğunu öyrənir, anasını da götürüb, dörd yüz sadiq silahdaşının müşayiəti ilə ora yollanır.

Şəhərə daxil olanda, rastına çıxan adamlardan atasının yerini soruşur. Cavab verirlər ki, o, meşədə odun yığır. Bunu eşidən şahzadə əsgərləri ilə meşəyə yollanır və uzaqdan, meşənin dərinliyində kürəyində daşıdığı nəhəng odun şələsinin ağırlığından ikiqat bükülən Sultanı görür.

Şahzadə atasının bu halından heyrətə gəlib sarsılsa da, ona yaxınlaşmağa ürək eləmir, qocanın izinə düşüb ardınca yollanır.

İbrahim bazara çatıb:

– Kim bu halal zəhmətlə yığılan odunları məndən halal zəhmətlə qazandığı pula alar? – deyə qışqırmağa başlayır.

Yoldan ötən bir adam İbrahimə yaxınlaşır. Odunları ondan alıb, əvəzində ona  bir neçə çörək verir. İbrahim çörəkləri götürüb bazardan çıxır.

Bütün bunları kənardan müşahidə edən şahzadə atasının ardınca yollanır. Bir qədər gedəndən sonra, onun meşənin dərinliyindəki uçuq bir daxmaya daxil olduğunu görür. O, atasının ardınca içəri girməyə ürək eləmir, daxmanın pəncərəsindən içəri boylanır və baxıb görür ki, atası gətirdiyi çörəkləri daxmada onunla bir yaşayan şagirdləri arasında bölüşdürür, özü isə, onlar çörəklərini yeyib qurtaranacan dizi üstə düşüb dua oxuyur.

Yemək mərasimi bitib başa çatandan sonra, İbrahim şagirdləri ilə bir Kəbəyə yollanır. Şahzadə də öz əsgərləri ilə onların ardınca gedir, İbrahim Kəbənin başına hərləndiyi yerdə qəfildən qarşısına çıxır.

İbrahim şahzadəni görcək, heyrət içində donub-qalırsa da, ondan kim olduğunu soruşmadan ötüb-keçir.

Axşam daxmaya qayıdanda, şagirdləri İbrahimdən, o şahzadə geyimli cavanın kim olduğunu, onun niyə ona elə zəndlə baxdığını soruşanda, İbrahim:

– Mən kasıblıq yolunu seçib sarayı tərk edəndə, orada balaca bir oğlan uşağı qoyub getmişdim. O uşaq indi həmin o cavan şahzadənin yaşında olmalıdı. Məndə qəfildən belə bir hiss yarandı ki, bu cavan mənim oğlum da ola bilər, – deyə cavab verir.

Bu hadisənin səhəri gün İbrahimin şagirdlərindən biri şəhərə çıxıb, Kəbədə rastlaşdıqları şahzadəni axtarmağa başlayır. Bir qədərdən sonra onu şəhərin sakit bir guşəsində, kətilin üstündə oturub, gözlərinin yaşını axıda-axıda Quran oxuyan yerdə tapır.

Şagird ondan kim olduğunu soruşanda, cavan:

– Mən Bəlxin şahzadəsiyəm. Atam dərvişlik yolunu seçib. Bura onu tapmaqdan ötrü gəlmişəm, – deyir və ağlamağa başlayır. – Onu dünən tapdım, amma yaxınlaşmağa ürək eləmədim. Mənim atamın adı İbrahim bin Ədhəmdi.

Şagird İbrahimin adını eşitcək, şahzadəni də, onun anasını da özü ilə evə aparır. İbrahimin daxmasına çatanda, İbrahimin arvadı onun qarşısında diz çökür, şahzadə huşunu itirib yerə yıxılır, özünə gələndə isə atasını yatağının yanında oturmuş görür.

İbrahim ondan:

– Sən Quranı oxumusan? – soruşanda, şahzadə:

– Oxumuşam, – cavabını verir.

Bunu eşitcək, İbrahim ayağa qalxır. Atasının yenidən onları tərk edəcəyini başa düşən şahzadə özünü İbrahimin ayaqlarına atır. Xanımı İbrahimin qarşısında diz çöküb yalvarırsa da, o cavab vermir, dinib-danışmadan daxmanı tərk edir...

## *A.MƏSUDLA MÜSAHİBƏ*

***– Əbu Hamid Əl Qəzalinin "Səadət iksiri" əsəri hansı məziyyətlərinə görə sizin sevimli əsərinizdir?***

– Bu barədə bir dəfə də demişəm, son illər sufi mətnləri ilə tanışlıq, onların tərcümə prosesi bədii ədəbiyyata olan marağımı azaldıb. Səbəb, ilk növbədə, bu mətnlərin mistikliyi, yüksək bədiiliyi, sona qədər izaha gəlməyən sehrliliyidir. Bədii ədəbiyyat İnsan mövcudluğunun mahiyyətini, onun iç dünyasını, hisslərini, psixolojisini dolayı yollarla, bədii ifadələr, ədəbi fəndlər və vasitələrlə açmağa çalışırsa, sufilər bu yolu naxışsız, bərbəzəksiz gedirlər. Əslində böyük ədəbiyyat da, fəlsəfə də, sufilik də bir ünvana üz tutub, amma hər biri bu yolu öz marşrutu ilə gedir. Bu mənada, sufi yolu bu yolların ən öncülü və ən qısasıdır, bu səbəbdən də ədəbiyyatı üstələyir. Ayrı sözlə desək, sufilər ilahi həqiqətlərə kəsə yollarla çatırlar, insan mövcudluğunun, qəlbin mahiyyətini oxucunu çaşdırmadan, azdırmadan, yormadan açmaq qüdrətinə malikdirlər. Böyük ədəbiyyatın bizlərə qalın-qalın kitablarda təqdim etdiyi "gözyaşardan həqiqətlərin" bir çoxu burda öz təsirini itirir, böyük və əzəli Haqqa aparan yolun ortasında itib-batır. Məsələnin digər tərəfi – kəşflərin və həqiqətlərin dərəcəsi məqamıdır. Bədii ədəbiyyatın naməlum qaranlıq Məkanı əl toxunması ilə öyrənəntək, təşviq və təsvir etmək "məharəti" burda həmin Məkanın və onun içindəkilərin real görüntüləri ilə əvəz olunur və daha heç bir "təsvirə" ehtiyac qalmır. Lakin bu heç də o demək deyil ki,

ədəbiyyat lazımsız bir sahədi və heç bir təsir qüvvəsinə malik deyil. Mən yazıçıyam, lakin bu dünya, həyat, insanlıq və özüm haqqında ən sirli bilgilərə ədəbiyyatın yox, Quranın və sufi mətnlərinin köməyi ilə çatmışam. Bu mətnlər əzəli və əbədi izaholunmazlıq sirlərinin daşıyıcısı olan Böyük Mövcudluq (həmçinin insan və onun mahiyyəti) haqqında bu dünyada yazılmış bütün növ elmi, bədii ədəbiyyatların ən mükəmməlidir və bütün elmləri özündə cəmləyir. Onların geniş kütlə tərəfindən qavranılması bir o qədər asan olmasa da, qəlblərində İlahiyə açılan bağlı qapılar gəzdirənlər üçün bu mətnlər hədsiz qidalı və faydalıdır. "Sevimli kitab" dedikdə, əslində, mənim ən sevimli kitabım, əlbəttə ki, Qurandır; onu, demək olar ki, hər gün oxuyuram. Sizinlə bu söhbətimiz üçün o səbəbdən Qəzalinin bu traktatını seçdim ki, bu əsəri ümumilikdə sufi baxışlarının xülasəsi, ayrı sözlə desəm, İnsanın və onun qəlbinin mahiyyətini izah edən dərin sufi sisteminin əlifbası sayır və geniş oxucu kütləsi üçün daha anlaşıqlı hesab edirəm. "Səadət iksiri" böyük sufi İbn Ərəbinin "Məkkə açıqlamaları"ndan, yaxud Məhəmməd Nəsəfinin Kainatın və mövcudluğun sirlərini ustalqla açan "Zübdət əl Həqayiq"indən fərqli olaraq, insan qavrayışı üçün daha anlaşıqlıdır. Bunun səbəbi Qəzalinin müəllimlik peşəsi, dediyi hər fikrin izahını vermək vərdişidir. Nə qədər qəribə olsa da, bu gün ilahi, mistik ədəbiyyat kimi oxuduğumuz bu traktatlar vaxtı ilə Qəzalinin İlahiyyat universitetində tələbələrinə oxuduğu gündəlik mühazirələridir. Məhz bu səbəbdən burda hər deyilən fikrin, ən sirli kəşfin izahı var. Lakin əksər sufi mətnləri bu Allah aşiqlərinin çatdıqları Məqamların ecazında itib-batdığını, yazılanların nəyinsə naminə kağızda saxlamaq niyyətindən savayı ayrı bir şey olmadığını bildirir. Qəzalidə isə bu "sərxoşluq" yoxdur. Dövründə "İslamın Sütunu" adını almış Qəzalinin niyyəti – duyub,

çatıb, anladıqlarını öyrətmək, mənimsətmək, izah etməkdir. Yalnız Qəzali İlahini, Ona aparan yolun istiqamətlərini və şərtlərini, böyük sirləri və həqiqətləri botanika, yaxud ədəbiyyat fənnini izah edən müəllimtək izah edir, ən dərin həqiqətləri, İnsana və onun Ruhuna dair sirləri açır. Və əslində də, Haqqa çatmaq yolunda bəşəriyyət – Tələbə, Qəzali (eləcə də digər sufilər) müəllimdir.

***– "Səadət iksiri" əsərinin girişində yazılıb ki, ruh deyərkən biz qəlbi nəzərdə tuturuq. Yəni ruh qəlbdir. Qurani-Kərimin Əl-İsra (Gecə vaxtı seyr) və ya Bəni-İsrail (İsrail oğulları) surəsinin 85-ci ayəsində peyğəmbərə müraciətlə yazılıb ki: " ...və əgər səndən ruh haqqında soruşsalar, de ki, o mənim Allahımın işlərindəndir...". Allah tərəfindən izahı sirr saxlanan ruh məsələsini Əl Qəzali nəyə görə çözmək istəyirdi, özü də Qurani-Kərimə istinadlarla?***

– Əvvəla bunu deyim ki, bütün sufilər, eləcə də Qəzali bütün baxışlarında və tədqiqatlarında Qurani-Kərimə dayaqlanıblar. Ayrı sözlə desək, İslam sufilərinin bütün ilahi uçuşlarının qalxma ərazisi Qurandır. Qurandan misal gətirdiyiniz o ayə 6-cı əsrdə nazil olunub. Qəzali və digər sufilər İlahiyə aparan Yolun yolçuları olduqlarından həyatlarını İnsanın və onun ruhunun dərki yolunu təşviq etməyə həsr ediblər, aclıq, zikr və ibadətlərlə, bacarıqları və qabiliyyətləri dərəcəsində nələrəsə nail ola biliblər, irili-xırdalı kəşflərlə müəyyən sirləri açmağa müvəffəq olublar. Sufiliklə ilkin tanışlıq zamanı erkən İslamçılığın müqəddəsi, sufi məktəbinin yaradıcılarından olan İmam Həsən Bəsrinin zikrini tərcümə edərkən, Ön Sözü Nəsəfidən gətirdiyim: "Balaca adam siyahıdır və böyük adamın əlamətlərindən biridir..."

fikrinin izahı ilə başlamışdım. Onda, Nəsəfinin "böyük adam" dediyinin yaşadığımız dünya olduğunu anlayanda, bu zahirən sadə, eyni zamanda, yüksək bədii istedadla deyilmiş dərin kəlamın möhtəşəmliyindən və sehrindən heyrətə gəlmişdim. Növbəti kəlamı isə bu qədim sufinin bizlərə – qələm adamlarına ünvanladığı fövqəladə çağırış kimi qəbul etmişdim: "Dünya sözünün mənasını biləndən sonra indi bil ki, sən kiçik adam və kiçik dünyasan. Bütün dünya isə böyük adam və böyük dünya adlanır. Dərviş, sən kiçik dünyasan, bütün dünya böyük dünyadır, sənsə hər iki dünyanın siyahısı ("siyahı" burda nüsxə mənasını daşıyır) və işarəsisən. Bil ki, böyük dünyada nə varsa, kiçik dünyada da var. Özünü dərk et, aşkarda və gizlində olanlara çat ki, böyük dünyanın əvvəlinə və axırına çata biləsən. Bu yoldan savayı, ayrı yol yoxdu. Dərviş, hər şeyi olduğu kimi görməyə can atan kəs qoy özünü də olduğu kimi görsün..." Onda yadıma gəlir, tərcüməsinə başladığım bu mətndən halımın dəyişdiyini, ətrafımı bürüyən real aləmdən üzülüb naməlum cazibələrlə harasa geriyə, ya kənara sovrulduğumu hiss edirdim. Ömrüm uzunu burnumun ucunda, gözümün qabağında olan həqiqi dünyaya, yeni-yeni azadlıqlar qoxuyan divarsız, tavansız, ecazkar bir aləmə daxil olurdum. Sözümü ona gətirirəm ki, Nəsəfinin bu kəşfi, yəni insanın kiçik dünya olması və hər iki dünyanın işarəsi və siyahısı olması cümləsinə, olsun ki, Quranda rast gəlinmir. Lakin şübhə yoxdur ki, bu fikrin mənbəyi mütləq şəkildə ordan götürülüb. Axı Quran bizlərin tərcüməsini oxuduğumuz kitab deyil?!.. Fironun, İsrail övladlarının, İsa, Musa, Yusif peyğəmbərlərin həyat tarixçələrindən, insan, ər-arvad münasibətlərindən və sairədən bəhs edən, bu gün bəzilərinin dediyi "konstitusiya" deyil. Quranın üst və alt qatları var, yəni görünən və görünməyən

qatları, sufilər demişkən, aşkarı və gizlini var. Alt qatlar, yəni görünməyənlər üst qatdan, yəni görünənlərdən həm kəmiyyət, həm keyfiyyətcə üstündür, göy sirlərli və izah-olunmazlıqlarla doludur. “Duyğular imperiyası”nda Quranın insanın şüuruna yox, ruhuna hopmaq, onun ağlını, şüurunu yox, ruhunu dəyişmək qüdrəti barədə yazmışam. Quranın bütün kitablar kimi əvvəli və sonu olsa da, içi tarixi hekayətlər və ibrətamiz kəlamlarla dolu olsa da, heç bir vəchlə yaddaşlarda saxlanılmaması buna əyani sübutdur. Və bunu mütləq şəkildə bilmək vacibdi ki, Quran insanlığa, tərcüməsində oxuduğumuz hadisə və tarixçələri çatdırmaq üçün yox, ümumbəşəri ruhi durumda daim dəyişikliklər yaratmaq, onu mükəmməlləşdirmək, saflaşdırıb durultmaq məqsədi ilə nazil edilib. Onun canı, ruhu və sehri orda olan ayə və surələri təşkil edən ərəb sözlərindədir. Bu sözlər İlahi enerjinin daşıyıcılarıdır. Gündə-gündə namaz vaxtı deyilən duaların gün ərzində beş dəfə aylar və illərlə dönə-dönə təkrarlanmasının mənası da budur. Sufilər Quranın məhz həmin bu qatından yararlanıblar ki, bu da hər kəsə nəsib olan və elə də asan başa gələn məsələ deyil. Bu barədə haqqında danışdığımız “Səadət iksiri”ndə deyilir ki, əgər insan öz nəfsini bu dünyanın tamah və arzularından təmizləyib, bomboş bir yerdə (yəni adamsız, sakit) əyləşərsə, Allahı cağırıb bütün vücudu və qəlbi ilə Ona yönələrsə, qəlbindəki  bağlı qapı açılar və İlahi səltənətin sirrləri ona agah olar. Sözümü ona gətirirəm ki, Qəzali, eləcə də digər sufilər Ruh haqqında bilgini məhz bu sayaq məqamlarda – zikr adlandırılan Allah anımı məqamlarında əldə edə biliblər. Sufilərə görə insanın qəlbində bir qapı var ki, o, İlahi sirlərə açılır. Bu qapı üç halda açıla bilir: yuxuda, ölümdən sonra və zikr zamanı. Zikr insanı həyatı boyu minlərlə kitab oxuyub, on illərlə təhsil alsa da, çata bilmədiyi həqiqətlərə çatdırmaq qüdrətinə malikdi. Qəzalinin “Səadət iksiri”

əsərində yazdığı ruh haqqında mətləblər də onun zikr məqamları anladıqlarıdı. Kamilliyin sonu olmadığı səbəbindən sufilərin bu vaxta qədər duyub-anladıqlarını Yolun başlanğıcı hesab etmək olar. Beləcə, "Səadət iksiri"ndəki bilgilər də bu barədə bilgilərin Qəzalinin dərəcəsinəcən açılan hissəsidir.

***– "Səadət iksiri" ruh haqqında əsərdir. Amma bir çox mətləblər bədən hissələri (baş, mədə, qol, əl və s.) misalı ilə izah olunur. Məsələn, deyilir ki, bədən dövlətdir, ayaq və əllər fəhlələrdir, bədənin istəkləri vergi müfəttişliyidir, təcavüzkarlıq hər şeyi dağıtmaq istəyən polisdir, ağıl vəzirdir, ruh şahdır və s. Bununla da sanki ruh haqqındakı kosmik düşüncələr bir anda maddiləşir. Əsərdəki bu cür məqamlar sizin də diqqətinizi çəkibmi?***

– Qurani-Kərimdə Hamıdan uca Allahın insanlara belə bir müraciəti var: "Mən sizləri Öz bənzərimdə yaratdım". Mənə görə, "İlahi", "Allah", "Yaradan" dediyimiz – Kainatı əhatə edən ölçüyəgəlməz substansiyadır. Və baxın, zahirən saysız-hesabsız ulduzlar, Ay və Günəş görünən Kainatı onlar, yaxud digər göy cisimləri idarə edirmi? Bu, məlum həqiqətdir ki, bütün o ölçüyəgəlməzlik, o möhtəşəm ulduz kəhkəşanı gizli, görünməz, şüurlu enerji tərəfindən idarə olunur. Əks halda, zahirən Kosmosa pərakəndə halda dağılmış kimi görünən planetlərin hər birinin mütəmadi şəkildə öz marşrutu üzrə hərəkət etməsi, bir-birlərinə münasibətdə xüsusi məsafə və enerji ölçülərini gözləməsi və sair və ilaxır kimi qayda-qanunlar işləməzdi. Burda da belə. Qəzali həmin bu "Səadət iksiri"ndə bədəni ruhun malikanəsi adlandırır. Əgər bədən olmasa, ruh özünü necə ifadə edər? Ruhun hallarını mütləq şəkildə bədən,

yəni üz, gözlər, ovqat, dərinin rəngi və sair ifadə edir. Orda belə bir cümlə var: “İnsan bilməlidi ki, bu bədəni əvvəl-axır ondan alacaqlar, onda o özü qalacaq və “heç nə”yə çevrilməyəcək”. Yəni məhv olmayacaq. Bax, belə məqamlar ədəbiyyata olan marağımı zəiflədir. Olsun ki, bu fikri çatdırmaqdan ötrü yazıçı oturub iri həcmli bir əsər yazacaqdı, süjet quracaq, obrazlar yaradacaqdı ki, son nəticədə bu fikri çatdıra bilsin. Burda isə bütün bədiilik, süjet, üstqurum, altqurum bircə cümlənin içində gedir və insanın ruhunu titrədir. Siz bir fikir verin: “O özü qalacaq...” Deməli, bu görünən o deyil.

***– Qurani-Kərimdə “Əz-Zariyat (Sovurub dağıdan küləklər) surəsinin 55-ci ayəsində belə bir cümlə var: “Mən cinləri və insanları yalnız mənə təzim etmək üçün yaratdım...”. Eyni zamanda, dini kitabımızda, Allahın ehtiyacsız olduğu vurğulanır. Qəzalinin əsərində isə bu cür məsələlər qaranlıq qalır. Bu barədə siz nə düşünürsünüz?***

– Bu da, əlbəttə ki, sirdir və Hamıdan Ucanın ən mübhəm sirlərindəndir. Qəzali bu məqamın yanından ötür. Yəni ona toxunmur. Olsun ki, bu dünyadan köçən məqama qədər ona  bu sirri açmaq dərəcəsi verilməyib. İnsana, hansı dərəcənin daşıyıcısı olmasından asılı olmayaraq, çox-çox sirlər bağlı saxlanılır və bu, bu gün də belədi. Bunun səbəbləri də o sirlərin özü kimi naməlumdu. Hər bir kəs bu sirlər aləminə qəlbindəki o xırdaca qapıdan daxil ola bilir – yalnız ona, yəni özünə açılan sirr qapısından. Orda sonra nə baş verir, bu yalnız Allaha məlumdu. Mənim təsəvvürümə görə bu ayə Allahın bizlərə verdiyi enerjinin dövr etdiyini bildirir. Bu, bumeranqın hərəkətini andıran bir dövriyyədir. Olsun ki, yaratdıqlarının məmnunluğu, Ona

olan sevgisi ümumilikdə Kainatın və Onun mövcudluğunda hansısa zərrəni, ya hərəkəti təmin edir. Onun belə bir kəlamı da var: “Uzun zamanlar Mən gizli xəzinətək yaşadım. Bu dünyanı yaratdım ki, bilinim.“ Görünür ki, O Ona olan sevgidən məmnun olur. Bəzən gözəl mənzərələrdən doluxsunarkən, özümü ibadətdə hiss edirəm. Yəni demək istəyirəm ki, “Mənə təzim etsinlər”i maddiləşmiş təfəkkürlə anlamayaq. Onun bizlərin təziminə olan ehtiyacı biz düşündüyümüz, hesablaşdığımız ehtiyaclardan deyil. Onun, bu mənada, heç kəsə və heç nəyə ehtiyacı yoxdu, sadəcə, O bizləri bu sayaq yaxında duymaq istəyir. Hər halda, mən belə düşünürəm.

***– Əsərdə səadəti tapmağın yolu Allahı axtarmaq mənasında həll olunur. Yəni əslində güclü olmaq üçün insana verilən izahlar və məsləhətlər gəlib bir məqamda – Allahı axtarmaq, ona sarı getmək məqamında faş olur. Bununla da ruh haqqında deyilənlər, sadəcə, insanın ruhunu anlamaq, ruhun xoşbəxt olması üçün Allahı axtarmaq, ötəri canı onun yolunda yorub, əbədi ruhu ona qovuşdurmaq səadətinin sirr qapısı doğru yola açılan yeganə çıxış nöqtəsi kimi göstərilir.***

– Cavan yaşlarında bu dünya insana çəhrayı rəngdə görünür. Kamillik yaşına çatanda isə insan anlayır ki, Səməd Mənsur demişkən, “həpsi rəngdir”. Yəni görüntüdür, fanidir. Elə ki yağışlar yağır və bu əlvan rəngləri yuyub aparır, əsil gerçəklik üzə çıxır. Və məhz onda insan min bir əziyyət-əzabla, nələr və nələr bahasına əldə etdiklərinin son nəticədə “heç nə” olduğunu, qocalıq və ölüm halında kara gəlmədiyini anlayır. Yalnız onda anlayır ki, bu dünyada çalıb-çapıb əldə etdikləri səadət deyilmiş. Əksinə,

onun, yəni ruhunun məhvinə işləyən əzablar dağarcığıymış. Baxın, bu gün gözümüzün qabağında nə qədər insanlar, uzun illərlə ehtiram bəsləyib pərəstiş etdiyimiz alim və ziyalılar nə günə qalıblar?! Onlar sağ ikən öldüklərindən xəbərsiz halda yaşayır və bunun fərqinə belə varmırlar. Rusların bir sözü var: “xoşbəxt olmaq istəyirsənsə, ol”. Yəni bu, sənin öz əlindədi. Bunun üçün özünə maneələr yaratma. Rahat yaşamağın yolu özünü tamah və nəfsin, arzuların burulğanına salmamaq, səadətə qovuşmaq – qəlbindəki gizli qapını tapıb onu açmaqdı.  Xilas insanın öz içindədi.

***– “Səadət iksiri”ndə qeyd edilir ki, sirr qiymətlidir. İnsan da dərk etməyə, yəni sirri, müqəddəsliyi dərk etməyə, açmağa çalışır. Sanki bu mənada daim insanın qəlbi ilə ağlının mübarizəsi gedir. “Səadət iksiri”ni oxuyanda insan bu cür paradokslarla üzləşir və çaş-baş qalır.***

– Əsərdə deyilir ki, ruh şahdır, ağıl vəzir. Şah vəzirdən məsləhət almalı, amma son qərarı özü verməlidir. Bu o deməkdi ki, son qərarı ağıl yox, qəlb, yəni ruh verməlidi. O səbəbdən ki,  ilahi biliyin sahibi odur. Sufilərə görə kitabdan alınan bilik bu dünyada hansısa peşəyə yiyələnmək üçün lazımdır, dünyanın və özünün dərki isə yalnız İlahi biliklə qazanılır. Odu ki, nəhəng kitabxanalar və sanballı mütaliələrlə öyünməyək. Bunlar insana kitab savadı qazandırır, çətin məqamlarda isə, tənhalıq və ölüm ayağında insanın dadına çata bilmir.

***– Son illər dünyanı bürümüş qloballaşma zəminində sufiliyə meyl sanki azalıb. Bu, belədirmi?***

– Bütün dünyanı deyə bilmərəm, Azəprbaycanda sufizm mövzusunda bizim “Xəzər”də gedən sufi mətnlərindən sonra sanki bir canlanma yaranıb. Uzun müddət bizdə sufilik – insanı bu dünyadan çəkindirən, tərki-dünyalığı, dərvişliyi təbliğ edən təhlükə kimi yasaq olunmuşdu. Lakin sufilik heç də bu deyil. Əlbəttə, İlahi sevginin tilsiminə düşüb öz evini, ailəsini atanlar, tənhalığa, səhralara üz tutub Allaha oralarda, tənhalıqda qovuşanlar da olub. Lakin sufilik bunu təbliğ etmir. O, bu dünyanın alçaq girdabından çıxmağın, yəni Xilasın yolunu göstərir; cücüyə, həşərata çevrilməməkdən ötrü insanın nə etməli olduğunun, hansı səmtə üz tutmalı olduğunun sirlərini açır.

***– Əl Qəzali “Səadət iksiri”ndə Qurani-Kərim və Peyğəmbərin kəlamlarından başqa heç bir əsərdən, ədəbiyyatdan sitat gətirmir, istinad eləmir. Bilirik ki, o öz dövrünün böyük alimi olub xeyli sayda əsərlər mütaliə etmişdi, ancaq hiss olunur ki, ruh və bədən haqqında onun dini kitabdan başqa karına heç nə gəlmir.***

– Bəzən deyirdilər ki, Qurani-Kərimi tərcümədən oxuyaq, yəni Azərbaycanca. Məsələn, “Bismillahir rəhmanir rəhim” sözünün əvəzinə deyək; Rəhimli və mərhəmətli Allahın adı ilə. Ancaq məsələ ondadır ki, Qurandakı hər bir söz göydən damla kimi bir-bir tökülüb, onların yerini dəyişsən, o ruh, o sistem itəcək.

***Söhbəti yazdı: Fərid HÜSEYN***

# KİTABIN İÇİNDƏKİLƏR


**XİLAS YOLUNUN YOLÇULARI**

**Ön söz........................................................................................... 5**

**ƏZİZ ƏD-DİN İBN MƏHƏMMƏD NƏSƏFİ**

**Zübdət Əl Həqayiq........................................................................ 7**

**BİRİNCİ HİSSƏ (BAB)**
**BÖYÜK DÜNYANIN DƏRKİ BARƏDƏ........................................................... 8**

**II əsil (mənbə)................................................................................ 21**

**BÖYÜK DÜNYA BARƏDƏ**

**Vahidlik yolu ardıcıllarının dediklərindən.................................... 35**

**İKİNCİ BAB**
**KİÇİK DÜNYA BARƏDƏ**
**I FƏSİL ......................................................................................................... 44**

**İnsan və onun dərəcələri barədə...................................................... 45**
**Mətndə istifadə olunan izaha ehtiyaclı**
**sözlərin şərhi………..........................................……….. 71**

**MƏHƏMMƏD ƏBU HAMİD**
**ƏL-QƏZALİ.................................................................................................. 72**

**Oğluma məktub............................................................................. 76**

**İLAHİ BİLİK**
**(İLMİ LADUNİ).......................................................................................... 106**

**SƏADƏT İKSİRİ**
**(İLMİ LADUNİ).......................................................................................... 132**

**Yanlışlıqlardan qurtaran kitab...................................................... 163**

**Səfsətəçiliyə giriş və biliklərdən imtina............................................. 166**
**Həqiqət axtaranların növləri............................................................. 171**

Kəlamın tədqiqi, onun məqsədi və mahiyyəti.................................... 172
Fəlsəfə........................................................................................ 172
Filosof qisimləri və onların inamsızlıq möhürü
ilə bir olmaları barədə........................................................... 174
Talimit nəzəriyyələri və bunun zərəri............................................. 176
Sufi yolu........................................................................................ 176
Peyğəmbərlik mahiyyəti və bunun bütün
insanlar üçün zərurəti.............................................................. 185
Bu məşğuliyyətlərdən imtina edəndən sonra, elmi
təbliğ etməyimin səbəbi barədə.................................................. 189

HƏDİS-ÜL QÜDS İMAM ƏL-QƏZALİNİN
MOİZƏLƏRİNDƏN ÇIXIŞLAR.................................................... 200

ƏBU HAMİD QƏZALİNİN KƏLAMLARI....................................... 231

İBN ƏL-ƏRƏBİ – QÜDRƏTLİ ŞEYX............................................... 236

ALLAH AXTARANLARA MƏSLƏHƏT

Məkkə açıqlamaları *(əl-fütuhət əl-makiyyə)*................................ 241

RUMİ CƏLALƏDDİN İBN BAHAUDDİN....................................... 252

Kəlamları........................................................................................ 254

HÜSEYN İBN MƏNSUR HƏLLAC

Doğuluşdan sufiliyə qədər uzanan
əfsanəvi həyat yolu.................................................................. 264

MÜQƏDDƏSLƏR VƏ ONLARIN SÖYLƏDİKLƏRİ..................... 277

A.MƏSUDLA MÜSAHİBƏ.............................................................. 308

# XİLAS YOLUNUN YOLÇULARI

**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında
Tərcümə Mərkəzi
Bakı – 2014**

**Bədii tərtibat: Cavid Hətəmov**

**Texniki redaktor: Nəriman Veysəloğlu**

**Kompyuter üzrə səhifələyən: Sevda Nərimanqızı**

**Korrektorlar: Kəmalə Cəfərzadə, Elsevər Muradov**

Çapa imzalanmışdır: 27.10.2014, Formatı: 84x108 $^{1}/_{32}$,
Ofset çapı, Fiziki çap vərəqi: 19,75, Tiraj: 500,
Qiyməti:... AZN

Azərbaycan Tərcümə Mərkəzi
Bakı ş., Ə.Topçubaşov küç. 74,

**"Şərq-Qərb"** ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49
www.eastwest.az   www.fb.com/eastwest.az